# BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

VI





# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ
**(1990-1999)**

**On iki cilddə**

# VI *cild*

Bakı - 2008
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə. Əsərləri.** On iki clddə. VI cild (1990-1999). - Bakı, "Elm" nəşriyyatı, 2008. - 738 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (06) - 2008}$ Qrifli nəşr

© B.Vahabzadə - 2008

# POEZİYANIN ÜSYANI

**Dünyada** canlı-cansız nə meydana gəlirsə, doğulub-törəyirsə bitib-tükənməməsi, qismətinə düşən ömür payını normal yaşaması üçün çarpışmalı, mübarizə aparmalı olur. Çünki təbiətin dəyişməz qanunları var: güclülər zaifləri parçalayıb yeməlidirlər. Birinin ovlanıb ölümə məhkum edilməsi başqasının ömrünün uzanmasına imkan yaradır.

İnsan da tabiətin qoynunda dünyaya göz açır, onun havası, suyu, nemətləri ilə boya-başa çatır. O, doğulduğu andan ətraf mühıtin təsirinə məruz qalır. Problemlər məngənəsinə düşüb sıxılsa da, sabahın açılacağına, günəşin doğacağına inanır. İnsan qoca zamanın axarında cılızlaşıb öz qəniminə də çevrilir. Mütəfəkkirlər bəşər övladını Yer üzünün əşrəfi sanmaqda bəlkə də yanılıblar. Axı, şüurun, ağlın daşıyıcısı heç bir maneə qarşısında haqq yolundan dönməməli, şeytana uyub yalanlarla baş girləməməli, sevgisiz gəzib-dolaşmamalı, heyvan cildinə düçməkdən çəkinməli idi...

Cəmiyyət təbiatdən fərqli olaraq oyunlarını sivil qaydalarla aparır, olaylara müxtəlif prizmalardan baxır. Lakin onun hoqqalarından kənarda qalıb seyrçı kimi yaşamaq mümkün deyil. İstəsən də, istəməsən də meydana girməlisan.

Oyuna calb edilən hər bir insan qələbəyə meyili olduğundan daim mübarizəyə can atır. O, badalaq gəlməyi şeytandan öyrənməsəydi, dünyaya şərxislətlilik toxumları səpilməyəcəkdi. Sirliliklərə, dolayılıqlara ehtiyac duyulmayacaqdı. Cəmiyyət hamıya eyni bucaqdan baxacaqdı...

Təbiətdə hər şey göz qabağındadır, bəllidir, aşkardır. Şir, canavar meydandadırsa - tülkü, çaqqal orada dolaşa bilmaz. Kol dibində gizlənib öz məqamını gözləyər. Cəmiyyətdə isə çox hallarda tülküləşməklə, çaqqallaşmaqla çox irəli getmək mümkündür.

Poeziya insan qolbinin güzgüsüdür. Onu heyvanlaşdırmaqla irəli aparmaq olmaz. Və insan cildini dəyişməyə adat edən andan poeziyanın üsyanı başlayıb.

Güzgü hər şeyi olduğu kimi əks etdirir. Poeziyada da cəmiyyətin iç üzü düzgün göstəriləndə başqa dona girənlər təlatünə gəlib qorxurlar. Kölgəsindən hürkən itin halını yada salın. Doğrudur, poeziyanı hədələmak, həbsxanaya salmaq çətindir. Çünki badii sözə görə dünyanın heç bir ölkəsində ağır caza tədbiri tətbiq edilmir. Lakin onun da üsyanının qarşısını almağın yolları var...

Azarbaycan türk dünyasının əzali parçası olsa da, Qafqazda torpağı yerli sakinlər üçün vətənləşdirən amillar məngənəyə salınıb sıxılır. Ən azı 200 ilə yaxındır ki, ulu bir xalqın tarixi danılır, dili əlindan alınır, yurd yerləri parça-parça yadlara paylaşdırılır.

Dil ölübşə, poeziya doğula bilməz və dilini itirən xalqin öz varlığını qoruyub saxlamağa qüdrəti çatmaz. Bəxtiyar Vahabzadə poeziyasının ilk üsyanı məhz ana dilina qəsd edilməsinə qarşı olub. Sonra onun üsyanlarının ardı-arası kəsilməyib.

Adi həqiqətdir, Türkün övladlarının şayi artdıqca, gücü də tükənməz hala gəlməli idi. Lakin yadların təsirina düşüb qardaş qardaşın ağrı-acısına şərik çıxmırsa, hansı tükənməzlikdən danışmaq olar? Bu manada hamı şairin narahatlığına qoşulmalı idi. Çünki:

*Nə özbak, nə qırğız, nə qaraqalpaq,*
*Nə tatar, nə türkmən, nə türk, nə qaxaq -*
*Bunlar bir ananın oğullarıykən*
*Qardaşın dərdinə susurlar nədən?*

Nədənsə, hər yerdə bəşər oğluna türklüyünu dandırmağa can atırlar. Bəlkə də Türkün ötən minillikdə dünyanı dəfə1ərlə imana çağırması, hamnı bir bayraq altında birləşdirmək təşəbbüsləri, Mətə, Çingizxan, Batıxan, Atilla, Sultan, Toğrul, Osman Qazi, Babur, Cahanşah, Sultan Mehmed Fateh, Teymur Ləng, Şah İsmayıl, Uzun Həsən, Təhmasib şah,Nadir şah, Qacar kimi fatehlər yetişdirməsi vəlvələyə salır? Qardaşın faciasinə acımamaq əslində ana südünə xayanət etmakdir. Axı, necə sarsılmayasan, eyni kökə malik xalqlar yumruq kimi birləşib qara qüvvələrə qarşı vuruşmaq əvəzinə yadların şirin vədlərinə uyub doğmalarına arxa çevirirlər. Dünya qocalıb, yoxsa onun sakinlari bicləşiblər?

*Ey mənim dərdimə biganə qardaş,*
*Sənə uzatdığım qardaş əliydi.*
*Mənim ayağıma dəyən çırtma, duş,*
*Sanin ürayini göynəltməliydi.*

*Amma göynəlmədi...*
*inandın yenə*
*Mənim duşmənimin şirin dilinə.*
*Sən yadı tutdun.*

Bir mötəbər görüşdə B.Vahabzadənin nə qədər haqlı olduğunu bir daha anladım. Ötən ilin payızında Türkiyənin Kocaeli Universitetində keçirilən uluslararası simpoziumda Los-Ancelesdən gəlmiş gənc amerikalı xanım bizlərə (türk, azərbaycanlı, türkmən, özbək, tatar, krım tatar, qaqauz. Kipr türklərinə) üzünü tutub yarı zarafat, yarı ciddiliklə demişdi:

*"Sizin ağlınız yoxdur!"*

*"Niyə axı?"* — deyə ondan açıqlama tələb edəndə bildirmişdi:

*"Bayaqdan fikir verirəm, bir-birinizə bu qədər bənzərliyiniz ola ola birləşə bilmirsiniz. Ağlınızı işə salsanız, Yer kürəsinə hegemonluq edərsiniz. Az gala Dünyanın yarısı – gözəl, münbit və bərəkətli torpaqları türk dilli xalqlara məxsusdur. Əl-ələ versəniz, sizlərə batan qüvvə tapılmaz. Axı, erməni kimdir ki, qabağında aciz qalmısınız, gülünc deyilmi? "*

Xanım haqlı olduğundan susduq. Əslində hələ 90-cı ildə Bəxtiyar Vahabzadəni də sarsıdan bu məsələ idi.

* * *

**Şeir necə yaranır və hansı formada üsyan qaldırır?** İstedadla yanaşı bilik. təcrübə, iş dünyasının genişliyi, mənəvi aləmin saflığı şeirin meydana gəlməsinə müsbət təsir göstərən amillərdir. Poeziyanın mövzu dairəsi genişləndikcə, forma əlamətləri də zənginləşir. Doğrudur, söz sənətkarının təzə yazmağa başlayanda qələmindən çıxan mis-

ralarda sərrastlıq, məna tutumu yetkinlik çağlarında yaranan əsərlərdən tamamilə fərqlidir. Başqa sözlə, risk, cəsarət sarıdan korluq çəməsə də, poetik deyim hələ yonulmamış, biçimlənməmiş şəkildə səslənir, ahəng, pafos üzdə göründüyündən misraların məna tutumunun çəkisi az olur. Lakin insan xisləti ilə ilahi aləmə baglandığından, ruhunun mayasını kənardan aldığından bəzən böyük əsərlər yazması üçün qazanılan bilik, təcrübə belə köməyə çatmłr. Əsil şeirin meydana gəlməsində daha çox fövqəltəbiilikdən gələn amillər rol oynayır.

Ümumiyyətlə, yaradıclıq prosesi olduqca mürəkkəbdir və sirlərlə doludur. Qəribədir ki, bəşər oglunun düşüncəsinin məhsuli kimi ortaya çıxıb yaradıclıqla əlaqələnən bütün nəhəng elmi kəşflərin mənbəyində ən adi təsadüflər durur və ilahi aləmdən keçdiyinə şübhə yeri qalmłr. Nyutonun başına agacdan alma düşməsəydi, Yerin cazibə qüvvəsinə malikliyi aşkarlanardımı? Beləcə sanki bütün həqiqətlər insanlara kənardan diqtə edilərək göstərilir.

Poeziyanın yaranmasının da mühüm elmi kəşflərə bənzərliyi var. Şair yaşantılarındakl hadisələrdən təsirlənib duygu və düşüncələrini şeirlə ifadə etməyo çalışır. Cox hallarda duşunub yazmaq istədiklərinin əvəzinə tamamilə başqa misraları kagıza köçürür. O özünü zorlayıb zamanın tələbinə uygun beytlər, məddahlıqla yogurulmuş bəndlər diizub qoşmaga qadir olsa da, aglının deyil, ürəyinin hökmü ilə hərəkət edir, dünyanı görmək istənilən şəkildə yox, gôründüyü kimi göstərir.

*Yaradanım - sahibim,*
*O, kamandır, mən oxam.*
*Atır məni yüz yerə,*
*Sahibim var, mən yoxam.*
*Bu yoxluqda mən nəyəm?*
*Quruca bir kölgəyəm.*
*Kölgə gəzər. dolanar.*
*Yer ustündə izi yox.*
*Dünyada hər kölgənin*
*Sahibi var, özü yox.*

Şair 1990-cı ilin faciəli başlanğıcından sonra bu qanaətə gəlmişdi. Yer üzünə bir ox kimi atılmışları idarə edənlər mövcuddur, insanların özlari İsə quruca kölgədən başqa bir şey deyildir. İllər bir kölgənin mütləq şəkildə sahibi var, ancaq düşdüyü yerdə iz açmaq qüdrətindən məhrumdur. Sahibi çəkilib gedən anda kölgə də yoxa çıxır. O çağlaradək sovet quruluşu insanları kölgələşdirməyi bacarmışdı.

Yanvarın 19-undan 20-sinə keçən gecə kölgə kimi qalmaq istəməyənlər əliyalın tankların qabağında dayandılar. Öz xalqına xəyanət edən kommunist iqtidarı qan tökməklə kütlələri köləlikdə saxlamağa can atdı. Bəxtiyar Vahabzadə poeziyasının "Gülüstan" üsyanı yurddaşlarını azğın düşmənə qarşı canlı barikadalar qurmağa ruhlandırmışdı. İnsan dalğaları poeziyanın üsyanına qoşulmuşdu.

Bəxtiyar Vahabzadə sözün qüdrətinə sığınmaqla hamını qəflət yuxusundan oyadacağına inandığından bağırmaq istəyirdi:

*Ehey!.. Göz yaşında islandı dünya,*
*Ozünü nə tapdı, nə dandı dünya.*
*Haqqa tapınanın haqqı yeyildi,*
*Haqqı tapdayana «kişi» deyildi.*

O, pərdələnmiş həqiqəti, reallığı bədii sozün gücü ilə məzlum bəndələrə çatdırmaqla kifayətlənmir, əsil mərəzdən yaxa qurtarmağın yolunu da göstarirdi:

*Biz qorxunu öldürməsək, dirilmərik.*
*Haqqımızı borc bilərik, haqq bilmərik.*

Həbsxanalarda, soyuq, üfunətli zindanlarda çürüyənlər 30-cu illər represiyasından sonra üzün müddət qorxunu öldurə bilmədilər. Yalnız 90-cı ilin qanlı yanvar gecəsi bu hissin (yəni qorxunun) əsarətindən tamam qurtardılar. Şair Qorqudlar, Babəklar, Nəsimilər, Xatayilər, Koroğlular yetişdiran ulu xalqın böyüklərini ittiham etməklə onların öz köklərinə qayıtmalarını, yadlara deyil, soydaşlarına arxalanmalarını arzulayırdı:

*Ey xalqımın böyükləri,*
*Böyük olun, kiçilməyin.*
*Əyilməyi hörmət uçün yol bilməyin.*
*Siz millətə söykənsəniz,*
*Arxanızda millət durar.*
*Qorxunuzdan əyilsəniz,*
*Qarşınızda daha böyük zillət durar.*

Əqidəsini dəyişənlərin, dinini dananların böyüklük ədası ilə yaşasalar da, xalqın önündə iraliləmələrinin baş tutmasına ümidlər günü-gündan azaldıqca poeziyanın üsyanı radikallaşır. Kütlələrin müflisləşməsi, torpaqların itirilməsi, köləliyin, yaltaqlığın, ikiüzlüyün artması hesabına sərvət toplayanlar ulu Tanrıya bel bağlamağı da soydaşlarına çox görürdülər, rəzilliyin haddi-hüdudu bilinmirdi. Bəxtiyar poeziyası acı haqiqətləri açıq-aşkar söyləməklə anlatmağa çalışırdı ki:

*İnsaf yarısıdır – dedilər, - dinin.*
*İnsafa tüpürüb dandıq dini də.*
*Ağzına daş başıb «Allah» - deyənin,*
*Böldük neçə yerə aqidəni də.*

Az qala vətəndaş müharibəsini yurdun tarixinə yazacaqdı 1991-ci il. Ölkədə hərc-mərcliyin baş alıb getməsi, hər kənddə, şəhərdə bəyxudaların meydana gəlməsi, düşmənə yönələsi silahların millətin sinəsinə tuşlanması, üstündə gəzdikləri torpaqların yadlara satılması əslində ulu bir xalqın sivil dünyadan uzaqlaşdırılması demək idi.

Siyasətbazların əlində oyuncağa çevrilən Vətənin adı Yer üzündən tamam silinmək ərəfəsində idi. Haqqın dəyirma-nındakı əməlləri üyüdən das oğurlanmış, axar suyun agzı başqa səmtə yönəldilmişdi.

Başbilənlərimizim maymaqllğından əzilən də, səhid verən də, yurdundan-yuvasından didərgin salınan da Azərbaycan türkləri idilər, dünyaya qəddar, vəhşi, zülmkar, ipə-sapa yatmayan, ancaq özünü sevən

xalq kimi tanıtdırılanlar da.

*Özümüz yanırıq öz dərdimizə,*
*Dünyanın qulağı kar olmuş bizə.*
*Bizim haqqımızı boğur siyasət,*
*Haqqı sübut edən sahidimiz yox.*
*Sıfira dönübdür başsız bu millət,*
*Sıfırlar önündə vahidimiz yox!*

Əsil lider yetişdirməyi bacarmayan millət həmisə acı çəkir, nə qədər cəsarətli, döyüşkən olsa da, içindən parçalanıb pərən-pərən düşür. Satqınları, əliəyiləri basa çıxaran xalqın da qədərinə bitib-tükənmək, torpağa gömülmək yazlllb.

Azərbaycanı maymaqların əlinə verməklə tapdağa çevirdilər və Qafqaz türklərinin mənliyini qara torpağa basdırdılar. Xalq məzar daşlarını torpağa sancmaq vərdişindən yaxa qurtara bilmirdiki - bilmirdi. Çünki:

*Bərəkət tumu tək dörd ildən bəri*
*Əkirik torpağa biz şəhidləri.*
*Yenicə qazılmış hər açıq qəbir*
*Hər gün cəbhələrdən ölü gözləyir.*

*Bəlkə dəfn olunan heç meyit deyil,*
*Zaman diri-diri dəfn edir bizi.*
*Hazır məzarlarda biz şəhid deyil,*
*Bəlkə dəfn edirik mənliyimizi?!*

Allahın ən müti varlığı qoyundur. Sanki o hər şeyə boyun əymək, itaət etmək üçün yaradılıb. Otunu dartıb ağzından al, qımışmaz, ətini kəs, cınqırını çıxarmaz. Qurd qoyun sürüsünə girib bir-bir hamısını parçalasın, o birilərinin eyninə olmaz. Dünyada güclü-gücsüz elə bir məxluq yoxdıır ki, nəslinin qanını tökənə qarşı biganə qalsın. Təkcə qoyun gözlərini barəldib soyuqqanlıqla balasının parçalanmasına tamaşa

edacək və ölümdən bir anlığa da olsa, qaçıb qurtarmağı özünə yaraşdırmayacaq, yerində donaraq son anını gözləyəcək.

Nədənsə, əsrlər boyu torpaqlarımıza göz dikib parçalamaq istayən Rusiya və İran imperiyalarının nəzərində “baran” ‘’xər”. yəni qoyun olmuşuq. Hətta müasir rus siyasatbazlarından biri bizi belə adlandırmalarının səbəbini istehza ilə qoyun ətini çox yeməyimizlə əlaqələndirib. Bu, əslində siyasi əxlaqsızlıqdır. Maraqları üst-üstə düşəndə qardaşlaşan qonşularımız unudurlar ki, qoyunun qoçu da var. Və Bəxtiyar Vahabzadənin qənaətinə görə, əsarət altına alınıb haqqı tapdalananlar kölə halları ilə barışarlarsa, yerləri ancaq qabirdir:

*Mütilik millətləri dəfn edir diri-diri...*

El-obanın mənəvi dəyərləri təhqir ediləndə də B.Vahabzadə poeziyasının üsyanı son həddə çatır və heyvanlaşanların qabağında qul halına gətirilən milləti silkələyib qəflət yuxusundan oyatmağa, gen yaddaşının buzunu əridib ulu əcdadlarının şücaətlərini xatırlatmaqla bütövlüyünü düşmənlərinə sübut etməyə çağırır:

*Qalx ayağa,*
*Diz qatlamaq yaraşarmı*
*Bilgə xanın nəvəsinə?*
*Tülkülərin qabağından qaçmağını*
*Axı, sənə bağışlamaz qurd babamız.*

**Yalanı torpağa gömürüb kol bitirənlər dünyanın ən böyük günahını işlədirlar.** Bəxtiyar Vahabzadə poeziyasının üsyanlarından biri də yalana qarşıdır. Şair yurdunun qanıı-qadalı və ağrılı günlərindən sonrakı onillikdə müstəqilliyə keçid çağlarında yaratdığı şeir və poemalarında hamını dürüst olmağa səsləyir. “Yalan ayaq tutar yeriməz” - deyib atalarımız. B.Vahabzada görürdü ki, şeytana papış tikənlər yalanı yeritməkdə tamam ustalaşıblar. Düzlüyü buxovlamaqla yalanın meydanını genişləndirmək millətin haqqını yemək idi.

*Yalan meydan sulayırkən*
*Mən bütövün kəsiriyəm.*
*Qolu bağlı həqiqətin*
*Bu əsirdə əsiriyəm.*

Şair anlatmağa çalışırdı ki, yalana boyun əyən xalq azadlığını itirə bilər və o, əsarətin özündə də gözəllik tapmağı bacarırdı. Bu, haqqa sığınıb bütün ruhunu, canını həqiqətə təslim etmək – həqiqətin əsirinə çevrilməyi bacarmaqdır.

*Əldən getdi azadlığım*
*Yalanlara mən dözəli.*
*Həqiqətə əşir olmaq*
*Əsarətin ən gözəli!*

Firavan yaşamaları üçün dünyanı yalanlaşdırmağa hazır olanlara Vətən də, torpaq da, məhəbbət də puldur, sərvətdir. Təki var-dövləti başından aşıb-daşsın, yurdun əldən getməsi niyə dərd olur axı? Avropada, Amerikada da kefi kök, damağı çağ və daha sağlam yaşamaq mümkündür.

*Torpaq əldan getdi, ölkə talandı.*
*Sənin nə vecinə, günün ağ olsun.*
*Səninçün dünyada hər şey yalandı*
*Təki damağın çağ, canın sağ olsun.*

Yalan üzərində qurulan taxt-tac, tikilən imarət gec-tez sahibinin başına uçur. insan əməllərini öz gözləri ilə deyil, başqasının gözləri ilə dəyərləndirsə, haqq yoluna qayıdar, bir daha yalanlara uymaz.

B.Vahabzadə poeziyasının dili ila deşək:

*Öz fikrini doğru bilib,*
*«Yalan» dedin özgasinin düzünı sən.*

*Başqasını anlamaqçün*
*Başqasının gözlərilə*
*Baxammadın özün sən.*

Xəmiri yalanla yoğurulan işin səmərəsini ancaq şərxislətlilər, şeytana uyanlar görürlər. Bu halda haqqa tapınanların qismətinə şəhidlik, səfalət, qaçqınlıq, yurdsuzluq düşür. Həqiqəti gizlətməklə baş girləyənlər ciblərində daim yalan toxumları gəzdirirlər ki, işıq düşən hər yerə sapa bilsinlər.

*Yalanı torpağa gömsən, kol bitər,*
*Biz necə varıqsa, bizə o yetər.*

Bəxtiyar poeziyası XX əsrin 50-ci illorinin sonundan başlayaraq usyan edirdi. Onun yaradıcılığının 90-cı illər dövrü daha təlatünlü, çılğın və döyüş ruhludur. Ümumiyyətlə, üsyankar şairin bu illərdə yazdığı əsərlər arasında ictimai-siyasi ruhlu, müdriklik ziıvəsinə ucalan, İnsan, Həyat, Zaman haqqında fəlsəfi düşüncələrini əks etdirən şeirlar üstünlük təşkil edirdi.

* * *

***Poeziyasevərlər bu cilddə B.Vahabzadənin hələ 1959-cu ildə yazdığı məşhur "Gülüstan" poemasının 2-ci hissəsini - "İstiqlal" (1999) poemasını və milli istiqlal mücadiləsi ədəbiyyatımızın zirvəsi sayılan "Şəhidlər" (1990) poemasını da oxuya biləcəklər.***

**Ramazan Qafarlı**



# ƏLVAN ÇİÇƏKLƏR

*Özümüz yanırıq öz dərdimizə,*
*Dünyanın qulağı kar olmuş bizə.*
*Bizim haqqımızı boğur siyasət,*
*Haqqı sübut edən şahidimiz yox.*



## M.Ə.RƏSULZADƏNİN XATİRƏSİNƏ

*Heykəl var–məzara gömülsün gərək,*
*Məzar var – heykəli ucalmalıydı.*
**N. Həsənzadə**

Bu torpağın özü boyda
Bu torpağa məhəbbətlə doluydun.
Bu torpağın yolunda da
Sən öz canını qoydun.
Borclu ikən Vətən sənə, xalq sənə
Hər şey döndü tərsinə.
Bu torpaqdan verəmmədik
Bir məzarlıq yer sənə.

Zamana bax! Bu torpağı
Bir «sağ ol»a satana,
Xəyanətin kölgəsində
rahat-rahat yatana,
Bu millәti ölümlərlə
imtahana çəkənə,
Məmləkəti başdan-başa
talayana, sökənə
Heykəllər ucaltmışıq.
Özümüzü bəyənməyib
«Beynəlmiləl» laylasına yatmışıq.
Yatdığımız bəs etməzmi?
Ayılaq bir, görək bir
Xeyir nədir, şər nədir?

Riyalara, boyalara
yetmiş ildir uymuşuq.
Görün, kimin əvəzinə
kimə heykəl qoymuşuq.
Ancaq ana təbiətdə
Bir əzəli qayda var:
Bünövrəsi eşq olmayan
tunc olsa da tez uçar.
Heykəl – məzar!
Biri - zora söykənibdir
Biri – haqqa, şərəfə!
Davamlıdır
qəlbimizə köçüb gələn o məzar.
Postamenti nifrət olan
yüz heykəldən yüz dəfə!

*May 1990*

* * *

Yaradanım – sahibim,
O, kamandır mən oxam.
Atır məni yüz yerə
Sahibim var, mən yoxam.

Bu yoxluqda mən nəyəm?
Quruca bir kölgəyəm.
Kölgə gəzər, dolanar,
Yer üstündə izi yox.
Dünyada hər kölgənin
Sahibi var, özü yox.

*1990*

## SİZ BÖYÜYÜN,
## EY BÖYÜKLƏR

Qorxu adlı bir iblis var içimizdə,
Cəsarəti əzər, boğar içimizdə.
Kif atmışıq
Qorxumuzun şaxtasında dona-dona.
Qorxu dönüb əməllərin kompasına.
Biz qorxunu öldürməsək, dirilmərik.
Haqqımızı borc bilərik, haqq bilmərik.
Mən qorxuram böyüyümdən,
Böyüyüm öz böyüyündən.
Biz bir zəncir düzəltmişik
Halqavari bu düyündən.
Qorxumuzdan ona bəli, buna bəli,
İlkə bəli, sona bəli,
Həyə bəli, yoxa bəli,
Aza bəli, çoxa bəli
Deyə – deyə
qütblərin arasında biz itmişik.
Bəlilərin girdabında
özümüzü əritmişik.
Yetmiş ildir içimizdə
Qorxu yatır kabus kimi.
Bu qorxunun ələyində
Ələnmişik biz toz kimi.
Ələndikcə xırdalandıq, lap kiçildik.
Köləliyi özümüzə qoruq bildik.
Böyüklərin qabağında

hey süründük dizin-dizin.
Elə bildik köləliklə
Hörmətini qazanırıq
Mərkəzdəki böyüklərin.
Biz bilmədik əyildikcə
«hələ azdır» deyəcəklər.
Daha artıq əyəcəklər.
Ağa bizi qul sayacaq.
Köləlikdə hörmətimiz olmayacaq.
Qəddimizi əyə-əyə
Biz bilmədik, hörmət olmur köləliyə,
Hörmət olur ağalığa.
Köləliklə qula döndük
Ağalıqdan çıxa-çıxa.

Ey xalqımın böyükləri,
Böyük olun, kiçilməyin.
Əyilməyi hörmət üçün yol bilməyin.
Siz millətə söykənsəniz
Arxanızda millət durar.
Qorxunuzdan əyilsəniz,
Qarşınızda daha böyük zillət durar.
Millət ilə siz birsiniz.
Qorxunuzdan əyiləndə
Milləti də əyirsiniz.
Əyilməyin, siz ucalın.
Xalqımızın ürəyinə
Məhəbbətdən körpü salın!
Siz böyüyüb ucaldıqca
Ağanız da qarşınızda kiçiləcək.
Sizi yenməz dağ biləcək.

Dünən deyil, artıq bu gün
Arxasında millət duran bir böyüyün
Vallah, özü böyük olur.
Özgəsinin qabağında
nə əyilir, nə bükülür.
Budur sizin haqq yolunuz, budur bu gün.
Siz ucalın, böyüyün ki,
xalq da sizlə bir böyüsün!

*İyun 1990*

## İMAN TƏMƏLİ

Ehey!.. Göz yaşında islandı dünya,
Özünü nə tapdı, nə dandı dünya.
Haqqa tapınanın haqqı yeyildi,
Haqqı tapdayana «kişi» deyildi.

Məqsədə çevrildi gödən saxlamaq,
Ruhani duyğudan qəlb azad oldu.
Görünən dünyanı biz gördük, ancaq
Görünməz dünyalar bizə yad oldu.

Əzilən alçaqda, əzən qəlbidə,
Haqqın boğazında zorun qəməsi.
Göynədə bilmədi bircə qəlbi də
Yüz haqqın zindanda inildəməsi.
Vicdanın dilini kəsdiyimizdən
Qaçır haqq da bizdən, Allah da bizdən.

Ehey!.. Göz yaşında islandı dünya,
Ah çəkdi, dad çəkdi əməlimizdən.
Mərhəmət istədi bizdən bu dünya,
Biz onu vermədik, o küsdü bizdən.

Haqqın tərəzisi əyilmiş yaman,
Ağırla yüngülü qarışdırmışıq.
Dərbədər salındı könüldən iman,
Kəndalaşla gülü qarışdırmışıq,
Arzuyla imkanı qarışdırmışıq,

Qərəzlə vicdanı qarışdırmışıq.
Məzarı üstündə rəhmin, vicdanın
Saray yox, qibləsiz daxma qurmuşuq.
Onun da içində tərs oturmuşuq.
Tərəqqi naminə çalışırıq biz,
Burdan qurduğumuz, ordan uçulur.
Unutduq həmişə, tərəqqi yalnız
İman təməlində bərqərar olur.
Bilmirik yol nədir, özümüz nəyik?
Tərəqqi naminə tənəzzüldəyik.

Ayıra bilmədik çürükdən safı,
Min rəngli günahlar aşdı həddini.
Nəfsə qurban verib rəhmi, insafı,
Dağıtdıq əxlaqın son sərhəddini.
Bilmədik tamahın min bəlası var,
Tamah girən evdən səadət qaçar.

İnsaf yarısıdır – dedilər, dinin.
İnsafa tüpürüb dandıq dini də.
Ağzına daş basıb «Allah» -deyənin
Böldük neçə yerə əqidəni də.
Nə ondan olmuşuq indi, nə bundan,
Nə dinimiz bəlli, nə əqidəmiz.
Çıxa da bilmirik köhnə oyundan,
Neyləyək, köhnənin əsiriyik biz.

Çirkabın içində çalxanır Xəzər,
Bizdən yer narazı, göy narazıdır.

Daşqınlar, uçqunlar, bu zəlzələlər
Dünyanın insana etirazıdır.
Ehey!.. Göz yaşında islandı dünya,
Ah çəkdi, dad çəkdi əməlimizdən.
Mərhəmət istədi bizdən bu dünya,
Biz onu vermədik, o küsdü bizdən.

*İyul 1991, Şəki*

## ŞƏR – ŞEYTANA,
## XEYİR – ALLAHA

*«Ax, unudulmuş vətən, ax, yazıq vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar... Bəs sən hardasan, ay biçarə vətən?»*

**Cəlil Məmmədquluzadə, 1917-ci il**

Dünya çalxalandı, aləm dəyişdi,
Biz düşə bilmirik vərdişimizdən.
Paxır üzə dururb misi də deşdi,
Biz pərdə asırıq hələ də gözdən.

Dözdük yetmiş bir il hər iztiraba,
«Atılan toplara heç diksinmədik».
Əsr dindirsə də, a Sabir baba,
Biz onun səsinə susduq, dinmədik.

Neçə yol anladıq… Bəs deyil?
    Yenə
Başqa cür bağlanır biləklərimiz.
Bizi aldadanın boş-boş vədinə
Uyub qoltuğuna sığınırıq biz.

Dünya çalxalandı, zaman dəyişdi,
Yenə köhnə dəbdə, köhnə dondayıq.
Gecikdik… Arzunun məqamı keçdi,
Biz hələ qapının arxasındayıq.

Bəs haçan açılar kor düşən düyün?
Dedik…
Açılmadı bağlı qapılar.
Bir zaman dedim ki,
Sizi də bir gün,
Vurub təpiyilə açan tapılar*.

Biz aça bilmədik,
bizim üçün də
Otuz doqquzunu açan tapıldı.
Xeyirə daldayıq, zərərə öndə,
Bizi kor cəhalət bu günə saldı.

Əriyir astaca ətalət buzu,
Millətlər haqqını dərk edir artıq.
Açılıb qapının otuz doqquzu,
Qırxıncı qapının kandarındayıq.

Hələ tilsimdədir bizim gözəllər,
«Sim-sim» deyə bilmir hələ də dillər.
Hələ nalələrin, ah –amanların
Qisas arzusuyla zülüm tən gəlir.
Hələlik xilaskar qəhrəmanların
Nərəsi quyunun dibindən gəlir.
Hələ meydan sürür küpəgirənlər –
Zülmə, cəhalətə baş endirənlər.

İqtidar sahibi – buyruq qulları,
Tilsimi sınmağa hələ ki, qoymur.

*1960-cı ildə yazdığım, tənqidə məruz qalan "Meşin qarılar" şeirimə işarədir.

Kəsib aydınlığa gedən yolları,
Tərsinə dönməyə fələyi qoymur.
Dəryalar çalxandı, sular bulandı,
Biz balıq tuturuq bulanıq sudan.
Açıq qapıları o kəs ki, dandı,
Necə girə bilər bağlı qapıdan?

Qonşuda səslənən azad ünlərin
Əksi bizim elə heç gələmmədi.
Bəs nə vaxt gələcək bizim günlərin
Ağ atlı igidi, Məlik Məmmədi?
Ha bağır: «Aç görək qapını, Sim-Sim»,
Açılmaz şeytanın qurduğu tilsim.

Gözə kül üfürən qırmızı şeytan,
Köksündə xış sürür hələ gerçəyin.
Quşların dilini bilən Süleyman,
Şeytanın dilini bilmirmiş, yəqin.

Divlər həm hiyləgər, həm də məkirli,
Xeyirlə döş-döşə durub döyüşməz.
Qırxıncı qapının kilidi sirli,
Onun tilsiminə hər açar düşməz.

Xeyirin önündə tilsimlər sınar,
İtirər sehrini, tapmaz bir daha.
Dünyada əzəli bir gerçək də var:
Şeytan – şərə möhtac, xeyir – Allaha!

*Avqust 1991, Şəki*

## HƏM OĞUL,
## HƏM ATA

Hamı adilikdən qalxıb ucalmaq,
Hamı bu millətə ağsaqqal olmaq,
Hamı bu ölkəyə gətirmək deyil,
Hamı istəyini almaq istəyir.
Fərmanı yerinə yetirmək deyil,
Ölkəyə fərmanlar vermək istəyir.
«Məndən ağıllısı tapılmaz» - deyir.

Masa hərisləri nə yaman çoxdur,
Hanı bu Vətəni düşünən ürək?
Millətin adından danışan çoxdur,
Millətin dərdinə alışan gərək.
Görünmür bu yolda nə əvvəl, nə son.
Gün kimi bəllidir: səkkiz milyonun
Dərdini köksündə yaşatmayan kəs
Bu boyda millətə baş ola bilməz.

Özümüz yanırıq öz dərdimizə,
Dünyanın qulağı kar olmuş bizə.
Bizim haqqımızı boğur siyasət,
Haqqı sübut edən şahidimiz yox.
Sıfıra dönübdür başsız bu millət,
Sıfırlar önündə vahidimiz yox!

Kimisə yendirən, kimisə yenən,
Ürəyi piylənən, beyni piylənən,

Vicdanı piylənən yekəqarınlar
Dərdini nə bilsin bu ac millətin,
Adicə insafa möhtac millətin.
Xalq üçün yananlar qapı dalında,
Xalqı talayanlar cah-cəlalında.
Halımız, günümüz çətin, çox çətin!
Nəyi gözləyirik? Bütün millətin
Ürəyi nəbzində döyünən kəsi,
Özüylə, dostuyla, tayfasıyla yox,
Böyük millətiylə öyünən kəsi
Tanıyan var isə göstərsin bizə,
Gəlsin rəhbər olsun millətimizə.

Millət Qarabağda qırılan zaman
Oğlunun toyunda çalıb-oynayan
Adamdan millətə baş ola bilməz,
Bu xalqın özündən ağır yükünü
Çəkən arabaya qoşula bilməz.
Xalqın yanğısına alovlanmayan,
Cəbhədə can verən şəhid əsgəri
Özünə doğmaca övlad sanmayan
Necə ola bilər xalqın rəhbəri?
Bu Vətən mənimdir, bu Vətən sənin
Səngərdə əsgərə dəyən güllənin
Ağrısı qəlbində göynəməyən kəs
Bu boyda millətə baş ola bilməz.

Millətçün yananı göstərin mənə,
İnanım mən onun böyüklüyünə.
Elə bil ilişib zaman zamanda
Nə ilə bitəcək bu dərdin sonu?

Şuşada, Şellidə, Kərkicahanda
Atılan topların gurultusunu
Bakıda evində eşitməyən kəs
Vallah, bu millətə baş ola bilməz.

*Aprel 1992*

* * *

Yel əsdi, tərpəndi, dindi məmləkət,
Kompassız gəmidir indi məmləkət,
Hara getdiyini özü də bilmir.
Lövbər ilişmişdi, zaman açsa da,
Bir addım irəli o gedə bilmir.
Sükançı göstərin indi siz mənə,
Gəlsin, dalğaları o, yara bilsin,
Verib sinəsini ləpədöyənə
Gəmini irəli apara bilsin.
Bir oğul göstərin indi siz mənə
Millətə həm ata, həm oğul olsun.
Çox gördük xalqını qul edənləri,
Eləsi gəlsin ki, xalqa qul olsun.
Elə bir namizəd göstərin mənə
Dolanım başına, dönüm gözünə.

*Aprel 1992*

## CƏLLAD YAZOV

Şəhər bir gecədə qana bələndi,
Kimsədən ummadım bu dərdə imdad.
Marşal rütbəsiylə hədiyyələndi
Mənim millətimi qıran o cəllad.

Gürcü də, latış da, rus da dalbadal
Onun gülləsinə bir hədəf oldu.
Azadlıq düşməni – o qanlı marşal
Axır öz tökdüyü qanda boğuldu.

Nahaq qan –xalqların sinə dağları
Cəlladın üstünə hücuma keçdi.
Çıxdı qaşığına doğradıqları,
O, ölüm əkmişdi, ölüm də biçdi.

*Avqust 1991*

## YENİLƏŞMİŞ İTTİFAQ

Bilək, «yeniləşmiş ittifaq» nədir?
Bu da başqa tələ, başqa hiylədir.
Nədir yeniləşmək?
Vaxtın, zamanın
Kor gözün üstünə təzə sürməsi,
Görən gözlərəsə kül üfürməsi.
Yalanın havada özül qurması,
Bunu görənlərə qulaqburması.
Kiminə doyunca, bizə bir qırıq,
Latışın, estonun haqqı – azadlıq.
Bizim haqqımızsa haqsız bir qulun
Yenə də qulluğa səcdə qılması.
O köhnə, o çürük boyunduruğun
Bir qədər, azacıq boşaldılması.
Hər millət aldığı haqqına layiq,
Onlar ona layiq, biz buna "layiq".

*İyul 1991*

## VƏTƏN MƏCNUNLUĞU

*Vətən Məcnunu şair Xəlil Rzanın Vətən yolunda şəhid olmuş oğlu Təbrizin əziz xatirəsinə*

Xəlil, mən nə deyim sənə bu gündə,
Tale qıymayaydı bu dərdə səni.
Dağ kimi dayandın dərdin önündə,
Sındıra bilmədi bu dərd də səni.

Dərdi, müsibəti üzdə çəkənin
Dərdi, müsibəti zahirindədir.
Sən içdən çəkirsən…
                görürəm, sənin
Bu çəkilməz dərdin çox dərindədir.

Vətənin yolunda kimi qan ağlar,
Kimi də can verər…
                Sənsə sən oldun.
Vətənçin pulundan keçməyənlər var,
Doğmaca balandan sən keçən oldun.

Dözümün, mərdliyin qəmi də dandı,
Dondu, çıxammadı dərd iliyindən.
Kədər qorxub qaçdı, qəm də utandı,
Sənin mərdliyindən, kişiliyindən.

Kimi sözlə yaşar, kimi əməllə,
Sən qulu olmusan öz əqidənin.

Təbrizin düşmənə atdığı güllə
Aldı barıtını şerindən sənin.
Haqlısan! Yaraşmaz sənə qəm-kədər,
Sən öz mərdliyinlə namərdi qandır!
Yalnız Təbriz deyil, bütün şəhidlər
Sənin öz mənəvi övladlarındır.

Zərurət geyinir təsadüf donu,
Taledir qismətin, Taledir adın.
Ey millət dəlisi, Vətən Məcnunu,
Şəhid olmalıydı sənin övladın.

Dedik: «Qəhrəmanlar yatır məzarda,
İndi qəhrəmanlıq yalnız sözdədir».
Qəhrəman axtardıq biz orda-burda,
Bilmədik, qəhrəman içimizdədir.

*Fevral 1992*

## HƏLƏ GÜNAHKARIQ

Qorxuncdur, gileyi gözündə min-min
Hirsini ağzında çeynəyən millət.
Hələ günahkardır, şəhidlərinin
Qisası könlündə göynəyən millət.

Dünənin öz dərdi qalır dünəndə,
Yoxsa, qisasımız yaddaşdan itir?
Şəhid oğulların gözü önündə
Hər gün təzə-təzə məzarlar bitir.

Bərəkət tumu tək dörd ildən bəri
Əkirik torpağa biz şəhidləri.
Yenicə qazılmış hər açıq qəbir
Hər gün cəbhələrdən ölü gözləyir.

Bu yerdə nə qəmin, nə ahu-zarın
Kimsənin boynunda yoxdur minnəti.
Öncədən qazılan bu məzarların
Hər biri millətin öz xəcaləti.

Bəlkə dəfn olunan heç meyid deyil,
Zaman diri-diri dəfn edir bizi.
Hazır məzarlarda biz şəhid deyil,
Bəlkə dəfn edirik mənliyimizi?!

Bəlkə də… kor tale, ya da bu dövran
Görünməz əllərlə bizə gor qazır:

«Vuruşun, igidlər, qətl olunmadan,
Hər gün xiyabanda qəbriniz hazır».

Daşmı bağlamışıq ürəyimizə?
Zülmün qabağında biz niyə donduq?
Bu hazır məzarlar nə deyir bizə?
Yoxsa, ölüməmi məhkum olunduq?

Qorxuncdur, gözündə gileyi min-min
Hirsini dişində çeynəyən millət.
Hələ günahkardır, şəhidlərinin
Qisası könlündə göynəyən millət.

*Mart 1992*

## QARDAŞDAN GILEY

*Şair M.İsmayıla*

Nə özbək, nə qırğız, nə qaraqalpaq,
Nə tatar, nə türkmən, nə türk, nə qazaq?
Bunlar bir ananın oğullarıykən
Qardaşın dərdinə susurlar nədən?

Ey özbək, ey türkmən, axı, sən mənim
Həm din qardaşımsan, həm qan qardaşım.
Sənin düşməninkən mənim düşmənim,
Düşmənin qəsdinə susan qardaşım.

Qanını tökürlər qan qardaşının
Səninki deyilmi tökülən bu qan?
Tüğyana gəlmədən, bəs sənin qanın
Necə sakit axır damarlarından?

Ey mənim dərdimə biganə qardaş,
Sənə uzatdığım qardaş əliydi.
Mənim ayağıma dəyən çırtma daş,
Sənin ürəyini göynətməliydi.

Amma göynətmədi…
inandın yenə
Mənim düşmənimin şirin dilinə.
Sən yadı tutdun.
Sən dağa söykənib məni unutdun,

Bucağa qısanda məni o azğın,
Dilin bircə dəfə məni anmadı.
Söylə, bəs müştərək əcdadımızın
Qanı da qəlbində qımıldanmadı?

*Avqust 1992*

## ÖZ-ÖZÜNÜ TANIMAQ

-Bu gün yüz beş ölkə tanımış bizi –
Yenicə yaranmış dövlətimizi.
Artıq yer üzündə öz yerimiz var,
Qarşıda işıqlı günlərimiz var.
-Qardaş, sevincinə şərikəm sənin,
Amma unutma ki, özgələrinin
Bizi tanıması hələ şərt deyil.
Tanınmaq o qədər şərafət deyil.
Seçək içimizdə əyridən düzü
Görək, tanıdıqmı öz-özümüzü?
Əvvəlcə özünü tanımayan kəs
Özünü dünyaya tanıda bilməz.

*Aprel 1992*

## ƏGƏR QORUNMAZSA İSTİQLALIMIZ

Qəribə zamanda yaşadıq, oğul,
Bilmədik maskayla üzün fərqini.
Vallah, seçilmədi hiylədən ağıl,
Bilmədik əyriylə düzün fərqini.

Yaşadıq birtəhər, yazdıq birtəhər,
Zaman bizim üçün müstəbid oldu.
Dil – açar olmadı,
                    ağla gələnlər
Dildə kilidləndi, dil – kilid oldu.
Ağlın dediyini demədi dillər,
Bizi bağışlasın gələn nəsillər.

İzlədi hamını qorxu, təhlükə
Haqqın, ədalətin öldü anası.
Oldu başdan-başa o boyda ölkə
Məhkum millətlərin həbsxanası.

«Bərabər olmalı - dedilər – hamı»,
Yasa döndərdilər toyu, bayramı.
Bərabər tutuldu od-alov suya –
Yaxşılar yamana, oğru doğruya.
Hər şey alt-üst oldu, qarışdı aləm,
Bağının barını el dərəmmədi.
Varlını yoxsula döndərən qələm
Yoxsulu varlıya döndərəmmədi.
Hər şey öz əksiylə yerbəyer oldu,

Hamı bir-birinə bərabər oldu.
Bəzən sındırılan, şəxsiyyətimiz,
Mənlik sürgün oldu, yad oldu bizə.
Nə simamız qaldı, nə sifətimiz,
Hamımız bənzədik bir-birimizə.

Yalan zurnasına oynadı ölkə,
Yalan əqidəyə, mərama döndü.
Sinəmiz altında ürək yerinə
Yalan dilə gəldi, yalan döyündü.

Hələ torpağa da yalan əkdilər,
Yalan əkilmişdi, yalan dərildi.
Dünyaya dəmirdən pərdə çəkdilər
Millət əsarəti səadət bildi.

Qaranın üzündə bəzən ağ ləkə!
Vaxtın əleyində hər şey ələndi.
Qəribə aləmdir,
qalib bir ölkə*
Məğlub etdiyinə əl açır indi.

Azadlıq, səadət haqqımdır mənim,
Allah çox görməsin bu haqqı bizə.
İstiqlal yolunda qurbanlar verib
Axır yetişmişik istəyimizə.

İplər qırılsa da, bilmirəm hələ
İpin ucundakı o qarmaq nədir.

*Rusiyanın Almaniyadan yardım ummasına işarədir.

Uzaqdan qurulur bizə min tələ,
Şeytanın barmağı evimizdədir.
Ey xırda millətlər, ayıq olun siz
Hələ çalxalanır bulanıq dəniz.
Verdiyi vədini tez unudan var,
Bulanıq sularda balıq tutan var.
Girib qılığına, alıb könlünü
Saçı sığallayıb başı vuran var,
Atı torbasıyla vuruşduran var.
Xırda millətləri «ayır, buyurla»
Bir-birinin üstə salışdıran var.
Odlu nöqtələrdə səngiyən odu
Püfləyib təzədən alışdıran var.

Çıxsa da əlindən xalqlar, ölkələr
Ölməyib o iblis, o Şeytan hələ.
Hələ ümid verir ona bəlkələr,
Düşməyib amirlik taxtından hələ*.

Üç yüz il dünyaya qan udduran taxt
Çürüyüb, sahibi inana bilmir.
Ondan üz döndərib bu dövran, bu vaxt
Bu böyük gerçəyi o qana bilmir.
Həqiqət, ədalət məhkəməsinə
Qol çəkir, qolundan utana bilmir.
Tərgitmək istəmir köhnə vərdişi,
Anlaya bilmir ki, qırılıb dişi.
Kiçik balıqları üyüdə bilməz,
Daha köhnə yolla o, gedə bilməz,

*Müstəmləkəçi - imperialist ölkələr nəzərdə tutulur.

Yoğrulub İblisin mayası kindən,
İblis ləzzət alır öz pisliyindən.
Ölüm anında da əl çəkən deyil,
Onlar vərdişindən – iblisliyindən.
İndi ki, belədir…
                    Nə deyim artıq?!
Budur durumumuz, budur halımız;
Bizi məhv eləyər arxayınçılıq,
Əgər qorunmazsa istiqlalımız!

*İyul 1992, Şəki*

# ALVER

Yenə yaman alver gedir
Uca-uca kürsülərdə.
Gecə dönüb gündüz olur,
Çuxur dönüb dümdüz olur.
Tabın varsa, döz bu dərdə.

Yox, yenə də həmən hamam,
Tas hamamın öz tasıdır.
Hökm həmən o hökmdür,
Bir fərqi var: hökmü verən başqasıdır.

Əvvəlki tək gör necə də
Qurban gedir xeyir – şərə.
Yaltaqlığı beh verirlər
Daha böyük rütbələrə.

Onu satan, biri alan
Həqiqətin sinəsində
At oynadır yenə yalan!

Yarış gedir… ən sanballı söz yarışı –
Təriflərin gur yağışı.
Göy gurlayır, şimşək çaxır,
Bu kürsüdən o kürsüyə
Şirin-şəkər tərif yağır.

Sən atanın goru dayan!
Dünəninə bax, bir utan!

Dünən basıb salonları gur səsinə
Söylə, həmən bu sözləri
Demirdinmi özgəsinə?
Ey min rəngli buqələmun,
İnsan deyil, sən həşərat, sən böcəksən.
Bu sözləri, tərifləri
Sən sabah da başqasına deyəcəksən.
İnsanlığı, ləyaqəti,
Kişiliyi, dəyanəti,
Öz vəzifə tamahına qurban verən şərəfsizlər,
Yaltaqlığı rüşvət verib
 Böyüyündən rütbə gözlər.
Nə deyəsən beləsinə?
Təpik vuran oğul gərək
 Onun tərif şələsinə!
Amma indi neyləyəsən,
Onlar çəkir bu Vətənin ləzzətini,
Başqaları çəkir ancaq qeyrətini…

*İyul 1991*

## KÖLƏLİYƏ SƏDAQƏT

Hər gün təzə göz gərək, bu baməzə dünyaya
Köhnə gözlə baxırıq amma təzə dünyaya!
Vaxtın, günün qazanı hey qaynayır, bişmirik,
Zaman hər an dəyişir, amma biz dəyişmirik.
Quran çoxdan uçurub illərlə qurduğunu,
Bərkitmək istəyirik cani-dildən biz onu.
Sədaqət – gözəl adət!
Amma faciəmizdir köləliyə sədaqət!
Tərəziyə qoymadan bir xeyirlə min şəri,
Köhnə balalaykada təzə mahnı çalırlar
İqtidar sahibləri!
Çalır, əsrə uyuşmur o dünənin cır səsi.
Köhnə balalaykanın imkanından yüz dəfə
Yuxarıdır, yuxarı!
Köhnə səsə uyuşmaz təzə səsin axarı.
Bilməyirik bu cır səs sümüyə düşən deyil.
Alət dəyişilməsə, səs də dəyişən deyil.
Karların ölkəsində əsrin dəmir səsinə
                ahəng tutan olmuşuq,
Korların məclisində güzgü satan olmuşuq.

Bilməliyik bir dəfə, dünya o dünya deyil.
Satan həmin satandır,
                sövda o sövda deyil.
Bazar həmin bazardır,
                qiymət o qiymət deyil.
Üzə durmuş həqiqət, bu, o həqiqət deyil,

Tələ həmin tələdir, quran o quran deyil,
Kölə həmin kölədir, zaman o zaman deyil.
Daşmaq vaxtı çatıbdır, biz nə qədər qaynayaq?
Mərkəzin çaldığına yenədəmi oynayaq?
Nə vaxt biləcəyik biz
Mütilik – millətləri dəfn edir diri-diri,
Mütilik – hər məqamda azadlığın zənciri!

*Avqust 1991*

## TƏZƏDƏN YARATSIN YARADAN BİZİ

Yalan mamırlanıb ürəyimizdə
Haram maya tutub çörəyimizdə.
Yalana inandıq, doğrunu dandıq,
Yalandan nə bezdik, nə də utandıq.
Həqiqət qovuldu həyatımızdan,
Yalan bazarında satıldı vicdan.
Xəyanət gözüylə baxdıq hər şeyə,
Təpədən dırnağa döndük hiyləyə.

Hiylə zəhərindən o qədər içdik,
İndi yalan axır damarımızdan.
Sirat körpüsündən kələklə keçdik,
Dönmək istəmədik öz karımızdan.

Zamanın şər ilə söz birliyindən,
Haqqın zor əlində əsirliyindən
Qəlbimiz o qədər yaralanıb ki,
Hiylələr o qədər haqqı danıb ki,
Kələyi ağıldan seçə bilmirik,
Gerçəyi nağıldan seçə bilmirik.
O qədər əyriylə çulğalaşmışıq,
O qədər dolaşıq yollar aşmışıq
İndi  hamar yoldan keçə bilmirik.

Tamam unudulub əcdaddan gələn
Gözəl xislətimiz, təbiətimiz,

Bu gün özümüzə yad olmuşuq biz.
Kiminsə dərdinə alışıb yanmaq,
Kiməsə əl tutmaq ar gəlir bizə.
Kimisə aldatmaq, nəyisə danmaq
Elə bil çevrilib xislətimizə.
Gözümüz önündə haqq ölən zaman
Fəryad qopardıqmı?
Yox, susan olduq!
Biz ömür qazanıb susmağımızdan
Amma insanlığı uduzan olduq.

Bu gün üzümüzə qabarır zaman,
Biz necə keçmişi bu gündən danaq?
Biz indi dünənin çirkablarından
Necə təmizlənək, necə paklanaq?

Fikrimiz o qədər hədələnib ki,
Ruhumuz o qədər zədələnib ki,
Anlaya bilmirik astar nə, üz nə
İndi baxammırıq düzün gözünə.

Yalan mamır tutub ürəyimizdə
Bu qalın mamırdan arınmaq çətin!
Günün damğası var kürəyimizdə,
Damğa bizimlədir çox illər, yəqin.

Könlümü gəmirən fikirlərimi
Dünən öldürmüşəm bir cəllad kimi.
Mən kiməm?
Ağlımın kəsilən dili!
Mən fikir qatili, əməl qatili!

Bu gün ədalətli bir insan kimi
O qatil ömrümü ömür sayımmı?
Özümün özümə xəyanətimi
Bu gün mən özümə bağışlayımmı?

Tərsinə yaşadıq bir qarış ömrü
Hələ sağım solda, solum sağdadır.
Dünənki günlərin köləlik möhrü
Hələ ruhumuzda yaşamaqdadır.

Necə təmizləyək dünən kirlənən
Bu gün saflıq uman ürəyimizi?
Haqqa çətin gələr haqqından dönən,
Təzədən yaratsın yaradan bizi!

*Avqust 1992, Şəki*

* * *

Parçalandıq… Bu məlumdur hər kəsə
Bizi saldı bu müşkülə «sən», «mən», hey.
Aramıza düşmənçilik girməsə,
Girə bilməz yurdumuza düşmən, hey.

*May 1992*

# AZƏRBAYCAN ƏSGƏRİ

*Emin Sabitoğlu bəstələmişdir.*

Azərbaycan torpağında boy atmışıq biz,
Tarixlərin o tayından gəlir əslimiz,
Bir düşmənə baş əymədi oğuz nəslimiz.
Babaların qanı axır damarımızdan,
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Başımızın üstündədir üç rəngli bayraq,
Əvvəlimiz, axırımız bu ana torpaq.
Bu torpağın keşiyində əzm ilə durmaq
Bu millətin oğlu üçün şöhrət, şərəf, şan.
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Qara torpaq Vətən oldu hünərimizdən,
Hünərimiz xəbər versin zəfərimizdən,
Şəhid ruhu baxır bizə göylərimizdən.
Sərhəd çəkək sinəmizdən yurda hər zaman,
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

*1992*

## CƏMİLƏ

*Əlində silah Xaçınçayda döyüşən xalqımızın Həcər qızı Cəmilə Atakişiyevaya ithaf*

Düşmən öz həddini aşandan bəri
Saldı bu dağlarda binə, Cəmilə.
Günün Həcərisən, əsgər paltarı
Nə gözəl yaraşır, sənə, Cəmilə.

Yoğruldu ürəyin qəzəbdən, kindən,
Doğuldun hər yeni şücaətindən.
Təzə bir rəng verdin öz qeyrətindən
Doğan hər səhərə, günə, Cəmilə.

Bu gündən sabahı görür gözlərin,
Dağlara dağ basır ayaq izlərin.
Kaş, sənin qeyrətin, qeyrətsizlərin
Qəlbində çıraq tək yana, Cəmilə.

Məsləkin qələbə, yoldaşın silah,
Sənə kömək olsun o qadir allah.
Əsgər paltarını soyunub sabah
İstərəm, olasan ana, Cəmilə.

*Aprel 1992, Xaçınçay*

## ÜMİDƏ HEYKƏL QOYUN

Ürək yaşar həmişə
Ümidiylə qol-boyun.
Ümid yaşadar bizi,
Ümidə heykəl qoyun.

Ümid necə xoşqılıq,
Ümid necə işvəkar.
O – bütün qıfıllara
Düşən sirli bir açar.

Tək olsam, həmsöhbətim,
Cüt olsam, həmkarımdır.
Ac olsam, o – çörəyim,
Lüt olsam, paltarımdır.

Ümiddir dərdimizin
Sinəsini dağlayan.
Ümiddir bu günümü
Sabahıma bağlayan.

Bizim min-min arzumuz
Hər vaxt bizdən öndədir.
Puç olan dilək belə
Ümid yedəyindədir.

Ümid bizdən çox yaşar,
O, nə əvvəl, nə sondur.

Ümidin ömrü, vallah,
Ömrümüzdən uzundur.

Ümidlə bir olanda
Həyat bizə bal dadır.
O, aldadıb yaşadır,
O, yaşadıb aldadır.

Heykəl qoyun ümidə
Tərk etməz bir an bizi.
Arzuya qanad verib
Odur yaşadan bizi.

Qana-qana aldanaq,
Budur həyat, budur haqq!
Yaşaya bilərikmi
Əgər biz aldanmasaq?

*Avqust 1992*

# İŞIQ AXTARIRSAN

*R. üçün*

Görürəm, həmişə söhbətlərində
İşıqlı fikirlər sorağındasan.
Zamanın bu «zülmət səltənətində»
Sən qılınc olsan da, hələ qındasan.

Allah buyruğundan quyruq gözləyən
Ömrünü həsrətlə güdaza vermiş.
Özünə güvənib «Mən varam» - deyən
Kol-kosun üstündə quyruq bitirmiş.

İşıq saçmaq üçün ağıl yox, ürək
Sinədə od tutub alışsın gərək.
Özgə çırağından işıq umanlar
Damaq qaldığını sonradan anlar.

Özgənin işığı göz aldadandır
Əvvəl öz qəlbində qəm dağın olsun.
İşıq axtarırsan,
                                        özünü yandır,
Zülməti yarmağa işığın olsun.

*İyul 1991, Şəki*

## YUNUS KARVANI

Yeddi yüz ildir ki, Yunus karvanı
Məhəbbət yüküylə yol gedir hələ.
Kamala çatdırır qəlbi, vicdanı,
Məhəbbət ünvanlı hədiyyəsilə.

Yunus hikmətiylə kim məst olubsa,
Köksündə qərəzi duruldur könül.
Həsədlə, tamahla, kinlə dolubsa,
Məhşərə aparan bir yoldur könül.

O demiş: - Sevənin etiqadında
Kin deyil, sevgi var, mən deyil, sən var.
Sevməyi bacarmaz,
                    bir eşq odunda
Əriyib özünü unutmayanlar.
Öldür, içindəki nifrəti öldür,
Sənin yol yoldaşın sevən könüldür.

O demiş: - Allaha gedən çətin yol,
Hər kəsin könlündən baş alır ancaq.
Demiş:– Öz içində yenidən doğul!
Bu köhnə dünyaya təzə gözlə bax!

Yenidən doğulmaq! Görən, nə demək?
Ulu bir eşq ilə barınan ürək!
Həm özünü görər, həm də allahı,

Tamahdan, qərəzdən arınan ürək!
Tutub ətəyindən ulu göylərin
Qəlbindən torpağa su vermiş Yunus.
Sığınıb cəzbinə anamız yerin
Sevgini bayrağa çevirmiş Yunus.
Bütpərəst,
    xaçpərəst,
        müsəlmanı da
Eyni məhəbbətlə sevirmiş Yunus.
Sevgi cövhəriymiş onun qanı da,
Eşqi əqidəyə çevirmiş Yunus.

Yeddi yüz ildir ki, Yunus karvanı
Məhəbbət yüküylə yol gəlir hələ.
Kamala çatdırır qəlbi, vicdanı
Məhəbbət ünvanlı hədiyyəsiylə.

Duyan könüllərdə od-ocaq çatsın,
İnsandan baş alan tanrı sevgisi.
Qəflət yuxusundan bizi oyatsın
Yunus karvanının zınqırov səsi.

*Avqust 1991, Şəki*

## SU - HAVA

Havanın bolluğu hələ bəs deyil,
Suyun yoxluğuna o əvəz deyil.
Suyun çoxluğunun fərqinə varmaz
Hava yoxluğundan hər an dad çəkən.
İkisi vəhdətdir…həsəd aparmaz
Suda boğulana susuzluq çəkən.

*Avqust 1992*

## VƏTƏN MARŞI

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.
Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik
Biz Vətən naminə ölsək, dirilərdən diriyik.
Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: «Yönü bayraqdakı üç rəngdən alım»
Sən bu gül bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Günəş hər gün doğur ancaq içimizdən Vətənə.
Bizim iqbalımızı yazdı qılıncın kəsəri,
Bizi biz etdi Dədəm Qorqud oğuznamələri.
Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi - qızlar Vətəni,
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapınar haqqa və insanlığa haqqdan doğulan.
Bəşərin dərdini öz dərdi bilib millətimiz.
Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.
Gecələr yatmadan əvvəl sor özündən ki: «Bu gün
Mən nə etdim məni yurddaş edən öz yurdum üçün?»

*1992*

## AZƏRBAYCAN

Azərbaycan, adın oddur, özün – işıq, sözün –
işıq.
Biz də sənin bu müqəddəs torpağından boy atmışıq.
Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,
Yolumuza işıq saçsın ulduzumuz, hilalımız.

Nəfəsimiz – ulu Qorqud dədəmizin öz nəfəsi,
Mahnımızda yaşar bizim babaların addım səsi.
Bu torpaqda, bu diyarda dünən vardıq, bu gün
varıq,
Biz keçmişə güvəndikcə gələcəyə addımlarıq.

Vətən bizsiz də keçinər, keçinmərik biz
Vətənsiz,
Bu məramla boy atmışıq Çənlibellər üstündə biz.
Şəhidlərin qanı ilə yoğrulubdur torpağımız,
Qəlbimizdə dalğalanır öz üç rəngli bayrağımız.

Qardaşlıqdır şüarımız, biz həmişə əl tutanıq,
Düşmən bizə əl uzatsa, düşmənliyi unudanıq.
Könlümüzdə bir vahiddir güneyimiz, quzeyimiz,
Vətən – bizim namusumuz, biz Vətənik, Vətən də
biz.

*1991*

## QEYBDƏN SƏS

*«Atatürkə – Paşam, - dedim, - Quran bir elm kitabı deyil, bir iman kitabıdır. Müsəlman türk xalqı onu söz olaraq deyil, səs olaraq oxuyur. Anlaya bilmədiyi yerlərini də bu səsin təsirilə hiss etməyə alışmışdır».*

**Yəhya Kamal**

Quranı dinlədim, nura boyandım,
Dili qanmasam da, mənanı qandım.
Düşdüm birdən – birə səsin sehrinə,
Anlaya bilmədim onun sehri nə?

Səsin alovuna büründü aləm,
Bir onu bildim ki, tilsimlənmişəm.

Səsin alovunda pörşələnib mən,
Dağlana – dağlana öldüm – dirildim.
Sözləri bilmədən, dili bilmədən,
Mən necə oldu ki, mənanı bildim?

İşıq bu dünyanı göstərir bizə,
Özü cism kimi görünmür gözə.
O necə gizlidir, o necə aşkar?
Allah kəlamı da beləcə gizli,
beləcə aşkar.

Fikrim qanadlandı, məni uçurdu,
Bütün günahlarım üzümə durdu.

Qeybdən səs gəldi qulaqlarıma,
Bu səs inamımı çəkdi tarıma:
«Nədir dilədiyin qalan ömürdən –
Allah  dərgahına hazırsanmı sən?»

*1991*

## DÖRDLÜKLƏR

* * *

Bu əxlaq tarlası, bu – din tarlası
Keçirir sınaqdan hamını dən-dən.
Dünya – axirətin ilkin tarlası
Burda əkdiyini orda biçərsən.

*1992*

* * *

Sıfırlar önündə durdun bir kimi
Günahsız yaşadın, mələklər kimi.
Millətin boynunda haqqı – sayın var,
Cənnət qapısıdır səninçin məzar.

*1992*

* * *

Dünya bir işvəkar gəlinə bənzər,
Gözəllik təxtindən heç enməmişdir.
Milyon il keçsə də, hələ bir nəfər
Bu gözəl afətlə evlənməmişdir.

*1992*

* * *

Allahın balası bu aciz insan,
Qurub – yaratmağa daim can atdı.

İnsanlar ağacdan kürsü, nərdivan,
Allahsa ağacda meyvə yaratdı.

*İyul 1993*

* * *

Bir bax, açılan sübh, qızaran dan, doğulan gün
Bir töhfəsidir Allahın insanlara hər gün.
Min töhfə umub aldığı bir töhfədən insan
Neyçün bu gözəlliklərə heç olmadı şükran?

*Avqust 1995*

* * *

Çeynənmiş sözlərlə qulaqlar dolmuş
Təzə söz istərəm, onu ver mənə.
Dünəndən bu günə yol tapdaq olmuş
Bu gündən sabaha yol göstər mənə.

*1995*

* * *

Tamahkar həmişə dilənçi, acgöz
Borcunu dəbbələr, dəbbələdikcə.
Tamah iştahıyla yeyən dələduz
Heç vaxt doya bilməz, acar yedikcə.

*Noyabr 1995*

* * *

Buludlar – gözünün kökü saralmış
Ayrılıq çəkənin ahı deyilmi?
Ümid – hər istəkdən bir az kam almış
Xəyal ölkəsinin şahı deyilmi?

*Mart 1996*

* * *

Allahın varlığı – sirri qədimdir,
Allahı anlayan varsa, de, kimdir?
Allahı anlamaq, onun sirrini
Heç cürə anlaya bilməməyimdir.

*Oktyabr 1996*

* * *

Dünyanın kalına dəymədi dəymiş
Sığalı – aldanış, qəsdi – tələymiş.
Bu qədər yaşadım dünya evində
Bilmədim bu evin qibləsi nəymiş.

*Mart 1996*

* * *

Özünü hər şeyə qabil sayanlar
«Ən ali məqama layiqəm» - deyir.

Bir qəlbi tikməyi bacarmayanlar
Millətin qəlbinə girmək istəyir.

*1996*

* * *

Bizim sükançımız qədərmi yalnız?
Çalışmaq, çarpışmaq boş əfsanədir?
Əgər mütləqdirsə alın yazımız,
Bəs bizə verilən bu ağıl nədir?

*1996*

* * *

Bizim gözümüzü tozlama, qardaş
Xəyaldan həqiqət gözləmə, qardaş.
Bu gündən sabaha yol çox uzundur
Balığı dənizdə duzlama, qardaş.

*1996*

* * *

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?

*1996, Şəki*

* * *

Yandım atəşinə hissin, idrakın
Yalnız öz dünyamı anlamaq üçün.
Ağıl girməyən yer bəs-bəlli, aydın!
Ağıl girdiyi yer sirdir büsbütün.

*1996*

* * *

Rəhbər cahildirsə, millət də qafil
Demək, bu məmləkət üz üstə batmış.
Millət də, rəhbər də oyanan deyil,
Oyada bilərmi yatmışı yatmış?

*1991*

* * *

Oğuzdan törədim, türk oğlu türkəm,
Poladdan kövrəyəm, dəmirdən bərkəm.
Alçalda bilməzsən məni, a nadan,
Mən bu görkəmimlə dünyaya görkəm.

*Yanvar 1989*

* * *

-Yoxluq nə imiş? Öz mənini var kimi sanmaq,
Varlıqları yoxdan var edən Allahı danmaq.

-Varlıq nə imiş? Mütləqə qəlbinlə vurulmaq,
Eşqində var olmaq üçün Allahda yox olmaq.

*İyun 1997*

* * *

Könlümlə duymuşam nəyi duydumsa dünyada
İdrak edir, fəqət nə edək, ağlın odu yox.
Könlümdür üzdürən məni ruhani dünyada
Ağlın hüdudu var isə, könlün hüdudu yox.

*1997*

* * *

Qovğası böyükdür cismimlə ruhun,
Bulanıq göl idim, axdım, duruldum.
Ruhumu şeirimdə yaşatmaq üçün
Cismimi kölgəmdə gizlədən oldum.

*Aprel 1997*

* * *

Hərdən yaşasaq da fərəhli günlər,
Yenə də dünyanın yükü çiyində.
Kölgənin üstünə nə töksən hədər!
Kölgə qalmalıdır kölgəliyində.

*May 1997*

* * *

Yay ayları – Vaxtla savaş ayları,
Üzə çıxır içimdə dərd layları.
Birdən qışa döndərəydi Allahım
Məni məndən ayrı salan yayları.

*İyul 1997*

* * *

Yalnız son nəfəsdə gerçəyi bulmuş
Dünyanı əbədi mənzil sayanlar.
Elə doğulanda ölü doğulmuş
Vaxtında ölməyi bacarmayanlar.

*1994*

* * *

Heykəl qarşısında heykəlləşirkən
Onu yaradanı düşünürəm mən.
Aynada özümə baxdığım zaman
Həmişə özümü düşündüm, nədən?

*1995*

* * *

Mədənin gözüylə dünyaya baxdın
Ağla güvənməli, ağla ay yazıq.

Başından mədənə keçdisə ağlın,
Ağlının gününə ağla, ay yazıq.

*1997*

* * *

Öz hakimi zaman olur tarixin
Sabaha bax, ey bu günə hökm edən.
Məhkəməsi yaman olur tarixin
Axı, tarix rüşvət almır kimsədən.

*1998*

* * *

Dirənib ərşə zülüm, indi ümid Allahadır
Biz udurkən də uduzduq, bu həyat əjdahadır.
Bir məzarlıq yer üçün satmalıyam öz damımı
Ölümün qiyməti, vallah, yaşamaqdan bahadır.

*Aprel 1998*

* * *

Dedilər: - Bağlanan bu kor düyünün
Hələlik zamana ehtiyacı var.
Dedim: - Hər marama yetişmək üçün
Zamanın imana ehtiyacı var.

*Dekabr 1999*

## SÖZ ALAĞI

Çəkdiyimiz bu dərdlər, müsibətlər, bəlalar
Qədərin qəzasımı?
Günahkar bəndələrə Allahın cəzasımı?
Özümüz də bilmirik nədən nə istəyirik
«Əgər belə olarsa, elə olar» - deyirik.
Ədalətin saplağı asılır bir «əgərdən».
Sözlər düşüb kəsərdən, sözlər düşüb dəyərdən.
Sözdən bina tikirik, daşı yox, kərpici yox,
Prezident fərman verir, icrası yox, gücü yox.
Xalis əmrlər ilə qaralanır kağızlar,
Qatıq kəsmir ağızlar.
Şəhdli-şirəli sözlər maça kimi sürtülüb,
Hara gəldi dürtülüb.
Söz itirib rəngini, çəkisini, tamını –
Öz ilkin anlamını.
Sifəti də bozlaşıb
Yaman həyasızlaşıb.
Sözlər elə dəyişib
        Dünən ağ bildiyimiz
                Bir gün sonra ağ olmur,
Elə üz göstərir ki, onu tanımaq olmur.
Söz qiymətdən düşəli yaman artıb sellənib
Sellənməyi bir yana, daş kəsəklə lillənib.
Kürsülərdə, efirdə, zəhərləyib havanı
İndi meydan sulayır neçə söz pəhləvanı.
Qanadlı nitqləri basıb sözün alağı
Hünərin var seç görüm kəhər atdan ulağı.

Əlindən iş gəlməyən
Söz ilə basıb-kəsən quru bəyə bənzərik.
Oxuduğu sözlərin mənasını bilməyən
Müğənniyə bənzərik.
Fələyin çarxı döndü,
Başqa donda göründü.
Heç olmasa bir anlıq boylanmadıq çarxa da
Bizim arxamızdakı bizi qoydu arxada.
Qabağa tələsmədik.
Qalxan kimi qorunduq, qılınc kimi kəsmədik
Bilmədik, haqq yolundan biz nə zaman sapındıq.
Tapınmadıq məsləkə, nəfsimizə tapındıq.
Bir yerdə ki, əməllər sözün yedəyindədir,
O ölkədə bilinməz yaxşı nədir, pis nədir.
Bir yerdə ki, susdurur, aqili yelbeyinlər
Bir yerdə ki, körpələr, türfə qızlar, gəlinlər
Düşmənin pəncəsində bu gün dustaq olubsa,
Dədəmizin torpağı dədəmizin quluna
Əgər oylaq olubsa,
Vay bizim halımıza –
Ölən amalımıza!

Bir yerdə ki, gah Əli, gah Vəli alqışlanır
Düşmənə tuşlanası od ağızlı silahlar
Öz xalqına tuşlanır.
Bir yerdə ki, namus, ar inzivaya çəkilir,
Bir yerdə ki, qaçqının payına göz dikilir,
Bir yerdə ki, ürfanın cəhalətdən fərqi yox,
Bir yerdə ki, yalanın həqiqətdən fərqi yox,
Bir yerdə ki, rüşvətdir ədalətin təməli,
Bir yerdə ki, şəhidlə fərarinin əməli

Bir-birinə qarışmış,
Bir yerdə ki, yasla toy, xeyirlə şər barışmış,
Bir yerdə ki, kiməsə
xəlvəti him-cim etmək,
Halalca torpağını düşmənə təslim etmək
Adicə bir işdisə,
Ölüm adiləşibsə,
Matəm adiləşibsə,
Dərd, qəm adiləşibsə,
Bir yerdə ki,  millətin haqqı hərrac malıdır
O ölkədə Vətən də, el də satılmalıdır.

Çörək bahalaşanda, qeyrət ucuzlaşarmış,
İnsan ürəyilə yox, mədəsiylə yaşarmış.
Ət-qızıl qiymətinə, vicdan su qiymətinə,
Yalan od qiymətinə, iman su qiymətinə
Satılırsa, susmağı, gəlin, sayaq hünərdən,
Günəşi də gözləyək dünən batdığı yerdən.

*İyun 1993*

## ZÜLMƏT ƏRİYƏRSƏ
### *(«Əvəz edə bilməz»)*

Natiqlər yarışır, bu da bir cıdır!
Yaman döyüş gedir söz cəbhəsində.
Anlaya bilmirəm, hansı haqlıdır
Hər biri haqlıdır öz cəbhəsində.

Hamısı danışır xalqın adından
Heç biri dərdini bilmir millətin.
Bu ona şər atır, o, buna böhtan
Haqq ilə haqsızı ayırmaq çətin!

Gah ona güvənir, gah buna millət
Onlarsa özünə güvənir ancaq.
Dönür zavallıya, Məcnuna millət
Bəs onun dərdinə hanı bir ortaq?

Danışır, boynunda qərəzdən çatı
Hər kəs öz qəsdini həqiqət sanır.
Qiyam baş tutarsa, xalq hərəkatı,
Əgər baş tutmasa, qiyam adlanır.

Kimdən xəbər alaq biz haqqı, kimdən?
O hansı güldür ki, bitir alaqsız?
Belə döyüşlərdə dövri-qədimdən
Qalib haqlı çıxır, məğlubsa haqsız.

Deyən yox, yayını gizlədəcəydin,
Bəs niyə, bəs hara atırsan oxu?

Zülmət əriyərsə görünər, yəqin,
Kimin arxasında kimin durduğu.
Haqqın arxasınca çox hönkürmüşük
Zor sürtük maçadır, haqsa utancaq.
Zor haqdan irəli keçər, görmüşük
Əvəz edə bilməz o, haqqı ancaq.

*İyul 1993, Şəki*

## BU UZUN GECƏM

Nə yaman uzandı bu ağır gecəm,
Dərdimə kar olan bu sağır gecəm.
Nə gözüm yumulur, nə səhər gəlir,
Şərimin üstünə yenə şər gəlir.

Birdən ürəyimdə bir işıq yandı,
Ümid cilvələndi, ümid oyandı.
Dedim: - ya gec, ya tez doğacaq o gün
Bu nə ilk gecəmdir, nə də son gecəm.
Dünənki, sabahkı iki gündüzün
Arasında durur bu uzun gecəm.

*İyul 1993*

# İÇİMDƏN KEÇƏN YOL

Fikirlər, xəyallar başdan aşdılar,
Fikirlər, fikrimdə çarpazlaşdılar,
Bu onu doğradı, o, bunu kəsdi
Biri digərinin yolunu kəsdi.
Yollar çulğalaşdı içimdə birdən
Bilmədim, hansıyla hara gedim mən?
Tutdu bu yolları gah qar, gah dolu,
Bir vaxt ayıldım ki, sağım, sol imiş.
Dünyanın ən uzun, ən çətin yolu
Hər kəsin içindən keçən yol imiş.

*İyul 1993*

## SÖZ - ƏMƏL

Yalandır tarix boyu qara üzə ağ çəkən,
Əməldir – hər yalanın sinəsinə dağ çəkən.
Söz – yalanın boyası, söz – yalanın pərdəsi,
And – yalan ordusunun ən ali sərkərdəsi.
Yalandan törənənlər
Böhtan biçəcəyini bilməz yalan əkəndə,
Həqiqətin üzünə sözdən boya çəkəndə.
Sözün əsl anlamı itər, haqq ağlar qalar
Həqiqətin qapısı doğruların üzünə
həmişə bağlar qalar.

*Mart 1993*

## O, ÖZÜ GƏLMƏZ

*Qələm yoldaşım N.Həsənzadəyə*

Görüş yeri oldu beş ildən bəri,
Hüzr məclisləri, yas məclisləri.
Sevinc qaçaq düşüb ürəyimizdən,
Görən nə istəyir bu fələk bizdən?

Qaldı boğçalarda toy libasları,
Qəmlə geyindirdik illərimizi.
Nə qədər yas olar? Şəhid yasları,
Kədər heykəlinə döndərdi bizi.

Matəm evlərindən ayrılan zaman,
«Xeyirdə görüşək» - dedik hər dəfə.
Amma daş asılıb xeyrin qıçından,
Yasda görüşürük təzədən yenə.

Xeyiri gözlərik… Gözə qan düşər,
Dünya intizarla düzələn deyil.
Şəri gözləmirik… bacadan düşər,
Xeyri gözləməklə o, gələn deyil.
Xeyir hər qədərlə qovuşa bilməz,
Xeyri gətirərlər, o, özü gəlməz.

*İyul 1993*

## MÜXALİF

Düşmən pəncəsində qəhr olur Vətən
Biri də qışqırır: «Müxalifəm mən».
Kimə müxalifsən, ay Vətən oğlu,
Bu Vətən həm sənin, həm də mənimdir.
Ana yurdumuza göz dikən yağı,
Məgər təkcə mənim öz düşmənimdir?

Bizdən çarəsini umurkən Vətən,
Kimə müxalifsən, nəyə müxalif?
Bu gün yumruq kimi birləşməliykən
Mən sənə, sən mənə, o, başqasına
Niyə olmalıyıq, niyə müxalif?

Axı, təklənmişik biz dörd cəhətdə
Düşməni kül edən od mənə dostdur.
Torpağı qəsb olan bir məmləkətdə
Dövlətə müxalif düşmənə dostdur.

Mənə düşmənsənsə, bu su, bu iqlim,
Bu torpaq, bu Vətən, sənin düşmənin!
Mənə düşmənsənsə, ey müxalifim,
Mənə düşmən olan dostundur sənin.

Bu gün bu kürsüdə əgər mənəmsə,
Sabah, ya biri gün yəqin ki, sənsən.
Bu gün sənin üçün mən düşmənəmsə,
Torpağı kürsüyə qurban verənsən.

Vəzifə naminə satıldı torpaq,
Deyək ki, yetişdin arzuna sən də.
Çatdın iqtidara… Bu maşın, bu bağ,
Bununla bitəcək mübarizən də?

Kürsübazlar ilə doldu sol-sağın
Dünən müxalifdin, hakimsən bu gün.
Torpaq satılıbsa, hansı torpağın
Üstündə duracaq vəzisə kürsün?

*İyun 1993*

## DAYAN, QAÇMA, DAYAN!

Sən hara qaçırsan, ay Vətən oğlu?
Qaçdığın o torpaq sənin deyilmi?
Sənə pay verilən o ata yurdu,
O çeşmə, o bulaq sənin deyilmi?

Qaçırsan, qaçdığın o yurd-yuvanı,
Yoxsa, erməniyə bağışlayırsan?
Yoxmu damarında əcdadın qanı,
Özünü Vətənsiz sən nə sayırsan?
Özün de, qılıncsız bir qın olarmı?
Özün de, kişi də qaçqın olarmı?

Kimə qaldı bir vaxt qanad açdığın
O yaşıl çəmənlər, dibsiz dərələr?
Səni qarğamazmı qoyub qaçdığın
Məscidlər, azansız o minarələr?

Sən qaçdın, «canımı qurtarım» - deyə,
Sən qaçdın qeyrətdən qeyrətsizliyə.
Canını qurtardın…
                    Bəs yad əlindən
Yurdunu, yuvanı kim qurtaracaq?
Gör nəyə çevrildin öz əməlindən
Sənin bir adın var: yurdundan qaçaq!

Daim önə qaçmaq haqqın yoluydu.
Arxaya qaçışda haqdan qaçaqsan.

Baban, atan sənə yurd-yuva qoydu,
Bəs sən övladına nə qoyacaqsan?

Dayan, qaçma, dayan, hara qaçırsan,
Atıb, doğulduğun o torpaqları?
Arxanca qışqırdı sən qaçan zaman
Babanın, dədənin yetim məzarı.

İmdada çağırdı bu fəryad səni,
Məgər eşitmədin sən bu naləni?
Havası, suyuyla hansı gün üçün
Ərsəyə çatdırmış bu Vətən səni?

*Noyabr 1993*

## QALX AYAĞA

Vətən oğlu, maya tutmuş sənin qanın
Bu torpaqdan, bu Vətəndən.
Qalx ayağa,
İmdad umur Vətən səndən.
Sinəmizlə od-alovu biz yarmasaq,
İtirilən torpaqları qaytarmasaq,
Vətən bizi bağışlamaz,
Torpaq bizi bağışlamaz.

Sinəmizi dağ-dağ edən kinimizdən
Yadelliyə pay verməsək,
Biz barıta döndərməsək,
Dağlar boyda dərdimizi
Natəvanın, Üzeyirin ölməz ruhu
Danlar bizi!

Biz çoxunun gözlərinə
Tarix boyu ox olmuşuq.
Kişi kimi yaşamağı bacarmasaq,
Kölə kimi yaşamağa haqqımız yox!

Düşdüyümüz müsibətə,
Bu əzaba, bu zillətə
Yoxsa, koruq, yoxsa, karıq?
Bu torpağın qabağında
Biz hələlik günahkarıq.
Bu günahla bağışlamaz Vətən bizi.

Gülləliyək
Bu milləti xəcil edən səbrimizi.
Qalx ayağa!
Öz haqqındır zəfər sənin,
Carçısı ol qələbənin!
Qalx ayağa!
Qaldır döyüş dostlarını «Vur!» - səsinə.
Qalx ayağa,
Diz qatlamaq yaraşarmı
Bilgə xanın nəvəsinə?
Tülkülərin qabağından qaçmağını
Axı, sənə bağışlamaz qurd babamız.
Qalx ayağa!
Xankəndinə çatmalıdır
Bizim zəfər arabamız.
Vətən oğlu,
Maya tutmuş sənin qanın
Bu torpaqdan, bu Vətəndən.
Qalx ayağa,
İmdad umur Vətən səndən.

*Noyabr 1993*

## İKİ QƏBAHƏT

*Dostum Tofiq Bağırlıya*

İnkar edə bilməyib öz içimdə mən, məni
Danışardım bir zaman
Ən uca kürsülərdən ürəyimdən keçəni.
Min töhmət eşidərdim o vaxt yaxınlarımdan:
-Tərs qurulub əzəldən bu dünyanın gərdişi
Sənmi düzəldəcəksən bu tərs yönü, tərs işi?
Eşitdim bu sözləri çoxlarından min kərə.
Məhəl qoymazdım o vaxt, mən belə töhmətlərə.
Zaman keçdi,
      ötüşdü
            bu minvalla illərim,
Tərəzidə çəkildi min xeyirim, bir şərim.
Mənim bəyaz xeyrimi qara şərə yozdular,
Hər sözümü, kəlməmi min bir yerə yozdular.
Gördüm, mənim qəlbimdən çıxan atəş, yanan od

Dağdan ağır dərdimiz kimsəni sarsıtmayır.
Gördüm, yalan bürcdədir,
Həqiqətsə küncdədir.
Gördüm, yalan quduzmuş,
Gördüm, həqiqətlərim müftədən də ucuzmuş.
Susdum…
Boğdum içimdə vicdanımın səsini
Gözlərimi qapadım, mən görmək istəmədim
Yalan kəfənliyinə haqqın bükülməsini.
Susdum…

Gördüm, indi də «niyə susursan?» - deyə
Başladılar gileyə.
Yağdı mənim başıma indi də başqa töhmət.
Danışmağım qəbahət,
        Susmağım da qəbahət?
Daha ürəyimdəki üsyanı susdurmuşam.
İndi mən vicdanımla həyatın arasında
Məlul-müşkül durmuşam.
Çəkilmişəm qınıma
Qardaş, məni qınama!
Bu həyat yalan qusur, vicdanımsa həqiqət,
Amma mən neyləyim ki,
Danışmağım qəbahət, susmağım da qəbahət!
İndi düzü budur ki, qorxuram,
        qorxuram mən
Yalan desəm, tanrıdan, doğru desəm, bəndədən.

*Noyabr 1993*

## İÇİM - ÇÖLÜM

Sənin «Bağdaduruna» mən oynaya bilmirəm,
Bu havaya, bu rəqsə, vallah, uya bilmirəm.
Fələyin gərdişinə mənim özgə sorum var,
Mənim öz ürəyimdə başqa «Bağdadurum» var.
Çöldə güllər, çiçəklər çox da ki pardaqlanıb
Çöldən mənim içimə gen qapılar bağlanıb.
Amma içimdən çölə qapı taybatay olmuş,
Səslər, rənglər, çalarlar könlümdə lay-lay olmuş.
Hər baxanın gözüylə mənim içim sezilmir,
İçimin havasını çölüm dəyişə bilmir.
Qol açıb oynayıram könlümdəki havaya,
Sən çölündən baxırsan, axı, mən binəvaya.
Çölün keşməkeşləri qadaq vurub dilimə,
Qəlbimin gözlərilə mən baxıram çölümə.
Çölümün gözləriysə nankor kimi, kor kimi,
Görə bilmir içimi.
İçimdə qar yağırsa, dünyanı qar görürəm,
Könlümdə bahardısa, çölü bahar görürəm.

Mən içimdə batmışam, «niyə batdın?» - soran yox,
Məni çıxartmaq üçün içimə baş vuran yox.
Sıralanıb içimdə neçə-neçə dağ, dərə,
Ya rəbbim, içimdəki rənglərə bax, rənglərə.
Əlvan-əlvan duyğular qəlbimdə naxışlanır
Hey baxıram,
        görmürəm,
Qara harda qurtarır, bəyaz hardan başlanır.

Gah olur, boz görürəm bəmbəyaz gündüzləri
Öz içimə kordursa, öz içimin gözləri
Mən qınaya bilmirəm məni görə bilməyən
Cahil könülsüzləri.

*29 noyabr 1993*

## SÜRÜNMƏKMİ, UÇMAQMI?

Ucalmaq istəyirsən?
Niyyətinə min alqış!
Amma addım atmamış
Yollarına atılmış
Kötüyə bax, daşa bax.
Səni birdən tutacaq
Çovğuna bax, qışa bax.

O təpənin, o dağın
Zirvəsinə çatmağın
İki yolu var ancaq:
Bir sürünmək, bir uçmaq.

Sən uca təpələrdə
İlana bax, quşa bax.
Sürünüb ucalmışa,
Uçub ucalmışa bax.

*İyul 1994*

## ƏZAN SƏSLƏRİ

-Bu dağı, bu daşı min ildən bəri
Vətənə çevirən azan səsləri.
Nə imiş, görəsən, nə deyir o səs?
Göylərə tuşlanan o qaib nəfəs?
Nədir o səsdəki əzəmət, kədər –
Genişlik, ənginlik, sonsuzluq qədər?
-Yerləri göylərə bağlayan dirək,
Göyləri yerlərə endirən dilək!

*İyul 1994, Şəki*

## PEYĞƏMBƏRİMİZ

Yolunun yolçusuyuq, ey ulu Peyğəmbərimiz,
Adı şəfqətlə, işıqla dolu Peyğəmbərimiz.

Qurumuş torpağa bir an toxunarkən nəfəsi,
Gülə döndərdi o saət kolu, Peyğəmbərimiz.

Fəhmdən nur çiləyib sirrlərin zülmətinə,
Bizə məlum elədi məchulu Peyğəmbərimiz.

Bu da bir möcüzə! Meydan oxuyurkən sağa sol,
Sağa döndərdi imansız solu Peyğəmbərimiz.

Ulu Qurani – Kərimdən gözümüz aldı işıq,
Bizə göstərdi müdam düz yolu Peyğəmbərimiz.

Bulub haqqın yolunu Bəxtiyar oldum necə mən,
Belə zəngin elədi yoxsulu Peyğəmbərimiz.

*Yanvar 1994*

## ÖLÜM - MÜƏLLİM

Biz ölümdən qorxmasaq,
dərhal aşıb keçərik
yasaq çəpərlərini.
Bu qorxudur göstərən
Hər kəsə öz yerini.
Ən böyük düşüncələr
Ölümə təslim oldu.
Bu bilməcə həyata
Ölüm – müəllim oldu.
Ölümü anlamasaq,
həyatı anlamarıq.
Tanrının dərgahından
lap tanrılıq umarıq.

*1994*

## YALANDAN ÖZGƏ

Gülüşün yalandır, baxışın yalan,
Sənin bu dünyada hər işin yalan.
Böhtan – sığnağındır, şübhə – pənahın,
Gerçək – hədəfindir, zülm – silahın.

Sən zora güvəndin, zora sərasər,
Özünə doğmasan, hamıya özgə.
Nəyin arxasında gizlənə bilər
Zülm bu dünyada yalandan özgə?

*May 1994*

## BUNA MİN ŞÜKÜR

Dözdüm, dözə-dözə bezdim dözümdən,
Dözümdən üzülmək gəlmir üzümdən.
Sonsuz üzüntüyə satdım illəri,
Çürüdü ağzımda həyatın dadı.
Məramsız mərama dönəndən bəri
Dözüm yaşamağa məni qoymadı.
Üzümə durubdur artıq dözüm də,
İtib yox olmuşam özüm özümdə.

Öz isti yuvamda kinin, nifrətin
İslandım şıdırğı yağışlarında.
Üzmüşəm, üzürəm hər gün həsrətin
Könlümdə göllənən göz yaşlarında.

Mən özüm-özümə bir düşmən təki
Şəkərə göz yumub, zəhəri uddum.
Kəsin barmağımı
                    öz içimdəki
Ağrını, acını bəlkə unutdum.

Sandım ki, bu çətin, bu zor müşkülü
Həqiqət açacaq… Ona min alqış!
İndi anlayıram, həqiqət gülü
Mərifət suyuyla pərvazlanarmış.
Yoxsa mərifəti, o biçarədən
Mərifət ummaqda haqlıyammı mən?

Ey könül, sən məni saldın bu dərdə,
Sənin ucbatından bu günə düşdüm.
Çoxuna yol açdım dar döngələrdə,
Özüm açılmayan düyünə düşdüm.
Əl açıb yalvardım alışma, yanma,
Ölümlə döş-döşə qırx il güləşdim.
Səni ram etməyə çalışdım, amma
Sən əhlilləşmədin, mən əhlilləşdim.

Dandım öz haqqımı, dandım hər şeyi,
Susdu, bu hökmə də borc, qulaq asdı.
Bilmirəm, özümə bu tərs taleyi
Özümmü yaratdım, xudamı yazdı?

Bir yandan yaradır, bir yandan sökür,
Yaradan da xuda, sökən də xuda.
Biz ki, tapışmışıq… Buna min şükür,
Dünya kamımızca dolanmasa da.

*Avqust 1994*

## SULTANLIQ - BAŞQANLIQ

*Türkiyənin Cümhur başqanı, hörmətli*
*Süleyman Dəmirəl həzrətlərinə*

Çox taclı Süleymanları tarix yola salmış,
Tək bircə Süleymanı* ulu sultan kimi qalmış.
Sultanlığı almış o, Süleyman babasından,
Başqanlığı almış Dəmirəl el-obasından.
Sultan dediyin bir atanın oğludur ancaq,
Başqansa bütün millətə övlad olur, ancaq.

Ey millətinin sevdiyi, həm seçdiyi başqan!
Millətdən alır əzmini qəlbindəki iman.
Təbrik edirik yetmişini, yüz yaşın olsun,
Böyründə də Heydər kimi öz qardaşın olsun.

*Noyabr 1994, Ankara*

---

*Sultan Süleyman Qanuniyə işarədir.

## ÇİYİNLƏR

*Köhnə bir dosta*

Tale ilə savaşda
O uduzdu, sən uddun.
Qalxdın uca zirvəyə,
Sonra…
Səni qaldıran
Pillələri unutdun.
Yollar səni yoranda,
şikayətə başladın,
Yollar səni ən uca
zirvəyə qaldıranda,
Yolları yox, indi də
özünü alqışladın.
«Sən də varsan» - demədin,
Sən həmişə: «Mən» - dedin.
Onunçun da yıxıldın,
Sən yavaşca enmədin.
Başın, gözün əzildi.
Amma bu yıxılmağın
səbəbini
ürəyin
nə hiss etdi, nə bildi.

Axıb keçdi aradan
şirin sular,
şor sular.
Dedim, bu yıxılmağın

Yəqin, sənə dərs olar.
Olmadı!
Məsləhətçin
Sənə öz hikkən oldu.
Dostların çiyinləri
Yenə də pillən oldu.
Onların çiyni üstə
Sən yenə də ucaldın.
Haqqa qələbə çaldın.
Yenə də zirvədəsən.
Özün çək hesabını –
Bu pillələr, o da sən.
Amma unutma, qardaş,
Həmən o pillələrlə
Yenə də enməyin var.
Qalxdığın pillələrin
Altında çox çiyin var.
Yerdən çox ayrılmısan,
Amma yeri unutma.
Bir də, basıb qalxdığın
çiyinləri unutma!..

*Yanvar 1994*

## GÖZƏL ƏSARƏT

Yalan meydan sulayırkən
Mən bütövün kəsiriyəm.
Qolu bağlı həqiqətin –
Bu əsirin əsiriyəm.

Əldən getdi azadlığım
Yalanlara mən dözəli.
Həqiqətə əsir olmaq –
Əsarətin ən gözəli!

*İyul 1994*

## NƏ UZUN, GÖDƏK?

*Şair Eldar Baxış «Rejissor dostum R.Həsənoğluna» adlı şeirində boyca hündür olan Həsənoğludan xahiş edir ki, dabanlarını qaldırıb göyə baxsın, görək, Allah bizə olan erməni zülmünü görürmü? Əgər görürsə, bəs niyə susur?*

Eldar, Allah sənə ilham verəndə,
Şeirinlə dağ-daşı dilləndirəndə,
Adi gözlər ilə görünməyəni
Sən qəlbin gözüylə seçib görəndə
Niyə çağırmadın Həsənoğlunu?
Görsün, «göy evi»ndə neyləyir Allah.
Bəsirət gözünü başqasına yox,
Niyə sənə verib o qadir Allah?
Yamanca sızlatdı şeirin qəlbimi
Arzu da bu yerdə dirənir dağa.
Bir az barmağımız cızılan kimi
Uzun axtarırıq göyə baxmağa.
Allah yada düşmür toyda, düyündə,
Allah yada düşür ən qara gündə.

Vallah, qaçaq düşüb həqiqət bizdən,
Kim deyir sözümüz haqqa tən gəlir?
Sanırıq, yaxşılıq əməlimizdən,
Amma yamanlıqlar Allahdan gəlir.

İdrak məbədinə, qardaş, səcdə qıl,
İdrak boy tanımır, nə uzun, gödək?

Allahı görməyə uzunluq deyil,
Allahı görməyə ucalıq gərək.

Allah nə yaxında, nə uzaqdadır,
Allah həqiqətdə, Allah haqdadır.

Ey Allah adamı, həqiqətləri
Danıb haqq yolunu niyə azmısan?
Bu da bir gerçəkdir, sənə bu şeiri
Allah yazdırmayıb, özün yazmısan.

*Fevral 1994*

## SƏN KİM ÜÇÜNSƏN?

«Sabah da mənimdir», - dedin bu gün sən.
Sabah nəqd deyil, əgər düşünsən.
Hamının payında gözün var, dayan,
Hər şey səninçünsə, sən kim üçünsən?

*1994*

* * *

Güldən-gülə qonub zər kəpənəklər
Bildirmək istəyir var olduğunu.
Allanıb, xallanıb güllər, çiçəklər
Bildirir həyata vurulduğunu.
Sular şaqqıldayıb göstərir bizə
Yerlərin təkindən car olduğunu.
Quşlar nəğmə deyib qandırır bizə
Dünyanın arzuya dar olduğunu.

*İyun 1994, Şəki*

## OXUMA, BÜLBÜL

Bu bahar oxuma, bülbül, sən allah.
Zülmətdir,
          Yoluna şam tutanın yox.
Şuşan ağlar qaldı, köçdü el-oba
Şirin cəhcəhinə dəm tutanın yox.
Sən Cıdır düzündə cəh-cəh vuranda
Qədir hay verərdi sənə bir anda.
İndi bu dağlardan didərgin olduq,
İndi bu dağların Qədirləri yox.
Elsiz dağ da susar, bulaq da dinməz,
Qədirsiz Şuşada qədrin bilinməz.

Bu bahar oxuma, bülbül, sən allah.
Daşaltı çayının kəsilib səsi,
Bizsiz o kükrəməz, o, coşa bilməz.
Vallah, inanmıram, bülbül nəğməsi,
Hayastan dilinə uyuşa bilməz.
Oxuma, oxuma, bülbül, sən allah.

Açma xarıbülbül, açma, sən bu il,
Görürsən, bu bahar bizimçün deyil.
Axı, Əhmədlərin, Məhəmmədlərin
Qanıyla sulanmış çiçəklər bu il.
Ötdü günlərimiz ahlı, amanlı,
Sənin hikmətini o əliqanlı
Çöllərin gədəsi anlaya bilməz

O yerlər bizimçün darıxmırmı bəs?
Bizsiz Şuşamızda nələr baş verir?
Allah bizə ümid, ona aş verir.
Çiçək kimi zərif, su kimi şaqraq,
Muğam kimi kövrək, anam Qarabağ,
Nəğməli qəlbinlə söylə, sən bu gün
Cəllad tapdağına bəs necə dözdün?
Qoy bəhər verməsin bu il bu torpaq,
Düşmən məzarına o dönsün ancaq!

Bizim oylağımız o qəlbi dağlar,
Muğam pıçıldayan ayna bulaqlar,
Daşaltı çayının daş dələn səsi,
Şuşa qalasının «Ərim gəldi»si,
Dərin dərələrin daşğın selləri,
Natəvan şeirinin «qərənfilləri»,
Sarı qayadakı bülbül nəvası,
Nəvvabın, Xudunun yurdu – yuvası,
Nal tökən dağların dar keçidləri,
Şuşanın kaşıdan göy məscidləri,
Yarış meydanları, cıdır düzləri,
Ulu Pənah xanın ayaq izləri
Görən, bizim üçün darıxmırmı bəs?
Boz qarğa bülbülə tay ola bilməz.

Yaxşı ki, ayağı yoxdur onların,
Onlar da bizimtək, yoxsa, qaçardı.
Onda bu gün kimi gələcəkdə də
Zülmə, haqsızlığa haqq əl açardı.
Bu ilki bahardan bizə nə?

Vallah,
Gəlsə də, bu bahar bizimçün deyil.
Oxuma, oxuma, bülbül, sən allah,
Açma, xarıbülbül, açma, sən bu il.

*May 1994*

## QEYRƏT AŞISI

Balıqdan sürüşkən, ey qazdan ayıq,
Qərəzdir gülüşün, qaradır ağın.
…Nəfsinin quluna çevrilən yazıq,
Dönər dəllalına ana torpağın.

Xəyanət əlilə sən çatdın artıq
O uca kürsüyə… Bu idi arzun!
Amma unutma ki, bu rüsvayçılıq
Ömürdən uzundur, ömürdən uzun.

Tutduğun kürsünü qazancmı bildin?
Kürsün böyüdükcə özün kiçildin.

Ey alver ustası, üç il, ya beş il
Sanma ki, həmişə haqq olacaqsan.
Geci var, tezi var,
                    boğazdan deyil,
Sən öz tamahından asılacaqsan.
Nəfsə qulluq edən ruhu nə bilsin,
Nəfsini öldür ki, ruhun dirilsin.

Əcdaddan baş alan xeyir-şərimiz
Nəsildən-nəsilə daşınsın gərək.
Hələ beşikdəykən
                              körpələrimiz
Tamah aşısıyla deyil, amandır,
Qeyrət aşısıyla aşınsın gərək.

*Fevral 1993*

## KÖHNƏ MƏRƏZ

Mən sənə yad oldum, sən mənə düşmən,
Vətənin dərdinə olmadıq ortaq.
Nifrəti düşmənə çevirməliykən
Biri-birimizə çevirdik ancaq.

Baha başa gəldi bu nifrət bizə
Niyə tutmur bizi şəhidin qanı?
Qarabağ torpağı bir-birimizə
Həsədin, nifrətin oldu qurbanı.

Heyf! Dağlara da verdik göz dağı
Bu dağı düşmənə çəkdirməliydik.
Qoruya bilməyib ana torpağı,
Uca dağların da başını əydik.

Düşmən pəncəsində inləyir torpaq
Onun xilasını umduq özgədən.
Bir qarış yer üstdə öldürür ancaq
Qardaş-qardaşını bilmirəm, nədən?
Düşmənin zülmünə dözən «ərlərik»,
Doğmaca qardaşa zülm edənlərik.

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.
Biz vətən uğrunda döyüşən deyil,
Vəzifə uğrunda döyüşən olduq.
Biri-birimizi endirib heçə,

Biz gələ bilmədik ortaq məxrəcə.
Böyüyə bilmirik kindən, qərəzdən,
Bizim ən qorxulu mərəzimiz bu.
Həmən bu dəhşətli dərddən, mərəzdən
Millət əzab çəkir əsrlər boyu.

İbrət dərslərindən qoca tarixin
Niyə öyrənmirik, niyə, bilmirəm.
Sualın cavabı çətindən-çətin,
Elə dərdlər var ki, deyə bilmirəm.

Mən sənə yad oldum, sən mənə düşmən,
Vətənin dərdinə olmadıq ortaq.
Nifrəti düşmənə çevirməliykən,
Biri-birimizə çevirdik ancaq.

*İyul 1994, Şəki*

## YURD YAD ƏLİNDƏ

*Sabirin, M.Cəlilin divanəsi,*
*hüquqşünas Ə.Yaşara.*

Hər gün neçə şəhid dəfn edirik biz,
Ağacı torpağa basdıran kimi.
Üzlərdə qəzəbdən nə kölgə, nə iz,
Dəfn mərasimi ötür an kimi.

Niyə bu mərasim sarsıtmır bizi?
Necə gəlib çatdıq bu «məqama» biz?
Bu ki, faciədir… faciəmizi
Niyə çevirmirik intiqama biz?

Qəzəb zirvəsindən endik biz bu gün,
Yoxuşlar çevrilib enişə döndü.
Şəhid dəfn eləmək, yoxsa, bizimçün
Adicə qaydaya, vərdişə döndü?

Məzarın başında qanadlı sözlər,
Qanadlı cümlələr baş alıb gedir.
İntiqam hissimiz varsa bir qədər,
O da bu sözlərlə boşalıb gedir:

«Ədalət bizdədir… bizimdir zəfər,
Daim güvənmişik biz həqiqətə.
Vətənin yolunda ölən şəhidlər
Ölmür, qovuşurlar əbədiyyətə».

Çox gözəl sözlərdir, hikmətli, kövrək
Amma çox uyuruq sözə, «hikmətə».
Yoxmu mərasimdə bəs bu şəhid tək
Qovuşmaq istəyən əbədiyyətə?
Buyursun, bir nəfər irəli gəlsin.
Bu şəhid oğlana varmı bir əvəz?
Onun qatilinə hanı qəzəb, kin?
Onun qisasını kim alacaq bəs?

Verib Qarabağı Bakıya qaçdıq,
Bakıda «Qarabağ» kafesi açdıq.
Verib Qarabağı oxuduruq biz,
Toylarda «Qarabağ şikəstəsi»ni.
Heç demə, bizim də kişiliyimiz
Toylarda cırmaqmış minlik dəstini.

Çaldı, Qarabağı çaldı düşmənim
Bəs o şikəstəni oxuyan kimdir?
Düşmən əlindəykən Qarabağ,
mənim
Şikəstə deməyim şikəstliyimdir.
Biz bunu bacardıq, biz bunu yalnız,
Bizə qənim olmuş öz tamahımız.

Düşmənə yönəlmir qəzəb də, kin də,
Dərs ala bilmədik əcdadımızdan.
Özümüz bu kökdə, yurd yad əlində,
Haray Şah İsmayıl, haray Pənah xan!

*Aprel 1994*

## UTANIRAM

Şəhidlərin, qaçqınların
Üstümüzdə min ahı var.
Çatdığımız bu nöqtədə
Hamımızın günahı var.

Düşmənimiz arxalandı
Silahına, öz gücünə.
Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə.

Əldən getdi yurd-yuvamız,
Necə dözdük bu dərdə biz?
Qaytarmaqçın haqqımızı
Əl açmayaq namərdə biz.

Düzü budur: Bu dünyada
Gücün varsa, sözün haqdır.
Gücün yoxsa, son əlacın
Xəcalətdir, utanmaqdır.

Bir zamanlar neçə-neçə döyüşlərdən
Qalib çıxan qalalara baxdıqca mən
Keçmişimlə indim durur yan-yanaşı.
Keçmişimdən bu günümə
Yağır indi töhmət daşı.
Alışıram için-için,
Sual qopur ürəyimdən: Neçin, neçin?
Babaların ucaltdığı

Bizim qalib qalalardan utanıram.
Çadırlarda
Donan körpə balalardan utanıram.
Bu torpağı qorumağı
Özümüzə borc bilmədik.
Vətən getdi,
Vətəndaşlıq zirvəsinə yüksəlmədik,
utanıram.

Vətən getdi, şeir yazdıq:
«Sən mənimsən, ana Vətən».
Vətən getdi, nitq dedik
Uca-uca kürsülərdən,
utanıram.

Vətən getdi, el talandı,
Didişirik biz hələ də.
Biz iqtidar uğrundakı döyüşlərdən
Usanmadıq bir gilə də,
utanıram.

Söz altında yatammırdıq,
Diz altında yatan olduq.
Dədələrin qazancını
Nəfsimizə satan olduq.
Yurdu satmaq hesabına
Arzumuza çatan olduq,
utanıram.

Səbrimizin dolub daşan kasasından,
Şəhidlərin alınmamış qisasından,

Onların qan bahasından,
Bu millətin qəhrəmanlıq dühasından
utanıram.

Biz hələ də çalxanırıq
Əsr keçdi, durulmadıq.
Kütləyik, bu çək-çevirdə
Ələnib millət olmadıq,
utanıram.

Qəbirlərin baş daşını oğurlayan,
Yaşamaqçın ölü soyan
Gədələrin özümüzdən olduğuna
utanıram.

Bu millətin acı-doğru, toxu-oğru.
Aclarına acıyıram,
Mən toxuna utanıram.

Ölün varsa, vay halına!
Arxa çevir düzlüyünə, amalına!
Bir qəbirlik yer almaqçın
Ətək-ətək
Rüşvət gərək!
Haqq evinə gedəndən də haqq istəyən
Şərəfsizə nə deyim mən?
Ölüm-ucuz, həyat-baha,
İndi ölüm, yaşamaqdan min qat baha!
O da haqdır, bu da haqdır.
Mənim kimi binəvanın
Son əlacı utanmaqdır.

Yarəb, necə millətdi bu?
Başdan-başa zillətdi bu.
Öz-özünə qənimdi bu.
Hər nə isə mənimdi bu,
Əsrlik qan düşməninə
Deyə bilmir son sözünü,
Amma qırır öz-özünü,
utanıram.
Cırtdan boyda Çeçenistan
Dəvə boyda Rusiyaya dərs verəli
Onu şöhrət məqamından
endirəli
Mən özümü necə varsa,
Elə görüb utanıram.
İndi çeçen qeyrətindən
Dərs götürüb utanıram.

Bu ölkənin sərvətini
O satalı, bu satalı,
Vətən olub hərrac malı,
utanıram.
Çadırlarda el qırılır,
Toylardasa pul cırılır,
utanıram.
Özgəsinin qoltuğunda yuva qurmuş,
Özgəsinin fitvasıyla
Öz xalqına tələ qurmuş,
Özgəsinin əli üstdə
İqtidara can atan kəs
Bu millətə əsl oğul ola bilməz.
Bizimkidir o namərd də.

Buna dözmür, mən yanıram.
Satqına yox, satqınlığa utanıram.

Elə bildik, bu bəlalar
Allah yazan qədər imiş.
Bizim də Vətən sevgimiz
Utanmağa qədər imiş.
Bu torpağı qorumağı
Özümüzə borc bilmədik.
Vətən getdi,
Vətəndaşlıq zirvəsinə yüksəlmədik.
Heç olmasa bu gerçəyə biz inanaq.
Sonuncumuz qalanadək
Ya vuruşaq, ya utanaq!

*Mart 1995*

## YEVTUŞENKOYA MƏKTUB

*Görkəmli rus şairi Yevgeni Yevtuşenko Rusiyanın Çeçenistana basqınına etiraz əlaməti olaraq ona verilən «Xalqlar dostluğu» ordenindən imtina etmişdir.*

Quzeyə, güneyə əl qoyan ölkən –
Bir yanı batıdır, bir yanı doğu,
Xalqların qanına susayan ölkən
Sənə orden verdi: «Xalqlar dostluğu»!
Sən bir dostluğa bax, qardaşlığa bax!
Astar üzə dönüb, üz olub astar.
Gözə kül üfürüb söz ilə ancaq
Bizə dost adıyla düşmən oldular.

Əhsən mərdliyinə, dəyanətinə!
Geriyə qaytardın sən bu ordeni.
-Cütbaşlı qartalın cinayətinə
Şərik eyləməyin – dedin – siz məni.

Belədir, qardaşım, görürük bu gün
Zülmün haqq üstündə son divanını.
Xalqlar dostluğunu bayraq eyləyən
Bir ölkə çeçenin tökür qanını.

Şair – susdurulan gerçəyin dili,
Şair – ədalətin, haqqın vəkili.
Şair – haqq yolunda keçər canından,

Keçməz öz eşqindən, öz vicdanından.
Dedilər: Dağılır məmləkətimiz
Qanunun naminə qan tökürük biz.
Qanun müqəddəssə, bəs vicdan hanı?
Qanunun üzünə boya çəkilməz.
Dağılan şəhəri, tökülən qanı
Dünyada bir qanun doğrulda bilməz.

Dedin: – Dostluq hara, qan tökmək hara?
Dostluq! Ürəyində yaşatdın onu.
Dostluq ordenindən keçib,
xalqlara
Sən sübut elədin dost olduğunu.

Həqiqət önündə təsliməm – dedin,
Qoydun öz yerinə xeyiri, şəri.
Yurdunun xeyrinə haqdan keçmədin
Aşdın, vurub keçdin milli sədləri.
Sən haqqa güvənib, zora tüpürdün.
Öz milli hissindən ucada durdun.

Bu gün qınayanlar tapılar səni
Tarix haqq verəcək sənə son anda.
Sən öz xalqının da səadətini,
Gördün məhkumların istiqlalında.

İşğalçı orduyla Puşkin öyündü
Bu qanlı vəhşətə sənsə utandın.
Sənin qabağında şagirdə döndü
«Qafqaz, əy başını» *- deyən ustadın.

*Rus generalı Yermolovun ordusu Qafqaza hücum çəkəndə Puşkin yazmışdı: "Qafqaz, əy başını, Yermoloq gəlir". - B.V.

Hökmdar zamandır… onun dünyada
Hər şeyi tərsinə devirməsi var.
Dünənki şagirdi bu gün ustada,
Ustadı şagirdə çevirməsi var.

*Yanvar 1995*

## İKİ BAYRAQ

*Rusiyanın işğal ordusu Çeçenistanın hökumət evinə rus bayrağını sancdı.*

Kiçik bir millətə verib göz dağı
O nəhəng Rusiya mənən kiçildi.
Bu gün Qroznıya bayraq sancmağı
Qəsbkar özünə şərəfmi bildi?

Bir vaxt bütün dünya qara bağladı
Nifrətlə, lənətlə baxdı Berlinə.
O vaxt Qafqaz oğlu, Qafqaz övladı
Qələbə bayrağı taxdı Berlinə.
Haqqın rəmzi idi əlli il qabaq
Berlinə sancılan qan rəngli bayraq.

Bu günsə öyünür öz babasının
Tutduğu şəhərə bayraq taxan rus.
O da bayraq sancdı, bu da… Bir baxın
Ona min təşəkkür, buna min əfsus!

Gətirməz Kremlə şərəf, şan bu gün
Bu iki bayrağı yanaşı qoymaq –
Haqqını istəyən bir kiçik xalqın
İşğal bayrağıyla gözünü oymaq.

Nəhəngin gücünə sinə gərməsi
Çeçen mənliyinin birüzlüyüymüş.
Kiçik bir millətə güc göstərməsi
Böyük Rusiyanın gücsüzlüyüymüş.

Məzlumun qanına həris cəlladı
Deyəsən, tanıdı dünya, nəhayət.
Bu iki bayrağın bir deyil adı
Biri Şərəfdirsə, biri Rəzalət.

*Yanvar 1995*

## İKİBAŞLI QARTAL

Ey ikibaşlı qartal,
Üç yüz ildir dad çəkir dünya sənin əlindən.
Düşən qurtara bilmir o qanlı çəngəlindən.
Sən ağ oldun Allaha.
Bizim nağıllardakı yeddibaşlı əjdaha
İkibaşlı qartalın doğmaca əcdadıymış –
Zülmün başqa adıymış.

Mən dünyanın malına könlü tox, gözü toxam.
Bir baş ilə düşünən adicə bir məxluqam,
Sən ikibaşlı qartal!
Gah ondan, gah da bundan torpaq qoparmaq üçün
Daim təlaşlı qartal!
Kiçik, məzlum xalqların ətəyinə qoz töküb
Başını yarmaq üçün
Caynağı daşlı qartal!
Torpaq hərisliyinə satdın namus, arını
İki qitə üstünə gərdin qanadlarını.
Yenə gözün doymadı,
Sənin bu acgözlüyün dünyanı dinc qoymadı…

Durdun sən tarix boyu millətlərin qəsdinə.
Saldın məmləkətləri bir-birinin üstünə.
Çıraqları keçirib, sinələri dağladın.
Sən elə düşünmə ki,
Özgələri tapdayıb, özünə gün ağladın.
Qəsbkar vərdişinlə sənə elə gəldi ki,

Böyüyüb ucalmısan.
Əslində, öz xalqını bizlərdən də beşbetər
Rəzil günə salmısan.
Sən bilmədin, qalxmağın sabah da enməsi var.
Zor bacadan girəndə haqq da qapıdan çıxar.
Sən «dostluq» deyə-deyə xalqlara düşmən oldun.
«Azadlıq» deyə-deyə azadlıq göylərində
Duman oldun, çən oldun.

İçin qara, çölün ağ, başdan başa boyasan,
İftirasan, riyasan.
O biri dünyada da hələ gözün var sənin,
İki qanad, iki baş, iki üzün var sənin.
Həm Qərbə, həm də Şərqə gərib qanadlarını
Bəsdir kölgə saldığın,
Baxıb iki tərəfə həmişə çaş qaldığın.
Sən həm dünən, həm bu gün
İki başla düşündün.
Kəsilsəydi bir başın, qan içməkdən doyardın.
Sən də bu aləm kimi,
Bir baş ilə düşünüb dünyanı dinc qoyardın.

*Yanvar 1995*

# ÖZÜMDƏN
# ÖZÜMƏ ŞİKAYƏT

## 1

Hanı dədələrin yurdu – o yerlər?
Zaman dara çəkib sınayır bizi.
Qoyub qaçdığımız ulu qəbirlər
Baxıb arxamızca qınayır bizi.

Millət zəlil oldu, məmləkət talan,
Getdi əlimizdən ixtiyarımız.
Yaman sındırıldı əcdaddan qalan,
Bəy, xan qürurumuz, şah vüqarımız.

Uçmaq sayılırmış yerdə sürünmək
Mənlik arzumuza girov qoyulmuş.
Böyüklər önündə cücəyə dönmək
İndi lap adicə bir vərdiş olmuş.

Biz hardan öyrəndik törpülənməyi?
Yumşağı əydirib, bərkə əyildik.
Dağların önündə muma dönməyi
Dağa ucalmağın tək yolu bildik.

Divarı təməldən çəp hörənlərik,
Sabahı nə duyan, nə görənlərik.
Gələni çəpiklə qarşıladıqca
Gedəni təpiklə ötürənlərik.

Ləyaqət, mətanət sıxıldı küncə
Yaşamaq naminə yaşadıqca biz.
Qürur mədəmizdə əridilincə
Ürəkdən yuxarı qalxdı mədəmiz.

Güzəran naminə boğuldu gerçək
Yalana əl çaldı şərəf də, şan da.
Bəy, xan qürurumuz yolçu payı tək
Paylandı didərgin çadırlarında.

Gedən torpaqları qaytarmaq üçün
Savaşa bilmədik, sülhə öyündük.
Babamız qurd idi,
ancaq biz bu gün.
Əllərdən ot yeyən quzuya döndük.

Nə ilə bitəcək bu dərdin sonu?
Bunu deyə-deyə dərddə boğulduq.
Papağı başlardan çalan oğrunu
Yoxsa, qəbristanda gözləyən olduq?*

**2**

Neftin qoxusunu gendən alınca
Təzə əcnəbilər Vətənə doldu.
Vətən oğulları qazanc dalınca
Özgə qapılarda didərgin oldu.

---

*Oğru Molla Nəsrəddinin papağını götürüb qaçır. Molla oğrunun dalınca getmir, bir baş qəbirstanlığa gəlir. Ondan niyə belə etdiyini soruşanda: "Hara getsə, gec-tez bura gələcək"- cavabını verir. - B.V.

Sərvətim, dövlətim paylandı yer-yer
Bizim sayəmizdə yad sayələndi.
Dolların gücünə təzə gəlmələr
Gözəl mənzillərdə kirayələndi.

Bir zaman ruscaydı bütün reklamlar
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.

Bilmədik, kəsilib illərlə bənd-bənd
Şərimiz nə imiş, xeyrimiz nədir.
Özgəyə itaət, özünə rişxənd
Bəlkə bu millətin fitrətindədir?

Qorxunc yuxuları durultmalıykən
Çözüb mənasını tərsinə yozduq.
İt hürən tərəfə üz tutmalıykən
İşıq gələn yerə getdik… uduzduq*.

Batdı bu dalğada düzlər, təmizlər
Əyrilər yenə də üzdə göründü.
Yenə yalan sözlər, boyalı sözlər
Gerçəyin üzündə kirşana döndü.

Bizim dərdimizə şahidsən özün
Məgər bəs deyilmi bunlar, ilahi?

*Nağıla görə, meşədə azan adam sağ tərəfdən it səsi eşidir, sol tərəfdə isə işıq görür. O, işıq gələn tərəfə gedir, getdikcə yol uzanır, işığa çata bilmir, yolu tamam itirir. Amma it səsi gələn tərəfə getsəydi, kəndə çıxacaqdı. - B.V.

Səndən odumuza su diləməkdən
Dilimiz bağladı qabar, ilahi.

Dizlərim bükülmüş, belim əyilmiş,
Qürurum alçalmış, haqqım yeyilmiş.
Heç demə, heç kəsə gərək deyilmiş
Dəyanət, ləyaqət, vüqar, ilahi.

Uzaq bir adanı sahil bilmişik,
Adil dədəmizi cahil bilmişik,
Özgənin şamını qəndil bilmişik
Bizi özümüzə qaytar, ilahi.

*Aprel 1993*

## YOL AZMIŞAM MƏN

*Rüstəm Kamala*

Tanıya bilmirəm köhnə dünyanı
Dədələr yaşayan o dünya hanı?
Təlaşa vermişəm mən öz ərkimi
Anlaya bilmirəm təzə dünyanı.
Zaman elə dönüb, güzgülər kimi
Tərsinə göstərir bizə dünyanı.

Hər şey elə bil ki, bitir tərsinə
Sular da tərsinə dövr edir indi.
Dərdi göynədərdi bir vaxt insanı
İnsan öz dərdini göynədir indi.

Qanmaz qanmamaqda, qananlar yatır,
Təpələr qabarıb dağla tən olmuş.
İndi Keçəl Həmzə iş başındadır,
Koroğlu Həmzəyə cangüdən olmuş.

İndi başda bitir ağacın kökü,
Soyuq daş əridir, isti dondurur.
Milçəyin belində dünyanın yükü,
Hörümçək bal verir, arı tor qurur.

Qarışıq salmışıq əyrini düzlə,
Ayıra bilmirik ipəyi bezdən.
Sülhə can atırıq düşmənimizlə,
Düşmən axtarırıq öz içimizdən.

Nə yaman dəyişdi bu köhnə dünya
Qatıq qara olub, indi ağ olmur.
Durub öz-özünün qəsdinə dünya
Elə dəyişib ki, tanımaq olmur.

«Kommunist» küçəsi «İstiqlal» oldu
Biz elə bildik ki, sular duruldu.
Amma bilmədik ki, həmən çağdayıq
Kommunist ruhuyla yaşamaqdayıq.

Biz «yoldaş» deyərdik bir-birimizə
İndi bu köhnə söz yaramır bizə.
Söz başqa rəng aldı bu çəkhaçəkdə
Düşündük zamanla həmtay, həmyaşıq.
İndi «bəy» desək də, «cənab» desək də
Həmən «tovarişik», həmən «yoldaşıq».

O köhnə nadanlıq yenə dəb olmuş
Amma maskasını dəyişir nadan.
Ucalıq taxtından mərdlik qovulmuş
Yenə ucalmırıq biz alçalmadan.

Nə qədər çox imiş buqələmunlar
Üzünə üz taxmış ucalmaq üçün.
Dünən bu Vətənə düşmən olanlar
«Vətən aşiqi»nə çevrilmiş bu gün.

Köhnə çirkabını duru yerindən
Bu günün adıyla o, satır bizə.
Vətənsevərliyin daş səngərindən
Vətən düşmənləri top atır bizə.

Amal da, məslək də dəyişir tez-tez
Əməl yox, küyümüz, harayımız var.
Yalan kərpicindən yönsüz, qibləsiz
«Həqiqət» adında sarayımız var.
Yalanlar – cəzbli, yalanlar – şirin
Keçib boynumuza dəmir halqası.
Yalan dənizində üzən kəslərin
Yalnız rəzalətdir qiblənuması.

Yenə rəzalətə aparır bizi
Dalğalar qoynunda çırpınan qayıq.
Yalanlar sındırdı mənliyimizi
Çəpiklə təpiklər arasındayıq.

Vaxtın dediyinə mən qulaq asıb,
Ayrıla bilmədim özüm-özümdən.
Köhnə cığırları yaman kol basıb
Bu təzə dünyada yol azmışam mən.

*İyul 1995, Şəki*

## İÇDİM, AĞLADIM

*Qardaşım Nurəddinə*

Kaş, içə biləydim,
gündə yüz kərə
Həsəd aparıram mən içənlərə.
İçir, bu dünyanı baş-ayaq görür
İçir, ağı qara, solu sağ görür.
Tərsinə dönəndə düzəlir dünya
Adama necə də xoş gəlir dünya.

İçə bilməsəm də içirin məni
Dərddən azad olum barı bircə gün.
Yurdun özü boyda ağır dərdini
Qovub ürəyimdən çıxarmaq üçün.

Siz allah, o qədər içirin məni
Bunca haqsızlığı ədalət bilim.
Unudub nadanın qəsd-qərəzini,
Yurda xəyanəti sədaqət bilim.

O qədər içim ki, yenə, mən yenə
Xalqımı hər şeyə müqtədir sayım.
Vətən övladının kürsü naminə
Vətən satdığına mən inanmayım.

Siz allah o qədər içirin məni
Zənn edim qayıdıb anam – Qarabağ.

Millətin düşdüyü bu faciəni
Unutmaq, unutmaq istərəm ancaq.

Bizim arzumuzca əssin bu rüzgar
Millət öz adıyla yenə öyünsün.
İmişli düzündə bitən çadırlar
Mənim gözlərimdə saraya dönsün.

O qədər içim ki, bu miskin həyat
Bir an gözlərimdə dönsün gülşənə.
Yoxsa, məşəqqətə dönür hər saat
Bu zalım dünyada yaşamaq mənə.

Siz allah, doyunca içirin məni
Dünyadan kamımı götürüm yenə.
Bir vaxt qulum olan alçaq düşməni
Qarşımda əyilmiş qul görüm yenə.

Dönsün həqiqətə ehtimal, güman
Yer ilə səmanı qarışıq salım.
Zülmətə nur saçan xəyallarımdan
Vətən torpağına bir işıq salım.

«Özümü bir anlıq unudum» - deyə
Mən bu gün möhtacam bu təskinliyə.
Özümü aldatmaq istəmişəm ki,
Asudə buraxsın dərd bir az məni.
O qədər dərd içib qəm yemişəm ki,
Bu adi içkilər ovutmaz məni.

İçdim, keflənmədim,
içdim, ağladım.
Dönüb qəm selinə
axdım, çağladım.

*İyun 1995, Şəki*

## HAQQ - ZÜLM

Haqqının kölgəsində
Ömür sürən olmayıb.
Haqqın dəyirmanında
Zülmün üyündüyünü
Hələ görən olmayıb.

Haqdan da, zülmdən də
Yenə zülm doğulur.
Həm haqqın, həm də zülmün
Təzə dəyirmanında
Üyüdülən haqq olur.

*İyul 1995*

## FƏRQİ YOX

Bu arzudan o arzuya yön verib
Çalışırıq günü günə satmağa.
Ömrümüzdən ömür verib, gün verib
Tələsirik arzumuza çatmağa.

Günümüzü zəhrimara döndərib
Tək bir ömrü min diləyə dəyişdik.
Ömrümüzdən ömür verib, gün verib
Heç bilmirik, nəyi nəyə dəyişdik.

Anlamırıq, tora salır kim kimi.
Üyünürük dəyirmanda dən kimi.
Düşünməyə tapammırıq macal da.
Bu qapıda unla dənin fərqi yox.
Son mənzilə yol gedirik… Bu yolda
Tələsmənin, gecikmənin fərqi yox.

*Mart 1995*

## BİRİ-BİRİMİZƏ ATDIĞIMIZ DAŞ

*Turanlılarız, adiyi-şüqlü sələfiz biz*
*Öz qövmümüzün başına əngəl kələfiz biz.*

**M.Ə.Sabir**

Bir vaxt heyran idi bu dünya bizə
Yoxsa, ayrıldıqmı öz özümüzdən
Sonra «mən, mən» deyib bir-birimizə
Düşmənə dost olduq, qardaşa düşmən.

Bəs niyə sonralar, dandıq biz, bizi.
Bunu çox düşündü müdrik babalar.
Keçilən yollarda mənliyimizi
Endirən nə qədər uçuşumuz var.

Uçduq, ləzzət aldıq süzməyimizdən
Öncə görünmədi məqsəd qibləsi.
Dünənin qədrini bilmədik dünən,
Dünənin qədrini bildik ertəsi.
Uçduq, ucaltmadı bizi uçuşlar
Bilmədik, hər şeyin öz məqamı var.

Biz öz qanımıza min yol bələndik
Savaşdıq çox zaman bir-birimizlə.
Qırıb özümüzü çox qürrələndik
Bizi məğlub edən zəfərimizlə.

Yol uzun, yol yoxuş, hər yan çən, duman,
Dözümün şələsi çiynimizdədir.

Qandal açılsa da qollarımızdan,
Köləlik hələ də beynimizdədir.
Bir böyük mətləbi unuduruq biz;
Birdir vətənimiz, birdir elimiz.
Biri-birimizə atdığımız daş
Vətənə, millətə dəyir, a qardaş.

*İyun 1995*

## RƏHMƏT SƏNƏ, A SABİR

Mən həmişə xalqımı öz əzmindən dönməyən,
Düşmənini yendirən, amma özü yenməyən,
Min səsli, min həvəsli, od nəfəsli bilmişəm,
Kəshakəsli bilmişəm,
Babək nəsli bilmişəm.
Demə, Novruzəliymiş…
Basıb-kəsən, heç demə, qəlbi deyil, diliymiş.
Rəhmət sənə, a Sabir.
Başı daşlı bu millət,
Gözü yaşlı bu millət
Öz oduna qalanıb,
Yüz yerə parçalanıb,
Daha taqətdən düşüb, çək-çevirdən usanmış.
Sən bizi zamanında yaxşı tanımısanmış.
Sən deyəndə «Əngəlik qövmümüzün başına»,
Bu gün heyran qalmışıq sənin qan yaddaşına.

Səndən sonra bu xalqın
Nə fitrəti, nə kamı, nə də karı dəyişmiş.
Pal-paltarı dəyişmiş.
Yenə həmən-həmənik,
Özümüzə düşmənik.

Düşdüyümüz bəlalar
Saxta güvəncimizin atəşini soyutdu,
Həqiqətin, gerçəyin üzünə ayna tutdu.

Gördük, ələnməmişik, biz qalmışıq ələkdə.
Zaman bizdən öndədir,
Bizsə bu gün hələ də sürünürük yedəkdə.
Rəhmət sənə, a Sabir!

*İyul 1995*

## ÜRƏYİMİ CİLOVLA

Mənə ağıl verən dost, yetərincə var ağlım.
Sənin dediklərini qanmağa çatar ağlım.
Gileyli olmamışam mən ağlımdan bircə dəm,
Amma nə çəkmişəmsə, ürəyimdən çəkmişəm.

Çağlayan şəlaləyə çağlamaq öyrətmə, gəl.
Sən anası ölmüşə ağlamaq öyrətmə, gəl.
Əgər varsa qüdrətin, ürəyimi cilovla,
Qəlbimi ağlınla yox, ürəyinlə sən ovla.

*Avqust 1995, Şəki*

# TANRININ TƏBƏSSÜMÜ

Nəvələr – gələcəyə
Uzanan əllərimiz,
Qürub çağında bizim
Sübhümüz, səhərimiz.

Lap yüzü də haqlasaq,
Bizi dünyaya bağlar –
Tanrının insanlara
Təbəssümü – uşaqlar.

*Noyabr 1994*

## QƏDİRİN SƏSİ

*Qələm yoldaşım Nahid Hacızadəyə*

«Sona bülbüllər»də Qədirin səsi –
Dağların dupduru büllur çeşməsi,
Qürubda üfüqün müztəribliyi,
Könül qəribliyi, can qəribliyi.
Bir yetim uşağın hıçqırıqları,
Sınan bir könülün səs qırıqları,
Ayrılıq nisgili, ürək yanğısı,
Tonqaldan ayrılan alov çınqısı.
Qırğı hücumundan dərbədər düşən
Durna qatarının yerə enməsi,
Sönən arzuların tüstülənməsi…

«Sona bülbüllər»də Qədirin səsi
Yağışdan sonrakı qövsi-qüzehdən
Aldı boyasını, aldı rəngini.
Cıdır düzündəki ətirli mehdən
Aldı öz ruhunu, öz ahəngini.
Bu torpağın səsi, bu yerin səsi
Qədirin səsidir, Qədirin səsi…

Bizi bizdən alan bu səs, elə bil
Ağızdan, dodaqdan, boğazdan deyil,
Qeybdən, ilahi məkandan gəlir.
Haqqın, həqiqətin tərəzisində
Günahı, savabı çəkəndən gəlir.

Qaynayır bu yurdun ruhu qanında,
O, köhnə mahnıya təzə can verir.
Cabbarın, Seyidin səs meydanında
Oturub onlara imtahan verir.
Təzə nisgilimi, təzə dərdimi
Bu gün calaq edir o, köhnə dərdə.
Yazda çiçəklənən budaqlar kimi
Fəryad çiçəklənir zəngulələrdə.

Köhnə dərd köhnəlib, çəkilən yetər,
Bu təzə dərdimiz köhnədən betər!
Allah götürərmi sussun Şahbulaq,
Bülbül məskənini qarğalar alsın?
Allah götürərmi bizim Qarabağ
Qədirin səsinə tamarzı qalsın?
Qədirin naləsi, Qədirin səsi,
Bu torpağın səsi, bu yerin səsi.

Bu səs göyüm-göyüm bizi göynədir
Oddur, gözümüzdə dönür qan yaşa.
Yetim bir uşaqdır Şuşasız Qədir
Adicə torpaqdır Qədirsiz Şuşa.

Qədir naləsinə səs verib, uyub
Qayalar, dərələr, dağlar mələşdi.
«Sona bülbüllər»ə o, heykəl qoyub,
Onunla özü də abidələşdi.

*Aprel 1996*

## GÜNLƏR BİR-BİRİNƏ BƏNZƏR

Yazın bu xoş günü mənə qış gəlir,
Vallah, bu gün mənə lap tanış gəlir.
Duydum qəlbimdəki döyüntülərdən
Bu günü haçansa yaşamışam mən.

Bu hüznlü səhər, bu qərib axşam,
Üfüqdə qızaran müztərib axşam
Yaşanmış günlərə bənzər gör necə.
Bənzər bir-birinə günlər gör necə.
Çıxıb öz əzəli köhnə yolundan
Geriyə fırlanır, yoxsa, bu dövran?

Yatan bəxtimizdən bizə bir xəbər,
Başımız üstündən bulud çəkilsin.
Xəbər gözləyirəm, təzə bir xəbər,
Bu gün dünənimdən seçilə bilsin.

*1996*

## GÜNAHDAN GÜNAHDIR

Üç rəngim, ulduzum, bir də hilalım, -
Mənim öz bayrağım, doğmam, halalım.
Oraqlı-çəkicli o al bayrağın
Bizə gətirdiyi – köləlik, qərəz.
O haram bayraqdan halal bayrağın
Fərqini bilməyən qədrini bilməz
Halal bayraq altda köhnə gədalar
İndi bu Vətəni satır dollara.
Axı, qərəzin də bir hüdudu var,
Vətən satmaq hara, bu bayraq hara?
Yaxşı tanıyıram başsız başları –
Vətəndə vətənsiz vətəndaşları.
Onlar vərdiş edib gəlmə bayrağa…
O bayraq altında Vətən satmağa.

Onlar bilmədilər, niyyət o niyyət,
Halal bayrağımız o bayraq deyil.
Onlar bilmədilər, millət o millət,
Vətən o vətəndir, çağ o çağ deyil.
Onlar seçəmmədi qaradan ağı –
Gəlmə bayraq ilə doğma bayrağı.

Onlar bilmədilər, gəlməyə hörmət,
Doğmaya həmişə xəyanət olur.
Gəlmə bayraqlara nifrət, xəyanət,
Doğmaca bayrağa sədaqət olur.

Onlarsa öyrəşib gəlmə bayrağa,
O bayraq altında millət satmağa.
Bu halal bayrağın altında ancaq
Günahdan günahdır Vətəni satmaq!

*İyun 1995*

## AD GÜNÜN MÜBARƏK!

Yatır içimizdə kölə xisləti,
Azalmır, çoxalır hər il gədalar.
Satın məmləkəti, satın milləti,
Ey alim rütbəli cahil gədalar.

İqlimdən iqlimə qol-budaq atmış
Millətin adı yox, amma özü var.
Tarixlər içində tarix yaratmış
Qədim bir millətə ad axtarırlar.

Millətlər içində bu gen dünyada
Adımız yoxdursa, öz yerimiz yox.
Ya göydən düşmüşük biz dünən… ya da
Bicik, dədəmizdən xəbərimiz yox.

Qar-qar qarıldaşır qara qarğalar,
Qar üstdə ağ qarğa görünə bilmir.
Əyrinin qılıncı, düzün haqqı var,
Amma düz, əyridən bu gün seçilmir.

Məqsədin, qərəzin dəyirmanında
Gör necə üyünür saxta söz dəni.
Bol, ucuz sözlərlə onlar bu anda
Müftəyə alırlar baha rütbəni.

Yerdənmi çıxmışam mən belə soysuz,
Özgəyəm özümə, doğmayam yada.

Gördük, sözdən ucuz, namusdan ucuz,
Rütbədən baha şey yoxmuş dünyada.

Mən indi bildim ki, ən ucuz matah
Vətənmiş, millətmiş, ana diliymiş.
Kökü qarışıqlar, qanı pozuqlar
Demə, bu millətin öz vəkiliymiş.

Yetişsin millətə xoş xəbər bu gün,
Bu xəbər yayılsın bütün aləmə.
Millətə ad qoydu «alimlər» bu gün,
Millət öz adını bilmirmiş, demə.

Allah, sən doğruya düz yol göstərib,
Əyrini yaratdın cah-cəlalında.
Niyə rəzalətə qol-qanad verib,
Qoydun fəziləti qapı dalında?

Füzuli türkdürsə, onda mən nəyəm?
Kimin varisiyəm, kimin nəsliyəm?
Vaxtın hökmünə bax! «mən türkəm» - deyən
Öz ulu babama, demə, yadam mən.

Ulular! Dandılar mənliyimizi,
İndi qara yaxır qulaqlar gözə.
Biz sizdən deyilik, əfv edin bizi,
Biz sizdən olsaydıq, bənzərdik sizə.

Öz halal adına rəhmət, a millət,
Dağıldı başından duman, çən bu gün.
Ad günün mübarək! Millət, a millət,
Bəs niyə sevinib gülmürsən bu gün?

Qulluq yarışının tozanağında
Göründü bu qəsdin əsl niyyəti.
Qocaman millətə kamil çağında
Bu gün ad qoydular… Qaldı sünnəti.

*Noyabr 1995*

## ŞƏHİD ANASI

İçindən alışıb o, yana-yana
Müşgül diləyini gətirir dilə,
Məmurun önündə əyilir ana:
-Şəhid anasıyam, mənə rəhm elə!
«Şəhid anasıyam!» - zənn edir ana
Dərdin çarəsidir bu iki kəlmə.
Əslində, millətin bağrından keçən
Qılınc yarasıdır bu iki kəlmə.
-Şəhid anasıyam, eşidin məni…
O susdu, dayandı, gözləri doldu.
Könüllər dağlayan iki kəlməni
Bağlı qapılara açar bildi o.

O, hələ bilmir ki, açar bildiyi
Düşmür kilidlənmiş daş ürəklərə.
Bəsdir təsəlliyə könül verdiyi,
Döyür qapıları o, nahaq yerə.
-Şəhid anasıyam! – Naləyə bir bax!
Bu nalə bir qəlbi yumşaltmır ancaq.
Biz niyə həmişə özgəyanlıyıq
Amma özümüzə soyuqqanlıyıq?

Bu iki kəlmənin mətləbi nəydi?
Duymayıb, həm ona, həm sözə qıydıq.
-Şəhid anasıyam, -deməməliydi,
Biz onu gözündən oxumalıydıq.

-Şəhid anasıyam!
                                Onun fəryadı
Məlum həqiqəti kölgələndirir,
«Ana» dediyimiz o böyük adı
Analıq taxtından yerə endirir –
Biz niyə bu qədər soyuqqanlıyıq?

Şəhidi şəhidlik mərtəbəsindən
Endirir ananın giley-güzarı.
Bizdən kömək uman dərdli səsindən
Alışıb yanmazmı şəhid məzarı?

Ana qapılarda dilənir bu gün,
Oğul şəhid olmuş, yoxsa, bununçün?

*İyul 1996*

## MƏN TÜRKƏM

Sən bizi aldatdın illərdən bəri,
Mən çərxi-fələkdən dərs götürmüşəm.
Özgə anasından süd əmənləri,
Özgə qulluğunda duran görmüşəm.

Bəsdir dözdüyümüz ölümdən betər,
Köhnə bazardakı o köhnə nırxa.
Milləti yüz yerə caladın, yetər,
Yüz arxın suyunu qatma bir arxa.

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

Sübutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən adımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
«Türkəm» - gerçəyini pıçıldayacaq.

*Noyabr 1995*

## AYNA TUT

Ey mənim şəklimi çəkmək istəyən,
Sözümün, şeirimin rəssam qardaşı,
Söylə, varmı sənin elə bir boyan,
Orda əks oluna qəlbə damlayan,
Köksümü dağlayan isti göz yaşı?

Dərdimin rəmzidir mənim göz yaşım
Xalqımın həm keçmişi, həm bu günündə
İçimə baş vuran rəssam qardaşım,
Çək mənim rəsmimi ayna önündə.

Özünü həmişə görmək istəyən,
Özünü axtaran bir yolçuyam mən.
Özüm də bilmirəm hara gedir yol,
Özgəyə məlumam, özümə məchul.

Baxıram aynaya…
                    Baxır yad-yada.
İçimi göstərə bilmir ayna da.

Ayna bir sirdirsə, könüllər min sirr.
Dərdini boyanla sən ovut görüm.
Ayna məni mənə göstərə bilmir,
Rəsminlə könlümə ayna tut görüm.

*İyul 1996*

## DÜNYAMIZ DƏYİŞSİN

Gülür, işvə satır o, narın-narın,
Bir qırıq qəmi yox, kədəri yoxdur.
Vallah, bu gözəlin, bu işvəkarın,
Elə bil dünyadan xəbəri yoxdur.
Bir anlıq dayanır, təzədən gülür,
Anlaya bilmirəm o, nədən gülür?

Sevinc də, fərəh də, arzu da xülya,
Xəyallar dağılıb dönür bir heçə.
Mənim gözlərimdə ağlayan dünya,
Bu qızın gözündə gülür gör necə.

Bəxtəvər başına, xoşbəxtdir bu qız,
Sevinir kiməsə yar olduğuna.
Bizim bu qayğılı, dərdli dünyamız,
Həqiqət budur ki, yaraşmır ona.

Sevinc qisməti var, axı, hər kəsin,
İlahi, sən qıyma yaratdığına.
Qız yenə sevinsin, o, dəyişməsin,
Dünyamız dəyişib yaraşsın ona.

*İyul 1996*

## APRELİN BİRİ

Mən uşaq olanda, aprelin biri
Yaman aldadardıq yol ötənləri.
Yolun ortasına qoyardıq nəsə,
Yolçu əyiləndə ipi çəkərdik,
Qəşş edib gülərdik verib səs-səsə.
Yolçunu aldada bilməyimizdən,
Sevinər, zövq alar, ləzzət çəkərdik.

O vaxt nə biləydim, aldanmaq – ağır,
Aldatmaq insanın öz zatındadır.
O vaxt nə biləydim, haqdan keçməzin
Payına dilini bağlamaq düşür.
O vaxt nə biləydim, aldanan kəsin
Halına gülmək yox, ağlamaq düşür.

Böyüdüm, yoluma kötük atdılar,
Mənim özümü də çox aldatdılar.
Ayıra bilmədim əyridən düzü,
Gördüm, həqiqətin yolu dar imiş.
Demə, ikiüzlü dünyanın özü,
Aldatmaq üstündə bərqərar imiş.
Ayların, illərin bütün günləri
Aprelin biriymiş, aprelin biri.
Sonralar anladım, yaşamaq üçün
Hamı bir-birini aldadır bu gün.

*İyul 1996*

## SƏNGƏR – MASA

Savaş meydanında səf pozan ölkə,
Deyər öz sözünü səngər başında.
Savaş meydanında uduzan ölkə,
Qazanmaq istəyər söz savaşında…

Savaşa bilməyib geri çəkildik,
Sülhə qovuşmağı qələbə bildik.
Bilmədik sığalla düyün açılmaz,
Toyuğa yas da yas, elə toy da yas.

Silahla sözünü deyə bilməyən,
Masa arxasında nə deyəcəkdir?
Düşməni önündə əyə bilməyən,
Düşməndən mərhəmət diləyəcəkdir…
Səngərdə əyilib «təslimәm» - deyən,
Masa başında da əyiləcəkdir.

*Yanvar 1996*

## ÖZÜM OLMALIYAM

Özünü dərk eylə, özünü anla,
Gah ona, gah buna baş əydin, yetər.
Özgəyə bu qədər yalmanmağınla,
Özünə düşmənsən özgədən betər.

Bizim özlüyümüz getdi büsbütün,
Hanı bəs kişilik, hanı bəs qürur?
Dünyaya hökm edən qoca Şərq bu gün,
Qərbin çubuğuyla oturub-durur.

Yada əyilməkdən, vallah, yorulduq,
Bezmədik özgəni yamsılamaqdan.
İtdi mənliyimiz, tanınmaz olduq,
Təmiz qanımıza qan çalamaqdan.
Tanımaq istəmir bu dünya bizi,
Təqlidə boğdurduq mənliyimizi.

Tanınmaq istərəm mən öz səsimlə,
Bəsdir yaşadığım bir məhkum kimi,
Dünyanın gözünə yaxşı, pisimlə,
Görünmək istərəm olduğum kimi.

Nəyəmsə, mən oyam, qarayam, ya ağ,
Niyə özgəsinə küsənməliyəm?
Özüm olmalıyam, mən özüm ancaq,
Özüm deyiləmsə, demək heç nəyəm.

*İyul 1996*

## RƏQİBSİZ

Düşmən qəzəbindən çəkinib qorxmamışam mən,
Məmnunam, onun, əksinə, düşmənçiliyindən.
Düşmən kini öz ölçüsüdür məndəki əzmin,
Öz nifrəti həcmində, deməк, qorxur o, məndən.
Qüdrətlidir Allah yaradan qansız o iblis,
Allah da keçinmir, demə, qüdrətli rəqibsiz.

*1996*

## FƏXRİYYƏ

*Allah sənə rəhmət eləsin, Sabir!*

Bu millət içində dərdin, zillətin
Ağrıyan yerinə əl qoya bilmir.
Başının üstündə başqa millətin
Kölgəsi olmasa, yaşaya bilmir.

Həmişə sulayıb özgə bağını,
Özünü özünə yad, uzaq sanır.
Şam bilir özünün çil-çırağını,
Özgənin şamını çil-çıraq sanır.

Ürəyi taybatay, sinəsi dağ-dağ,
Əkdiyi meyvəni özgəsi dərir.
Gəlmənin başına dolanır, ancaq
Doğma qardaşına dirsək göstərir.

Keçər intiqamdan, keçər inaddan,
Köhnə düşməninə kinsiz, qərəzsiz.
Yadın pisliyini çıxarar yaddan,
Amma yaxşılığı qoymaz əvəzsiz.

Lap çoxdan unudub öz soyadını,
Küldə od axtarır közü bəyənmir.
Özünə qısqancdır, öz övladını
Özgə bəyənməmiş, özü bəyənmir.

Ona qara yaxan oğlullarını
O, bəzən özünə bir qahmar sayır.

Ona qahmar çıxan oğullarını
Ayağı altına salıb tapdayır.
Xalqı düşünəni gətirir cana.
Yazığın başına dünya dar olur,
Xalqdan min oğrayıb bir qaytarana
Bəzən dönə-dönə minnətdar olur
Nə yaxşı tanıyır, nə yaman bilir
Başına gələni qəzadan bilir.

Özgə kölgəsinə daldalanmışıq,
Əsrlər boyunca şöhrət sanmışıq
Ana dilimizə qəmzə satmağı,
Özgənin dilində qırıldatmağı.

Gücü çatmayanı alır çiyninə,
Qapını görsə də, bacadan girir.
Məktəbi uçulur, gəlmir eyninə,
Rüşvət pulu ilə məscid tikdirir.
Düz yolu bəyənmir, dolaydan keçir,
Təpəyə dırmaşır, yoldan yan keçir.

Elə oğul var ki, ötməmiş bir il,
Ata məzarını tamam unudur.
Döyüb sinəsinə, amma bu cahil,
Özgə ölüsünə min il yas tutur.
Dayazı dərindən ayıra bilmir,
Xeyrini şərindən ayıra bilmir.

Dədə torpağımız miras malı tək
Özgə qılıncıyla pay-pay bölündü.

Artıq çoxdan bəri torpaq itirmək
Adətə çevrildi, vərdişə döndü.

Kiçik məhlələrə bölüb özünü,
Birlikdən danışır, bir ola bilmir.
Həmişə sabaha dikir gözünü,
Elə hey bulanır, durula bilmir.
Əlimiz silaha sarılmalıykən
Allaha yalvarıb açıldı göyə.
İş belə gedərsə, qorxuram ki, mən
Beləcə alışaq qeyrətsizliyə.

Özgəyə pərəstiş, özünə rişxənd
Bu qəsdin oduna yaman bişmişik.
Çox ağır yük imiş, heç demə, qeyrət,
Atıb çiynimizdən yüngülləşmişik.
Satdıq Qarabağı özümüz dünən
Umduq xilasını özgələrindən.

Mədədən yuxarı qalxmaq - bir hünər!
Cismi ruhumuzdan biz çox istərik.
Çeçen ac olsa da, azadlıq istər,
Amma biz qəfəsdə toxluq istərik.

Doğmaca qardaşı yüz il danmışıq
Amma özgəsini qardaş sanmışıq.
Özgə qoltuğuna sığınmaq yetər!
Ağasız yaşaya bilmərik məgər?

Bu necə millətdir, bu necə millət
Varmı Yer üzündə beləcə millət?

Uduzmaq istəmir, uda da bilmir
Oynayır özüylə heç-heçə millət.

Sevirəm, sevmişəm daim mən onu
Qoruya biləydim özündən onu.

*May 1996*

## YA RƏBBİM

Bitib şikayətim, sözüm, söhbətim,
Bir addım yol imiş xeyirdən şərə.
Ya rəbbim, özün de, mənim millətim
Layiqmi bu qədər müsibətlərə?

Qaçqına çevrilib öz ölkəsində
Halal torpağından qovulan da biz,
Dünyanın «ədalət məhkəməsində»
Günahkar sayılıb, xar olan da biz.

Budurmu ədalət, budurmu vicdan?
Bizə yedirdirlər zoru haqq kimi.
Vallah, gözümüzə tor çəkir zaman
İşığa kor olan yapalaq kimi.

Kimin toyuğuna daş atmışıq biz,
Biz şükran olmuşuq qismətimizə.
Kimin dırnağını qanatmışıq biz,
Niyə bu taleyi sən yazdın bizə?

Hansı çağındasa qoca tarixin
Bəlkə bir addımlıq büdrəmişik biz?
Yəqin, səhv atılan o bir addımın
Çəkir ağrısını nəsillərimiz.

Özgəyə qıymadıq, haqqın xətrinə
Vallah, özümüzə hər zülmü qıydıq.
Bizim səhvimiz də bu imiş bəlkə,
Bəlkə başqa cürə yaşamalıydıq?

Ayıra bilmədik biz cütdən təki,
Ayıra bilmədik şeytanı cindən.
Zülməti görmədik, içimizdəki
İşığın gücündən, kəramətindən.

Gərilib başımız üstdə qaranlıq,
Boynumuz o səmtə dönmür ki, dönmür.
Qaydadır, görünər zülmətdən işıq,
İşığın içindən zülmət görünmür.

Bitib şikayətim, sözüm, söhbətim,
Bir addım yol imiş xeyirdən şərə.
Ya rəbbim, özün de, mənim millətim
Layiqmi bu qədər müsibətlərə?

Sənə əl açmaqdan əlim yoruldu,
Səndən millətimə əlac istədim.
Sənə yalvarmaqdan dilim lal oldu,
«Bağlı qapıları özün aç», - dedim.

Xeyirə dolanmır niyə bu dövran?
Niyə bu milləti məğmun eylədin?
Niyə başqasına bir qarış olan
Yolu bizim üçün uzun eylədin?

Gərilib başımız üstdə qaranlıq
Boynumuz o səmtə dönmür ki, dönmür.
Qaydadır görünər zülmətdən işıq,
İşığın içindən zülmət görünmür.

*İyun 1996*

## ELƏ BİR GÜN Kİ…

Mənim könlüm zamansız bir gün həsrətindədir.
Çünki mənim xəyalım özümdən çox öndədir.
Neçə-neçə günlərin, həftələrin içindən
Dondurub saxlanası bir gün axtarmışam mən.
Elə bir gün ki, o gün sevincim, səadətim,
Özümdən güclü olsun.
Mən o günün içində əriyim,
mənim üçün
Bu dünya unudulsun.

Elə bir gün ki, o gün dünyaya gəlməyimin
Qazancını anlayım.
Elə bir gün ki, onu ömrə bərabər sayım.
Elə bir gün ki, o gün arzumdan pöhrələnsin,
Xəyalımdan doğulsun.
O – zamansız, məkansız, əbədi bir gün olsun!
Dünən keçmiş,
Bu gün – boş,
Sabah – xəyal, sabah – yox!
O – zamansız, əbədi günün axtarışında
Bir savab yox, günah – çox!

*İyul 1996, Şəki*

## BİLİRƏM

Ağılı var ikən dərk etməyənlər,
Qulağı var ikən eşitməyənlər,
Ürəyi var ikən alışmayanlar,
Dili də var ikən danışmayanlar,
Söyləyin, dünyaya biz niyə gəldik?
Yeməyə, içməyə, ölməyə gəldik?

Qaynaya-qaynaya daşdığım zaman,
Mən özüm özümü aşdığım zaman,
Yaxşıya, gerçəyə can atan zaman,
Əlimdə qələmim yaradan zaman
Bilirəm nə üçün doğulduğumu,
Bilirəm dünyada var olduğumu.

*İyul 1996*

## SUAL VARSA, CAVAB VAR

Mən üzgüçü deyiləm, nə işim var dərində
Mən üzürəm dənizin ancaq dayaz yerində.
Dənizin dərinliyi vahiməylə doludur
Təkcə bunu bilirəm: Dərinlik qorxuludur.

Mən qorxuram könlümün içinə baş vurmağa,
Orda donub daşlaşan layları qaldırmağa.
Qaldırdınmı bir layı, lay üstündən lay gəlir,
Sükut layı pozulsa, dalınca haray gəlir.

Haray, dərinlikdəki min-min məchuldan haray!
Ana yoldan ayrılan cığırdan, yoldan haray!
Bir gülü dərmək üçün min əzaba dözürkən
Qarşında gül yerinə dikələn koldan haray!

Qorxuram xəyalımın məni hər gün aldadıb
Sərxoş edən meyindən.
Bir də…könül dəryamın dibsiz
dərinliyindən.
Nə deməkdir duyğumun bircə anın içində
Yanıb cilalanması?
Sabahkı faciənin bu gün hardansa sızıb
Ürəyimə damması?
Nə damdı, niyə damdı?
Niyə ağla dammadı, ancaq ürəyə damdı?
Biz damanı bilirik damdırandan xəbərsiz.
Gah yanıb, gah sönürük, yandırandan xəbərsiz.

Daman ki, məlum idi.
Bəs, damdıran kim idi?
Niyə xəbərdar edir tale məni öncədən?
Xəbər taledən gəlir, yoxsa, mənə Tanrının
Verdiyi düşüncədən?

Yuxuda gördüyümüz gerçək olur ertəsi,
Bu günün olayları unudulur ertəsi.
Qırx il əvvəl olanlar elə bil bayaq olmuş.
Niyə uzaqlar yaxın, yaxınlar uzaq olmuş?
Nə deməkdir bu hallar –
Məni heyrətləndirən bu cavabsız suallar?

Heykəllərə döndərib hər duyğumu, hissimi
Mehrab kimi, büt kimi
Onların qarşısında mən donmaq istəyirəm,
Hər birinə əlimlə toxunmaq istəyirəm.
Eşitmək istəyirəm fəryadını, ahını,
Mən görmək istəyirəm bir duyğudan göyərən
Onun dörd cinahını.

Dünyanın bir sığalı, amma bol şilləsi var,
Ömrün üç pilləsi var:
Dünən-günah,
Bu gün – dərd,
Gələcəksə – ölümdür.
Üçü birgə – insanın öz-özünə verdiyi
İztirabdır, zülümdür.
Günah – köhnə günahdır, unuduruq amma biz.
Günahkardır cəddimiz.

O zamandan bulanıb hey axsa da çox sular,
Tanrının cənnətindən cəddimizi qovdular.
Hakim ola bilmirik nəfsimizə o gündən,
Xilas ola bilmirik şeytanın hiyləsindən.
Biz əl açıb dərgaha –
Təzə adlar veririk bu gün köhnə günaha…
Tanrı hər şeydən əvvəl torpağı yaratdı ki,
Yaratmaq istədiyi insan üçün yem olsun,
Təbiətdə bir ahəng, tarazlıq, nizam olsun.
Amma insan ölüncə
Bu dəfə də o özü torpaq üçün yem oldu.
Bu, ona təslim ikən,
O, buna təslim oldu.

Sən ey bu nizamdakı ilk qaydanı pozanım,
Sən ey vaxtın əlilə bizə tale yazanım,
Nə deməkdir, özün de,
Yemin dönüb yenidən yeminə yem olması?
Hakimin qul olması, qulun hakim olması?

Bircə günün içində min bir hala düşməyim –
Özgəsiylə dil tapıb, özümlə döyüşməyim
Nə deməkdir, ilahi?
Mən ki, aciz bəndənəm,
Bu duyğular əlində
üzü qara,
dili lal,
Gözü kor şərməndənəm.

Mənə verdiyin ağıl niyə gəlmir karıma?
O, cavab tapa bilmir min-min suallarıma.

Özün de, mənim ağlım aciz isə bu qədər,
Hardan doğur bəs sənin sirrinə əl uzadan,
Bu cavabsız suallar?
Eyni gündə doğulur hər qıfıla bir açar,
Qıfıl varsa, açar var,
Sual varsa, cavab var.

*Mart 1996*

## TAYKEŞ

Görən, niyə uşaqlar çəkməsini tərs geyir?
Sağ tay ilə sol tayı neçin seçə bilməyir?
Gəldiyi dünya ilə olduğu bu dünyanı
Taykeş görür uşaqlar.
Varla yox arasında əbədi çəkişmədən
Dərs götürür uşaqlar.

Bu fani dünyamıza uşaqlar haqdan gəlir,
Varlığa yoxdan gəlir.
Təzəcə başlayırkən ömrün əyri-üyrülü,
Keşməkeşli yolunu,
Seçəmmir sağ-solunu.

*1996, Şəki*

## ŞEYTANLA
## MƏLƏYİN DİALOQU

### Ş e y t a n

Şeytan dedilər adıma, olsun, dözənəm mən,
İnsanın əzəl dostu bu dünyada mənəm, mən.

İnsana Mələk təlqin edir saxta bir iman,
Hər saxtanı insandan alıb tərgidənəm mən.

Huşyar edirəm insanı cənnət yuxusundan,
İnsana həyat cənnəti bəxşiş edənəm mən.

Mən olmasam, öz haqqını insan ala bilməz,
Hər yerdə onun haqqını ancaq güdənəm mən.

### M ə l ə k

Mən istəmirəm yol aza, haqdan dönə insan,
Namus və şərəf mərtəbəsindən enə insan.

Mən istəyirəm uymaya şeytana bir anlıq,
Qulluq edə insafına, vicdanına insan.

İnsanlığı nadanlığa qurban verəcəkdir,
Aldandısa nəfsin dəli şeytanına insan.

Mən bir mələyəm, bəllidir aləmdə məramım:
Qoy qıymasın ömründə şərəf, şanına insan.

Allah dedi: Yalnız ona bəxş etdiyim ağlın
Yüksəlməli son həddinə, imkanına insan.

*1996*

## BİLMƏMƏYİN EŞQİNƏ

Babamın babasından qalma
bir xışı vardı,
Səhərdən axşamadək torpağı
şumlayardı.
Xış dərinə gedəndə dartınardı
yazıq kəl,
Babam qamçı vurardı təpəsinə əlbəəl.
Baxardım, hey baxardım
Boyunduruq altında inildəyən
kələ mən.
İstərdim yardım edəm bu zillətə,
bu zülmə
Boyun əyən kələ mən.
Babamsa öz işində,
kəlin çəkdiklərini
Nə anlar, nə duyardı,
Mahnı da oxuyardı:
-Hovha kəlim, hovhalar,
Ay dolanıb il olsun.
Dərin şumla, dərin keç,
Məhsulumuz bol olsun.

Qamçı kəlin belində
şırım açır şaq-şaraq!
Kəllə birgə babam da əzab çəkirdi,
ancaq
Babam taxıl eşqinə,

Bəs kəl nəyin eşqinə?
Mən sonralar anladım:
Qanmamağın eşqinə, bilməməyin
eşqinə.

*1996, Şəki*

* * *

Balta zərbəsindən meşə qan ağlar,
Qırılıb daşınır meşəli dağlar.
Nə günə qalmışıq, neft ölkəsində
Neftimiz, qazımız, işığımız yox.
Məmləkət böhranlar məngənəsində,
İndi özgələrə möhtac olmuşuq.
Yaşıl meşələrin dərdi bizimçün
Dəmir sobalarda istiyə döndü.
Çətin aldığımız istiqlal bu gün
Gözləri kor edən tüstüyə döndü.

*İyul 1996, Şəki*

* * *

Mən nə qədər dolsam belə, boşalmıram,
Zaman keçir, yazdığımdan zövq almıram.
Ürəyimi isidəmmir şeirim, sözüm
Bu özünə düşmənçilik bilməm nədir?
Ömrüm boyu mənim qəlbim, mənim gözüm
Hələ yaza bilmədiyim şeirimdədir.

*Avqust 1994*

## TÜRKİYƏ HAVASI

Yazbaşı çıxarkən Erginəkondan,
Qurdu özümüzə ram edənlərik.
Könül atəşilə biz zaman-zaman
Dəmir dağlarını əridənlərik.

Kökümü, soyumu tanıyan gündən
Amal qanadında mən ucalmışam.
Adım danılsa da ilk gəncliyimdən,
Türklük havasıyla nəfəs almışam.

Mən yumruq altında deyərdim, nə qəm,
Eşqim–əqidəmə sonsuz inamdır.
Azərbaycan – anam, Türkiyə – qibləm,
Amalım – yönümdür, qiblənümamdır.

Mən idim qul olan öz ölkəsində,
Bölünə-bölünə xırdalanırdım.
O vaxtlar bitsəm də yad kölgəsində,
Səni öz qarşımda işıq sanırdım.

Türklük qurban idi o zaman şərə,
Sən bizə zülmətdə çil-çıraq oldun.
Yurddan qaçaq düşən Sədrəddinlərə*,
Məmməd Əminlərə** sən sığnaq oldun.
Ruhumu, eşqimi sənə uçurdum,

*Tatarıstan millətçisi. Sonralar Türkiyədə yaşamış Sədri Məksudi Arsal.
**Azərbaycan Musavat Partiyasının banisi.

Mənim taleyimin öz baxtı sənsən.
Təkcə mənim deyil, ey ata yurdum,
Türklük dünyasının paytaxtı sənsən.

İmzalar içində xəttim yox ikən
Səni varlığıma isbat sanmışam.
Mənim sevincim də, güvəncim də sən,
Həmişə mən sənə arxalanmışam.

Dilim ayaqlarda toz  olan zaman,
Ali məclislərdən qovulan zaman
Nigaran deyildim ana dilimdən.
Sənə güvənirdim,
bilirdim ki, mən
Dilimdə danışan bir türk yurdu var.
Dilim yaşayarsa, millətim yaşar.

Durur ürəyimdə qoşa dağ kimi
Ana Vətənimlə ata Vətənim.
Sənin ayağına bir daş dəydimi,
Bakıda ürəyim qanayar mənim.

Dilimiz, dinimiz, amalımız bir,
İki bayraq altda bir millətik biz.
Xeyrimiz, şərimiz ayrı deyildir,
Əl-ələ verəli dədələrimiz.

Onlar yenilməmiş heç bir düşmənə,
Yerində söyləmiş ulu Bilgə xan:
Ey türk, dağlar belə baş əyər sənə,
Birləşib özünə döndüyün zaman.

Ruhumu, eşqimi sənə uçurdum,
Mənim taleyimin öz baxtı sənsən.
Təkcə mənim deyil, ey ata yurdum,
Türklük dünyasının paytaxtı sənsən.

Sən göydə, sən yerdə zəfər çalanda
O zəfər bizimdir – sənin, həm mənim.
Sən böyü, sən ucal, sən ucalanda
Mən də ucalıram, Türkiyəm mənim.

*Aprel 1996*

## VAYDIR ƏKDİYİNİZ

Ey cibi dolular, ürəyi boşlar,
Ey sərvət dəlisi, köhnə naxoşlar,
Ey qeyrət damarı kəsik gədalar,
Peysəri qatbaqat iddialılar,
Görən, olacaqmı sümürdüyünüz
Bu millət qanından doyan gününüz?

İp həmən o ipdir, halqa o halqa
Köhnə yolunuzla getdiniz yenə.
Qismətə şükr edən bu gözəl xalqa
Ümid yedirtdiniz çörək yerinə.

Sizin bir haqqınız, xalqın min haqqı,
Yoncanı gözlədik, bitmədi yazda.
Sizin yediyiniz millətin haqqı,
İlişib qalmadı boğazınızda.
Yeyin tısqırınca, yeyin ölüncə,
Bu millət əriyib çöpə dönüncə.

Ümid yeyə-yeyə hələ gözləyir,
Bu millət götürür hər cür zilləti.
Hələ ki, dinməzcə o, ümid yeyir,
Siz də bala-bala yeyin milləti.

Millətin qanıdır sərvətin, varın,
Siz öz kefinizdə, məmləkət darda.

Gecələr çadırda ac yatanların
Payını uduzun kazinolarda.

Millətin başına çatı salanlar
Nə insaf tanıyar, nə mürvət anlar.
Gözünüz doymadı dünya malından,
Siz ey susadıqca duz yalayanlar.

Bu qədər nəfs olar? Borc istədiniz
Çomağı çobandan, çəliyi kordan.
Yeyib doymadınız, doyub yediniz
Vallah, həm torbadan, həm də axurdan.

Vaydır əkdiyiniz, sizsə gül dərin.
Gizli saydığınız dolların səsi
Yetim evlərində kimsəsizlərin
Ahu-naləsidir, ahu-naləsi.
Vallah, gec-tezi var, billah, gec-tezi,
Bu ahlar, nalələr tutacaq sizi.

Tamahın dibi yox…Dağıdın, sökün,
Hələ yerinizdə cağbacağsınız.
Göydən Allah baxır, gələcək bir gün,
Yediyiniz qədər qusacaqsınız.

*Avqust 1996*

# SƏBR HAQQINDA
# İKİ ŞEİR

*Əməl qardaşım Asif Mərziliyə*

## 1. Səbr də bir bəhanədir

Biri dedi: - Səbr versin Allah bizə,
Əlac etsin dərdimizə.
Sənsə dedin: – Qul eylədi səbr bizi,
Allah alsın əlimizdən səbrimizi.
Gözümüzdən axan yaşı silə-silə
Bel bağladıq təvəkkülə.
Arzumuza çatmaq üçün
Gün sayırıq, il sayırıq.
Düşdüyümüz müsibətə
Boyun əyib yaşayırıq.
Səbrin ümid kölgəsində
Mürgüləyib yaşayırıq.

Cəsarətin kəmliyindən
Səbr bizə lüzum oldu.
Səbrimizlə kündələndik,
Urvamızsa dözüm oldu.

Özün söylə, ulu tanrım,
Səbr nədir, dözüm nədir?
Ölüm-zülüm yaşamaqçün
Səbr də bir bəhanədir,
Dözüm də bir bəhanədir.

Səbr nədir, dözüm nədir?
Taleyini öz əlilə
Yaratmayan millətlərin qaçdığı yer.
O, millətin
Əzab ilə, zillət ilə barışması,
İtirdiyi torpağına
Həsrət ilə barışması,
Yaxşı-pisin bir-birinə qarışması…

Səbr nədir, dözüm nədir?
Nalə səsi, fəryad səsi.
Öz-özünə güvənməyən bir millətin
Öz haqqını özgəsindən dilənməsi.
Evində mür-müc olması,
Vurmaq üçün yaradılan
Əlin göyə açılması.

Biri dedi: Səbr versin Allah bizə,
Əlac etsin dərdimizə.
Mən deyirəm: Qul eylədi səbr bizi,
Allah alsın əlimizdən səbrimizi.

**2. Dedilər, demədilər…**

Hələ uşaq ikən dedilər bizə:
Səbrdir, dözümdür hər elmin başı.
Biz də şükr eləyib qismətimizə
Zülmə boyun əydik hər addım başı.

Dedilər: Ağıllı «bəli» deyəndir.
Dedilər: Son gülən səbr eləyəndir,

Ən böyük arzular səbrdən keçir,
Yay qışdan, söz səsdən, min-birdən keçir.
Dedilər: Tələsən təndirə düşər,
Çıxmağa çalışma öz çanağından.
Dedilər: Səbrlə bəsləsən əgər,
Atlas geyinərsən tut yarpağından.

Dedilər, səbrdir hər elmin başı,
Səbrlə quruyar ancaq göz yaşı.
Dedilər, Allahın adıdır səbr,
Səbrsiz bir ağac, bir gül göyərmir.

Amma demədilər, səbri din kimi
Qəbul eləyənlər ölər acından.
Namus tapdananda
bir xain kimi
Səbri asmalısan dar ağacından.

Ancaq demədilər, çatma son həddə,
Səbrə boyun əymə, məqsədin haqsa…
Bizə demədilər, lənət o səbrə,
Səni məğmun edib alçaldacaqsa.

Dərd daşır ürəkdən deyə bilmirik
Zalimin necə də qalınmış gönü.
Nəyi istəyirik niyə bilmirik
Səbrimiz uzadır zülmün ömrünü.

Dözümə qısılıb, səbrə güvəndik,
«Şükür» - deyə-deyə zirvədən endik.

İndi özümüzə özümüz yadıq.
Ayılaq, bu zaman, o zaman deyil,
Bizim düyünümüz, indi anladıq
Səbrin çözümüylə açılan deyil.

*İyul 1997*

## MƏDDAH

*Bu il iyul ayında televiziya ilə çıxış edən bir nəfər torpağının 20 faizi işğal olunmuş, 1 milyon qaçqını olan millətimizin bu gününü «ən işıqlı günlər» adlandırıb prezidenti Allahla qiyaslandırdı.*

Cəzanə gətirdi, nəhayət, bizi
Boş-boş nitqləri beyni boşların.
Hamıya bəllidir qəsdi, qərəzi
Sözlərdə gizlənən bu alqışların.

Sözünün əvvəli, sonu da «mən, mən»
Çıxıbdır hamıyla davaya natiq.
Sözləri bir mizan, ölçü bilmədən
Sovurur toz kimi havaya natiq.

Onun sözündəki  iddiaya bax,
Danışır «işıqlı bugünümüzdən».
Ax, necə yaraşır gəbərdib asmaq
Bu nadan oğlunu dediyi sözdən.

Havaya sovrulur boş gurultular,
Axı, boş qazanın küyü çox olar.
O səslər, nidalar gəlməz bir kara,
Sözlər küyə dönüb haray çəksə də.
Altdan paxır çıxır, mis qazanlara
Yalanlar nə qədər qalay çəksə də.

Hüdudsuz qiyaslar, hədsiz boyalar…
Amma nə sübutu, nə də şahidi.
İnsandan o qədər təmənnası var,
Allahı eləmiş ölçü vahidi.
Yumub ətrafına gözünü natiq,
Necə yeyib tökür özünü natiq.

Məddahlıq yarışı baş alıb yenə,
Tərifdən salona yağır gur yağış.
…Onu sevirsənsə, Onun xətrinə
Danışma, bir işin qulpundan yapış!

Onun yolu aydın, məramı aydın,
Bələdçi nə gərək görünən dağa.
Vallah, çata bilməz canfəşanlığın
O dağın sirrini bizə açmağa.

Günbatar ölkələr insanlıq üçün
Təzədən kəşf edir göylərdən yeri.
Bizim ölkədəsə kəşf olur hər gün
Köhnə yaltaqlığın təzə növləri…

*İyul 1997*

## BAZARDA

Bazara bax,
bir-birinə qarşı durub
alan, satan.
Bu alverdən razı deyil
Nə aldanan, nə aldadan.
İki «düşmən» üz-üzədir.
Alıcıda satıcıya
Bu küdurət, nifrət nədir?
Matahının qiymətini
Alıcının
imkanından çox deməsi –
Dediyindən dönməməsi…
Alıcısa cibindəki var-yoxunu
Hesablayır dönə-dönə,
Pulu çatmır
Balasının bircə qırıq sevincinə…
Nədir ucuz, nədir baha?
O bilmədi, susdu bir an.
Bircə şeyi o bildi ki,
zəhmətinə verdikləri
Dəyər ucuz olduğundan,
Bu qiymətlər onun üçün çox bahadır.
Xörəyin də düz dəyəri iştahadır.

Bir tərəfdə kartof, soğan,
Bir tərəfdə şor satılır, yağ satılır.
Alıcının sinəsinə

çalım-çarpaz dağ çatılır.
Alan baxır matahlara,
Ala bilmir,
Satan batır günahlara.
Alıcıyla satıcının arasında
Qiymət suyu bulandırır.
Matahlarsa ağızları sulandırır.
Hər nemətin qiyməti var.
Bazardakı qiymətləri yuya bilməz
Ağızlardan axan sular.
Ala bilmir,
ürəyində bu həsrətə «Döz» – yarası!
Ala bilmir,
Bu «fərsizlik»
Külfətinin qabağında üz qarası.
Bir tərəfdə kartof-soğan,
Bir tərəfdə ət satılır.
Əslində, ismət satılır.
Balasının qabağında xəcil qalan
Kişiyə töhmət satılır.
Ömrü boyu saxladığı,
Amma bu gün əldən gedən
Şərəf, ləyaqət satılır.

*İyul 1997*

## BİR ÖMÜR YUXU

Bu gecə yuxuda gördüm, ölmüşəm
Nəfəsim təngiyib…
Amma bu aləm
Yüz illik, min illik vərdişindədir,
Hər kəs öz yolunda, öz işindədir.

Gəlir qulağıma qəhqəhə səsi,
Hardasa uzaqdan bir quş nəğməsi.
Odur, bax, mələyir çöldə bir quzu,
Axır bulaqdan da şırhaşırla su.

Heç nə dəyişməyib evdə yerini
Dolabda kitablar, güldanda çiçək.
Açıq pəncərənin pərdələrini
Gah-sağa, gah sola oynadır külək.

Gördüm, mənə baxır şəklim divardan,
Dedim, nağıl imiş arzu da, kam da.
Dedim, bir fərq varmı, görəsən, bu an
İndi o şəkillə mənim aramda?

Mən ölü, o cansız… kənar otaqdan
Gəldi nəvələrin şən-şatır səsi.
Gördüm, mənə baxır masam bucaqdan,
Neyləyim? Üstümdə ölüm kölgəsi…

Bir səs qulağıma gəlmişdi haqdan,
Ölümü görmüşdüm o vaxt elə bil.

Mənim ürəyimə dammışdı çoxdan:
Ən böyük qismətim ölümdür bu il.

Unutmaq istədim ölümü bir an
Gördüm, bacarmıram, əl hara çatır?
Mənim ölümümlə, gördüm, dünyadan
Heç nə əskilməyib, həmən dünyadır.

Yaman dəyişkəndir dünyanın rəngi
İnsanı ağladan bəzən ağlıdır.
Böyük səfehlikdir, düşünəsən ki,
Dünyanın varlığı sənə bağlıdır.

Qışqırdım, içimdə boğuldu səsim,
Səslərin içində yox oldu səsim.
Hamının dərdinə mən ortaq oldum,
Hamının dərdini saldım qəlbimə.
Bu gün mən ölmüşəm, mənim yoxluğum
Heç kəsin vecinə deyilmiş, demə.

Yalanmış bu dünya, dedim, ağ yalan!
Təzə bir şeirimi bitirəcəkdim.
Masamın üstündə yarımçıq qalan
Yazıma boylanıb, qəfil ah çəkdim.

Ayıldım yuxudan… dedim ki, çoxu
Nədənsə, öncədən ölümü duymuş.
Yox, yuxu deyilmiş gördüyüm yuxu,
Mənim yaşadığım ömür yuxuymuş.

*Avqust 1997*

## HAMIYA BORCLUYAM

Atama, anama, müəllimlərə,
Yoldaşa, sirdaşa, daha kimlərə
Borclu olduğumu düşündükcə mən,
Yumağa dönürəm xəcalətimdən.

Ömür yollarında mən büdrəyəndə
Çoxları tutubdur qolumdan mənim.
Hamını özümə dost bilib mən də
Sanıram, dünyada yoxdur düşmənim.

Bulaqdan əyilib su içirəmsə,
Həm ona borcluyam, həm suya borclu.
Uyub içimdəki bir qadir səsə
Deyirəm, borcluyam, hamıya borclu!

Bu elin xeyrini, şərini görcək
Həm yasa borcluyam, həm toya borclu.
Vətənin ən adi vətəndaşı tək
Hamıya borcluyam, hamıya borclu!

Uğur arzuladı yoluma kimsə
Mən onun uğurlu yoluna borclu.
Hardasa, kimisə incitmişəmsə,
Özümü sanıram mən ona borclu!

Düz iş görməyəndə haqqa əyildim,
«Haqsızam» - deməkdən heç utanmıram.

Özümü hamıya mən borclu bildim,
Heç kəsi özümə borclu sanmıram.

Özgədə axtarsaq hər naqisliyi,
Hamı yaxşılıqdan gərək əl çəkə.
Pis adam var isə…onun pisliyi
Sənin pisliyindən göyərib, bəlkə.

Düzlük əyriliyə səcdə qılanda
Dünya öz-özünə kəsilir qənim.
Özgənin dərdinə ortaq olanda
Elə bil azalır öz dərdim mənim.

Milləti özünə borclu sananlar
Kimlərdir?
Milləti, xalqı dananlar!
Millətə özünü borclu sananlar
Kimlərdir?
Millətçün şam tək yananlar!

Biz üzü qarayıq millət yanında,
Hamının bu xalqa, yurda borcu var.
Millətin bugünkü güzəranında
Sən də günahkarsan, mən də günahkar.

Borcdan, haqqımızı irəli saydıq,
Tutdu bağçamızı şeytan alağı.
Əgər borcumuzu biz anlasaydıq,
Darda qalardımı Vətən torpağı?

Harda gizlənmisən, ay Vətən oğlu?
Vətənin başından duman, çən keçir.
Millətə borcunu ödəmək yolu
Vətənə, millətə sevgidən keçir.

*Avqust 1997*

## SƏFƏR

Elə ki, düşürük ana bətninə
Yoxluqdan varlığa bir yol tuşlanır.
Elə ki, doğulduq dönüb tərsinə
Varlıqdan yoxluğa səfər başlanır.
Olumdan əvvəli anıb uçundum,
Ölümdən sonranı düşünüb dondum.

Doğuldun, sanma ki, açıldı baxtın,
Bir yük çəkəcəksən hər qanadında.
Olumdan ölümə uçuruq, vaxtın
Xeyir qanadında, şər qanadında.

*İyul 1994*

## KİMDİR YARADAN?

Heç idim… Yarandım mən də heç nədən
Tanrının qurduğu möcüzədir bu.
Xalqın yaratdığı sözdən, kəlmədən
Şeir yaradıram, kim kimə borclu?

Adicə məxluqam, əgər buyamsa,
Mən özüm xaliqin məxluquyamsa,
Kim deyə bilər ki, yaradanam mən?
Adicə söz alıb, söz satanam mən.

Mənə vəhy gəlir xalqın səsindən,
Amma yazan isə mənim öz əlim.
Xalqın yaratdığı söz çeşməsindən
Yaranan şerin yaradanı kim?

*Avqust 1997*

## BƏZƏN...

Vətən öz boyundan boy alsın, - deyə
Vətənin yolunda baş qoyanları,
Bu ölkə gün-gündən ucalsın, - deyə
Onun təməlinə daş qoyanları,
Vətən çağrışına həmişə öndə
Gedib, öz haqqını borc sayanları,
Vətənin dərdini çiyinlərində
Ağırlıq bilmədən daşıyanları,
Ana vətənilə güvənənləri,
Vətəni canından çox sevənləri
Neçin sevə bilmir bəzən bu Vətən?
Vallah, bu hikmətə məəttələm mən.

*Avqust 1997*

# DUA

Son illər hər gecə əl açıb göyə
-Ya rəbbim, bu xalqa nicat ver, - deyə
Kömək istəyirəm ulu tanrıdan.
Düzəlmir, bizimçün dolanmır yenə
Bu çərxi dövran…

Bilirəm, yalvarıb göyə əl açmaq
Kama çatdırmayıb heç bir millәti.
Neyləyim, əlimdən bu gəlir ancaq,
İxtiyar şairə siz çox görməyin
Bu gün bacardığı bu fəziləti.

Alın qırışlarım, üz qırışlarım
Keçdiyim ağrılı, dolaylı izlər…
Mənim təmənnalı yalvarışlarım
Uzanır, çəkilən əzablar qədər…

Nə qədər göylərə üz tutsam da mən,
Görürəm, eşitmir yaradan məni.
Eşitmək istəmir o, bəlkə qəsdən
Sınayır  bu xalqın iradəsini.

Azalıb dəyəri elə bil sözün
Ayıra bilmirik əyrini düzdən.
Bəlkə bugünümüz utanır bu gün
Çox qədim, çox uzaq keçmişimizdən.

Dilim topuq çalır, gülə kül deyir,
Şair kəlamı da düşüb kəsərdən.
Əlimdə qələmim elə titrəyir,
Söz gülləm çaş salır hədəfi hərdən.
Elə bil sözün də örtüyü qalmış,
İçi ya çürükdür, ya boş oyuqdur.
Fıt qoza bənzəyir, səs-küyü qalmış,
Qabığın içində ləpəsi yoxdur.

Şairlər, ayıraq şeytandan cini,
Təzə məna verək qocalan sözə.
Qaytaraq gücünü, ilkinliyini
Füzuli şeirindən od alan sözə.

Hayqıraq bir səslə: - Nicat ver, Allah
Çiynimiz tablamır bu ağır yükə.
Məni eşitməyən o qadir Allah
Bizim səsimizi eşitdi bəlkə.

*İyul 1997*

## ÜZÜNƏ DURMAZMI?

O, öz qüdrətinə inanan oldu,
Qaçdığı mənzili başa vuran tək.
Keçdiyi yolları tez danan oldu,
Uca kürsülərdə o, oturan tək.

Özündən savayı dandı hamını,
Hamının börkünü yırtıq istədi.
Qalxdıqca az bildi öz məqamını,
Həmişə qismətdən artıq istədi.

Dünyanı versələr əgər tək ona,
Doymaz, doymayacaq nəfsinin gözü.
Doğrunu eşitmək nə gərək ona,
Eşitmək istəyir umduğu sözü.

Yaxını yaltaqdır, arxası nadan,
Nə həya tanıyır, nə də ar bilir.
Hamıya paylayıb minnət heç nədən
Hamını özünə minnətdar bilir.

Əyilib dalbadal üfürməsələr,
Odunlar köz tutub, ocaq qalanmaz.
Bu da bir qaydadır, əzəldən əgər
Ətraf alçalmasa, o, ucalanmaz.

Axı, hər zəfərdə bir səbəb də var,
Sonluğun əvvəli səbəbdir, ancaq.
Səni bu mənzilə çatdıran yollar
Üzünə durmazmı? Dön, arxana bax!

*Avqust 1997*

## YUXUDA ÖLÜM

Doğulduq, gedirik heçliyimizə,
Yoxdan yoxluğadır bu yolun sonu.
Bu borcu bilməklə Yaradan bizə
Bildirir özünün var olduğunu.

Bizdən soruşmadan Yaradan bizi
Yaratdı…
Bu əmrə biz də baş əydik.
Gələndə bilmədik gəlməyimizi,
Nola, gedəndə də heç bilməyəydik…

Sən özün yaratdın, axı, kiməm mən?
Təkcə bir ricam var Səndən, ey Xuda!
Al mənim canımı nə vaxt istəsən,
Yuxuda, yuxuda, ancaq yuxuda!

Bir səs şaqqıldayıb ildırım təki:
Dedi: - Qorxursanmı, yoxsa, ölümdən?
-Həyatla ölümün sərhəddindəki
Zülümdən qorxuram, - dedim, - zülümdən.

*Fevral 1996*

## KÖNÜLLƏ SÖHBƏT

-Bu niyə belədir, o nədən elə?
Ola bilməzdimi o da başqa cür?
-Axı, mümkünmüdür gətirmək dilə
Bu nədən ötrüdür, o nə üçündür?

Tutma ətəyindən bu gün dünənin,
Ağlama, ağlama, könlüm, ağlama.
«Niyələr» başına bəladır sənin,
Ağrımaz başına yaylıq bağlama.

Ağlama, ağlama, könlüm, ağlama,
Kimsə ağlamaqla yetişməz kama.

-Axı, təsəllidir ağlamaq mənə,
Vallah, heç yaraşmır bu qınaq mənə.
Dərdi son mənzilə aparan yolam,
Xəzinə üstündə yatan yoxsulam.

-Ağlama, ağlama, könlüm, ağlama,
Bir düşün, əl götür təlatümündən.
-Elə şeylər gəlir, vallah, ağlıma,
Ağlım olduğuna inanmıram mən.

*İyul 1997*

## HARA GEDİR SABAHIMIZ?

Uzun illər düşünmüşəm:
Millətlərin cərgəsində biz də varıq.
Yurdumuza qəsd edənin
Gözlərini oyanlarıq.
Biz o qədər nəcibik ki,
Bir balaca işarədən söz anlarıq.
Haqla zoru ayırd edib
Öz yerinə qoyanlarıq…

Millətimin taleyini
Mən düşündüm zaman-zaman.
Keçdi zaman, keçəmmədik
Gördüm, əsrin sınağından.
Zaman yaman harın imiş,
Demə, əsrin şadarası
narından da narın imiş.
Keçəmmədik o taya biz,
Şadarada qaldı bütün kəsirimiz.

Əsrin böyük sınağına
Demə, hazır deyilmişik.
Yoxuşu düz yol bilmişik.
İndi ulu Yaradandan soruşuram:
-De, kimik biz?
Məzlumuq, ya zalımıq biz?
Vaxtla tələb arasında

Bəlkə bir gün dolaşmışıq
Vaxtın hansı döngəsində biz çaşmışıq?

Daş üstündə göyərməyən bir tumuq biz,
Özümüzə zalım ikən
Başqasına məzlumuq biz.
Əldən gedən torpaq üçün
ürəyimiz çilik-çilik.
Zalım bizdən torpaq alıb,
Biz zalımdan sülh istərik.
Özümüzə dal çevirib
Özgəsinə qardaş dedik.
Biz yalanı körükləyib
Həqiqətə çıxdaş dedik.

Özgəsini yamsılayıb elə bildik:
Biz də dönüb ərən olduq.
Səpdiyimiz toxumların meyvəsini
Qarabağda dərən olduq.

Biz köhnənin xəstəsiydik,
Mərəzimiz bəlli idi
Sabirlərə, Cəlillərə.
Yaramızdan qan açıldı
Qarabağda birdən-birə.

Mədəmizi ağlımıza
Dəyişməyi şərəf sandıq.
Özgəsinin qabağında toyuq olub
Evimizdə xoruzlandıq.
Qonşumuzun aclığını

Bilib rahat yatırıqsa,
Ləyaqəti, dəyanəti
Vəzifəyə satırıqsa,
Dostumuzdan donos yazıb
Arzumuza çatırıqsa,
Demək, bizdən üz döndərib Allahımız,
Hara gedir sabahımız?
Dəryamızı bəyənməyib
Özgəsinin hovuzunda üzürüksə,
Yad dilində dil-dil ötüb
Doğma ana dilimizə
Əgər dodaq büzürüksə,
İnamımız, imanımız
Ya heç yoxsa, ya çürüksə,
Demək, bizdən üz döndərib Allahımız,
Hara gedir sabahımız?

Vicdan adlı bir mələkdən üz döndərib
İblisliklə barındıqsa,
Ləyaqəti tapdalayıb
Özümüzdən yuxarıya yarındıqsa,
Dinimizi pula satıb
Özgə dinə sığındıqsa,
Ruhanimiz dəllal isə, tacir isə,
Anasının əmcəyini
kəsən ilə əlbir isə,
Rüşvət «Hacı» rütbəsini
Qazanmağa tədbir isə,
Demək, yoxmuş Allahımız,
Hara gedir sabahımız?

Bir ölkədə satan varsa
Öz halalca torpağını,
Biz özümüz söndürdüksə
Dədəmizin yandırdığı çırağını,
Ayır görüm əməllərin
Qarasından sən ağını.

Bu nəsildən o nəsilə tel qırıqsa,
Tayfamızı millətimiz,
Evimizi Vətənimiz sanırıqsa,
Vətən, millət namusunu danırıqsa,
Demək, bizdən üz döndərib Allahımız,
Hara gedir sabahımız?

Ömür boyu haram yeyib
Başqasının halalına cumuruqsa,
Bir tikəyə möhtac olan əlacsızdan
Əgər rüşvət umuruqsa,
Gözümüzlə gördüyümüz dəhşətlərə
Gözümüzü yumuruqsa,
Özümüzdən ağır gələr günahımız,
Özümüzü yandıracaq öz ahımız.
Demək, bizdən üz döndərib Allahımız,
Hara gedir sabahımız?

*Avqust 1997*

## MƏZARÇI İLƏ SÖHBƏT

*«Qəbir qazan» şeirinin müəllifi*
*şair Vaqif Aslana*

Çatıb salam verdim qəbir qazana,
Alıb salamımı yana çəkildi.
Dilimdə suallar baxdım mən ona,
Osa börkü ilə tərini sildi.
-Qəbrini qazdığın bu ölülərlə
Əvvəl tanışdınmı?
-Əlbəttə, hələ
Bəzisi dostumdu… Açılan solar.
Bunların içində qohumum da var.
Bu, mənim peşəmdir, şükür Allaha
Əliboş getmirəm evə bir axşam.
Bir vaxt bu şəhərdə yaşayanların
Çoxunun qəbrini özüm qazmışam.
Sənin dədəni də dəfn etmişəm mən.
-Deyirsən, məni də dəfn edəcəksən?
-Onu allah bilər… Allaha yalvar
Sənə də nə vaxtsa qismət eləsin
Dədənə tikdiyim belə bir məzar.
Dünyada qurd-quşa yem olan da var.
-Axı, qəbir qazmaq…
Gülür:
-Nə olar,
Mənim də qəbrimi qazan tapılar.
-Qəbir qazmaq ilə çörək qazanmaq

Sənə ağır gəlmir?
-Xeyir, mənə bax,
Anlaya bilmirəm, düzü, mən səni,
Niyə dəfn etmədin özün dədəni?
-Ölü çox olanda sevinirmisən?
-Çörək ordan çıxır.
-Bayquşmusan sən?
-Mənə vəz eləmə insanlığından.
Çəkməçi çəkməsi alınan zaman
Sevinmir məgər?
Mənim də əlimin rəncidir, axı,
Yan-yana düzülən, bax, bu qəbirlər.
-Doğru buyurursan, zəhmətdir bu da.
-Mənə də bu işi tapşırıb Xuda.
Mənimçün doğulan bütün uşaqlar,
Tikilən binalar, salınan bağlar,
Mələyən quzular, uçan böcəklər,
Əkilən ağaclar, açan çiçəklər
Hamısı ölümdür…
Deyə o güldü.
-Bax, indi hardasa, kim isə öldü.
-Mən isə deyirəm, indi hardasa,
Kimsə doğuldu.
Atası, anası bəxtəvər oldu.
-Elə qayda qoyub o böyük Xuda,
Axı, gec-tezi var, öləcək o da.
-Bu gün neçəncidir qazdığın məzar?
-Onu deyəmmərəm, saysam göz dəyər.
-Qazancın görürmü xərcini?
-Şükür,
Mən harın deyiləm, xərcimi görür.

İnsanın başına gələn bəlalar
Görmüşəm, həmişə nəfsindən gəlir.
Evimdə gündəlik əppəyim ki, var,
Deməli, xərcimlə qazanc tən gəlir.
Ulu tanrının da öz mizanında
Gəlir də, çıxar da birdir, əzizim,
Amma o kişinin haqq divanında
Savab qiymətimiz başqadır bizim.

Torpaq qalağında bir kəllə gördüm.
Ətim çimçəşsə də onu götürdüm.
Soruşdum: -Bu kəllə, de, niyə gülür?
-İnsan ürəyində özündən ağır
Daşınan arzuya, diləyə gülür.
-Yuxuna girirmi burda yatanlar?
-Düzünü deyim ki, axır zamanlar
Mənə gileylənir ölülər, yaman
Məzarın onlara dar olmasından.
-Gen tikə bilməzdin?
-Nə fərqi vardır.
Onlara dar gələn məzarlar deyil,
Dərgahda divara qısnamalardır.

Bu sözün zəhmindən xoflandım bir an,
Baxdım bir qəbirə, bir qəbirçiyə.
Daldım ürəyimdə məni sarsıdan
Əzəli, əbədi haqqa, gerçəyə.
Düşündüm: dünyada ölüm ki, haqdır,
Ya bu, ya başqası, nə fərqi varmış,
Qəbirlər həmişə qazılacaqdır.
İndi ki, belədir, mənası varmı.

Qocaya verdiyim bu sualların?
Sirrini açmağa gücüm çatarmı,
Olumdən ölümə gedən yolların?
Qorxub xoflanırıq bəs onda nədən
Qəbirdən, ölüyə qəbir tikəndən?
Bizi xoflandıran, bizi qorxudan
Məzarda qurtaran sabahımızdır.
Allah dərgahında min bir sorğudan
Cavabsız qalacaq günahımızdır.

Təzədən xoflandım, boylandım göyə,
Bir qəbirə baxdım, bir qəbirçiyə.
Dağıtmır, o tikir əslinə baxsan,
O, irəli baxır, geriyə deyil.
Ancaq bir fərqi var: bu mənzilləri
O, ölüyə tikir, diriyə deyil.
O, doğru demirmi: Ölür uşaqlar,
Ölür daş binalar, bağçalar, bağlar,
Ölür güldən-gülə uçan böcəklər,
Əkilən ağaclar, açan çiçəklər…
Ölməyən təkcə şey: dünən, ya bu gün
Yan-yana tikilən məzarlar imiş.
Ölümün içində ölümsüzlüyün
İmzası var imiş, xətti var imiş…

Baxdım məzarçıya, bir də qəbrə mən,
Qəlbimin nidası çıxdı dilimdən:
Məzar tikən üçün tikdiyi qəbir
Çörək ağacıdır, mənimçün fikir.

*İyul 1997*

## NECƏ ÇƏKİM?

Yoxuşa dirənib ömür karvanım,
Özümə yük olub mənim öz canım.
Tərsinə dolanır sanki bu aləm,
Bu dünya necə də düşüb gözümdən.
Özüm öz yükümü çəkə bilmirəm,
Millətin yükünü necə çəkim mən?

*İyun 1997*

* * *

Ömür yolumuzda dik var, yoxuş var,
Aşıq ki, durmayır həmişə alçı.
Nəyimə gərəkdir bu uydurmalar,
Mən özüm baxıram falıma, falçı!

Hər kartın neçə cür şərhi, yozumu,
Biri sevinc isə, başqası dərd, qəm.
Yaşaya bilmərəm, tapıb tuzumu
Mən öz taleyimə kələk gəlməsəm.

*İyul 1997*

## ŞİMŞƏK

Gecə yarı yağış yağır,
Göy gurlayır, şimşək çaxır.
Yarıb qatı qaranlığı
Göy bir anlıq yerə baxır.

Ürəyin də səmasında
Gah səhərdir, gah da gecə.
Bəzən olur, könüldə də,
Şimşək çaxır, bax, beləcə.

*Avqust 1997*

## ARZUSUZ YAŞAMAQ ARZUSU

Arzudan göyərir min qan, min qada,
Yerindən oynadır çərxi-fələyi.
Xoşbəxt o kəsdir ki, onun dünyada
Nə bir arzusu var, nə bir istəyi.

Eləsi seyr edir həyatı gendən,
Onun yolu hamar, kefi çağ olur.
Arzular elə bir yükdü, çiyindən
Nə atmaq, nə satmaq, nə çatmaq olur.

Arzular dalınca elə yüyürdüm,
Nəfəsim təng oldu, gözüm qaraldı.
Bir zaman qəflətdən ayılıb gördüm,
Mənə boş-boşuna yüyürmək qaldı.
Çəkməm ola-ola çarıq istədim,
Həmişə qismətdən artıq istədim.

Sanırdım, az oldu yoxumdan varım,
Nəfsimə yedirtdim, doymadı, vallah.
Mənim arzularım, təmənnalarım,
Məni yaşamağa qoymadı, vallah.

Sabah boşalacaq bu gün dolanlar.
Şərin özündə də xeyir varıymış
Arzusu, istəyi çox az olanlar
Dünyanın ən varlı adamlarıymış.

İndi görürəm ki, qurban vermişəm
Ömrümü arzuya, təlaşa, qardaş.
Qazancım nə oldu? Yaş yetirmişəm
Ömrü dəyişmişəm mən, yaşa, qardaş.
İndi bir arzum var: Danıb hər şeyi,
Arzusuz, diləksiz qalmaq istəyi!

Bu gülünc arzuya mən güldüm, düzü,
Yaşamaq mümkünmü müqəvva kimi?
Arzusuz yaşamaq! Bu istək özü
Məgər başqa cürə arzu deyilmi?

*İyun 1997*

## ZÜLMƏT HÜRÜR

Gecənin zülmətində
Uzaqdan bir it hürür.
Qaranlığın içində
Sabahkı dəhşət hürür.

Gecənin bu çağında
Sanma ki, hər yer yatır.
Gecə qaranlığında
Neçə-neçə sirr yatır.
Bu zülmətdə bəlkə də
Dəhşətli tədbir yatır…

Gecənin zülmətində
Uzaqdan bir it hürür.
Bəd əməlin üstünə
Elə bil ki, it deyil,
Sirr dolu zülmət hürür.

*İyul 1997*

## GÜNAH – SAVAB

Bir məbəddə dua etdim,
Təzələndi gün ahımdan.
Çiynim yükdən azad oldu,
Təmizləndim günahımdan.

Xəyalımdan bulud ötdü,
Ürəyimdə çıraq yandı.
Elə sandım, bu məqamda
Günahlarım bağışlandı.

Günahları dəfn elədim,
Məzarına baş daşıyam.
Günahlarım ölən andan,
Savabımın yaşdaşıyam.

*İyul 1997*

## HANI O DUYĞU,
## HANI O İSTƏK?

Bircə qarışmış bu ömür yolu,
Mən başa vurdum onu yuxu tək.
Ömrün nəşəsi qaldı arxada,
Hanı o duyğu, hanı o istək?

Hanı o duyğu, hanı o arzu?
Zamanla birgə ötüb keçdilər.
Şirin duyğular, şirin arzular
Yanıb söndülər, kömürləşdilər.

Vallah, özüm də bilmirəm bu gün
Bu uzun yolu mən necə keçdim.
Hanı o duyğu, hanı o arzu?
Onlar dəyişdi, mən də dəyişdim.

Varmı bir ömür dərdsiz, qubarsız?
Necə qış deyim, mən qışa qarsız?
İndi, ilahi, mən də mənəmmi,
O duyğularsız, o arzularsız?

*İyun 1997*

## NECƏ DÜZ KEÇİM?

Bu yolun enişi, yoxuşu əyri,
Sellərin dağlardan axışı əyri.
Bu əyri yollara öyrəşənlərin
Yerişi, duruşu, hər işi əyri.

Küçə də əyridir, dalan da əyri,
Satan da əyridir, alan da əyri.
Nə vardı bir üzü olsa riyanın
İp əyri, daş əyri, tərəzi əyri.
Səninlə bir yolu addımlayanın
Məqsədi, məramı, qərəzi əyri.

Bezdim bulanmaqdan…
                    Durulmaq üçün
İstədim ən doğru yola and içim.
Əgər yol əyrisə, düz olmaq üçün
Bu əyri yollardan necə düz keçim?

*Sentyabr 1997*

## BAYRAQ

Torpağın üstünə kölgələr salan
Mənim varlığımın cilası – bayraq.
Zəfərdən doğulmuş, Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri – qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim
Bayraq – öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əskər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

*Aprel 1998*

## YALAN BAZARI

Bu yalan bazarında mətah yaman ucuzdur
Aldığımız da sözdür, satdığımız da sözdür.
Sözün ləyaqətinə, mənasına varmadan,
Utanıb qızarmadan
Qıpqırmızı yalanı bülbül kimi ötürsən,
Riya dəyirmanında sən yalan üyüdürsən.
Özün bilirsən bunu,
Mən də yaxşı bilirəm
Səndən eşitdiyimin ağ yalan olduğunu.
Bilirəm, sən borclusan
Bu yalan alverində həqiqəti danmağa.
Abrının macalı yox, qızarıb utanmağa.
Amma mən də borcluyam sənin yalanlarını
Doğru, gerçək sanmağa –
Aldadıb aldanmağa.
Məndə qulaq, səndə dil, səndə qulaq, məndə dil,
Sən məni, mən də səni aldadırıq müttəsil.
Qulağımız, dilimiz bu yalan bazarında
Satın alır cənnəti.
Hər mətahın qiyməti
Bəlli olur dünəndən.
Aldadıb aldanırıq,
Bu minvalla razıyıq sən məndən, mən də səndən.
Gerçək elə daşlanır,
Yalansa gecə-gündüz o qədər alqışlanır
Ayırd edə bilmirik
Gerçək harda qurtarır, yalan hardan başlanır.

Yalan sərxoşluğunda elə xumarlanmışıq,
Çaylağı yol, gülü kol, qaranı ağ sanmışıq.
Yalan – həqiqətlərə istədiyi ölçüdə
Paltar biçən dərzimiz.
Yalan-həyat tərzimiz.
Gerçək-üzü qaradır.
O, gərək yalanların kölgəsində dolana.
Cəza-həqiqətədir, cəza düşmür yalana.

*İyul 1998*

## MƏNİM FƏRQİM VARMI HEÇ?

Bir tərəfdə sel kimi od axıdan buruqlar,
Bir tərəfdə çadırda donan körpə çocuqlar.
Yurdumuzun atəşi isidir əcnəbini
İsidə bilmir ancaq Zübeydəni, Nəbini.

Yağan qarı qasırğa burmalayır bu gecə
Sobam yanır otaqda gürhagurla, gör, necə.
Yatağıma girmişəm, uyumaq istəyirəm
Yerimdə şirin-şirin.
Çatmır mənə naləsi çadırlarda üşüyən
Günahsız körpələrin.
Amma rahat buraxmır bir qəribə sirr məni:
Döşəyimin istisi bəs niyə sancmır məni?
Yatıram şirin-şirin.
Mən ki bilirəm indi çadır körpələrinin
Soyuqdan əsdiyini.

Özümdən də böyükdür öz-özümə heyrətim:
Varsa Vətən namusum, varsa millət qeyrətim
Necə yata bilirəm öz isti yatağımda?
Yatır nəvələrim də solumda və sağımda.
Sordum özüm özümdən:
-Görəsən, doğurdanmı bu yurdun oğluyam mən?
Bilmirəm kim utansın indi mənim yerimə?
Qıyardımmı bu zülmü mən öz nəvələrimə?
Nəvələrim deyilmi bəs bu qış gecəsində
Damsız qalan körpələr?

Hələ ucalmalıykən bu alçalan körpələr?
Bunu bilən vətəndaş öz isti yatağında
Rahatca yatarmı heç?
Yurdunun atəşinə qızınan əcnəbidən
Mənim fərqim varmı heç?

*Yanvar 1998*

## YAZIQ VƏTƏN

Bir ananın övladıyıq biz hamımız
Bizi biri-birimizdən ayrı saldı
Məqsədimiz, məramımız.
Beynimizdə tağ atınca
Fikirlərin necə rəngli göy qurşağı
Meydan açdı cəbhələrin solu, sağı.
Kölgələndi, üstələndi
Qan birliyi, can birliyi,
                din birliyi.
Cilalandı
        fikir,
            şüur,
                yön birliyi.
Hardan çıxdı qarşımıza qara pişik?
Bu gün biri-birimizə
                Qatı düşmən kəsilmişik.
Bu gün vahid anamızı
                hərə çəkir bir tərəfə.
Kinimizi, eşqimizi
                tuşlamırıq bir hədəfə.
Olan olub, torba dolub
Əsl düşmən unudulub,
Amma biri-birimizlə didişirik,
Söküb köhnə palan içi, gor eşirik.

Ömrüm boyu istəmişəm
      fikirlərin min rəngini –

Duyğuların çələngini.
Amma bu gün düşünürəm:
Bu fikirlər toqquşması
    Vətənimin xeyrinəmi?
Yox! Savaşlar qarşısına
Sipər etmək istəyirəm öz sinəmi!

Bizim biri-birimizə kinimizdən
Bulanıbdır dağlardakı sərçeşmələr.
Anlamıram bu məqamda
Gərəkmidir bir bu qədər çəkişmələr?
Sən də övlad, mən də övlad,
Sən də insan, mən də insan
Doğulmuşuq bir anadan.
Qanda birik, canda birik
Anamızın xatirinə
Bəs niyə biz bir məxrəcə gələmmirik?

Atam oğlu, niyə qardaş bağındakı
Gülü deyil, kolu gördün,
Öz gözündə tiri deyil,
Qardaşının gözündəki qılı gördün?
İş gücümüz didişməkmi?
Leş üstündə didişərlər… Vətən leşmi?
Bölünməmiş nəyimiz var? O Vətəndir!
O, həm səndir, o, həm məndir.
Necə bölək məni, səni
Necə bölək bu Vətəni?
Yarı mənim, yarı sənin?
O, meyvəli bir ağacdır
Adı mənim, barı sənin?

Razısanmı bu bölgüyə?
Razısansa, gəl, barışaq.
Qarğa kimi leş üstünə gəl darışaq.
Utanıram bu sözümdən
Əfv et məni,
yazıq Vətən, yazıq Vətən!
Fəryad çəkən bu ananı düşünən yox!
Öz dərdinin atəşinə
Qalananı düşünən yox!
Hər ikisi «mənəm» - deyir
İqtidara yetişməkdən
Ayrı bir şey düşünməyir –
Coşan qəlblər, qızan başlar.
Hakimiyyət davasıdır bu savaşlar.
Vətənçin gün ağlamayır
Nə o tərəf, nə bu tərəf.
Bu Vətəni
Dədəsindən ona qalan miras sayır
Həm o tərəf, həm bu tərəf.
Hər biri öz peşəsində
Namus ilə çalışanlar
Bu Vətənin dərdi ilə alışanlar
İkisinin arasında
Qalıb ancaq yana-yana
Müxalifdir həm o yana, həm bu yana.

*Mart 1998*

## QÜRBƏT - VƏTƏN

Anamız birdirsə Vətən də birdir,
Nə ana, nə Vətən iki olammaz.
Qürbətdə tapdığın xeyir də şərdir
Qəlbin bu xeyirdən işıqlanammaz.

Qürbətin xeyrinə, ay aldanan kəs,
Vətənin şərinə kim ortaq olsun?
Vətəni özünə qürbət sanan kəs
Sənin anan ölüb, başın sağ olsun!

Hamı həşirdədir güzəranıyla
Ceyran belindədir bir loxma əppək.
Ana yaralısa, oğul qanıyla
Onun yaraları yuyulsun gərək.

Yediyim, içdiyim dərddi, qəmdisə,
Neyləmək? Bu ocaq, bu yurd mənimdir.
Göz yaşım axan yer qürbətimdisə,
Qanımın axdığı yer Vətənimdir.

Harda olursan ol, qəlbin fəhmi var
Səni torpaq çəkər, səni qan çəkər.
Qürbətdə Vətənçin gözü yaşlılar
Vətənin naminə canından keçər.

*Avqust 1998*

## VƏTƏN TARİXİ

Yurdun hər küncündə bir tarix yaşar
Qorxuram itirə zaman tarixi.
Torpaqda əcdadın ayaq izləri
İtərsə, bürüyər duman tarixi.

Daşları dindirsək, daşlar dinəcək,
Nağıllar nağıldan haqqa dönəcək.
Bizlər öyrənməsək, kim öyrənəcək?
Bizlərdən fərasət uman tarixi.

Yalanı torpağa gömsən, kol bitər
Biz necə varıqsa, bizə o yetər.
Nəyimizə gərək doğruya bənzər
Fərziyyə tarixi, güman tarixi.

Oxuyaq daşları biz zaman-zaman
Həqiqət sıyrılsın bəzəkli dondan.
Gəlin, biz oyadaq qış yuxusundan
Torpağın altında yatan tarixi.

Mən çinar görmüşəm min bir yaşında
İlki var, cəddi var kəndalaşın da.
Keçdiyi yolu var çırtma dışın da
Borcumuz tapmaqdır itən tarixi.

Dünənin şilləsi üzə dəyəndə
Təzə «mən» yaranır bugünkü «mən»də

Sabahı görürük, çözələyəndə
Bu gün günümüzə çatan tarixi.

Uçaq qanadında öz adımızın
Bu ad şərəfidir övladımızın.
Bizə örnək olan əcdadımızın
Keçdiyi yollardır Vətən tarixi.

*Avqust 1998*

## SİZİF ZƏHMƏTİ

Sizifə özündən çox ağır daşı
Qaldır – əmr etdilər, dağın başına.
Bu bir əfsanədir, bilinməz yaşı
Bu ağır cəzanı qıydılar ona.

Zirvəyə çatmamış daş yumalandı.
Sizif zəhmətinə alışdı, yandı.
Qaldırmaq istədi yenidən daşı
Yolun yarısında hərləndi başı.
Çiynindən sürüşüb, yenə də bir baş
Dərənin dibinə diyirləndi daş.

On dəfə, yüz dəfə bu, təkrar oldu
Sizif əldən düşdü, Sizif yoruldu.
Anladı, bu yükü qaldıra bilmir,
Düşdüyü tilsimi o, qıra bilmir.

Uca zirvələrə qalxmaq istədik
Çiynimiz üstündə o məram daşı.
Sizif zəhmətinə qatlaşaq-dedik
Dirəndi həmişə daş bizə qarşı.

Deyirik, yaranmış bu daş dağ üçün
Bu məram eşqinə dirənirik biz.
O daşı o dağa qaldırmaq üçün
Nə gücümüz çatır, nə iradəmiz.

Oldu halalımız bizimçün haram
Çiynimiz yük altda əyilmiş bizim.
İllərlə umulan o böyük məram
Bəlkə qismətimiz deyilmiş bizim.

Yenə içimizdə qorxu, səksəkə
Çatmır arzumuza əməllərimiz.
Layiq deyilmişik, deyirəm, bəlkə,
Çoxunun çatdığı o mərama biz.

*Dekabr 1998*

## QƏRİBƏ DEYİLMİ?

Qəribə dünyadır, bəzən baş yarır
Ayağın dəstəyi taxta çəliklər.
Bəzən qul sahibi qula yalvarır
Dünyanı fırladır qəribəliklər.

-Dünya çalxalanır yenə dəniz tək.
-Bu böyük dünyanın dərdini çəkmək
Bizəmi qalıbdır?
-Vallah, nə deyim?
Sənə yox, mənəsə qalıb, neyləyim?

Qəribə deyilmi? Sən sirr, mən də sirr.
Bu sirri bilmirik necə çözməli?
Kimi övladının dərdini çəkmir,
Kimi də xalqının dərdindən dəli!

Torpaq əldən getdi, ölkə talandı.
Sənin nə vecinə, günün ağ olsun.
Səninçün dünyada hər şey yalandı
Təki damağın  çağ, canın sağ olsun.

Bu boyda millətin ağır günündə
Qaşını çatmaq da sənə əzabdır.
Qardaşın döyülsə gözün önündə
Deyərsən, nə hay-küy, nə şaphaşapdır?

Ayıra bilirsən xeyirdən şəri,
Mənfəət meydanı səninçin gendir.
Nə Vətən, nə millət? Səndən ötəri
Harda xeyrin varsa, ora vətəndir.

Xalqın naləsinə qulaqların kar,
Millətin içində millətə yadsan.
Dərddən başımıza yağdı yağışlar,
Səni islatmadı, dərddən azadsan.

Bir qırıq dəymədi xeyrin özgəyə
Quru ağacdan da meyvə dərmisən.
Xeyrinin gözüylə baxdın hər şeyə
Dünyanı cibinə yerləşdirmisən.

Qışın çovğunu da sənə yaz gəlir
Əgər mənfəətin var isə bundan.
Xeyrindən özgə şey sənə vız gəlir
Araz aşığından, Kür topuğundan.
Heç demə, dünyada dünyadan kənar
Zamanın çölündə yaşayan da var…

*Oktyabr 1998*

## QARANLIQ

Daim aradığım o işıq hanı?
Sağım da, solum da zülmət, qaranlıq.
Nə önü görürəm, nə də arxanı,
Biz nə oyanlığıq, nə də bu yanlıq.

Qaranlıq, məchulluq-fikri çaşdırır
Qaranlıq-yaxını uzaqlaşdırır.
Tək bircə rənglidir elə bil aləm
Qaranlıq asılıb kirpiklərimdən.
Bir addım yaxını görə bilmirəm
Yüz addım uzağı necə görüm mən?

Dünya qaranlıqsa, hamımız koruq
Kor ilə gözlünün, vallah, fərqi yox.

*İyun 1998*

## BU QAN, BU QADA

Yolumun üstündə belədən-belə
Qarışqa sürüsü keçir şəst ilə.
Qışa yem daşıyır onlar indidən,
Bu yolu dırmaşıb gündə yüz kərə.
Heç fikir vermirəm, qıyıram nədən
Ayağım altında əzilənlərə?

Kimimiz rəhmdil, kimimiz azğın
İnsan, vay o günə, insafdan dönə.
Bəs axı, bu aciz yaranmışların
Həyatı möhtacdır insan rəhminə.

Tənbəllik etməyib, yəqin bir qədər
Yolun kənarından keçsəydim əgər,
Yazıq qarışqalar bir çör-çöp kimi
Ayağım altında əzilərdimi?

Sanki yuxudaydım, birdən ayıldım
Birdən öz-özümə məəttəl qaldım.
İnsan günahkardır Allah yanında.
Adi böcəyin də, qarışqanın da
Allahın məxluqu insanlar qədər
Öz yaşamaq haqqı yox imiş məgər?

Neçə çaları var tək bircə rəngin,
Amma inkar edir bəzən tay tayı.

Toyuq çaqqalınsa, çaqqal-pələngin,
Bu onun qisməti, o bunun payı.

Ədalət budursa, bəs insaf hanı?
Həmişə arada ölüm, qan, qada.
Necə görürəmsə mən qarışqanı,
Məni də eləcə görürmüş Xuda?

Hamıya bəllidir: yaradan birdir
Qurdu da, quşu da, qarışqanı da.
Xaliq eynidirsə, bəs necə sirdir,
Məxluq arasında bu qan, bu qada?

*İyul 1998*

## UNUT Kİ, SUSASAN

Sükut istəyirəm, sükut mən bu an.
Sükutun içinə girim, gizlənim.
Budur, təkcə budur indi dünyadan
Ən böyük istəyim, məramım mənim.

İndi böhtançıdan böhtanın, şərin
Hesabı sorulmur… Bir yol var: Unut!
Çəkdiyim bu qədər müsibətlərin
Niyəsi sükutdur, cavabı sükut.

Sussan, hər bəladan, dərddən uzaqsan
Danışsan, sübutun günah olacaq.
Unuda bilməsən, danışacaqsan
Unut ki, susasan, susasan ancaq.

*1994-1998*

## BAHAR GƏLİR

Bahar gəlir quş səsində,
Xəfif əsən küləklərin nəğməsində.
Bahar gəlir xalı kimi döşənilmiş
Çəmənlərin naxışında.
Bir çiçəyin baxışında,
Sel – suların axışında
Səsə dönür,
Ləçəklərdə gülümsünür.

Bahar gəlir, sular axır,
Düymələnən yarpaqların gözü ilə
Bizə baxır.
Bahar gəlir, şimşək çaxır
O şimşəyin çaxışında bizə baxır.

Bahar gəlir
Qardan çıxan torpağın öz nəfəsində.
Bahar gəlir
Qəlbimizin təzələnmək həvəsində.

*Aprel 1998*

## TAXIL NÖVLƏRİ

*Akademik Vavilovun rəhbərliyi altında Leninqradda (indiki Sankt-Peterburq) taxıl növlərinin mərkəzi yaradılmış, II Cahan müharibəsi illərində kisələrlə toplanmış buğda növlərinin qorunması və tədqiqi 14 nəfər alimə tapşırılmışdı. Gündə 100-125 qram çörək payı ilə dolanan bu alimlərin çoxu acından ölmüş, lakin taxıl növlərinə toxunmamışlar.*

Şəhər dörd tərəfdən mühasirədə
Hər kəsin yüz qram çörək payı var.
Elə ayaq üstdə yol gedə-gedə
Yıxılıb acından ölür adamlar.

Dolaşıb dünyanı rus alimləri
Toxumluq toplamış neçə cür adda.
Yığım davam etmiş illərdən bəri
Mərkəz yaratmışlar Leninqradda.

Saxlanır, yazılıb adı hər növün
Taxta dolablarda, qəfəsələrdə.
Sabaha ümid yox… gələcək üçün
Qorunur bu növlər ağ kisələrdə.

Yaxında bombadan bir bina yanır
Alovu, tüstüsü ərşə dayanır.
Alimlər yenə də öz işlərində.
Mikroskop altında toxum zoğları…

Onlar ac qarına öz iş yerində
Növlərə ayırır toxumluqları.

Unudub özünü alim büsbütün
Öz köhnə işində, vərdişindədir.
Öyrənmək istəyir bu təzə növün
Şaxtaya, istiyə davamı nədir?

Taxıllar seçildi, növlər çözüldü
Döndü zəmilərə, döndü bağlara.
Taxıl alimləri acından öldü,
Amma qıymadılar toxumluqlara.

Bəs bu gün? Ac ikən bu xalq, harınlar
Millətin qanını sorub, qan satır.
Bizim həddi aşan bu tox qarınlar
Toxumluq taxılı anbardan satır.

Onlar da insandı, bunlar da insan
Allah övladıdır bütün bəndələr.
İndi gəl baş çıxart bu eyni addan
Pozğun da, düzgün də eyniymiş məgər?
Yaxşı da insanmış, yaman da insan.
Niyə ayrılmasın yaxşı, yamandan?

İnsan, tamahıyla qarşılaşırkən
Seçilir yaxşısı, pisi həyatda.
Hər taxıl növünün öz adı varkən
Bəs insan növləri niyə bir adda?

*Avqust 1998, Şəki*

## TƏNHA MƏZAR

*1918-ci ildə erməni basqınına məruz qalmış Azərbaycana köməyə gələn türk ordusunun zabiti şücaətlə döyüşmüş, Şamaxı ətrafında erməni gülləsinə tuş gəlmişdir. O, öz istəyi ilə yaralandığı yerdə də dəfn olunmuşdur.*

Yolun kənarında tənha bir məzar
Üstündə nə adı, nə soyadı var.
Ey yolçu, maşını əylə bu yerdə
Soruş, kimdir yatan tənha qəbirdə?

O, bir türk zabiti, qəhrəman, mətin!
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.

Uzaqdan hay verib sənin səsinə,
Gəldi, qayıtmadı öz ölkəsinə.
Düşmən səflərini o, soldan sağa
Biçib dəstəsiylə cəbhəni yardı.
Torpağın yolunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.

Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.
Uğrunda canını qurban verdiyi
Torpağı özünə vətən bildi o.

Yolçu, maşınını bu yerdə əylə
O məzar önündə sən təzim eylə.
Səcdə qıl, dua ver onun ruhuna
Ayaq basdığın yer borcludur ona.

*İyul 1998*

# AĞIL-FƏHM

Fəhmimlə görürəm görünməzləri
Rənglərə çevirir hissim səsləri.
Səslər inamımdır, səslər imanım,
Ağlın öz həddi var, fəhmin həddi yox…
Hansına inanım, hansını danım?
Fəhmimin cəddi var, ağlın cəddi yox.
Ağıl parlayanda sönür inamlar
Harda ağıl varsa, orda şübhə var.
Çox şeyi bilsə də bu nədəndi bəs,
Eşqin bildiyini ağıl biləmməz?

Bu ahıl çağımda fikir bağımda
Bir tərəf çiçəkdir, bir tərəf alaq.
Az-çox həqiqətə qovuşmağımda
Hissimə, fəhmimə borcluyam ancaq.

*Avqust 1998, Şəki*

## YAŞ AĞRISI

Diz ağrısı,
Göz ağrısı…
Özgəsinin ağrısını kimsə bilməz,
Hər adamın öz ağrısı.

Bel ağrısı,
Yel ağrısı,
Bir-birinin üstə gələn
Neçə-neçə il ağrısı.

Diş ağrısı,
Baş ağrısı,
Ağrıların birliyində
Əsli budur: Yaş ağrısı.

*Mart 1998*

## MÜƏLLİM

*Məsləkdaşım M.Mərdanova*

Müəllim! Gözəldən gözəldir bu söz –
Körpə könüllərdə məşəl yandıran!
Hələ yazılmamış, hələ qırışsız
Hamar beyinləri cilalandıran.
Müəllim! Tez durub, gec yatanımsan
Bu gün, sabahımı yaradanımsan!

Mən bir toxum idim, sabahım sirdi
Mənə şəkil verən, rəng verənimsən.
Məni bu dünyaya anam gətirdi
Sənsə bitirənim, yetirənimsən.

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu.
Endirdi yerlərə atamız bizi
Müəllim – göylərə qaldıran oldu.

Xəyala qol-qanad, gözə nur verdi
Müəllim! Biz sənə borcluyuq ancaq.
Əmir Teymura da şərəf gətirdi,
Ayağın altında əbədi yatmaq!

Şagirdin sayıdır dövlətin, varın
Bilməz bu qazancı, bilməz hər naşı.
Sinifdən sinifə adlayanların
Yaşında yaşayır müəllim yaşı.

Elmə güvəndinsə, bil ki, cənnətin
Qapısı üzünə açılacaqdır.
Məktəbi hər şeydən üstün millətin
Hər yerdə, hər işdə zəfəri-haqdır.

Gəl, ey heykəltəraş! Bu mərmər, bu gil.
Düşün müəllimi, sonra alış, yan.
Onun heykəlini mərmərdən deyil,
Yarat özü kimi nurdan, işıqdan.

*İyun 1998, Şəki*

## GÜLMƏLİYƏM BƏLKƏ MƏN

Suda naxışlar açan bir dəliyəm, bəlkə mən?
Başqasının gözündə gülməliyəm, bəlkə mən?
Tökdüm ağ vərəqlərə ürəyimdən keçəni.
Gördüm, yaxınlarım da anlamadı heç məni.
Dilimin qılıncını çıxarıb öz qınından,
Açıq yazdım, apaçıq.
Ürəyimi gəmirən bir fikrimi, hissimi
Yazammadım yarımçıq.
Düşüncəmin sapını axıracan qırmadım,
Qəsdən dolaşdırmadım.
Yalnız öz əqidəmi, öz sözümü yazmışam.
Millətimin dərdini öz dərdimə çevirib,
Mən özümü yazmışam.
Ancaq bunu bilmirəm, dərinmi, dayazmışam?
Bəlkə dayazlığımdan,
Hissimin azlığından
Sözüm kəsərsiz oldu,
Məramım yersiz oldu?
Yazdım, yazdım mən ancaq ürəyimdən keçəni.
Məni sevənlərim də duyub yazdığım qədər
Duymadılar heç məni.
Suda naxışlar açan bir dəliyəm, bəlkə mən,
Başqasının gözündə gülməliyəm, bəlkə mən?

*İyul 1998*

## QƏDƏR

Ha bağırdım, sən duymadın bu dərdi
Dedin, mənim inandığım qədərdi.
Güldüm sənin kəlamına, mən yazıq
İnadına, inamına, mən yazıq.

Zaman keçdi, qədər işə başladı,
Hökmü ilə bostanımı daşladı.
Nə biləydim sükançımız qədərmiş,
Çığırmağım, bağırmağım hədərmiş.

Mən bilmədim sən biləni, görəni,
Görən, niyə anlamadım mən səni?
Anlamamaq anlamağa açarmış.
Nişan aldım, vurammadım hədəfi,
Görünəni göstərməyə nə varmış
Sən göstərdin görünməyən tərəfi.

*Aprel 1998*

## XƏYALLA YAŞAMAQ

Ədalətin haqqını zor yeyincə həyatda,
İstədiyim dünyanı görməyincə həyatda,
Zamanın zillətilə gəlməməkçin döş-döşə
Xəyallar dünyasında yaşamışam həmişə.

Onsuz da beşiyimdən – məzarıma beş addım
Yaşamadım həyatı, xəyalımı yaşadım.
Xəyal məni isitdi, gecəm döndü gündüzə
Axı, mən neyləyəydim, gəldi hər an üz-üzə
Xəyaldakı istilik, həyatdakı soyuqluq.
Balıq üçün xəyalım dənizə yox, gölə yox,
Demə, suyu çəkilmiş quru çaya tor atmış,
Xəyalla yaşamaq da bir başqa cür həyatmış.

*Yanvar 1998*

# İZTİRABIN DİLİ

Mən öz düşüncəmə necə qəsd edim?
Fikrim, düşüncəmlə mən, mən olmuşam.
Özümdən yuxarı qalxmaq istədim
Özümdən aşağı enən olmuşam.

Bu nədir? Bu dərdi hara yozum mən?
Bu dərd iztirabım, bu dərd əzabım.
Həmişə çalışdım, itirdiyimdən
Bir ibrət götürüb, təzə yol tapım.

Tapmadım, dilini bilmədiyimdən,
Çəkdiyim əzabın, iztirabların.
Mən kimdən öyrənim, bu dili, kimdən?
Mən ona borcluyam, o mənə darqın.

Yazdıqca dərdimi mən, kitab-kitab,
Günbəgün böyüyür o, heç kiçilmir.
Mənimçün sirr olur… çünki iztirab
Heç vaxt öz dililə danışa bilmir.

*İyul 1998*

## NECƏ TAPIM MƏN?

Özümü axtardım, hey aradım mən
Tapmadım, axırda bezdim özümdən.
Məgər mən suyam ki, çağlayıb axam?
Məgər atəşəm ki, yandırıb yaxam?
Özümü bihudə axtarmışammış…
Axı, mən var ikən, bir heçəm, yoxam.
Var ikən yoxamsa…
təbiətimdən
Olmayan bir şeyi necə tapım mən?

*İyun 1998*

# DİALOQ

Həm sazı, həm pazı el zaman – zaman
Düzəldib qurumuş tut ağacından.
Sən gülüb qədimdən gələn bu sözə
Dedin ki, yaraşmır, axı, saz paza.
Dedim: – hər ikisi çalmaq üçündür:
Biri qananadır, biri qanmaza.

Günahın birindən doğar on beşi
Zəhər ya beş gilə, ya on beş gilə.
Göldə bir nöqtəyə atılan daşın
Halqa dalğaları çatar sahilə.

Hərənin öz yönü, öz ölçüsü var,
Məramın, məqsədin yaxşı, pisi var,
Yusalar tökülən bir qanı qanla,
Sənə xoş gələrsə, mənə ar gələr.
Gəl, ölçmə dünyanı öz arşınınla
Sənə gen gələrsə, mənə də gələr.

*İyul 1998*

## NEÇİN?

İstiqlala qovuşduq, ümidlər doğrulmadı,
Köhnə hamam, köhnə tas, mən dediyim olmadı.
Saplarımız çürümüş vurduğumuz yamaqda,
Ümidləri, inamı zaman puç etdi, neçin?
Şəhidlərin qanıyla suvarılan torpaqda
Gül-çiçək bitməliykən, bizdə kol bitdi, neçin?

*İyul 1998*

## BAYATILAR

Əzizim dərdə mərdim,
Düşməsin dərdə mərdim.
Mənə dərman neyləsin?
Tifilkən dərd əmərdim.

Bayatılar! Sözə ənbər qatılar,
Damarımda nəbz kimi atılar.
Bayatının atəşindən, odundan
Ürəyimdə neçə tonqal çatılar.

Bayatılar! Sinə dağı, göz dağı,
Məhəbbətin tüstülənən ocağı.
Bir millətin kimliyini bildirən,
Nəfəsindən ləpələnən bayrağı!

Bayatının boyasına boyandım,
Söz-qibləmdir, söz – eşqimdir, söz andım.
Bayatının tilsiminə düşüncə
Vallah, şair olduğuma utandım.

*Aprel 1998*

## YAĞMASA…

İstəyim budur ki, yolum gen olsun
O nisyə gələcək qoy sənin olsun.
Vaxtın öz ünvanı, öz adıyam mən
İndinin, bu günün övladıyam mən.

Ümid-boynumuza keçən kəmənddir
Gözlə, öz-özünə açılan deyil:
Əkdiyin o taxıl yağışa bənddir
Yağmasa, bir dənin beş olan deyil.

İstərəm xəyalım, yuxum çin olsun
İndi boş ümidlər ar gəlir mənə.
Səpdiyin o toxum qoy sənin olsun
Çörək ver mənə!

*İyun 1998*

## GÖRMÜR, GÖRÜR

O, namaz üstündə əl açıb göyə
Allaha üz tutub, «Ya rəbbim», - deyə.
Onun duasına qarışır ahı
O, bu dəm elə bil görür Allahı.

Gözə görünməzdir onun pənahı
Köməkçün əlini açmaz bir kəsə.
Necə görə bilər, axı, Allahı
Allah, o möminin ürəyindəsə?

Görmür Allahını namaz qılanlar
Allahsa, onları görür bu anlar.

*İyul 1998*

## ƏL QALDIRMIŞAM

O gün ki, çölümə əsir olmuşam,
Dönüb öz-özümə mən sirr olmuşam.
İçim bir söz deyir, çölüm ayrı söz
Qəlbim bir söz deyir, dilim ayrı söz.

Vicdanla əhdimi çoxdan qırmışam,
Mən öz əqidəmə əl qaldırmışam.
Çölümə əlimi qaldırmaq çətin
Çölüm – yaxınlarım, əzizlərimdir.
Sabah hesabı var bu günlərimin
Sonra deyirəm ki, Allah kərimdir.

Bəs mənim əqidəm, bəs mənim içim?
O ki, mən özüməm…
özümdən keçim?

Bəs necə?
Özümə özüm düşmənəm,
Özümə qəsd edib kiçilən mənəm…
Özümdən böyükdür günahım mənim,
Keçsin günahımdan Allahım mənim.

Gah ona çevrildim, gah buna döndüm,
Çölümün günahkar quluna döndüm.
İçimlə əhdimi çoxdan qırmışam,
Mən öz əqidəmə əl qaldırmışam.

Düz yolla gedirdim, yel yandan əsdi,
İmandan əsmədi, imkandan əsdi.
Dəyişdi səmtini, döndü yelkənim
Keçsin günahımdan Allahım mənim.

*Noyabr 1998*

## ATATÜRK

Atatürkün atası! Adi cəfakeş bir ata,
Öz kiçik külfətinin cövrünü çəkmiş bir ata,
Bir böyük millətə ancaq ata əkmiş bir ata!

Atatürkün anası! Adi bir insan, bir ana.
Zaman ötdükcə nədən səcdə qılır hər kəs ona?
Bir böyük millətə bir gün ata doğmuş o ana.
Atatürkün sinəsi, yurdun alınmaz qalası!
Atatürk millətinin həm atası, həm balası!

Nədir arzum, diləyim tanrıdan imanla bu gün?
Talanan, bağrına dağlar çəkilən xalqım üçün:
Yeni fikrin küləyindən qoca millət darana,
Bizi birləşdirəcək bir Atatürküm yarana!

*1992-1998*

## KAŞ Kİ…

Kaş ki, o toplantıya mən o gün getməyəydim.
Filan işi bu qədər, kaş ki, ləngitməyəydim.
Kaş ki, bu ağacları mən payızda əkəydim.
Vaxtında bu müşkülə, kaş ki, əncam çəkəydim.

«Kaş ki» - ömrümüz boyu bizim dilimizdədir
Vaxt həmişə axırsa, bu «kaş ki»lər bəs nədir?
Bahar qışın övladı
Hər «kaş ki» səhv addımın, bir yanlışın övladı.
Vaxtı qabaqlayanlar,
Hər dərdin çarəsinə öncədən ağlayanlar
Zamanın öz hökmünə vaxtında qulaq asdı.
«Kaş ki»ni dardan asdı.

«Kaş ki» sözü dünyada tamam unudulaydı.
Vallah, çox istəmirəm:
«Kaş ki» deməmək qədər
Kaş ki, ağlım olaydı…

*İyul 1998*

# CƏLALƏDDİN MÖVLANAYA BƏNZƏTMƏLƏR

Mən yoxam, adicə bir adam, Allah,
Sənə çatmaq üçün fəryadam, Allah.
Qul azad olanda şad olmalıdır
Qulun olduğuma mən şadam, Allah.

Dövr eylədikcə gizlicə axşam-səhər zaman,
Minlərlə aşikarları pünhan edər zaman.
Eşqində sağ qalanlar ölür, ölmədən qabaq
Eşqimdə ölmüşəm, diri qalmaqçün hər zaman.

*1998*

## İBRƏT

Bu gün qatil oldu aynabəndimiz,
Şəffaf aynaları quş hava sandı.
Sürətlə uçaraq aydın, tər-təmiz
Aynaya çırpılıb o, yaralandı.

Quşu yerdən alıb evə gətirdim,
Dən verdim, su verdim, isti yer verdim.
Ertəsi quşcığaz qalxdı, dirçəldi,
Yarası sağaldı, özünə gəldi.

Ayna hava kimi görünmüş ona,
Aldanmış şüşənin şəffaflığına.
Düşündüm, yəqin ki, bir də quşcığaz
Aldanıb, özünü aynaya çırpmaz.

Aldanıb dünyaya bir zaman mən də
Ömür yollarımı hamar sanmışam.
Yıxılıb həyatın döngələrində
Bu quşcığaz kimi yaralanmışam.

İndi bu həyatı öyrənsəm də mən
Yenə aldanıram, bilmirəm, nədən?
Üz-üzə, göz-gözə durub haqq, nahaq
Haqsızın qəsdini haqq görə bilmir.
Quşun götürdüyü ibrətdən ancaq
Niyə insan oğlu götürə bilmir?!

*İyul 1998*

## NƏFSİMİZ

*Bizdə bu soyuq qanları neylərdin, ilahi?*
**M.Ə.Sabir**

Qaçqının payına göz dikən alçaq,
Sənə hansı haqla mən insan deyim?
Millətin qanını soran qurumsaq,
Mən sənin adına soxulcan deyim.

Bəs hanı insanlıq, bəs hanı vicdan?
Tamah insanlıqdan qabağa düşdü?
Bəlkə də bu dövran dolandığından
Qibləmiz gah sola, gah sağa düşdü.

Bu, sənin xalqına ürəyi yanan
Özgə bir millətin verdiyi paydı.
Ey öz millətinə yaddan yad olan,
Paya göz dikincə gözün çıxaydı.

Xalqının dərdinə özgələr qədər
Yanmadın, bəs bunu niyə qanmadın?
Yetim qismətini yeyib sərasər
O şişən qarnından heç utanmadın?
Biz necə məxluquq, anlamıram mən
Nəfsimiz ağırmış qeyrətimizdən.

*İyul 1998*

## YUXUM PERİK DÜŞÜB

Gecələr yuxuma fikirlər qənim
Fikirlər sərvətim, öz qismətimdir.
Saat çıqqıltısı gecələr mənim
Yeganə həyanım, həmsöhbətimdir.
Açıram səhəri diri gözlü mən
Yuxum perik düşüb fikirlərimdən.

Ömrümü-günümü əridir zaman
Hara tələsirsən, başına dönüm?
Gileyli deyiləm qaçan yuxumdan
Onun hesabına uzanır günüm.

Özümdən ağırdır dərdim, məlalım,
Məni sübhə qədər qoymur yatmağa.
Gecələr köçürür fikrim, xəyalım
Dağları arana, aranı dağa.

Gizlədə bilmədim könül sirrimi
Zaman ümidimə qarşı duranda.
O vaxt itirdiyim diləklərimi
Nə dağda tapıram, nə də aranda.

Cihada çıxıbdır dərdi-sərimlə
Bir yandan mehrabım, bir yandan pirim.
Durur gözlərimdə etdiklərimlə
Sabah, ya biri gün edəcəklərim.

Bu ahıl çağımda axan sel kimi
Daşıb çağlayıram, yaşı görmürəm.
Mən yaxşı görürəm görmədiyimi
Amma gördüyümü yaxşı görmürəm.
Dərdimlə dərdləşdim, dərdim karıxdı
Güləşdim, bəs niyə o məni yıxdı?

*İyul 1999*

## ÖZÜMDƏN QİSAS

Qəbirlər arasında ulayır dəli rüzgar
Otuz illik dostumu torpağa tapşırırlar.
Şaxta iliklərimə işləyirdi elə bil
Bu soyuğa, şaxtaya tablamaq mümkün deyil.
Neyləməli? Paltomun yaxasını qaldırıb,
Maşınıma çəkildim,
Bir az özümə gəldim.

Mən ki, ömrüm boyunca tərəzidə çəkmişəm
Savab nədir, günah nə?
O mərhumun xətrinə
Bayırdakı şaxtadan, küləkdən çəkinmədən
On, on beşcə dəqiqə onun qəbri başında
Dura bilməzdimmi mən?
Anlamıram, bəs niyə
Tab gətirə bilmədim bu çovğuna, küləyə?

Maşında baş qaldıran
Vicdanımın səsinə qulaqlarım kardımı?
Otuz illik dostluğu, çöldə məni təntidən
Küləklər apardımı?
Öz-özümə deyindim,
Dərhal maşından endim.
Vicdanımla barışdım,
Adamlara qarışdım.

Xəstələndim o gecə
Qızdırmanın içində sevinirdim gizlicə.
Səbəbini bildiyim xəstəliklə çünki mən
Sanki qisas alırdım indi özüm özümdən.

*Mart 1999*

## SUALIN CAVABI

Biri dedi: «Bu millət qolundakı zənciri
Birdəfəlik itirdi».
Biri dedi: «İstiqlal, axı, bizə nə verdi?»
Biri dedi: «Bu ölkə indi cənnət bağıdır».
Biri dedi: «Vallahi, bu yalanı deyənlər
Məmləkəti dağıdır».
Bu çək-çevir içində millətin bir yarısı
O birinə yağıdır.
Qohum-qohuma düşmən, qardaş-qardaşa düşmən
Bu fikir o fikirə, bu baş o başa düşmən.
Millət ki, bax beləcə, min bir yerə bölünmüş,
Bir-birinə top atan cəbhələrə bölünmüş,
Bizim gözlədiyimiz o birlik olmayacaq
O birlik olmayınca, dirilik olmayacaq.

Müxaliflər bəs niyə
Çağırır bu milləti gecə-gündüz birliyə?
Çəp düşüncə sözləri,
Bir olammır özləri.

Bəs neyləyək indi biz –
Tapsın haqqın yolunu zavallı millətimiz?
Bu sualı Cəlillər, Əlibəylər, Hadilər
Çox verdi bir-birinə,
Bir su səpən olmadı yanan ürəklərinə.

Millәti çaşdırıblar,
Gerçәyi ölçәn ipi elә dolaşdırıblar
Millәt ayıra bilmir әyrisi nә, düzü nә.
İtirib haqq-hesabı.
Bu millәt yumruq kimi birlәşib, öz-özünә
Verәndә bu sualı, tapılacaq cavabı.

*İyul 1999*

## GÜNAH-TÖVBƏ

Hər gecə özümlə üzbəüz durur
Hesab istəyirəm ötən günümdən.
Vicdan cavab verir, ədalət sorur:
Bu gün bir günaha batmışammı mən?

Bölünür bir günüm yaxşı-yamana
Mizan-tərəzidə hər şey çəkilir.
Çevrilib yataqda o yan, bu yana
Nələr çəkdiyimi bir Allah bilir.

Şükür savabıma, şükür, min şükür!
Bilmirəm nə deyim bəs günahıma?
Bu zaman gözümə qaranlıq çökür
«Əfv elə» - deyirəm qibləgahıma.

Nə vaxtsa atdığım yanlış qədəmlər
Əsəb tellərimi çəkir tarıma.
Mənim bir nöqsanım cəzadan betər
Sonralar çevrilir əzablarıma…

Tövbənin qapısı birdir, günah min
O bircə qapıdan min günah keçər.
Haqqa qul kəsilən bir müdrik kəsin
Əyilib önündən neçə şah keçər.

Tövbə orağıyla vicdanındakı
Günah alağını biçənə alqış!

Günahla etiraf arasındakı
Tövbə körpüsündən keçənə alqış!

Tövbə həm vicdanın, həm ağlın səsi,
Tövbə yüz günahın tək bir nöqtəsi!
O nöqtə iradə, o nöqtə inad,
O nöqtə təzə bir günaha qalxan.
Tövbədən sonrakı bir günah yüz qat
Böyükdür əvvəlki yüz günahından.

*Avqust 1999, Şəki*

## KÖRPÜLƏR

Sürətə bax, sürətə! Kiçiltdi dünyamızı
Həqiqətə çevirdi min illik röyamızı.
Caladıqca sürəti zamanın öz ömrünə,
Bir aylıq məsafəni
Başa vurduq bir günə.
Məsafələr qısaldı, dünya ovucumuzda
Kiçik şara döndü, hey.
Bütövləşib şəhərlər bir şəhərə döndü, hey.

Yarıb uca dağları tunellər yaratdılar,
Çayların üzərindən daş körpülər atdılar,
Yolları qısaltdılar.
Yaxınlaşdı adamlar bir-birinə, gör, necə
Zamanca, məsafəcə…
Yaxınlaşdı ölkələr, yaxınlaşdı qitələr.
Hər xeyirdə şər də var:
Bir aylıq məsafəni bircə günə aşırkən
Adamlar bir-birindən
Mənən uzaqlaşarmış cismən yaxınlaşarkən.
Zaman bizi rəndələr, zaman bizi törpülər
Şəhərlər arasında çoxaldıqca körpülər,
Ürəklər arasında körpüləri uçurduq
Tənhalıqlar içində ömrü biz başa vurduq.

*İyul 1999*

## MƏN – ÖZÜMÜN DÜŞMƏNİ

Mən kiməm?
Bu sualı
Hər il doğum günümdə
öz-özümə vermişəm.
Cavab tapa bilməyib,
 Bu sualın önündə
 Başımı endirmişəm.
Mən kiməm?
 Mən nəçiyəm?
Eşqim, diləklərim nə?
Niyə gəldim dünyaya,
 Bu dünyada yerim nə?
Sağ ikən də bilmirəm
 Ölüyəm, diriyəm mən?
Əvvəlini, sonunu
 Dərk etməyən ən adi
 Kəslərdən biriyəm mən.
Arzumla imkanımın
Arasında vurnuxan
 Saat kəfkiriyəm mən.
Zamanın dəhrəsilə
 Qanadlı arzuları
Budanan bir bəndəyəm.
Mən bir üzü ağamsa,
Bir üzü şərməndəyəm.
Mən – özümün düşməni!

Hər gün çəkir çarmıxa
Öz içimdə mən məni.
Mən – özümçün həmişə
Baxdıqca sirri artan
müəmmalı şəkiləm.
Özümə ittihamçı,
özgəsinə vəkiləm.
Bildiyim bu qədərmiş
Məni məndən gizlədən
o suallar hədərmiş.

*İyun 1999*

## TƏSƏVVÜF

*Böyük Cəlaləddin Rumi*
*Mövlanının xatirəsinə*

Hər kəsin ürəyindən
Allaha bir yol gedir.
O yola biganələr
Özünə biganədir.

Özünü aşmaq üçün,
Haqqa ulaşmaq üçün
Gərək öncə aşasan
Nəfs adlı dağları:
Şəriət – bir ağacsa,
Təriqət – budaqları,
Mərifət – yarpaqları,
Həqiqət – meyvəsidir.
Təsəvvüf – haqq səsidir.

*İyul 1999, Şəki*

## TƏKAMÜLDƏ TƏNƏZZÜL

Biz elə ki, dərk etməyə başladıq
Oxumuzu özümüzə tuşladıq.
Həvva ana könül verdi şeytana
Şərimizlə xeyrimizi daşladıq.

İnsan oğlu anlamadı səhvini,
Öz əlilə hazırladı məhvini.
O güvənib tanrı verən ağlına
Tanrısından diləmədi əfvini.

Zənn elədi yaşadıqca yaratdım
Tarix boyu «mənəm» deyə, «mən» deyə.
Bilmədi ki, önə doğru hər addım
Geriyədir, geriyədir, geriyə!

*İyul 1999*

## UTANMAQ, QIZARMAQ

Qalxıram kürsüyə danışmaq üçün
Nədənsə, hər dəfə dil topuq çalır.
Məni elə basır zəhmi kürsünün,
Demək istədiyim qəlbimdə qalır.
Uca kürsülərdən danışanda mən
Həm natiq oluram, həm də dinləyən.

Uzun illər boyu öz istəyimlə
Çox-çox kürsülərdən danışsam da mən,
Razı qalmamışam özümdən hələ
Özümə, sözümə nəzarətimdən.

Əgər karıxdımsa, elə o anda
Görürəm, alnıma soyuq tər gəlir.
Özüm öz sözümdən nöqsan tutanda,
Öz səsim özümə eybəcər gəlir.

Kürsüdə sərbəstlik mənə çox çətin!
Qorxmuşam fikrimi çatdırmayam mən.
Qorxmuşam, salonda əyləşənlərin
Üzümə zillənən nəzərlərindən.

Qorxmuşam, itirəm ölçü hissini
Qorxmuşam, nizamın pozulmasından.
Qorxmuşam, tərsinə anlayıb məni
Sözün başqa yerə yozulmasından.

Çox zaman kürsüdə sıxılmışam mən
Özümdən utanıb çəkindiyimdən.
Utanmaq – özündən bir boy ucalmaq!
Qızarmaq – günahı boynuna almaq!
Utanmaq hissini Allah heç kəsin
Qəlbindən çıxarıb, gülünc etməsin.

**II**

Xisləti, fitrəti hamıya məlum
O, yalan danışdı, yalan, ağ yalan.
Gözümü gözündən çəkib duruxdum
Onun əvəzinə utandığımdan.

Osa utanmadan gülüb gerçəyə,
Şəst ilə gözünü gözümə dikdi.
Üzünə vursaydım «yalandır» - deyə,
O, mənim üzümə dirənəcəydi.
Ondakı üzə bax, yalan düz oldu
Qara ağ, təpə dağ, astar üz oldu.

Üzdə abır varsa, sözdə ölçü var
Həyadan süzülən o sözə qurban.
Dünyada nə desən gözləmək olar
Özündən, sözündən utanmayandan.
Abır – üz suyudur, qəfil qızarar
Qırmızı deyilən bir acı sözdən.
Üzün ismətidir o su…
əlhəzar
Abırı, isməti silinmiş üzdən!

Tanrım, nöqsanımı göstərdin mənə
Səhvimi öyrəndim xəcalətimdən.
Utanmaq hissini sən verdin mənə
Bu böyük lütfünə minnətdaram mən.
Gerçək – qəlbimizdən qaçarıdırsa,
Yalan – yüksəlişin açarıdırsa,
Utanmaq, qızarmaq unudulubsa,
Abır – abırsıza məğlub olubsa,
İnsaf da, vicdan da ərşə çəkilmiş
Demək, insandakı insanlıq ölmüş.

*İyun 1999*

## ANLAYA BİLMƏDİN

Bir zaman yəhərsiz, axsaq yabınla
Yarışa çıxmışdın, amma yoruldun.
Sən geri qalanda, iztirabınla,
Öz alın yazınla barışmaz oldun.

Bildirmək istədin böhtanla, şərlə
Sən yenə də varsan, bu cəhdin əbəs!
Anlaya bilmədin, haray-həşirlə
Qulaq batırarsan, varlıq bilinməz.

Gah ona, gah buna «yalan» deməklə,
Düşündün qədərdən qisas alırsan.
Yaddan çıxmayanı ləkələməklə,
Sən indi özünü yada salırsan?

Sənin məramındır: Öz şakərinlə
Özgə bostanına daim daş atmaq.
Hörmətli kəsləri min cür şərinlə
Hörmətsiz eləyib «hörmətə» çatmaq.

O, hünər göstərdi, sən dərdə düşdün.
«Halaldır bu hünər» - dedilər – ona.
Bu alqış səsini batırmaq üçün
Sən yazıq – güc verdin qışqırığına.
Əgər qışqırdınsa, sən yoxsan, demək
Çox da xoruzlanma, toyuqsan, demək.

*İyul 1999*

## FİKRİN, DÜŞÜNCƏNİN GÖY QURŞAĞI

Boğma, qadan alım, mənim fikrimi
Mənim öz ağlım var, sənin öz ağlın.
Görməz həqiqəti müstəbid kimi,
Olsa başqa fikrə dözümsüz, ağlın.

Havaya buraxma söz darağını
Bənzər fikirlərdən məram umulmaz.
Fikrin, düşüncənin göy qurşağını
Bütün rənglərilə sevməmək olmaz.
Məram aydınlaşar yoxu, varıyla,
Fikir bütövləşər təzadlarıyla.

Rədd etmə əzizim, zidd fikirləri
Zidd fikrə dözməyin özü fərasət!
Fikrin, düşüncənin Adəmdən bəri
Əvvəli şübhədir, sonu həqiqət!

Göydə buludların toqquşmasından
Yerə yağış gələr, bərəkət gələr.
Fikirlər, məramlar toqquşan zaman
Zülmətin içindən həqiqət gülər.

*İyul 1999, Şəki*

## FƏRD

Dizə qədər qar yağıb,
Ağ kəfənə bürünüb
Kənddə yaxın, uzaqlar.
Açılmış bir cığırla
Dərsə gedir uşaqlar.

Əlində yastı çomaq,
Ayağında yun dolaq,
Açılmışla getməyib,
Başqa yerdən özünə
Cığır açır bir uşaq.

Eyni təbiətlimi
Hər gün eyni çeşmədən
Əyilib su içənlər?
Özünə yol açanla
Açılmışı seçənlər?

Bənzəsə də günümüz,
Ayımız bir-birinə
Hərə bir cürə baxır
Dünyanın işlərinə.

Milyonların içində
Namərd də var, mərd də var.

Hamı insandır, ancaq
Kütlə də var, fərd də var.

Fikirlər düyün-düyün,
Duyğular löyün-löyün.
Yeniliyə təşnəlik
Behidir müdrüklüyün.

*Fevral 1999*

## ZİYASI İÇİNDƏN DOĞAN ZİYA

Çırağı söndürdün, insafın hanı?
Zülmətə qərq etdin bizi bir anlıq.
Ziyası içindən doğan ziyanı
Yox etmək istədin, çökdü qaranlıq.
Fikrindən dönmədi yenə o məlun
O, çatmaq istədi pislik qəsdinə.
İçindən yananı söndürmək üçün
Başqa işıq saldı onun üstünə.
Amma içindən yanan yanırdı haqdan
İşıqdan karıxdı salınan işıq.
İşığı içindən doğan işıqdan
Qat-qat zəif çıxdı salınan işıq.

*Avqust 1999*

## ZƏHƏRLİ AĞAC

Sən zəhərli ağac əkdin
Ətrafına su da çəkdin.
Zaman keçdi,
Ağac yaman bəhər verdi,
Bəhər deyil, zəhər verdi.
Qapı qonşun
Onu kəsmək istəyəndə
Qırdın onun dəhrəsini.
Sənə onun meyvəsini yedirdəndə,
Dərk elədin
Əməlinin bəhrəsini.

*Avqust 1999*

## BİR MACAL VER

Tək bir fikir aça bilməz bu düyünü
Saxla bir az hay-küyünü.
Bir macal ver, o da desin,
Öz fikrini çözələsin.

Bacarmadın sənsə bunu
Sən yolların yolu bildin öz yolunu.
Dedin, bu gün haqqı bilən təkcə mənəm,
Əlli ildən sonranı da mən görənəm.

Öz fikrini doğru bilib,
«Yalan» dedin özgəsinin düzünə sən.
Başqasını anlamaqçün
Başqasının gözlərilə
Baxammadın özünə sən.

Özgəsinin əli üstə
Önə çıxan öndəkilər
Hər məqamda tək özünü haqlı bilər.
Anlamaz ki, çəkə bilməz
Öz-özünü tərəzilər.

*Avqust 1999*

## XƏYALPƏRƏST

*Türküstanın istiqlalı yolunda canını qurban vermiş **Ənvər Paşanın** xatirəsinə*

Sən öz ata yurdunun xilasına can atdın,
Ulularn ruhunu öz ruhunda yaşatdın.
Vətən, millət eşqinə biganə tüfeylilər
Sənin damarlarında nəbz kimi döyünən
O duyğunu nə bilər?
Gülüb etiqadına,
«Xəyalpərəst» dedilər o vaxt sənin adına.

Sən Turan ellərini ayaqlarınla deyil,
Eşqinlə gəzdin, Paşam.
Türküstanın, Qafqazın dərdini var gücünlə
Haykıran səsdin, Paşam.
Sən öz alın yazını poza bilməzdin, Paşam.
Sən taleyin cızdığı müqəddəs yolu getdin,
Qəsbkarın qəsdinə özünü sipər etdin.
Sən bizə qahmar olub,
Ana yurdda doğulub,
Ata yurdun yolunda qurban verdin, canını.
Fatehlər alqışladı Turan üçün ağrıyan
Sənin pak vicdanını.
«Xəyalpərəst» qardaşım,
Sənin böyük xəyalın bu gün həqiqət oldu,
Türkün xeyir-duası ruhuna rəhmət oldu.

*İyul 1999*

## BAĞIŞLAMAQ

Bağışlamaq – hər kəsə müyəssər deyil.
Qisas almaq – dünyada bir hünər deyil.
Bağışlamaq – Allahı özündə bulmaq,
Qisas almaq – şeytanın əsiri olmaq.

Günahkarı bağışla, səhvini qansa,
Unutma ki, oyaqdır həmişə vicdan.
Bu dünyada nə qədər bağışladınsa,
O dünyada o qədər bağışlanarsan.

*İyul 1999*

## ANA BİRSƏ…

Lap yaxşıca tanıyıram mən səni
Aqillərin düz sözünə gülənsən.
Böyüklərdən böyük sanıb özgəni
Sən özünə, soykökünə gülənsən.

Gəl, özünə doğma bilmə sən yadı
Düşməninə qardaş demə, a nadan.
Mən bilirəm, qəlbindəki saatı
Sən Moskva vaxtı ilə qurmusan.

Ana birsə, vətən də bir, a bala,
İstiqlala dal çevirib əsnəmə.
Nə dikmisən gözlərini şimala?
Ürəyində iki vətən bəsləmə.

Əsarətə, rəzalətə baş əyən
Bayat fikrə, bayat sözə qələm çək.
Özü üçün umac ova bilməyən
Sənin üçün əriştəmi kəsəcək?

*Aprel 1999*

## GÜNAH

Günahsız doğulduq, amma illəri
Biz başa vururuq dərd çəkə-çəkə.
Günahkar dünyaya Adəmdən bəri
Günah qazanmaqçün gəlirik, bəlkə?

-Günahın çoxmudur?
Dedim: – Dünyanın
Əyrisi bir yana, düzü günahdır.
Mayası çamursa, əgər insanın
Dünyaya gəlməyin özü günahdır.

*Aprel 1999*

## BİR MƏRAM,
## BİR QAYƏ

Solum, sağım – partiyalar,
Qaram, ağım – partiyalar.
Zənn edirlər hər birinin
Öz məramı, öz yolu var.

Həqiqətdə hər birinin
Neçə-neçə sağ-solu var.
Xalq içinə rəxnə salar,
Didişdikcə partiyalar.

Məramları, qayələri
Bir-birindən o qədər də çox seçilmir.
Amma nədən başqanları
Bir məxrəcə gələ bilmir?
Kürsü birdir, başqansa çox.
O buna «yox», bu ona «yox» -
Deyə-deyə
Sahib çıxmaq istəyirlər
Bir kürsüyə.

Üzdə gülüş, dalda söyüş,
Gözdə qəzəb, kin görünür.
Müxalifin müxalifə iddiası
Müxalifin iqtidara
Nifrətilə tən görünür.

Mən istərəm: Bu başqanlar dərk eləyə
Həm milləti, həm özünü.
Mən istərəm: Bu millətin
Bir məramı, bir qayəsi olan günü.

*İyul 1999*

## HAVAYA SOVRULAN TOZ

Hələ mətləb deyil hər ucalan səs
Məcranı itirən sular biləmməz
Hara axdığını, dirənər dağa
Yollarda yox olub, hopar torpağa.

Elə bağırırsan uca kürsüdən
Səsdə nə mənliyin, nə də özün yox.
Sözlərdən bir mətləb anlamıram mən
Səsin eşidilir, amma sözün yox.

Qayəsiz sözlərin şak-şak səslənən,
Ləpəsi fit çıxan qoza bənzəyir.
Sürtük cümlələrin bilmədinmi sən
Havaya sovrulan toza bənzəyir?

Duzsuz ibarələr, üzsüz kəlmələr
Cümlənə bir qətrə dad qata bilmir.
Sözlər həqiqətdən utanır məgər,
Min söz bircə fikri anlada bilmir.

İçin boş, çölün xoş, özün bir qaval
Əlin zərbəsinə hay verən oldun.
Bir parça qənd üçün bir böyük çuval
Şəkər çuğunduru gəmirən oldun.

*Oktyabr 1999*

## DEPREM*

*1999-cu il avqustun 17-də Türkiyədə baş verən zəlzələdən həlak olanların xatirəsinə.*

Eşidincə ata yurdda depremi,
Axdı yaşım, döndü başım, Türkiyə.
Hər dərdimin, hər qəmimin ortağı
Can qardaşım, qan qardaşım, Türkiyə.

Varmı qəza, varmı bəla, de, bunca?
Səninləyik biz ki ömür boyunca.
Faciəni biz uzaqdan duyunca,
Gözlərimdən axdı yaşım, Türkiyə.

Öz hökmü var hər zamanın, hər anın,
Yaman gündə yanındayıq biz sənin.
Ana yurdda Vətənimsən, Vətənim,
Vətənimdə vətəndaşım, Türkiyə.

Tarix boyu bu əhdimiz pozulmaz,
Türk milləti xar olmamış, xar olmaz.
Hər bəladan türkün beli qırılmaz,
Sən ey mənim can sirdaşım, Türkiyə.

Sən çıxmısan tarixdə çox sınaqdan,
Dönməmisən nə gerçəkdən, nə haqdan.
Ey zamanın yollarında hər zaman
Mənim arxam, yol yoldaşım, Türkiyə.

*Zəlzələ.

Bu taleyi nə yamanla, nə qına,
Dönəcəksən sən dünənki çağına.
Qurban olum sinəndəki dağına,
Uca başım, əməldaşım, Türkiyə.

*Avqust 1999*

## MƏNƏMLİK - VİCDAN

Mənəmlik taxtında oturub rahat
Özünü hamıdan böyük görmüsən.
Boğub vicdanını içində qat-qat
Qıvrılan gerçəyi sən öldürmüsən.

Qəlbini gəmirib yedi qəzəb, kin
Sən elə bildin ki, birin də mindir.
Hamını özündən kiçik görməyin
Böyüklük deyildir, kiçikliyindir.

Ayıla bilmədin şirin yuxundan
Özünə güvənib daim «mən» dedin.
Vicdan gözəlini unutduğundan
Sən haqqın hüsnünü görə bilmədin.

Ay yazıq! Qəlbinin qaranlığından
Ağa qara dedin, haqq unuduldu.
Sən hardan biləsən, axı, hər zaman
Mənəmlik vicdanı tanımaz oldu.

Özündən müştəbeh öz günahından
Düzü əyri görüb, daim aldanır.
Gerçək qarşısında həmişə vicdan
Əyilib, özünü günahkar sanır.

Birinə edilən yaxşılıqları
Qara damğan ilə ləkələdin sən.

Qışda bir məzluma verdiyin qarı
Yayın istisində «qaytar» dedin sən.

Heç kəs bir yaxşılıq ummadı səndən
Yamanlıq elədin qoruq-qaytaqsız.
Vicdanın üzünə tüpürdüyündən
Özünü haqq bildin, hamını haqsız.

Qəddar müstəbidlər söylədi «mən», «mən»
Özünü hamıdan ağıllı bildi.
Ən böyük tiranlar xudbinliyindən
Ölkənin başına bəla kəsildi.

Şahların yuvası xanimanların
İçində gizlidir min kin, küdurət.
Böyük savaşların, axan qanların
Ağacı mənəmlik, barı fəlakət.

Hansı bir ürəkdə vicdan vardısa,
Mənəmlik önündə sipər görmüşəm.
Mənəmlik bir yerdə hökümdardısa,
O yerdə vicdanı nökər görmüşəm.

*İyul 1999*

## YAMAQ ÖMÜR

Arzum çox olanda, dərdim də çoxdu
Könlüm dərd əlindən oyuq-oyuqdu.
Elə ki, hər şeydən çəkdim gözümü,
Rahatlıq taxtında gördüm özümü.

Yaşım çoxaldıqca
ətəklərimdən
Dartıb tələblərim azalır mənim.
Çata bilmədiyim istəklərimdən
Çatdığım istəklər kam alır mənim.

Nəfsimlə üz-üzə dayanır yaşım
Deyirəm, az aşım, ağrımaz başım.
İşini xəlvəti görürmüş zaman
Kol-kosa dönmüşəm, hanı gül çağım?
Nə qədər istəyim azsa, dünyadan
O qədər çox olur can rahatlığım.

Budurmu yaşamaq?
Mən, axı, bir vaxt
Belə düşünməzdim, mən hara gəldim?
Yoxsa, öz-özümü inkara gəldim?

Yox! Bu cür yaşamaq ömrə bir yamaq!
Amal dəyişərmiş, demə, ilbəil.
Nəyinsə eşqinə qanadlanmamaq
Əzabdır, zillətdir, yaşamaq deyil!

Doğrusu budur ki, ahla, amanla,
Həkimlə, iynəylə, dava-dərmanla,
Ömür calayıram ömrümə hər gün
Mənası varmıdır bu yamaq ömrün?

Alın yazısı da bəlkə yalanmış
Qədər də, qismət də xəyalmı, yarəb?
Dava-dərmanlarla ömrə calanmış
Bu ömür parçası halalmı, yarəb?

*1998-1999*

## DÜZ YOL,
## ƏYRİ YOL

Düz yol – azlıq yoludur,
Əyri yol – çoxluq yolu.
Düz yol – aclıq yoludur,
Əyri yol – toxluq yolu.

Vaxt ötür, dövran dönür,
Aclar – əzilməyində.
Toxlar – xalqı özünə
Daim qul bilməyində.

Görənlər bu dünyanı
Həmişə belə görmüş –
Əzəni – cah-cəlalda,
Dözəni – kölə görmüş.

Yaşamaq istəyimiz
Cinayətlə tənləşir.
Dolu həbsxanalar
Bizimçün vətənləşir.

*Avqust 1999*

## KÖRPÜ DÜNYA

İki yoxluq arasında
Yol gedirəm qədəm-qədəm.
Dünya adlı bir yoxluğa
Gəlmişəm ki, bir gün gedəm.
Anlasam da heçliyimi,
Özüm boyda bir ümidəm.

Kələ-kötür doğulmuşuq
Törpüləyir bizi hər gün
Rəndəsiylə törpü dünya,
O yoxluqla bu yoxluğun
Arasında körpü dünya.

Qəlbim olub lağım-lağım,
Arzularım dağım-dağım.
Cavanlıqda gözüm acdı,
Qocalıqda kar, qulağım.

*Oktyabr 1999*

## ÖZGƏ

*Xalqın dili onun ruhudur və xalqın*
*ruhu onun dilidir.*
**V.Humboldt**

Səninçün nə Vətən, nə millət, nə din
Xalqın hesabına kefini çəkdin.
Alışa bilmədin halal zəhmətə
Haram bulağından sən su içmisən.
Ananın dilinə, yurda, millətə
Anadan olalı özgələşmisən.

Bu Vətən anadır, eşqi könüldə
Onu düşündünmü bir övlad kimi?
Qarabağ ağrısı bu doqquz ildə
Sənin ürəyini heç göynətdimi?

Pulun var, sanırsan ər oğlu ərsən
Baxdın yuxarıdan ər oğullara.
Sən yüz Qarabağı qurban verərsən
Düşməndən aldığın sən yüz dollara.

Mahirsən kələkdə, bicsən hiylədə
Necə oğul desin sənə bu torpaq?
Evində sabahın bicləriylə də
Sən özgə dilində danışdın ancaq.

Zaman dəyişdikcə, dəblər köhnəlir
Anlaya bilməyir nəsil nəsili.

Kübar balaları iki dil bilir:
Məktəbdə ingilis, evdə rus dili.
Sən demə, heç kəsə gərək deyilmiş
Müstəqil ölkədə ölkənin dili.
«Bu dilin öz haqqı çoxdan yeyilmiş
Məgər bilmirsənmi bunu – ay dəli?

Xalqın öz ruhudur xalq yaradan dil
Övlad böyütmədin sən bu xalq üçün.
Vətənin dilinə biganə qafıl
Ana Vətənini satmazmı bir gün?

Qaldı öz dilimiz qapı dalında
Çəkir bu milləti hərə bir yerə.
Millət ac, harınlar cah-cəlalında,
İlahi, qeyrət ver qeyrətsizlərə.

Sən kimdən törədin, nədən yarandın?
Bəlkə damarından axan qan özgə?
Bircə əlamətin yoxdur, bu xalqın
Oğlu olmağına adından özgə.

Allahın var isə dəyiş adını
Akopsan, İvansan, bilmirəm nəsən.
Sən hardan duyasan el fəryadını
Axı, sən ruhunla bizə özgəsən.

Nəyinə gərəkdir namus, ar kimi
Ağır yükü çəkmək?
Başqadır yükün.
Bu boyda Vətəni göy dollar kimi
Hər gün bükmələyib cibinə dürtdün.

Özünü hamıdan bilib kamallı
Yığdın sandığına pulları çin-çin.
Xərcləmək üçündür pul, a zavallı
Sən yox namusunu pula xərclədin.

Tüpürdün həmişə halal zəhmətə
Haram bulağından sən su içmisən.
Vətənin dilinə, yurda, millətə
Anadan olalı özgələşmisən.

*Dekabr 1999*

## GECƏLƏR - PƏNAH YERİM

Səhərlərim - boyasız, gündüzlərim – qorxusuz
Gecələrim – narahat, gecələrim – yuxusuz.
Başbaşayıq sübhə tək mənimlə fikirlərim,
Gecələrə açılır gizli-gizli sirlərim.

İndi mən qısılmışam gecələrin qoynuna
Boylanıram içimdə gah əvvələ, gah sona.
Gecələr – sığnaq yerim, gecələr – pənah yerim,
Gecələr bir-birilə döyüşən fikirlərim.

İnanardı ağıl da öz içimin səsinə
Şirin xəyallarımın yumşaq mütəkkəsinə
Baş qoyardım bir zaman
Xəyalı gerçək kimi yaşayardım bir zaman.

İndi qurban verməyə hazıram bir yad kimi
Min-min səhərlərimi, min-min gündüzlərimi
Bir anlıq sükutuma, bir yuxusuz gecəmə.
Qəm sükuta dəm tutur, gecələr sükut qəmə.

Allahın bal yuxusu mənə haram gecələr
Sürünürəm gündüzlər, yaşayıram gecələr.
Anam deyərdi: «Oğul, sən gecə doğulmusan
Bəlkə buna görə də gecəquşu olmusan».

Mən təpədən dırnağa indi səbrəm, dözüməm,
Çoxluğumda başqası, təkliyimdə özüməm.

Verdiyin tənhalığı geri götürmə, Allah,
Gecəmlə həsb-halı mənə çox görmə, Allah.

Mənim mənə ən yaxın sirdaşımdır gecələr,
İçimə damcılayan göz yaşımdır gecələr.
Gecələr sığnaq yerim, gecələr pənah yerim,
Səhərlər açılanda qapanır kirpiklərim.

Öyrəndim gecələrdən
Qaranlıq içində mən
Ulduz-ulduz yanmağı,
Özümə qapanmağı, içimə boylanmağı.

Gecələrin sahibi, gündüzlərin quluyam,
Mən gündüzlər adiyəm, gecələrsə uluyam.
Gecələr çiçəklənir söz gülşənim, söz bağım
Gecələrin şahıyam, yoxdur mənim ortağım.

*Dekabr 1999*

## HƏR GÜN BİR ADDIMDIR

Əvvəli, axırı bilə bilmədik
Həyata, ölümə böldük dünyanı.
Ölümdən o yana biz yoxluq dedik
Ölümdən bu yana bəs varlıq hanı?
İndi aldanaqmı quru bir ada?
Yoxdur var olan da, bu boş dünyada.

Hər gün bir addımdır…
                                        Bu uzun yolun
Əvvəli məchuldur, bəs sonu nəymiş?
Kim bilir haradır yönü son yolun
Qədərin qurduğu oyunu nəymiş?

Ürəyim dilləndi ah amanımda
Nə qədər çəkirəm, dərdim gödəlmir.
Nəyi gözləmirəm, bitir yanımda
Amma gözlədiyim gəlmir ki, gəlmir.

Birdən ayıldım ki, içim sis, duman
Özümü çəkirəm öz yedəyimdə.
Dünya elə boşdur, əslinə baxsan
Mənə bəlli deyil istədiyim də.

*Dekabr 1999*



# İNSAN VƏ
# ZAMAN

*Bilmədik, bir xalqa gəlmə fikirdən,*
*Özgə düşüncədən büt ola bilməz.*
*Yalnız bu torpaqdan, yalnız bu yerdən*
*Qalxmayan bu yurdda ucala bilməz.*



## UNUTQANLIQ

*«Yadımıza belə gətirməzdik ki, ermənilər çox-çox əvvəl... hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqmış...*

*Bu sadədilliyimiz səbəbilə cümləmiz qonşu ermənilərlə yenə qədim sayaq üzrə sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan edirdik və bu surətlə millətimizin gözünü bağlayıb...uçuruma sarı hazırlayırdıq.*

*İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq».*

**Ömər Faiq Nemanzadə. 1906-cı il**

Ömər bəy, hər sözün haydı, haraydı,
Deyilib elə bil, bu çağımızda.
Sənin bu fəryadın sırğa olaydı,
Daim səslənəydi qulağımızda.

Əsrin əvvəlini unutmuşuq biz,
Saldın yadımıza dünənimizi.
Sadəqəlbliyimiz,təmizliyimiz
Tarixdə nə qədər aldatmış bizi.

...Erməni zülmündən yüz ildən bəri
Daşdan-daşa dəydi bu xalqın başı.
Unutdu çəkdiyi müsibətləri,
Niyə oğurlandı onun yaddaşı!
Biz başdan-ayağa rəhmik, şəfqətik,
O, kin dağarcığı, o, goreşəndir.

Biz əvvəl insanıq, sonra millətik,
O, insan olmadan millətləşəndir.

Bilirik, tutulub o, yaman dərdə,
Qəlbində həmişə kin əzizləyir.
Elə unuduruq, dar döngələrdə,
O, bizi vurmağa məqam gözləyir.

Bilmədik, içini gəmirir bu kin,
Sözü keçməyəndə üzdən həlimdir.
Unutduq, nifrətlə mayalanmışın
Fikri – intiqamdır, qəsdi – zülmdür.

Mən öz qonşuma  da gerçək olanı,
Çatdıra bilmirəm, haqqım kəsilmiş.
Osa yalanıyla bütün dünyanı
Bizim üstümüzə qaldıra bilmiş.

Biz boğub vicdanı, qəhr edib arı,
Şərə yoldaş olub haqqı danmarıq.
Heç vaxt unutmarıq yaxşılıqları,
Amma pislikləri unudanlarıq.

Sulanıb həmişə qonşunun bağı
Bizim arxımızdan, şəfqətimizdən.
Əfsus! Bacarmışıq bağışlamağı,
Aman diləyəndə düşmən də bizdən.

Quyruğu əzilir, yumşalırıq biz,
Deyirik, bir daha o, çalan deyil.
Amma unuduruq, unuduruq biz.
Küdurət xəstəsi sağalan deyil.

Utanmaz, usanmır bəd əməlindən,
Bələddir unutqan xislətimizə.
Bilir, dədəmizin onun əlindən
Çəkdiyi zillətlər dərs olmur bizə.

Bu yaman xisləti, gəlin, tərk edək,
Tarixi dərsləri daha dərk edək.
Tərk edək, unudaq soyuqqanlığı,
Tərk edək keçmişə unutqanlığı.

Daim gözümüzün önündə dursun
Keçilən yollarda xeyir-şərimiz.
Bu günü unutsaq, sabah, biri gün
Bizi bağışlamaz nəvələrimiz.

Dedim, silinməsin bu qan, bu qada,
Bir də, güllə izi dağ-daşımızdan.
Yalnız bu günə yox, biz sabaha da
Güzgü tutmalıyıq yaddaşımızdan.

*İyul 1991*

## ANAN ÖLSÜN, AY VƏTƏN

Qan ağlayır sinədə bu gün ürəklər,
Bu gün karta qoyulmuş şərəfim, şanım.
Yarasını yalayan bir şirə bənzər
Mənim başıbəlalı Azərbaycanım.

Zaman, sən ki, binədən haqq doğulmusan.
Sən ki, düzü əyridən seçən olmusan.
Nə yel ötdü aradan, əyri düz oldu,
Zülm meydan suladı, haqq unuduldu.

Mən bilmirdim, necə də sən cürətlisən,
Bizdən şəhid almağa səxavətlisən.
Üzə durub bu qədər dönən bəxt kimi
İllərimiz ötüşür qəm karvanında.

Təzə-təzə məzarlar ötən vaxt kimi
Addımlayır Şəhidlər xiyabanında.
Ah! Bərəkət toxumu tək biz şəhidləri
Hey əkirik torpağa üç ildən bəri.

Hər günümüz bir yeni salavat oldu,
Şəhid dağı sinədə qatbaqat oldu.
Hər ocaqdan, hər evdən «ah» səsi gəldi,
Bir yara sağalmamış təzəsi gəldi.

Əli yalın, silahsız igid oğullar,
Çəkdi düşmən önündə sinədən hasar.

Vətən cəfasını çəkən keşikdə,
Onun səfasını çəkənsə kefdə.

Vəzifəli kəslərin
Nə işi var cəbhədə?!
Ölə bilər cəbhədə!
O kəslərin səngəri –
İsti kabinetləri!
Girib, toplar dağıtmaz
Vəzifə səngərinə
Güllə atır, top atır
Onlar biri-birinə.

Onların nə vecinə, dörd ildən bəri
Viran qoyur erməni bizim kəndləri.
Güldürürük bu xalqa bütün dünyanı,
Anan ölsün, ay Vətən, sahibin hanı?

Vəzifə düşkünləri tükdən tük seçir,
Bir pillə qalxmaq üçün namusdan keçir.
Onlar xalqın dərdinə qovrulmaq deyil,
Bu xalqı barmağına dolamaq istər.
Dara düşmüş millətə qul olmaq deyil,
Hakim olub, Vətəni talamaq istər.
Gözü doymaz udsa da düzü, dünyanı,
Anan ölsün, ay Vətən, sahibin hanı?

Mən indi anlamışam sağım sol imiş,
Kənar düşmən əzəldən nə gərək bizə.
Nifrət, qisas hissimiz yaman bol imiş,
Biz qənim kəsilmişik bir-birimizə.

Biz beləyik… Erməni tanımış bizi.
Özümüzü məhv edən nifrətimizi
Yönəltsəydik düşmənə,
              su durulardı,
Qarşımızda erməni quyruq bulardı.

Satdılar əqidəni, eşqi, məsləki,
Ləyaqəti, namusu bir əşya təki.
Çox şeyimiz satıldı, dözdük, dinmədik,
«Bir gün satqınlarımız ayılar» - dedik.
Yox, onlar ayılmadı, kül atıb gözə
Torpağı da satdılar düşmənimizə.
Bizim xəyanətimiz bizdən öc aldı.
Satılmamış, görəsən, daha nə qaldı?
Güldürdük bu millətə bütün dünyanı,
Anan ölsün, ay Vətən, sahibin hanı?

Qan ağlayır sinədə bu gün ürəklər,
Bu gün karta qoyulmuş şərəfim, şanım.
Yarasını yalayan bir şirə bənzər
Mənim başıbəlalı Azərbaycanım.
Güldürürük bu xalqa bütün dünyanı,
Anan ölsün, ay Vətən sahibin hanı?

*Aprel 1992*

## «MEDALLI DİLƏNÇİ»

*Bu gün o, əl açır gəlib-gedənə,*
*Dünənsə ölümlə o, mərd görüşdü.*
*Ömrünü Vətənə fəda edənə*
*Bir medal, bir qoltuq ağacı düşdü.*

**N.Xəzrinin**
**«Medallı dilənçi» şeirindən**

Şair, sən zamanın hökmünə yandın,
«Medallı dilənçi» sarsıtdı məni.
Göz yaşı içində bu günə yandın,
Şeirinin alovu qarsıtdı məni.
Amma bir mətləbi unutdun bəlkə:
Qardaş, eyni deyil Vətənlə ölkə.

O, hansı Vətənin yolunda dünən
İtirib qıçını!
O Vətən hanı?
Niyə bu halında tutmur əlindən!?
Vətən unutdumu öz övladını!?

Gəlin, təzə gözlə baxaq dünənə,
Onun o xidməti bəlkə hədərmiş.
Hansı əqidəyə, hansı vətənə
Ömrünü, gününü o, qurban vermiş!?

O, əsgər gedəndə «haqqam» - demişdi.
Aldandı, bu dərdi  nə biləydi o!
Vətən çağrışına o getməmişdi,
Ölkə çağrışının əsgəriydi o.

Bunu dərk etsəydi, bəlkə də bu gün
Döşündə medalı dilənməzdi o.
Özgə təltifiylə öyünənlərin
Belədir taleyi, belədir sonu.

Zamanın felinə aldanmış o da,
O, bu gün dünənin söz qurbanıdır.
Günahsız dilənçi aldanışında
Günahkar gərdişin öz qurbanıdır.

Özgə torpağında ölən əsgəri,
Mən də düşünmədən şəhid sanmışam*.
Mən də ayırmayıb xeyirdən şəri,
Yalan kölgəsində xumarlanmışam.
Vətənin sahibi özgəsidirsə,
Onun əsgəri də yad olur bizə.

Vətən torpağını qoruyan əsgər,
Şərəf abidəsi, şan heykəlidir.
Özgə torpağında can qoyan əsgər,
Döşdə yad medalı dilənməlidir.

*Avqust 1991*

---

*"416" poemam nəzərdə tutulur.

## DAĞILAN HEYKƏLLƏR

*Bakıda keçmiş partiya və Dövlət rəhbərlərinin heykəlləri uçurdulur.*

Heykəllər dağılır şəhərimizdə
Təzə günəş doğur dan yerimizdə.
Lənətlə, nifrətlə anırıq bu gün
Dünən alqışlarla yaşanan dövrü.
Xəyanət üstündə duran bütlərin,
İlahi, nə qədər gödəkmiş ömrü!

Bilmədik, bir xalqa gəlmə fikirdən,
Özgə düşüncədən büt ola bilməz.
Yalnız bu torpaqdan, yalnız bu yerdən
Qalxmayan bu yurdda ucala bilməz.

Anlaya bilmədik özgənin əli
Bizim xeyrimizə uzana bilməz.
Özgə bir millətin bütü, heykəli
Bu torpaq üstündə dayana bilməz.

Heykəllər hərəsi
Bir əsrin səsi.
Heykəllər zamanı, vaxtı danmalı.
Heykəli bu gündə dayanan kəsin
Əməli sabaha pərvazlanmalı!

Torpaqda ucalan daş heykəllərin
Özülü sevgidən yoğrulsun gərək.
Gələn əsrlərin, gedən illərin

Hökmünə döş gərib doğrulsun gərək.
Hökmü yaman verir amansız zaman
Ancaq məhəbbətlə ucalır hər kəs.
Öncə ürəklərdə baş qaldırmayan
Heykəl torpaq üstdə dayana bilməz.

Xalqın sevgisiylə doğrulmayanlar
Nifrətlə, lənətlə uçulur bu gün.
Özgəni özünə doğma sayanlar
Dağılan bütlərdən ibrət götürsün!

*İyul 1992*

## UNUDULSUN UNUTQANLIQ

İyirmi səkkiz nisan günü*
Əsarəti qızıl şərəf medalı tək
Döşümüzdən asan günü
Unutmayaq, yada salaq
O rəzalət günümüzü biz bir anlıq.
Unudulsun unutqanlıq!
Qatarlardan,
        gəmilərdən,
                maşınlardan
                        fit verilsin.

O bəd günün,
        rəzil günün xatirəsi
İniltiylə dindirilsin.
Hərəkəti dayandıraq,
Yaddaşları oyandıraq:
Bilək, niyə endirildi bayrağımız.
Niyə bizim başımızda
        çatladı öz çanağımız.
Niyə ata evimizə
        sahib oldu qonağımız?

Yetmiş ildir biz zülmətin içindəyik.
Bu müddətdə biz bilmədik
Nə məzhəbdə, nə dindəyik.

*1920-ci il, 28 nisan (aprel) günü. Azərbaycanın XI rus ordusu tərəfindən yenidən işğal olunduğu gün.

Bir söz ilə, biləmmədik,
Biz nəçiyik, kimik, nəyik?
Yönümüz də, yolumuz da unuduldu.
Sağımız da, solumuz da unuduldu.
Biz nə dostu görə bildik, nə düşməni.
Neçə yerə parçaladıq bir Vətəni.
Biz yağını dost bilmişik.
Özümüzə qatı düşmən kəsilmişik.
Didişirik bu gün biri-birimizlə,
Vuruşuruq
İçimizdə yuva salan şərimizlə.
Arxamızdan bizi vuran,
Atımızı torbasıyla vuruşduran
O hiyləgər bic düşməni unutmayaq,
Yada salaq biz bir anlıq.
Unudulsun, unutqanluq!

*May 1992*

## QƏM - ŞADLIQ

Kədər – düşüncədir, qəm – düşüncədir,
Qəmin pəncəsində düşünürük biz.
Fikirlər fikrimdə qönçə-qönçədir,
Məchula bir yoldur hər düşüncəmiz.

Toplayır bir yerə qəm, fikirləri
Qəmdə yetişirik, kök atırıq biz.
Dünyanın sirridir bir qəlbin sirri,
Sirrin tilsimiylə yaradırıq biz.

Qəm fikrin açarı, ağlın ustadı,
İdrak qəm daşına dəydi, parladı.
Çəkdiyi əzabdan qəm dərən ağıl
Günləri yaşayır bircə anda da.
Qəmin damcısında közərən ağıl,
Közərməz şadlığın ümmanında da.

Dərdim olmasaydı, dərd tutmaq üçün
Dərdin dəryasına tilov atardım.
Sevinci qaşıyıb, vallah, mən hər gün
Sevincdən özümə dərd yaradardım.
Əgər olmasaydı dəryaca dərdim,
Dərdin yoxluğunu mən, dərd edərdim.

Nədir ürəkdəki bu gizli sancı?
Bu yerdə dərk etdim, sən nəsən, Allah!
Əgər olmasaydı qəmin qazancı,
Şadlıq nə xərclərdi, görəsən, Allah?

*İyul 1992*

## ÖLÜLƏR YAŞAYIR YADDAŞIMIZDA

Həzin xatirələr şirin, çox şirin,
Ölülər yaşayır yaddaşımızda.
Mehriban, sevimli rəhmətliklərin
Ruhları işarır göz yaşımızda.

Yaddaş nə deməkdir, xatırlamaq nə?
O hardan közərib gəlir fikrimə?
O necə közərir, o necə gəlir,
Niyə aşkar gəlmir, gizlicə gəlir?

Ölülər işıqlı xatirələrdən
Nur kimi süzülür hafizəmizə.
Düyünə düşəndə, ölülər hərdən
Girir yuxumuza, dərs verir bizə.

Onlardan misal da çəkirik bəzən:
«Rəhmətlik filankəs belə deyərdi».
Biz bərkə düşəndə deyirik: «Görən,
Rəhmətlik filankəs bu müşkül işi
Necə qarşılayar, üstələyərdi…»

Dünyanın min rəngli xeyir-şərində
Bizimlə yanaşı yaşayır onlar.
Ömür yolumuzun döngələrində
Ya bizə haqq verər, ya bizi danlar.

Elə ölü var ki, diridən diri,
Eşidir qulağı, görür gözləri.
Umur, tələb edir nə isə bizdən,
Uçuşur ruhları sol-sağımızda.
İncik deyillərsə əməlimizdən,
Dolaşır həmişə ocağımızda.

Bizi min düyünə salan işlərin
Sirri qəlbimizdə tufan qoparmış.
Çoxdan o dünyaya çəkilmişlərin
Demə, bu dünyada çox işi varmış.

Ölülər işıqlı xatirələrdən
Nur kimi süzülür hafizəmizə.
Biz dara düşəndə, ölülər hərdən
Girir yuxumuza, dərs verir bizə.

Ölü var, diridir min dəfə bizdən,
Ölülər yaşayır yaddaşımızda.
Onlar incikdirsə əməlimizdən,
Ruhları ağlayır göz yaşımızda.

*Avqust 1991*

## TALEMİ, QƏZAMI?

Gedirəm… Arzunun çathaçatında
Bir uçurum, bir qəza yolumu bağlar.
Könlümün ən dərin, gizli qatında
Bir istək hıçqırar, bir ümid ağlar.

Talemi?
Qəzamı?
Kimdir günahkar?
Bəlkə də qismətim qismət deyilmiş.
Dözməkdən savayı bir əlacmı var?
Alın yazısını kim poza bilmiş?

*Avqust 1991*

## OYUN

Nə sağda, nə solda, nə də öndəyəm.
Bilmirəm hardayam,
nə idim,
nəyəm?
Nə keçmişim olub, nə sabahım var,
Vaxtın nə içində, nə çölündəyəm.

Bu gün yox, dünən yox, gələcək də yox,
Demək, nə əvvəlim, nə də sonum var.
Var olan təkcə şey yoxluqdur ancaq,
Amma bu yoxluqda yüz oyunum var.

Kiməsə məhəbbət, nəyəsə nifrət,
Kiməsə etiraz, nəyəsə heyrət!
İnam – inamsızlıq, həqiqət- yalan,
Birinə ehtiram, birinə üsyan.
Arzular dalınca sürünməyim nə?
Çıraq tək gah yanıb, gah sönməyim nə?
Bunların hamısı oyunmuş, demə,
Heyran olmuşammış mən öz rəqsimə.

Dünyam qaval çalır, mən oynayıram,
Dünya üz göstərir cürbəcür mənə.
Nə qış var, nə bahar, nə sübh, nə axşam,
Bunlar gerçək kimi görünür mənə.

Əslində, yuxudur, gecəm, gündüzüm,
Röyalar içində mən ancaq varam.
Gerçəkdə yoxamsa, yoxam mən özüm,
Məni oynadırlar, mən oynamıram.

*İyul 1991, Şəki*

## BİLMƏK - İNANMAMAQ

Biz neçə insanı öz yaşımızda
O biri dünyaya yola salmışıq.
Onları yaşadıb yaddaşımızda
Ölümü düşünüb, fikrə dalmışıq.

Dəfn mərasimi… Daralır nəfəs…
Hamı bir anlığa yumur gözünü.
Ölü qoyulanda məzara, hər kəs
Tabutun içində görür özünü.

Biz azad oluruq məzarıstanda
Bir anlıq dünyanın qayğılarından.
Vida dəqiqəsi… yalnız bu anda
Təpədən dırnağa insandır insan.

Ölü məzarına qoyulan zaman
Deyirik, bu gündən bizimçün də var.
Elə ki, ayrıldıq haqq dərgahından,
Yenə də başlanır köhnə qayğılar.

Məzarlar başında biz dönə-dönə
Bilirik, gələcək son an, son nəfəs.
Evə qayıdınca öləcəyinə,
Ancaq, nədəndirsə, inanmır heç kəs.

Ölüm haqq işidir, bilirik bunu.
Ancaq inanmaqda karıq, koruq biz.

Bilirik ölümün haqq olduğunu,
Yenə qəlbimizdə inanmırıq biz.
Ölümü ağılla dərk eləsək də
İnanmaq istəmir ürəklərimiz.

Aqil də, nadan da bir cahil təki,
Yaşarkən dünyanın felinə uymuş.
Bilmək – inanmamaq arasındakı
Qısa yol, hər kəsin ömür yoluymuş.

*Avqust 1991, Şəki*

## BİR DÜYĞUDA BEŞ DUYĞU

Ayağın yoxdursa,
Çıx səyahətə
Bir böyük duyğuya əsir könlünü.
Lalsansa,
Nə hacət sözə, minnətə
Eyhamlı baxışla bildir könlünü.

Gözlərin yoxdursa, çalış görməyə
Hər kəsin gözünə görünməyəni.
Qulağın kardırsa, bax yerə, göyə,
Amma eşit təkcə könlün deyəni.

Korsansa, rəngləri eşit səs kimi,
Karsansa, səsləri rəngə çevir, gör.
Sanma bu dünyanı bir qəfəs kimi,
Rəngdən səsi eşit, səsdən rəng götür.

Allahın balası, ey qadir insan,
Bircə duyğuyla da yoxsul deyilsən.
Deyərəm xoşbəxtsən, sən bir duyğudan
Özünçün beş duyğu yarada bilsən.

*Mart 1991*

## YAZLA QIŞA BİR AĞIL

Nağıl dedim yalançının sözünə
Söz yalansa, buna nağıl neyləsin?
Bu dünyada fəsil dörddür, ağıl bir,
Yazla qışa bircə ağıl neyləsin?

*Mart 1991*

## DÜNƏN, BU GÜN, SABAH

*Cavan şair qardaşım Yusif Nəğməkara*

Ah, bu günüm, bu günüm,
Səni necə saxlayım?
Əldən uçan kəpənək,
Vaxtı necə haqlayım?

Dünən də var, sabah da,
Bu gün varkən yox imiş.
Bu gün gəldi, getdi o,
Yaydan çıxan ox imiş.

Vaxtın dəyirmanında
Vaxtın özü dən oldu.
Bircə göz qırpımında
Bu günüm dünən oldu.

Bu gün-dərilən kimi
Əldə solan bir çiçək.
Bir gün sonra dünəndir,
Bir gün əvvəl gələcək.

Sabahım – arzulardır,
Dünənim – xatirələr.
Bu günümsə – arada
Duran dərin dərələr.

*Dekabr 1992*

## ETİQAD - İNAM

Şübhədən inama yol tutmuşam mən.
Özümü özümdə unutmuşam mən.
Bilmirəm özümdə mən kiməm, nəyəm?
Özümə bir qulam, hakiməm, nəyəm?

Bəzən pislə yaxşı, uzaqla yaxın,
qarışır,
Gözümdə dəyişir aləm.
Mələklə şeytanın, haqla nahaqqın
Savaş meydanına çevrilir sinəm.

İnamın önündə şübhə baş əyir
İnama imanla getdiyim zaman.
Amma möcüzələr girə bilməyir
Ağlımın taybatay qapılarından.

Günəş sirr,
Ay da sirr,
Ulduzlar da sirr.
Nə vaxt açılacaq bu sirr düyünü?
Ağlın kiçikliyi qavraya bilmir
Xaliqin ölçüsüz böyüklüyünü.

Onda etiqadı arxa cərgədən
Dərhal köməyimə çağırıram mən.
Beləcə, gedirəm inama doğru.
Bilmirəm, inama gedən yolmu bu?

Suallar beynimi deşir günbəgün
Özümə ən böyük sirrəm özüm də.
Qeyri-adiliklər, bəlkə bununçün
Dönür möcüzəyə mənim gözümdə.

Elə yol gedirəm, yol uzun, yoxuş
Son ucu görünmür gözə mənzilin.
Çatdığım hər mənzil başlanğıcıymış
Getmək istədiyim təzə mənzilin.

*İyul 1993*

## DÜNƏN – BU GÜN

Dünən əli üstə zavallı millət,
«Bəyləri» gətirdi hakimiyyətə.
«Bəylər» əllərinə düşüncə fürsət,
Arxa çevirdilər yazıq millətə.

Millətsə unudub dərdi-sərini,
Ümid gözü ilə baxdı bəylərə.
Onlarsa millətin ümidlərini
Mənsəbə çatınca vurdular yerə.
Mənsəb havasına havalandılar,
Gerçəyə tüpürüb, haqqı dandılar.

İqtidar uğrunda döyüşən zaman
Xalqın dostu idi bu «qəhrəmanlar».
Arzuya çatınca dəyişdi iman
Xalqı fəlakətə apardı onlar.

Meydanda verilən vədlər, sözlər
Zibil qutusuna düşdü kürsüdə.
Hərənin yanında beş altı yavər,
Onlar yaşadılar can güdə-güdə.

Oldu üzürləri günahdan betər,
Tanıya bilmədi millət onları.
O qədər qalxdılar, xırda gördülər,
Onları yuxarı qaldıranları.

Boynuma alım ki, öz günahımdan
İnandım onlara mən də bir zaman.
Pərdə arxasını görmək çox çətin!
Həm qanqal yetirir, həm gül bu torpaq.
Mən hardan biləydim, bu həriflərin
Məqsədi, amalı mənsəbmiş ancaq.

Mənsəb qatarına çox tez mindilər,
Sürətə dözməyib gicəlləndilər.
Yanacaq çatmadı,
          yoxuşda, dikdə
Təkərlər gərildi, qatar ləngidi.
O qədər qalxdılar,
          o zirvəlikdə
Oksigen azaldı, nəfəs təngidi.

Min yerə yozdular tək bir kəlməni,
Mətləbi unudub söz çürütdülər.
«Vətən» deyə-deyə yazıq Vətəni
Dollara çevirib, cibə dürtdülər.

Qəribə aləmdir, doğan hər səhər
Yaddaş aynasından dünəni sildi.
Dünən azadlığı bayraq edənlər
Bu gün azadlığa qənim kəsildi.

Yenə ədaləti qədərdən umduq
Döndü keçmişəmi, yoxsa, bu gediş?
Demə, azadlığı millət üçün yox,
Bunlar özləriyçün tələb edirmiş.

Azadlıq verildi… işlər düzəldi.
Qol-qanad açmağa imkan tapdılar.
Talanın yamanca məqamı gəldi,
Zavallı milləti çalıb çapdılar.

Bəylər bu yerdə də yaman tələsdi,
Qaçqınlar çadırda soyuqdan əsdi.
Bunlar bəyənməyib beş otaqlını,
On-on beş otaqlı mülkə köçdülər.
Bir yol demədilər bəs insaf hanı?
Mənsəbi ağılla deyil, dərdə bax
Ağılı mənsəblə ölçüb biçdilər.

Dağıdıb nizamı bəylər bir günə
Qumdan «dövlət» adlı dağ ucaltdılar.
Təzə düyün salıb köhnə düyünə
Kürsü kölgəsində rahat yatdılar.

Onlar parladılar bir gün içində,
Yası görmədilər toyun içində.
Onlar bilmədilər, bu qum dağının
Külək qalxan kimi dağılması var.
Onlar bilmədilər, bu parlamağın
Yanması,
        sonra da kül olması var.

*İyul 1993*

## BU MƏNƏMMİ?

Güzgüyə baxıram, üzüm bürüşmüş,
Qat-qat qırışlardan nə günə düşmüş.
Dünəndə yaşamış «mən»in gözüylə
Güzgüdə görünən «mən»imə baxdım.
Görmək istəmirdim özümü böylə,
Elə bil, özümə qənimə baxdım.

Güzgüdə gördüyüm bu «mən», doğrudan,
Dünənki «mənimə qənim»mi, allah?
Mən ki, başqa cürdüm, axı, bir zaman,
Bu görkəm, bu sifət, mənimmi, allah?

Bəs mən öz-özümdən niyə çəkindim?
O da mən, bu da mən… nə qənim, nə yad?
O yanda dünənim, bu yanda indim,
Bu ona atadır, o buna övlad.

Üzümə çıxıbmış, demə, dərd-sərim,
Dərdim də gizlində qalmaq istəmir.
Güzgüyə baxıram, toran gözlərim,
Bəmbəyaz saçlarım «bu mənəm» - demir.

Sorur: «Bu mənəmmi?»
Nə cavab verim?
Üzümə yaşımı yazıb illərim.

Əldən çıxan illər hesabdan deyil,
Ürək ha bağırsın: «Mən dünənəmmiş!»
Haçansa yaşamış «mən»im mən deyil,
Güzgüdə gördüyüm «mən»im mənəmmiş.

*Avqust 1993*

## ZAMANDAN KƏNAR

Gözünü sabaha dikənlər üçün
Zamanın içində minbir dünya var.
Həyatın şəhdini çəkənlər üçün
Dünən yox,
Sabah yox,
Yalnız bu gün var.

Zaman hər məkana təzə iz salır,
Xəzana çevrilir dünənki oylaq.
Məkanlar dəyişir, təzə rəng alır,
Hər zaman var olan zamandır ancaq!

Bu qansız hökmüdar, bu qansız zaman
Nələr törətməyir bir an içində.
Əbədiyyət olan amansız zaman
Varı yox eyləyir zaman içində.

Vaxtın olmadığı bir yer istərəm,
Çağımı həmişə səhər istərəm.
Bir xoş sifət ilə dindirilmədim,
Özümü heç yerdə tapa bilmədim.
Özümü özüm tək göstərin mənə,
Yer mənə dar gəlir, göy verin mənə.
Göydə zaman da yox, məkan da yoxdur,
Göydə tikən də yox, sökən də yoxdur.
Məkan axtarıram zamandan kənar,
…Amma bu diləyim, imandan kənar.

*İyun 1993, Şəki*

## «GƏLDİ BİC ƏYYAMI…»

Gəldi bic əyyamı, namərd dünyası…
El şeirimizdən.

Allahın qəribə iştəkləri var,
Çəkənə zülmü də, vallah, bol verər.
Həya sahibini o, utandırar,
Amma həyasıza uzun dil verər.

Tanıya bilmirəm köhnə dünyanı,
Qütblər dəyişmiş, solum, sağ olmuş.
Günortaya düşüb xoruzun banı, -
Nizamlar, ölçülər baş-ayaq olmuş.

Dəyişib öz köhnə yolunu dünya,
Atəşə su deyir, gülə kol deyir.
Evimi qəsb edib oğru,
bu dünya
Tutulan oğruya sübut istəyir.

Bu «haqq divanı»nda su odla birkən,
Gör, oğru yanında doğru nə çəkmiş.
Zor haqqın belinə minib çapırkən
Görünən günəşə, axan sel-suya,
Alışan oda da sübut gərəkmiş.

Özgənin evinə «mənimdir» - demək
İndi göz görəsi fərasət olmuş.
Bizim həqiqəti eşitmir fələk,
Erməni yalanı həqiqət olmuş.

Arxalı köpəklər qurd basan zaman,
Quzunun gümanı Allaha qalmış.
Oğrunun daş dələn qışqırığından
Biçarə doğrunun bağrı yarılmış.

Gücün var – haqlısan! Gəl, döz bu dərdə,
Haqqın düzlüyünə zor gülür indi.
«Gəldi bic əyyamı…» məsafələr də
Çəki daşı ilə ölçülür indi.
Zorun qabağında hamı müntəzir, -
Haqq dilənçi kimi qapılar gəzir.
De, bizə nə verdi türkəsayalıq!
Əvvəl nə idiksə, yenə oyuq biz.
Haqqa bel bağlamaq yetməzmi artıq!
Bunu bir dəfəlik qanmalıyıq biz.

Haqsıza döndərdi bugün haqq bizi,
Zora nə qanun var, nə haqq, nə yasaq.
Vaxt öz qanımızda boğacaq bizi, -
Bu «bic əyyamına» uyğunlaşmasaq.

*Noyabr 1993*

## ƏGƏR GÜCÜN VARSA…

Bu günü bilməkçün boylan keçmişə,
Keçmiş sabaha da çıraq yandırır.
Tarix qalibləri deyil,
həmişə
Yalnız məğlubları günahlandırır.

«Haqqın min üzü var» - demiş dədələr,
Haqsızın önündə haqq çox əyilmiş.
«Haqlıyıq, deməli, bizimdir zəfər» -
Bu kəlam bugünün sözü deyilmiş.

İşləmir «Həqiqət», «Ədalət» sözü,
Kaftar siyasətin söz qumarında.
Düzgün oyunçunun bağlanır gözü,
Udur rəqibini çığal, bir anda.

Əgər gücün varsa, atıl meydana,
Asılı olacaq zaman da səndən.
Əgər gücün yoxsa, çəkil bir yana,
Ədalət sözünü sil hafizəndən.

Əgər gücün varsa, qorxma heç nədən,
Göydə günəşi də dana bilərsən.
Əgər gücün yoxsa, qorx hər fitnədən,
Buzun içində də yana bilərsən.

Əgər gücün varsa, işğal etdiyin
Özgə torpağında sən yenə haqsan.
Əgər gücün yoxsa, nə danış, nə din,
Sən öz torpağında, vallah, qonaqsan.

Əgər gücün varsa, haqq da sənindir,
Əyrilər dostundur, düz düşmənindir.
Əgər bu gerçəyi hamı bilirsə,
Kimsədən ummayaq, gəlin, haqqı biz.
Güclü haqsız haqqa qalib gəlirsə,
Güclü olmamağa yoxdur haqqımız.

Düşmənin qüdrəti hiyləsindədir.
Hiyləni yarmağa bəs əlac nədir?
Təslimmi? Barışmı?
-Yox!
-Bəs onda nə?
Yoxsa, boyun əyək qansız düşmənə?

İndi kor tale də bizdən yan keçir.
Döyüş də qorxulu, sülh də qorxulu.
Amma bir gerçək var: səngərdən keçir
Masa arxasına keçməyin yolu.
Səngərdə düşmənə dərs vermədikcə,
Ona gücümüzü göstərmədikcə
O bizə hakimdir, biz onun qulu!

Atdığın güllələr verib səs-səsə,
Düşmənin yolunu əgər kəsməsə,
Masa arxasında dediyin min söz
Onun bir sözünü, vallah, kəsəmməz.

Əgər bu gerçəyi hamı bilərsə,
Kimsədən ummayaq, gəlin, haqqı biz.
Güclü haqsız haqqa qalib gəlirsə,
Güclü olmamağa yoxdur haqqımız.

*İyun 1994, Şəki*

## SU GƏLDİ KÖHNƏ ARXA

İmperiya kaftarı –
Yalan, riya kaftarı!
Səncə belə olurmuş
kiçik millətlər ilə
Böyüklərin rəftarı?
Çeçen qalmaq istəmir
İkibaşlı qartalın
O qanlı caynağında
Sənin nə ölümün var
Bəs onun torpağında?
De, sənə darmı gəlir
öz xaraban, öz yerin?
Sənə borcumu vardır
Balaca millətlərin?
Öz halalca haqqını
Tələb edir o səndən.
Bəs sən nə istəyirsən
haqq istəyən çeçendən?
Kim deyir ki, günahdır
qəsbkara «get» demək?
Ayının pəncəsindən
xilas olmaq istəmək?

«Dünya proletarları,
gəlin, birləşin» -deyə
Dünyanı zəbt eləmək
Ən böyük əndişəndir,

Sonra xaraba qoymaq
Sənin köhnə peşəndir.
Əli qanlı cəlladdır
Sənin ən düzgün adın
Xalqların taleyilə
Bəsdir qumar oynadın!
Gəlir ölüm qoxusu
Sənin hər nəfəsindən.
Qroznıya atdığın
Bombaların səsindən
Kremlin divarları
Dörd tərəfdən çatladı.
Öz əməlin, yaxşı bax
öz başında partladı!
Dağılır imperiya,
Nə şər, böhtan, nə riya
Onu qaytara bilməz.
Təməlindən çürüyən
Bina divarlarına
Axı, boya çəkilməz.
Daşlar düşür binadan
Zinadan törənmişin
Sonu budur… A nadan,
Çalışma o daşları
Yerinə qaytarasan.
Güvəndiyin bəs edər
qüvvətə sən, zora sən!
Bu dövranın gərdişi
tərsinə döndərildi,
Cövhərin* ürəyində

*Çeçenistanın ilk prezidenti general Cövhər Dudayev nəzərdə tutulur.

Şeyx Şamil dirildi.
Qalxması, enməsi var
hər millətin, hər elin.
İndi gecəbəgündüz
Bu dağlarda dolaşır
Ruhu İmam Şamilin.
Qılınc çəkmək nahaqdır
Bu dolaba, bu çarxa,
Su gəldi köhnə arxa!

Tarixin dərslərindən
Bilməliyik bir kərə
İkibaşlı qartalın
qənim kəsildiyini
balaca millətlərə!
Bilməliyik bir kərə
Dinclik yoxdur dünyaya
Bu qartalın qan tökən
çaynağı qırılmasa,
Ona quduzluğunun
həddi qandırılmasa!

Bizlərə «barbar» deyib,
Bizim Şərq dünyasına
mədəniyyət qandıran,
Özünü bu dünyada
insan hüquqlarının
carçısı adlandıran –
Uydurma Qərb «cənnəti»,
Niyə görmür gözlərin
Ayının pəncəsində

məhv olan bir milləti?
Özgə müsibətinə
karmıdır qulaqların?
Hanı bəs, harda qaldı
Sənin «insan haqların?»
İnsan haqqı naminə
haqları baltalayır
O «təkdişli canavar».
Sizcə, gücsüz olanın
haqqını çeynəmyə
güclülərin haqqı var?
Əgər belə deyilsə,
niyə göz yumdun buna –
Bəs niyə haqq verirsən
haqsızın cövlanına?
Heç demə, Çeçenistan
Rusun öz dədə malı,
öz halal diyarıymış
Çeçen isə bu yurdun
gəlmə kiradarıymış.
Sənin üçün dünyada
Nə düz var, nə qələt var,
Sənin üçün dünyada
əbədi mənfəət var.
O zaman ki, önündə
güclü gördün İraqı
Küveytdəki xeyrinə
Diz çökdürdün İraqı.
Çeçen müsibətinin
ziyanı toxunmadı
sənin mənfəətinə,

Susub yumdun gözünü
onun müsibətinə.
Bəsdir Allah yanında
günaha batdığınız.
«Haqq» - bağıra-bağıra
haqqımızı tapdayıb
bizi aldatdığınız.

Qalxması, enməsi var
hər millətin, hər elin
İndi gecəbəgündüz
Bu dağlarda dolaşır
ruhu İmam Şamilin.
Qılınc çəkmək nahaqdır
Bu dolaba, bu çarxa
Su gəldi köhnə arxa!

*Dekabr 1994*

## İŞIĞI İŞIQDA

Günün sevincini başına çaxar,
Onun qiymətini sonra anlarıq.
Həmişə dünənə həsədlə baxar,
Həmişə bu günü söyüb danlarıq.
Yaxşını dünəndə axtaranlarıq.
Biz niyə bu qədər qədirbilməzik?

Elə ki, dünənə çevrilir bu gün,
Başqa bir rəng alır köhnə mənzərə.
Könül qanadlanır ötən gün üçün,
Deyirik: «Gün çatmaz keçən günlərə».
Biz niyə bu qədər qədirbilməzik?

Bu niyə belədir, bizə hər zaman
Füsunkar görünür yaxından uzaq?
Çıxdığı obanın qədrini insan
Düşdüyü obada dərk edər ancaq.

Yaydan qar umuruq, qışdan gül-çiçək,
Qorxaqdan cəsarət, paxıldan ürək.
Dünyaya haqq ilə xoş görümüz yox.
Bilmirik biz kimik, bilmirik nəyik.
Olana bir qətrə şükürümüz yox,
Amma olmayanın həsrətindəyik.

Pillələr, zirvələr bizə bəs olmur,
Təzə dilək doğur köhnə diləkdən.

Bu gündən bezəndə dillər yorulmur
Keçmişin şəninə tərif deməkdən:

«Bolluq, ucuzluqdu bu gündən, dünən.
O köhnə kişilər haqq sevər imiş.
Dünənki adamlar bu günkülərdən
Yüz dəfə, min dəfə bəxtəvər imiş».

Məkandır tərəzi, zamandır çəki.
Çirkin gözəl olur gendən baxanda.
Bizimçün heç nədir əlimizdəki,
Qiyməti bilinir əldən çıxanda.
Biz niyə bu qədər qədirbilməzik?

Belədir Adəmdən, Həvvadan bəri,
Bu gün bu gün ikən bəyənilməmiş.
Hər kəs arzulayıb ötən günləri
İşığı işıqda görə bilməmiş.

Qüsur baxandadır, nə sən, nə də mən
Günahkar bilməyək, gəlin, güzgünü.
Həmişə yamansa bu gün dünəndən,
Demək, pisliyədir dünyanın yönü?

Yox, yox! İnanmıram, köhnə dünyada
Əzəli, əbədi bir qaydadır bu:
Ərzimiz gecəni qoyub arxada
Həmişə dolanır sabaha doğru.

Dünyanın zövqünü bir anlıqda yox,
Yaxşı-yamanında varmı bir görən?
İşığın qədrini qaranlıqda yox,
İşıqda biləni axtarıram mən.

*Yanvar 1996*

## NƏVƏM – İSTİQLALIM

Nəvəm beşiyində mışhamış yatır,
Yatır çəkdiyimiz dərddən bixəbər.
Birimiz əvvəlik, birimiz axır,
Mən batan günəşəm, o, doğan səhər.

Nəvəm yavaş-yavaş böyüyür hələ,
Bizim istiqlalın həmyaşıdır o.
Bizim ay-ulduzlu bayrağımızla
Mənim nəzərimdə yanaşıdır o.

Əsarət qınında keçdi dövranım,
Başımız üstündə qılınc parladı.
Kölə təbəliyi – mənim ünvanım,
İstiqlal övladı – nəvəmin adı!

Daha sərvətimiz verilmir yada,
İndi günəş bizim, indi nur bizim.
Amma əl-qolumuz azad olsa da,
Ruhumuz hələ də məhkumdur bizim.

Oğullar, nəvələr qoruyar, yəqin,
Babalar qazanan bu istiqlalı.
Bu bayraq altında böyüyənlərin
Ruhu da özü tək azad olmalı!

*İyun 1995*

## DANIŞMAQ YASAQKƏN…

*Özünü müxalif hesab edən oxucum Qiyasəddin Qayıbovun məktubuna cavab*

*Hörmətli oxucularım, sizə məlumdur ki, mən yaradıcılığım boyu həmişə özümdən narazı olduğumu bildirmişəm. Bu şeirimdə isə ilk dəfə müxaliflərimi qınadığıma və özümü öydüyümə görə sizdən üzr istəyirəm.*

Ey məni susmaqda günahlandıran,
Özgə məbədində çıraq yandıran!
Qapıdan qovuram, bacadan girir
Mənim sinə dağım, mənim göz dağım;
Söylə, nədən səni qəzəbləndirir
Abrıma qısılıb, mənim «susmağım»?

Millət əsarətdə boğulan zaman
«Millətçi» adıyla söydülər məni.
Millətim çıxalı boyunduruqdan
Mən dönüb olmuşam «millət düşməni»?

Elin sərvətini yağmalayanlar
Düzlüyün yolunu bizə qandırır.
Dünən fəryadımı günah sayanlar,
Bu gün susmağımı günahlandırır.

Düşün: Nədir udmaq, nədir uduzmaq?
Düşünmək – əməldən, sözdən əzəldir.

Atalar düz deyib: «Yerində susmaq
Yersiz danışmaqdan min qat gözəldir».

Sən ey öz borcunu özgədən soran,
Ey məni susmaqda günahlandıran, -
Hamınız susanda qışqırmışam mən,
O zaman dişimlə daş qırmışam mən.

Dünən boğazımdan asılan zaman
Bugünkü igidlər, hardaydınız siz?
Kötəklər dəyəndə mənim başıma
Niyə imdadıma yetişmədiniz?

Başımın üstündə cəllad xəncəri
Zordan çəkinməyib mən haqq istədim.
Qınayıb yurdumu qəsb edənləri
Qəsbkara qarşı müxalif idim, -
Müxalif olmağa indi nə var ki…

Sənin öz partiyan, öz qəzetlərin…
Qəlbindən keçəni yazırsan indi.
Mənim o zamanlar söydüklərimin
Dalınca söyməyə hazırsan indi.
O vaxtlar susurdun, susurdun, ancaq
İndi çətin deyil müxalif olmaq.

Elə ki, bulanıq sular duruldu,
Fikir azad oldu, söz azad oldu, -
Söz pəhləvanları çıxdı meydana,
Haqqı buladılar ənlik-kirşana.

Dünənki əməllər bu gün danıldı,
Nadanlar ağzında döndük gülüncə;
İşıqda yananlar qəhrəman oldu,
Zülmətdə yananlar atıldı küncə.

Danışmaq yasaqkən
qışqırmışam mən;
Qara üzünüzdən açın yaşmağı.
İndi fikir azad, söz azad ikən,
İgidlik sandınız siz danışmağı.
Müxalif olmağa indi nə var ki…

Danışanın dili bağlanan zaman
Dedik sözümüzü, dedik qorxmadan.
Varsa insafınız, haqdan dönməyin,
Düşünün dünəni bircə anlığa;
Dürtüb gözümüzə çox güvənməyin
Bugünkü iznli qəhrəmanlığa.

Bir tutma çağımla sən öz çağını,
Gördüyün o şeh də duman, çən deyil.
Danışmaq azadkən danışmağını
İgidlik bilirsən, sən bilən deyil.
Müxalif olmağa indi nə var ki…

Çatdıq istiqlala…Elə o gündən
Mən endim xitabət kürsülərindən.
Masama əyilmiş o vaxtdan başım,
Sözümü qələmə vermişəm bu gün.
İstiqlal üçündü mənim savaşım,

Sizin savaşınız iqtidar üçün.
Mənim nə günahım? Öz suçunuzdan
Qara pərdə enib gözlərinizə.
Səsin fəryadını eşitmək asan, -
Qələmin fəryadı yetişmir sizə!
Dünya nemətindən gözüm tox isə,
Mən nəyin naminə savaşım bu gün?
Mənim iqtidarda gözüm yox isə,
Deyirsən, savaşım indi sizinçün?!.

*1996, Şəki*

# QÜRUB DÜŞÜNCƏLƏRİ

Bir zamanlar «Mənimçün vaxt çatışmır»* – deyərdim.
Vaxtı vaxtın özündən borc almaq istəyərdim.
İstəyərdim, bir anda bir saatlıq iş görüm.
İndi isə bilmirəm vaxtı necə öldürüm?
İndi başdan ayağa şikayətəm, gileyəm.
Vaxtımın qatiliyəm.
Vaxtı kəsib doğrayan o qayçı əqrəblərin
Ağzı yaman küt olmuş.
Çağlayan çeşmələrin qaynaqları tutulmuş.
Məni sıxır,
elə bil, bir qəlibdir bu dünya.
Mənim üçün necə də boşalıbdır bu dünya.
Hər şey məni tez yorur.
Öz dünyamı dolduran boşluğun ağırlığı
Ürəyimi doldurur.
Yaman ağırlaşmışam
Peyvənddim, cırlaşmışam.
Öz bədənim, öz canım dönüb mənə yük olmuş
Tükənməyən həvəsim,
Yaratmaq ehtirasım arzuma dönük olmuş,
Söz dolaşır dilimdə,
Qələm əsir əlimdə
Xəttim tanınmaz olmuş.
Vaxtın axarındakı köhnə nizam pozulmuş.
Heç özüm də bilmirəm
Bu dünyadan nə aldım, bu dünyaya nə verdim,
Cürətimi itirdim,

*1958-ci ildə yazdığım "Vaxt çatışmır" şeirim nəzərdə tutulur. - B.V.

Tək ehtiyat qazandım,
Ümid sütunlarında qatbaqat çat qazandım.
Haray, qaraya dönmüş bəmbəyaz ağım, haray!
Haray, əlimdən çıxan halal torpağım, haray!
Üzümə qırış qatı, gözümə tor çəkilir
Arxada yetmiş ilim, öndəsə, Allah bilir…
Gecələrim uzanır, vaxtın ömrü gödəlir
Yuxum gəlmir ki, gəlmir, səhər gəlmir ki, gəlmir.
Necə gəlsin?
    Ömrümün axşam çağındayam mən.
Bir az durulmaq üçün
Yolda çuxur axtaran bir bulanıq suyam mən.
Dostumdan, tanışımdan bir təbəssüm dilənən
Bir qərib yolçuyam mən.
Yaşadığım illəri ələklədim bir də mən
Asandır bəyənməmək dərələri zirvədən
Ömrümün zirvəsində ötənləri daşladım.
Mən artıq yoxluğumu yaşamağa başladım.
Bu günümə baxıram, dünənimi anıram
Tez-tez haçalanıram.
Fikrimə düyün düşüb
Bu günümə qar, yağış, dünənimə gün düşüb.
Bu halıma nə deyim?
Qocalığın önündə hesab verir gəncliyim.
Bəlkə budur qocalıq?
Qəlbin yuxalanması,
                sonun ilki anması?
Qocalığın önündə gəncliyin utanması,
Meşədə ağacların tək-tək yarpaq tökməsi,
Yetkin ağlın önündə ürəyin diz çökməsi?

*Yanvar 1995*

## AZADLIQ

Azadlıq, azadlıq! Ömrüm boyunca
Sənin acın oldum, möhtacın oldum.
Zaman dilimizi qıfıllayınca
Mən sənin daha çox leylacın oldum.

Fikirlər önünə atıldı daşlar,
Diri fikirlərə gor oldu daşlar.
Amal önündəki qaya daşları
Nə götürə bildik, nə qıra bildik.
Amma ürəkdəki çırpınışları
Sözlər arasından sızdıra bildik.

O zaman yazmışdım*: - «Azadlıq – səhər,
Bu səhər arzusu ölə bilərmi?
Məhkum xalqlar üçün azadlıq qədər
Böyük bir səadət ola bilərmi?

İdrak da boğulur, söz də, sənət də,
Ağıl kilidlənir dildə, dodaqda.
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzər, aqil ayaqda…».

Azadlıq eşqilə qol-qola çatdıq,
Azadlıq naminə bayraq ucaltdıq.
Səpdik qanımızı qədəmlərinə,

*1966-cı ildə yazdığım "Təzadlar" poemam nəzərdə tutulur.. - B.V.

Baha başa gəldin bizə sən, baha.
Azadlıq! Nəhayət, qovuşduq sənə,
Amma deyəmmədik: «Şükür Allaha!»
Elə bilirdik ki, azadlıq-işıq!
Yalnız o qovacaq yurddan zülməti.
Aldıq azadlığı! Bəs bu azadlıq
Niyə gətirmədi o səadəti?

Həyat da, zillət də həməndir bu gün,
Verilən vədlər tez unuduldu.
Azadlığın özü, vallah, bizimçün
İndi başqa cürə məhkumluq oldu.

Təzə kol-kos bitib yollarımızda,
Nə solumuz bəlli, nə də sağımız.
Elə bir gündəyik, qollarımızda
Qandala çevrilib azadlığımız.

Mahnı o mahnıdır, dəyişmiş avaz,
Yenə köhnə hamam, yenə köhnə tas!
Nadan başda gəzir, aqil ayaqda,
Bülbül qəfəsdədir, qarğa budaqda.

Azadlıq – şərəfdir hər bir millətə,
Çörək əvəzinə yeyilmir ancaq.
Azadlıq – qanaddır eşqə, niyyətə,
O ki, paltar kimi geyilmir ancaq.

Vicdanlar yuxuda, ürəklər bumbuz,
Dəhşətdir, bu dərdi hamı bilirsə.

Gör, biz nə gündəyik, Vətən borcumuz
Ruşvətlə, minnətlə ödənilirsə…

Bu gün heç… sabaha ümid də yoxsa,
Olarmı bir qırıq könül şadlığı?
Daha deməyə də söz qalmayıbsa,
Axı, kimə gərək söz azadlığı?

Mayakın, siqnalın faydası olmaz –
Kükrəyən dənizdə gəmi batırsa.
Süvari neyləsin, yol uzun, vaxt az,
Kəhər at bildiyin əgər qatırsa…

Vəzifə eşqinə, mənsəb eşqinə
Qardaş qardaşına güllə atırsa,
Mənsəbli mənsəbin kölgəliyində
Düşməni unudub rahat yatırsa,
Vətən övladları biri-birinə
Efirdə, qəzetdə böhtan atırsa,
Düşmən əsgərinə, yad əsgərinə
Halal torpağını əgər satırsa,
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən!

*İyun 1993*

## MƏNİM KEÇMİŞİM VAR, GƏLƏCƏYİM YOX

Oyatma, qorxuram xatirələrdən,
Ömrün zirvəsində düşünürəm mən
Bütün o savaşlar, o qalmaqallar,
Keçdiyim enişli, yoxuşlu yollar
Ağsaçlı zirvəyə qaldırmış məni,
Amma bu zirvədə tutdu qış məni.

Yaddaşım könlümdə qara qan kimi,
Qorxuram yaralı xatirələrdən.
Ötüşən illəri bir yorğan kimi
Çiynimə atmışam, üşüyürəm mən.

Baxdım bu dünyanın pəncərəsindən,
Bilmədim mən kiməm, bu dünya nədir.
Tək bircə gerçəyi anladım ki, mən
Bu həyat tilsimi bir dairədir.

Çözmək qəsdi ilə mən bu tilsimi
Xəyal qanadında uçdum göylərə.
Könlümü dolaşdım bir səyyah kimi,
Yenə gəlib çatdım çıxdığım yerə.
Yaman külək əsir, üşüyürəm mən,
Qorxuram yaralı xatirələrdən.

Elə xatirə var-toxunsan ona,
Özün də bilmədən dodağın qaçar.

Elə xatirə var-sənin qarşına
Sənə dərd gətirən bir kitab açar.

Elə xatirə var – onun danlağı
Vicdanı oyadıb, səni yağmalar.
Elə xatirə var –bircə anlığı
Bir ömrün yükünə bərabər olar.

Elə xatirə var – qaraldıb qanı
Məşhər ayağına çəkər vicdanı.
Oyatma, qoy yatsın o xatirələr,
Yoxsa, yaddaşımda cücərə bilər.

Mənim taleyimlə dirənişlərim
Qanana, görənə, bilənə bəlli.
Hamıya bəllidir savab işlərim,
Amma günahlarım tək mənə bəlli.

Fikrimdə üz-üzə dayanır bu gün
Qalan ömrüm ilə ölən illərim.
Hesabat verməli birəbir bu gün
Dərdli illərimə o şən illərim.
Məgər qalan ömrüm – üç il, ya beş il
Ötən illərimə cavabdeh deyil?

Bürüyür gah duman, gah çən illəri
Boylandım gah sola, baxdım gah sağa.
Gördüm qalan illər ötən illəri,
Anmağa yarayar, yalnız anmağa.

Bunu düşündükcə xoflanıram mən,
Vallahi, kimsədən bir gileyim yox.
Mən necə qorxmayım xatirələrdən,
Mənim keçmişim var, gələcəyim yox.

*1996*

## HANSI BİR ÜRƏKLƏ?

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?
Millətim bədbəxtsə, mən hansı haqla
Mən hansı ürəklə bəxtiyar olum?

*Avqust 1996*

## EY İNSAN ÖVLADI

Atanın zəhməti, alın tərilə,
Ananın yuxusuz gecələrilə,
Neçə müəllimin, neçə dühanın,
Neçə məclislərdə xeyir-duanın,
Qolları üstündə ərsəyə gəlmiş,
Hər şeydən qiymətli, ey qadir insan,
Günahkar sənmisən, yoxsa, bu gərdiş?
Sən niyə bu qədər ucuzlaşmısan?

Adına çevrilib səbrin, dözümün,
Ey insan övladı, insan övladı.
Nə qədər alçalıb kiçildin bu gün,
Səndə insanlıqdan əsər qalmadı.

Başqa mayadandır xəmrimiz bizim,
Xeyrimiz eşqinə dağ aşanlarıq.
Biz Vətən uğrunda deyil, əzizim,
Vəzifə uğurunda savaşanlarıq.

Vəzifə – insanlıq! Birindən əl çək!
Oyunda birinə təslimsən ancaq.
Vəzifən var isə – zalimsən, demək,
Vəzifən yox isə – məzlumsan ancaq.

Təzə qaydası var köhnə oyunun,
Kimin bu qaydanı həddi var poza?
Bu təzə qanundur… əsl qanunun
Rüşvətlə ağzını vermişik boza.

Rüşvət – o zaman ki, qanuna döndü,
Millət parçalandı, millət bölündü.
Bir yanda – rüşvətə səcdə qılanlar,
Bir yanda – rüşvətlə alçaldılanlar.

Qanun – buludlara dəyən gülləyə,
Qanunu tapdamaq – hünərə döndü.
Vətən – əraziyə, millət – kütləyə,
Dövlətsə – kəsərsiz xəncərə döndü.

Rüşvət baltasının zərbəsi altda
Əzilir, görünmür hər gözə qanun.
Əzilən qanundan doğulur, amma,
«Şapka» təxəllüslü bir təzə qanun.
Divara qısnayır əsl qanunu
Bu təzə yaranmış baməzə qanun.

Təbiət qanunu: Sellər yoxuşdan
Dövr edib enişə axır arx kimi.
Amma rüşvət seli aşağılardan,
Yuxarı dövr edər daim çarx kimi.
Göydə cövlan edər yerin buxarı,
Verən aşağıdır, alan yuxarı.

Almaq suç, vermək suç!
Bəs hanı gerçək?
Verən-əlacsızdır, alan əzazil,
Alanla verəni bir gözlə görmək
Vallahi – billahi, insafdan deyil.

O da günahkardır, amma fərqi var,
Axı, verən olmaz, alan olmasa.

Başına ölüncə daş vurmazdılar,
Əgər əfi ilan çalan olmasa.

Rüşvətin ləqəbi – vergisiz qazanc,
Mayasız, əvəzsiz, xas-xalis qazanc.
Vəzifə sahibi – müqtədir insan,
Keçərmi bu cürə müftə qazancdan?

Bizə nə gətirdi bu əsrin sonu?
Vəzifə naminə öz namusunu
Ayağı altına qoyub yüksələn
Bu alçaq kəslərdən nə umaq indi,
Bu boyda vəhşətə göz yumaq indi?

Deyirsən: «Yanmağın əbəsdir, kiri,
Qəbr də düzəltməz bu qozbelləri».
«Əgər gücüm varsa, mən haqqam», - deyən
Zalimi mən necə vətəndaş sayım?
Halal aylığını ala bilməyən
Məzlumun halına necə yanmayım?
Günahdan ayıran varmı savabı?
Dollar təpiyinə dağ silkələndi.
Alimin üzünə bağlanan qapı
Cahilin üzünə açılır indi.

Mənim qan qardaşım, ey yazıq insan,
Sən niyə bu qədər ucuzlaşmısan?
Niyə alçalmısan sən bu yaşında?
Dədəndə yox idi, vallah, bu xislət.
Məgər yoxmu sənin qan yaddaşında
Bir tikə ləyaqət, bir damcı qeyrət?

Adına çevrilib səbrin, dözümün,
Ey insan övladı, insan övladı,
O qədər alçalıb kiçildin, bu gün
Səndə insanlıqdan əsər qalmadı.

*İyun 1996, Şəki*

## BİR TANRIM BİLİR

Yarpaq pıçıltısı, yel vıyıltısı,
Xəzəl xışıltısı, sel qıjıltısı,
Yağış şırıltısı, göy gurultusu,
Şimşək şaqqıltısı, dağ uğultusu,
Quzu mələrtisi, at kişnərtisi,
O yalvarış səsi, bu hünər səsi –
Qayadan çaylağa daş gillənməsi,
Cüyür göynərtisi, bülbül nəğməsi,
Dağların, daşların məhrəm səsləri
Ana təbiətin öz nəfəsləri…
Qıjıltı, kişnərti, pıçıltılardan,
Xışıltı, şırıltı, vıyıltılardan,
Tənburlar, qopuzlar, sazlar yarandı.
Nəğmələr, şeirlər, sözlər yarandı.
Zəmanə dolandı, dəyişdi dövran,
Durdu təbiətin qəsdinə insan:
Metal cingiltisi, dəmir, mis səsi,
Güllə vıyıltısı, bomba nərəsi.
Motor uğultusu, çarx taqqıltısı,
Polad dəzgahların şaraqqıltısı,
Maşının, gəminin, qatarın fiti,
Yeni zəmanənin yeni illəti
Nələr yaradacaq, bunu kim bilir?
O gözə görünməz bir tanrım bilir.

*Avqust 1996*

## BƏZƏKLİ SAATLAR

Saatsaz dükanı…sərt çıqqıltılar,
Səs verir, əl çatır ötən hər ana.
Cürbəcür naxışlı, rəngli saatlar,
Divarlar boyunca durur yan-yana.
Hər bir çıqqıltısı ömrü gödəldən,
Saata bu bəzək, bu hörmət nədən?

Dərələr suyunu dağlardan içər,
Səhərin də yolu zülmətdən keçər.
Zamanı bildirib ömrü gödəldən,
Saatlar bəzəkli, zaman eybəcər…

*Avqust 1996*

## ƏSARƏT - AZADLIQ

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa, bu məbəddə biz,
Şükür namazını qiblәsiz qıldıq.

İndi biz azadıq, bizi bir zaman,
Şeytandan qoruyan abır-həyadan.
Azadıq düşmənə qəzəbdən, kindən,
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

Azadıq rəhmdən, insafdan da biz,
Millətin haqqıyla üzbəüz olduq.
Ana yurdumuzun qansız, rəhmsiz,
Qəddar talançısı özümüz olduq.

Yoxdur əvəzimiz yalançılıqda,
Bu ona şər atır, o, buna böhtan.
Yurdu dağıtmaqda, talançılıqda,
Azadıq qorxudan, Allah xofundan.

İndi azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək…

*Avqust 1996*

## ÖMÜR – CƏZA MÜDDƏTİ

Bir zaman söyləmişdim:
«Ömür –
        ölümdən sonra
Yaşamağın təməli»…
Mən bu hökmü verəndə,
Ağıllıydım, ya dəli?

İndi deyirəm: Ömür
Ölüm məhkumluğunda
Nəfəs almaq fürsəti,
Ömü – cəza müddəti!

Allah, bu sözdən ötrü
Keç mənim günahımdan.
Düşüncələr, fikirlər
Dəyişir zaman-zaman.

*Oktyabr 1996*

## UCALIQDA TƏNHALIQ

Ağaca bax, ilahi, başı dəyir buluda,
Yəqin, həsədlə baxır onun ucalığına
Qaratikan kolu da.
Amma kol hardan bilə hər yaxşıda yaman var-
Tənhadır ucalıqlar.
Zirvənin qulaqları həmdərd gəzib özünə,
Ətrafına şəklənir,
Kol bilmir ki, ucalan ucaldıqca təklənir.
Ey ucalmaq istəyən!
Tənha qalacağından
Məgər qorxmursanmı sən?

*Avqust 1996*

## İNANAN QOCA

O vaxt ki, ilbəil insan qocalır,
Allah verdiyini birbəbir alır.
Bədən əldən düşür, ürək taqətdən,
Zəif vücudunda təkcə ruh qalır.

Ömrün yollarında yorulan qoca,
Təpədən-dırnağa ruh olan qoca,
Başını yellədib gahdan ah çəkir –
Könül kitabını varaqladıqca.

Onun tay-tuşları köçmüş dünyadan,
Çoxdan dayanıbdır onunçun zaman.
Ölüm kölgəsini üstünə salmış,
Onun öz dünyası dünəndə qalmış.

Yaddaşda gah yanıb, gah sönən Zaman
Ötən keçmişidir, gələcək deyil.
İndi kimdir onu sayıb axtaran,
İndi bir kimsəyə o, gərək deyil.

O, canlı keçmişdir, - o, canlı keçmiş.
Uca dağ başında bir koldur qoca.
Bu gündən sabaha deyil, o, bitmiş!
Bu gündən dünənə bir yoldur qoca.

O, indi Allahın fağır bəndəsi,
O, nur kündəsidir, o – nur kündəsi!

Dilində duası, qorxmur ölümdən,
Dərgah qarşısında büllur kündəsi!

Yaşın zirvəsinə ucalan qoca,
Ocaqlar başında tək qalan qoca,
İçindən ovxanır quş tək qəfəsdə…

Allaha əl açıb o, namaz üstdə
Çoxdan ürəyini vermiş Allaha,
Axirət eşqinə yaşayır daha.
Ölümü gözləyir hər saat, hər an,
Gündə çevirdiyi salavat kimi.
Ölümü gözləyir, yaşadığından
Daha cazibəli bir həyat kimi.

İstəyir tapşıra canı qəfildən,
Düşməyə oğula, qıza minnətə.
Hazırdır verməyə o, cani-dildən
Bədəni torpağa, ruhu cənnətə.
Güvənir Allahın kəramətinə,
Savabı cənnətə yol sanan qoca.
Nə qədər xoşbəxtdir, axirətinə
Bütün varlığıyla inanan qoca.

*1996, Şəki*

## QORXUM ONDANDIR Kİ…

Sözün şirəsinə su qatılanda –
Suya da, sözə də yazığım gəlir.
Düzlər əyrilərə səcdə qılanda –
Düzə də, bizə də yazığım gəlir.

Boynu halqadadır təqsirsizlərin,
Haqqın, həqiqətin səs-küyü qalıb.
Vallahi-billahi, yazıq sözlərin
Özlüyü qalmayıb, üzlüyü qalıb.

O vaxt ki, söz döndü quru bir ada,
İlkin mənasını danıb dəyişdi.
Əslini-nəslini qoyub arxada
Üz-gözü boyalı söz başa keçdi.
İndi möhkəm olub ağac poladdan,
İrəli keçibdir araba atdan.

Ayırmaq müşküldür əyridən düzü,
Saxtanı əsildən qabağa qoyduq.
Ləyaqət taxtından endirib sözü,
Qocaman bir dili biz lağa qoyduq.

Yalanlar turp əkir sözün başına,
Basır möhrünü qan yaddaşına.
Danışa-danışa ağ yalanları
Özümüz əyildik, bəlkə mumuq biz?
Amandır, sözləri əyməyək barı,

Əydiksə, ölümə bir məhkumuq biz.
Qorxum ondandır ki, bir zaman gələ,
Sözlər ölə-ölə bu millət ölə.
Yalan dənizində bu millət üzdü,
Gül dedik qanqala, dağ dedik bağa.
Sözlərin özləri bəs necə dözdü
Bu boyda şərəfsiz hoqqabazlığa?

Niyə qışqırmır ki,
«əsarətəm», - mən,
Məni ayırmayın öz fitrətimdən?
Üzü boyamaqla bütün milləti
Kor bilib,
kar bilib aldatmaq olmaz.
«Azadlıq» yerinə mən əsarəti
Nə almaq, nə vermək, nə satmaq olmaz…
Niyə qışqırmır ki, bu nahaq işdi,
Özüm dəyişmədim üzüm dəyişdi?

Nə qədər dünyada min üzlü rəng var,
Deməyin əyri düz, qara ağ olmur.
Yalanla həqiqət, ədalətlə zor
Bu gün iç-içədir, ayırmaq olmur.

*1996*

## İLK GÜNAH

Bilik almasını yediklərindən
Cənnətdən qovuldu Adəmlə Həvva.
Allahın əmrindən çıxıb o gündən
İblisə dost oldu Adəmlə Həvva.
Pozdular qoyulan sərt qanunları,
Allahın qəzəbi tutdu onları.

Bildik, bildikcə də dedik, «azdı bu»
Beləcə, adladıq biz əsrləri.
Öyrənmək istəyi, bilmək arzusu
Bitib-tükənmədi o gündən bəri.

Günahın dalınca təzə bir günah,
Açıldı yolları nəfsin, niyyətin.
Ulu ceddimizdən başlandı, vallah
Sonsuz faciəsi bəşəriyyətin.

Fəhmlə duyulur bu sonsuz aləm,
Biliklər fəhmdən təkan alırmış.
Əkiz qardaş imiş biliklə dərd, qəm,
Bilik çoxaldıqca fəhm azalırmış.

Yəqin ki, bilmədi əcdad o zaman,
Bilmədi pozulmaz o ilk yasaqlar –
Allahın açdığı kiçik bacadan
Dünyaya baxmağa icazəmiz var.

Bacanı böyüdüb pəncərə açdıq,
Baxdıq bu dünyaya göz işlədikcə.
İdrak qəlibinə sığmadı artıq
Xəyallar, arzular genişləndikcə.
Sonu görünməyən öz tamahından
Özünün quluna çevrildi insan.

Gah elmə söykəndi insan, gah dinə,
Görmək istədilər zərrədə küllü.
O biri dünyanı bilmək eşqinə
Getdi bu dünyadan çoxu könüllü.
Kam ala bilmədik bildiyimizdən,
Bilmək arzusunun gur səsiyik biz.
Məluma məchuldan gəldiyimizdən
Məchulu bilməyin təşnəsiyik biz.

Budur son təmənna, budur son istək:
Yoxluqdan gəlmişik, yoxluğu bilmək!
Bu aciz məxluqda iddiaya bax
Diləyi dilədik…
                Bilmədik ancaq
Allahın verdiyi bu ağıl ilə
Var olan yoxluğu görə bilmərik.
O taya salınıb körpü qıl ilə
O tayda günaha yoxdur bir şərik.

Bilinmir fəzada hələ yerimiz,
İrəli getməyə bir ehtiyac yox.
Dirənib dalana biliklərimiz,
Geriyə dönməkdən başqa əlac yox.

…Öyrənmək istədi insan hər şeyi,
Demədi bu olar, busa yasaqdır.
Öyrənmək arzusu, bilmək istəyi
Bir gün bu dünyanı partladacaqdır.

*İyul 1997*

# HAQQA HEYKƏL QOYULDU

*Deyilənə görə, Sibirə sürgün edilən böyük H.Cavid xəstələndiyinə görə düşərgənin rəisi mayora ərizə yazıb ondan müalicəsi üçün dərman istəmiş, mayor isə rədd cavabı vermişdir.*

Zaman niyə dayanmadı
    o Nəhəngin ahından?
Zoru vurub yıxmaq üçün
    haqdan fərman axtarır.
Turan boyda məmləkətə
    Əlac gəzən o insan
Öz balaca vücuduna
    Dönüb, dərman axtarır.

Onun haqqı, bunun zoru üzbəüz
Haqq diləkçi, zor o haqqı rədd edən.
Bu millətin yetirdiyi dahimiz
Yad əlində məhkum oldu heç nədən.

Bir düşənə, bir tora bax, a dünya –
Cavidə bax, mayora bax, a dünya!
Cırtdan boyda mayordakı həddə bax.
Cavid boyda bir nəhəngi rəddə bax!

Bir gün zaman mamır basmış
    Öz pasını dəyişdi.
Diləkçi də, rədd edən də

Dünyasını dəyişdi.
Zor zamana dəfn edildi,
daş altında qum oldu.
Bir dərmana möhtac olan
Haqqa heykəl qoyuldu.

*Avqust 1997*

## ZİNDANDA TƏQVİM

Zindanda bir dustaq, önündə təqvim
Qalan müddətinə o, xiffət çəkir.
Axşam olan kimi, yola saldığı
Hər günün üstünə qara xətt çəkir.

Cızıqlar düzülür təqvim üstünə
Hər ötən gününü o, uğur sanır.
Qara cızıqları, onu ağ günə
Aparan bir arzu, bir cığır sanır.

Məhbuslar zamanı doğrayıb biçən
Saatın səsinə necə təşnədir.
Onun ürəyində ləng ötüb keçən
Zamanla döş-döşə bir savaş gedir.

Bu qara zindana düşəndən bəri
Uzanır onunçün saatlar, günlər.
Qovacaq, beləcə, ötən günləri,
Cəza müddətinin sonuna qədər.

Haqlımı, haqsızmı cəza müddəti?
Ağlına gətirmir o, bunu artıq.
Ləng ötən vaxtadır onun hiddəti,
Onun sevincidir hər xətt, hər cızıq.

Döşəmə – dünyası, tavan fəzası
Azadlıq naminə o, vaxtı danlar.

Onunçun cızılan günlər – cəzası,
Amma günahıdır cızılmayanlar.

Arzuya atılan addımdır hər gün
Axşamlar çəkdiyi hər xətt, hər cıızıq.
Ömrünə, gününə xətt çəkdiyinin
Fərqində deyilmiş, elə bil, yazıq.

*İyul 1997, Şəki*

## OTAQ DUSTAĞI

Özgədən hay uman ahıl çağımda
Fikrim, duyğularım hər gün təklənir.
Mənim fikirlərim dar otağımda
Dəyib divarlara hey çiliklənir.
Dünənki havayla bəsləndiyimdən
Bugünkü havada üşüyürəm mən.

Bu gün – cəhənnəmim, dünən – cənətim
Sazım zəmanəyə dəm tuta bilmir.
Tutmur nəvələrlə sözüm, söhbətim,
Yaddaşım dünəni unuda bilmir.

Ahılam, ya cahil? Bu da başqa sirr!
Söyüd ağacından evə tir olmaz.
Axı, mən gedənəm, onlar gələndir,
Gələnlə gedənin yolu bir olmaz.
Mənim fikirlərim, mənə göz dağı,
Mənim fikirlərim – otaq dustağı.

Fikrin zaman ilə əgər təndisə,
Demək, övladısan sən də bu əsrin.
Fikrin divarlarda çilikləndisə,
Yerini dar etmə sən təzə nəsilin.

Bir səs pıçıldadı: «Barış zamanla».
Bir səs dedi: «Onda mən, mən olmaram».
Daim savaşdadır gerçək günahla,

Bəs necə seçilsin halaldan haram?
Mənim də yeniyə çox hörmətim var,
Amma «get» - deməsin yersiz yerliyə.
Mən necə «gəl» - deyim əxlaqdan kənar
«Gözəllik» - adlanan eybəcərliyə?

*İyun 1997*

## ANLADIM Kİ…

Ömrüm boyu hiss etmədim
Nə ağrımı, nə yaşımı.
Ötənlərdən xəbər verdim,
İtirmədim yaddaşımı.

İçimdəki atəş ilə
Qidalanıb alovlandım.
Altmışda da, yetmişdə də
Mən özümü cavan sandım.

Mən yaşamaq həvəsimi
Bir an belə itirmədim.
Azar-bezar tanımayıb,
Qocalığa can vermədim.

İllər məni qocaltmadı,
Mən illərdən kam almışam.
Ömrün sona yetdiyini
                    düşünəndə,
Anladım ki, qocalmışam.

*İyul 1997*

## NƏ YAMAN DÖNÜKMÜŞ...

Danışma əzizim, danışma kiri
Yaddaş diksindirir qəlbimi hərdən.
Mənə xatırlatma ötən günləri
Yamanca qorxuram xatirələrdən.

Bəzən ayaqlarım üzülür yerdən,
Bu günü dünənlə sən eyni tutma.
Acılı-şirinli xatirələrdən
Mənim göz önümə, gəl, ayna tutma.

Unutmaq istərəm acı günləri,
Kim istər acını təzədən yeyə?
Şirin günləri də unudum, kiri!
Bir daha o günlər qayıtmaz, - deyə.

Elə xatirə var, insan oğlunu
Yandırıb ağladar ömrü boyunca.
Elə xatirə var, axı, mən onu
Bilmişəm, bilirəm ömürdən uca.

O günlər yuxuymuş, mavi bir yuxu.
Keçmişi önümdə sərdiyin yetər.
Dünyanın cənnətə yaxın olduğu
Ən gözəl günlərmiş yaşanan günlər.

Dünəndən danışma öz istəyincə,
Danışma, qorxuram xatirələrdən.
Yaddaş mizrabını, gəl, incə-incə
Xatirə telinə toxundurma sən.

Qalsın ürəyimdə o gizli boğça
Açma köz bağlayan yaramı qəsdən.
Hər yalnış addımı xatırladıqca,
Özüm öz gözümdə kiçilirəm mən.

Hanı qulağımda çinlayan o səs?
Ərşə çəkilərdi gecələr yuxum.
Hanı o ehtiras, hanı o həvəs?
Sonsuz təşnəliyim, doyumsuzluğum?

Qaldı sevincimiz o dar otaqda,
Hanı o arzular, o həyəcanlar?
O zaman bilməzdik, hələ qabaqda
Xəstəlik, zəiflik, qocalıq da var.

Dağlar dalındaydı, axı, bir zaman
Miskin qocalığın o köhnə atı.
Mən kəhər belində at çapdığımdan
Əyləncə bilərdim onda həyatı…

İndiysə gedirəm ələkdən saca,
Dünən qılınc idim, bu gün qalxanam.
Özümə bənzəyən taqətsiz, qoca
Bir yabı belində yoxuş qalxıram.

Bu adi gerçəyə diksindim bir an,
Nə yaman dönükmüş dünyanın üzü.
Keçmişin bu qədər əziz, mehriban,
Yaxın olduğunu bilməzdim, düzü.
Heç demə, qorxduqca xatirələrdən,
Onun istisinə qızınıram mən.

*İyul 1997*

## YENİDƏN YAŞAMAQ

Sordun: - Yaşadığın ömrü təzədən
Bir daha yaşamaq istərdinmi sən?
Dedim: Yox! Başqa bir həyat versələr,
İstərdim…
-Bu ömrün pis keçmiş məgər?
-Təkrar düşmək olar axar bir çaya,
Amma hər saniyə dəyişir sular.
Sonunu bildiyim bir tamaşaya
Yenidən baxmağın nə mənası var?

*Avqust 1997*

## RUH - BƏDƏN

Yenə də əllərim açıldı göyə,
Yenə də araya düşdü ayrılıq.
İndi nə soyuğa, nə də istiyə
Tabım yox, bu yaşda diləyim: İlıq.

Gənclikdə çarığı dəmirdən geyən,
Hicran dağlarını mən yaran oldum.
İndiysə vüsalda hicran istəyən,
Hicranda vüsalı axtaran oldum.

Ruhum qanadlanır yanına hər dəm,
Bədənim ruhumla yarışa bilmir.
Elə zəifliyib əldən düşmüşəm,
İmkanım arzumla barışa bilmir.

Elə bil soyuyub həvəsim, odum,
Bu hal xəyalı da göydən endirib.
Mənim xəstə canım, xəstə vücudum
Yoxsa, ruhumu da xəstələndirib?

İlahi, sən mənim həyat eşqimi,
Odumu, közümü özümə qaytar.
Çayı məcrasına qaytaran kimi
Mənim də özümü özümə qaytar.

Mümkünmü? Deyəsən, qurtarır daha
İstili-soyuqlu bu fani dünya.
Yol məni aparır yalnız dərgaha,
Çoxdan başlanıbdır ruhani dünya.

*İyun 1997*

## RUH DA QOCALARMIŞ…

Yasəmən qoxusu, qızılgül ətri,
Çinar ucalığı, qərənfil ətri,
Körpə budaqlarda çiçək düyməsi,
Bulaq şırıltısı, bülbül nəğməsi
Bir vaxt oynadardı yerimdən məni.
İndi tərpətməyir bəs nədən məni?
Zamanın hökmünə başımı əydim
Ruh da qocalarmış, hardan biləydim.
Hər şey bu dünyada gəldi gedərmiş
Qocalıq ruhu da zəiflədərmiş.
Anladım, gözümdən dünya düşüncə
Ruhum kəfənlənir cismimdən öncə.

*May 1997, Şüvəlan*

## ALLAHDAN QANAD İSTƏDİM

Allahdan qanad istədim,
Allah mənə xəyal verdi.
Bu münvalla xəyal mənə
Yaşamağa macal verdi.

Allahdan fərəh istədim,
Allah mənə kədər verdi.
Bu kədərim qədərimə
Tamam başqa qədər verdi.

Allahdan ağıl istədim,
Allah mənə ürək verdi.
Bu ürək mənim ömrümə
Qəm üstündən qəm gətirdi.

Allahdan dözüm istədim,
Allah mənə qəzəb verdi.
Mən Allahdan rəhm istədim,
Mənə bollu əzab verdi.

Mən Allahdan haqq istədim,
O, zülmünü bol eylədi
Əzabların kotanına
O, sinəmi yol eylədi.

*1997*

## VAXT ALDANMADI

Qızıla mis qatdılar,
bala-şəkər,
südə-su.
Dəyərsizi, ucuzu bahaya satmaq üçün.
Baqqal çəki daşının içini oydu, oydu
Alıcını çəkidə müdam aldatmaq üçün.

Özgəsinin yerinə imzalar da atdılar.
Torpağa gil qatdılar.
Sementə kül qatdılar.
Cığaradan, kağızdan
Saxta gül yaratdılar,
Saxta pul yaratdılar.
Hər yerdə ölçüləri qısaldıb uzatdılar.
Bir sözlə, saxtalıqlar üstdə bərqərar olan
Bir dünya yaratdılar.
Bu yalan bazarında aldadan da özünü
Haqlı bilir, haqq sanır
Aldadan anlamır ki, aldadanda aldanır.
Bu dünyanın ələyi xəlbirinə qarışdı.
Yamanlıqla yaxşılıq bir-birinə qarışdı.
Həqiqəti rəngləyib, ağartdılar bozları.
Dünyanın ən hiyləgər, mahir kələkbazları
Saat ilə təqvimə əl qata bilmədilər,
Yalnız vaxtı, zamanı aldada bilmədilər.

*Dekabr 2002*

## SÖZ GÜLƏŞMƏSİ

Didişmə, çəkişmə baş alıb gedir
Doğru da yalan da qəzetlərdədir.

O, buna şər atır, bu ona böhtan, -
Çətindir əyrini düzdən ayırmaq.
Seçə bilməsək də haqqı nahaqdan,
Tapdanan millətin haqqıdır ancaq.

Mənafe, mənfəət hər şeydən öndə
Yalnız öz sözünü hər kəs haqq bilir.
Qəzet bir meydandır, söz güləşində
Bu ona, o buna badalaq gəlir.

Təhqirlər, hədələr artır ilbəil,
Düşmən kəsilibdir sağ öz soluna.
Hamı elə bilir, o, haqqa deyil,
Haqq öz haqqını da borcludur ona.

Qəzetdə nə qədər şəkil olarmış,
Elə bil şəkil də keçir hücuma.
Maşallah! Hamısı təvazökarmış,
Dönüb qəzetlər də foto-alboma.

Bu nə həngamədir? Döndü büsbütün
Güləş meydanına bizim qəzetlər.
Heyf! Götürüldü aradan bu gün
Abır-həya kimi hüdudlar, hədlər.

Elə bil sözlər də utanır şərdən,
Bu gün tüğyan edir söz güləşməsi.
Bulanır təhqirdən, acı sözlərdən
Ana dilimizin büllur çeşməsi.

Sabir nəzakəti çıxdı aradan, -
Qələm çirkab tökür, gor eşir indi.
Bayatı yaradan, dastan yaradan
Sözlər qəzetlərdə güləşir indi.

Ana dilimizin söz ulduzları
Yalan dumanında əriyir çin-çin.
Heyif sabahına, acı sözləri
Şirin sözlərindən çox olan dilin.

Şair* doğru deyib, şirinliyindən
Ağzımda anamın südüdür bu dil.
Kim nə deyir desin, inanıram mən
Bu dil böhtan dili, şər dili deyil.

Dilə təzə sözlər əkilir bu gün,
Pozulur söz ilə mənanın əhdi.
Ana dilimizdən çəkilir bu gün
Bayatı şirəsi, bayatı şəhdi.

Daşlar atılanda zərifliyindən
Sınır, çiliklənir sözün aynası.
Ürəkdə bəslənən qəzəbdən, kindən
Çirklənib bozarır üzün aynısı.

*Yəhya Kamal

Sabir nəzakəti çıxdı aradan, -
Qələm çirkab tökür, gor eşir indi.
Bayatı yaradan, dastan yaradan
Sözlər qəzetlərdə güləşir indi.

*1998*

# GÜMAN QALIB ALLAHA

Talan olmuş bir zaman ürəklərdə bəslənən,
Ümid ilə süslənən
O arzular, o kamlar
Körpülərin üstündən indi sel sular keçir,
Altındansa adamlar.

İndi yalan and olub
Hər şey tərsavand olub.
Yayın oğlan çağında
Buludlar yaman dolub.

Hamı düz yoldan qaçıb, əyri yola işləyir
Saatın əqrəbləri soldan sağa işləmir,
Sağdan sola işləyir.
Bu qaranlıq gecənin hələ sonu görünmür.
Səhər dönür axşama, gecə səhərə dönmür.
Gündüzləri alışıb, gecələri sönmüşük
Biz ağılla hiss edib, ürəklə düşünmüşük.
Özümüzə qayıdır atdığımız oxumuz
«Toxam» - deyir acımız, «acam» - deyir toxumuz.
Alçalmağı heç kəsin toxunmur vüqarına
Qol götürüb oynayır bu millət ac qarına.
Bir-birinə uyuşmur sözümüzlə işimiz
Toyda ağı söyləyib, yasda gülüşürük biz.

«Xoşbəxtəm» deyənlərə dilənçi qaçqınımız
Çadırından hay verir.

Ona bu xoşbəxtliyi bəxş eləyən kəslərə
Öz ömründən pay verir.
Nə gerimiz bəllidir, nə irəlimiz bizim
Əlimizin yerinə işləyir səhər, axşam
Yalnız dilimiz bizim.

Nə arxada, nə öndə məlum bir yerimiz yox
Hara getdiyimizdən, vallah, xəbərimiz yox.

Biz bir şeyi bilmədik:
Hər əsrin öz damarı, hər günün öz rüzgarı!
Bu günün qıfılına düşə bilməz, dünənin
Pas bağlamış açarı.
Ürək qalıb o tayda, güman qalıb bu tayda
Bir işıq istəyirik iynənin ucu boyda.
Ümidə də güman yox, ümid gümandan baha
Üzlər göyə dikilmiş, güman qalıb Allaha.

*İyul 1998*

# İNTİHAR

*Yetim qalmış balalarını dolandıra bilmədiyindən intihar edən Qətibə xanımın xatirəsinə*

Səndən çörək uman körpələrinin
Üzünə baxmaqdan utandın yəqin.
Sən atıb özünü beşinci qatdan
Keçdin xəcalətlə keçən həyatdan.

Körpə balalara düşündünmü sən
Kim arxa duracaq sənin yerinə?
Özü də yetimkən bizim bu Vətən
Sahib çıxacaqmı körpələrinə?

Yazdım əlim yandı, yazmadım dilim,
Yoxsa ən ucuz şey namus, ar imiş.
İndi anlayırıq ən ucuz ölüm
Həyata tüpürən intihar imiş.

Ölən ölümünü əcəldə görür
Heç demə, bu həyat istirab, zülüm!
Xalqın sinəsində zaman xış sürür.
İndi adamları öldürmür ölüm,
İndi adamları həyat öldürür.

*1998*

## QUL BAZARI

Gəldi başımıza min qan, min qada
Bunlar tarixdən də bizə tanışdır.
Bəşərin quldarlıq zamanında da
Bu millət qul alıb, qul satmamışdır.

Nədir qul bazarı, hardan çıxdı bu?
Öz halal yurdunda insan qul oldu?
Qış ötdü, yaz gəldi, bitmədi yonca
Xəzana döndümü şirin xəyallar?
Oturub səkidə küçə boyunca
Müştəri gözləyir bu təzə “qullar”.

Bir parça çörəkçin bu bədbəxtlərin
Açılır başına min cür oyunlar –
Səhərdən axşama qaya çapmağa,
Zibil daşımağa hazırdı onlar.

«Gəl» - deyə çağırsan, əllisi birdən
Cumacaq üstünə daş səkilərdən.
Özün seç, çəkinmir qul olduğuna
Az, ya çox, nə versən, şükrandır ona.
Onun nə haqqı var «Bu azdır» deyə
Sahib ağasıyla çənə döyməyə?

Verdik Qarabağı uf demədən biz
Satdıq otelləri, zavodları da.

Min cür sərvətimiz, var-dövlətimiz
Satıldı, el qaldı quruca yurdda.

Biri-birimizi satırıq bu gün
Ayıra bilmirik doğmadan yadı.
Vərdişə çevrilib satmaq bizimçün
Daha satılmağa bir şey qalmadı.
Hərraca qoymuşuq bu məmləkəti,
İndi də satırıq namus, qeyrəti.

Ünvan ləkələndi, ad ləkələndi,
Tapdandı min illik şərəf də, şan da.
Amandır, qoymayın, satılır indi
Millətin mənliyi qul bazarında.

Varlı tanıyıram vicdanı miskin,
Qıymaz bircə quruş var-dövlətindən.
Bir acı doydurmaq, nadan nə bilsin
Savabdır yüz Kəbə ziyarətindən.

Durduğumuz yerdə biz ayaq döyüb
İrəli getmirik bir addım belə.
Daim dilədiyi haqqa yetməyib
Bu millət nəyisə gözləyir hələ.

Durur illər boyu durduğu yerdə
Bu yolun əvvəli, axırı məchul.
Millətin yarısı yad ölkələrdə,
Yarısı doğmaca vətənində “qul”.

Adamlar talanır öz mənzidində
Əcnəbi sahibkar lap ağ eylədi.
Aldığı zavodda ana dilində
Danışmağı bizə yasaq eylədi.

Əcnəbi ağadır sanki bu yurda
Sinəm ayaqlara yol olmuş bu gün.
Eloğlum həm yurdda, həm də kənarda
Hakim əcnəbiyə qul olmuş bu gün.

Onlar iş axtarır yaşamaq üçün
Bu adi istək də çox imiş məgər?
Bizdən iş istəyən bu möhtacların
Yaşamaq haqqı da yox imiş məgər?

İstiqlal qazanıb biz elə bildik,
Qurtardıq milləti qəhr edən oddan.
Amma bilmədik ki, məhrum edildik,
Dağlarda qurutdan, aranda tutdan.

Əzilir, soyulur bu xalq günbəgün,
Dözümdə, səbrdə, vallah, fil olduq.
Bəlkə bu milləti qul eləməkçün
Biz qan bahasına müstəqil olduq?

Bu ölkəm bir zaman Dövlətsiz ikən
Xalqım heç bir xalqa qul ki, deyildi...
İndi bu məmləkət müstəqil ikən
Millət birdən-birə sındı, əyildi.

Ünvan ləkələndi, ad ləkələndi,
Tapdandı min illik şərəf də, şan da.
Amandır, qoymayın, satılır indi
Millətin mənliyi qul bazarında.

*Noyabr 1998*

## YOL Kİ, BELƏ GEDİR...

Tutduq ətəyindən, tutduq ümidin
O da göz önündə dərbədər olur.
Sabaha dikilir gözümüz hər gün
Sabahsa bu gündən beş betər olur.

Yorulmur bu qədər haqqı çeynəyən?
Halal qismətimiz bizdən gen düşüb.
Bir loxma çörəkçün qapılar döyən
Bu xalq öz yurdundan didərgin düşüb.

Millətin qarnı ac, sinəsi dağlı,
Qalmayıb kəndlərdə başı papaqlı.

Qanun kürsüsündə ağ yalan-hakim
Dövlət rüşvət ilə qafiyələnmiş.
Rüşvət – vəkil olub, gerçək – müttəhim
Gerçəyin haqqına zor yiyələnmiş.

Dayanıb kənarda haqq da can güdür
Tez, ya gec zülmün də ölümdür sonu.
Rüşvətin qolları elə güclüdür
Poladdan olsa da, əyər qanunu.

Siqartək çəksək də ah üstündən ah
Boşalda bilmirik ürəyimizi.
Yol ki, belə gedir, deyirəm, Allah,
Bundan betərindən saxlasın bizi.

*Avqust 1998*

## DÜKANDAR - MÜƏLLİM

Dükandar… önündə nisyə dəftəri
Bunun da baisi gərdişi-dövran!
Müəllim! O yoxsul, pulsuz müştəri
Almaq fikrindədir nəsə dükandan.

-Keçən aylardan da xeyli borcun var.
Yox, verə bilmərəm…
Dinməyir yazıq
-Köhnə borclarını əvvəlcə qaytar
Sonra…
-Düz beş aydır maaş almırıq.
-Mənə nə dəxli var?
                    Susur müəllim.
Biri müqəssirdir, o biri hakim.

Malını satmadı o nisyə nədən?
Müəllim göy kimi dolub tutuldu.
Canını müftəcə verəcəyindən
Amma bu dükandar xəbərsiz oldu.

-Bilirəm çətindir, indi neyləyək?
Borcunu bir təhər təmizləyəsən?
Xətrinə dəyməsin, gəl, bir iş görək.
Bağımı belləyə bilərsənmi sən?

*1998*

* * *

Qayıdıb dükandan bir axşam çağı
Dükandar gördü ki, bellənib bağı.
Baxıb razılıqla, o müəllimə
Sonra gözlərini bağa zillədi.
Ağa ədasıyla tək bircə kəlmə
Dönüb müəllimə: «malades» - dedi.

Dinmədi, karıxdı müəllim nədən?
Qırx il balalara o, dərs demişdi.
Bu böyük zəhmətə amma kimsədən
«Malades» sözünü eşitməmişdi…

Bu gün mənliyini, əzmini dandı
O, bir dükançıdan «Əhsən» qazandı.
Əhsən bu zamana, əhsən, afərin
Əhsən bu təzada, şükür bu günə!
Qırx il dərs öyrədən bir müəllimin
Dükandar diliylə «öyüldüyünə!»

Bilmirdim, bir sirri burda anladım
Bircə addım varmış, yalnız bir addım:
Alimdən cahilə, qaradan ağa.
Müəllim-nökərdir, dükandar-ağa!

*İyul 1998*

# İBADƏT

Başqa bir zamana düşdü gəncliyim,
Dövrün tələbilə günə dəm tutdum.
Qibləmi tanıdım, amma neyləyim,
Qilbləmə səcdəni tamam unutdum.
Səcdə qılmasam da, haqqı danmadım,
Kef-damaq eşqinə havalanmadım.

Yaman gileyliyəm öz hafizəmdən,
Açılır fikrimdə sözün yumağı.
Nə qədər çalışdım, bu yaşımda mən
Öyrənə bilmədim namaz qılmağı.

Bu da bir rəngidir bəlkə günahın
Xeyrim də doğulur bəzən şərimdə.
Qalmır yaddaşımda qadir Allahın
Mənə yazdırdığı şeirlərim də.

Artıq dönüb dövran, dəyişib zaman
Gəlmək istəyirəm haqqa səcdəyə.
İmdad istəməkçün indi Tanrıdan
Hər gecə əllərim uzanır göyə:

-İlahi, qəlbimi açıram sənə,
Çin eylə sən mənim röyalarımı.
Diz çöküb önündə gəldim səcdənə
Qəbul et sən mənim dualarımı.

İbadət! Allahla pünhani söhbət,
İbadət – öz arzum, öz niyyətimdir.
Amma bacarmadım, yaş ötüb…fəqət
Mənim dualarım ibadətimdir.
Allaha duama, namaz yerinə
Başqa cür ibadət, başqa yol – dedim.
Qol, boyun! Bağlıdır biri-birinə
Boynun öz yüküdür sınmış qol-dedim.

«Çoxdur günahları ömür yolumun»
Neylərəm bu sözü mənə el desə?
Mən nəyə gərəyəm sınmış qolumun
Yükünü, cövrünü boynum çəkməsə?

Yaman üstələdi günah tövbəni,
Ruh da nəfsimizdə yox olmuş bizim.
İlahi, o qədər unutduq səni,
Bəsirət gözümüz tutulmuş bizim.

Durdu üzümüzə günahlarımız,
Bəndəlik etmədi tanrıya bəndə.
Səni yaxşı gündə unutduq, yalnız
Düşdün yadımıza bərkə düşəndə.

Dünyanın qəribə oyunları var,
Dünən aldananlar aldadır bu gün.
Dünən səni danıb rütbə alanlar
Səni təbliğ edən molladır bu gün.

Ya rəbbim, sən özün kömək ol bizə,
İşıq saç qaranlıq ürəyimizə.

Biz bu var dünyada yaşarkən yoxuq,
Sən yox ikən varsan, biz varkən yoxuq.

Bizə bir kəramət bəxş elə yoxdan,
Tanıyaq yolunu, qılaq səcdəni.
Ey gözə görünməz, ey yeri pünhan,
Könül gözümüzlə biz görək səni.

Bizim qəlbimizə nur ver, ilahi,
Bizi haqq yoluna döndər, ilahi.
Sənin köməyinə möhtacıq bu gün,
Eşit fəryadımı, eşit naləmi.
Bizim dərdimizə ortaq et bu gün
Bizim dərdimizə lal-kar aləmi.

Özün görürsən ki, bu gen dünyada
Haqqımız tapdanır hər addım başı.
Təkləndik, əl açaq indi biz yada?
Axı, göz yaşımız əridir daşı.

Dözdük bu on ili, dözərik yenə,
Başqa bir hikmətdir təntidən məni:
Məəttəl qalmışam sənin səbrinə
Sözüm küfrdürsə, əfv et sən məni.

Bəzən tapdalanır namus, arımız
Zorun hökmü ilə haqq unudulmuş.
Bir loxma çörəkçün övladlarımız
Özgə qapılarda didərgin olmuş.

Dəyanət, ləyaqət qalmadı bizdə,
Hər gün gəlmələrlə dolur məmləkət.

Öz doğma, öz halal vətənimizdə
Gəlmə sahibkara əl açır millət.

Fəhlə maaşını alanmır nədən?
On qat artıq alır yad oğulları.
Bizim ac fəhlənin göynərtisindən
Göyərir gəlmənin gömgöy dolları.

Bu millət verilən sözə vədəyə,
Yaddan gələn paya şükran edilmiş.
İçilən bol suya, bomboş mədəyə,
Udduğu havaya şükran edilmiş.

Doğma məmləkətdə, doğma diyarda
Bu xalqı həyansız qoyma, Allahım,
Cırıq çadırlarda, şaxtada, qarda
Donan körpələrə qıyma, Allahım.

Hamı yalanlardan cəzanə gəlmiş
Riyalar, boyalar basıb ölkəni.
Bir qarın çörəyə möhtac edilmiş
Bu xalqın üstünə çək öz kölgəni.

Elə hey sabaha baxdıq bu gündən
İşartı görünmür, qarşı dumandır.
Ən adi, ən kiçik haqqımızla sən
Bizi imtahana çəkmə, amandır.

Gəl, bu imtahandan sən qurtar bizi,
Ya rəbbim, ağıl ver, kamal ver bizə.
Çoxdan unutmuşuq düşmənimizi,
Düşmən kəsilmişik bir-birimizə.

Yol bir olmalıdır, əqidə birsə,
Neçə təriqətə bölünmüşük biz.
Ailədə tirəlik-didişmədirsə,
Millətdə tirəlik – fəlakətimiz!

Vətən bir, millət bir, yollar cürbəcür,
Əqidə – ağ yalan, məqsəd – kürsüdür.
Köhnə bayatıya, köhnə səs-küyə
Təzə ad verdilər, ünvan verdilər.
Gözə kül üfürüb uca kürsüyə
Əqidə paltarı geyindirdilər.

Tarix səhnəsindən qorxuram silə
Biri-birimizə bu nifrət bizi.
Əfv et suçumuzu, bizə rəhm elə,
Bu dərin uçrumdan xilas et bizi.
Nə hiylə tanıdı, nə tələ millət
Sənin anan ölsün, a belə millət.

Bizi endirdilər göylərdən yerə
Qaytar tariximin qızıl çağını.
İlahi, hökmünlə qaldır göylərə
İslam bayrağını, türk bayrağını.

*Yanvar 1999*

## NƏ VAXT ÜZÜN GÜLƏCƏK?

Çox gözəl danışırsan, nitqinə heyran oldum
Dönüb gerçəyə baxdım, ürəyi şan-şan oldum.

Hələlik sözdür ancaq, əfsanədir dediyin
Bu dənizin dibindən çıxara bilmədiyin
İncinin qara daşdan, axı, nə fərqi varmış?
Bu millət boş sözlərə nə qədər aldanarmış!

Sinəsi dağlı yurdum,
Qolları bağlı yurdum.
Nə vaxt üzün güləcək,
Ay qaşqabaqlı yurdum?
Sənin böyüklüyünə biz ucala bilmədik
Sən bizə ana oldun, bizsə sənə riyasız
Oğul ola bilmədik.
Anam, sən möhtac ikən hamımızın bildiyi
Adicə bir dərmana
Əlacını, dərdini hərə yozdu bir yana
Doğru yol tapılmadı,
Hamı güdüb xeyrini, səcdə qıldı sərvətə
Sənə səcdə qılmadı.
Zaman keçir, sən yenə düz yol sorağındasan,
Yaranı sağaldacaq oğul sorağındasan.

Elə oğul istərəm, diləyi Vətən olsun.
Bu Vətənin yolunda yüz dəfə itirilsə,
Min dəfə bitən olsun.

Vətən eşqi dağın da sinəsini dağlayar,
Eşq olmayan ürəkdə hörümçək tor bağlayar.
Hansı dərdə, yaraya əlac olmuş nitqlər?
Vətən yaralarını sözlə sarımaq yetər.
Onun ana dərdinə oğul tək yanmaq gərək,
Haqsızı yıxmaq üçün haqqa inanmaq gərək.

*İyul 1998*

## BƏS NİYƏ TƏKLƏNİRƏM?

Qocaldıqca
Səhvlərimin dərdinə yüklənirəm.
Vicdanımın arxasınca
        qaçır, sürüklənirəm.
Ucaldıqca
Bir o qədər öz gözümdə enirəm.
Savablarım, günahlarım
        Dayandıqca üz-üzə
Öz ağlımın ələyində
        Hər gün ələklənirəm.
Həqiqəti gördüyümdən
        Hər şey dönmüş tərsinə.
Yaz ayları yarpaq töküb,
        Qışda çiçəklənirəm.
Qəhər olmuş yol yoldaşım,
        Yanağımda göz yaşım.
Duyğularım yuxaldıqca
        Özümdən şəklənirəm.
Dost-tanışım çoxaldıqca
        Mən niyə təklənirəm?

*May 1998*

## NEÇƏ-NEÇƏ SUALIM VAR

Kitab-kitab şeirlərim
Həm sevincim, həm kədərim.
Bu dünyada yoxum, varım
Bu günümdən
Gələcəyə göndərdiyim məktublarım.

Məktublarda
Əzablarım, qayğılarım qatar-qatar.
Məktublarda
Gələcəyə neçə-neçə sualım var.

Sualların cavabları
Həm çətindir, həm yasaqdır.
O cavablar mənə deyil,
Məndən sonra gələnlərə çatacaqdır.

*İyun 1998*

## SONA ÇATIR ƏSRİMİZ

Sona çatır əsrimiz
Keçdiyimiz yollara, gəlin, baxaq bir də biz.
Mənəvi tərəzidə ölçüb, görək, nə imiş
Qazancımız, kəsirimiz?
Sona çatan bu əsri bilik əsri sanmışıq
Bu biliklə biz indi
Nələri itirmişik, nələri qazanmışıq?
Bizim itirdiyimiz,
Tarixə verdiyimiz
Qazancımızdan ulu, xeyrimizdən çox baha!
Biz bu qazancımızla asi olduq Allaha:
Bir atom zərbəsiylə
Bir ölkəni bir anda batırmağı qazandıq,
Bu günə heyran olub dünəni yamanladıq.
Bilmək ilə öyünüb, hiss etməkdən usandıq.

Bir gün qırmızılaşdı bu dünyanın ağ donu
«Güclüsənsə, haqlısan»! Bu cəngəllik qanunu
Elm əsrində gör necə zamana hakim oldu,
Həqiqət unuduldu.
Bir cür danışıb, amma başqa cürə düşündük,
Ağızlardan söz çalan tutuquşuya döndük.
Bütün başqa fikirlər yalnız bircə təlimin
Darağıyla darandı,
Qalıblarla düşünən yeni nəsil yarandı.
Bir zamanlar fəhm ilə göyün yeddi qatını
Hiss edəndik, görəndik.

Ucaldıqca səmaya biz boşluğa dirəndik.
Göyün dərinliyində ozon qatını deşdik,
Allahın bəxş etdiyi xisləti də dəyişdik.
Danıb öz əslimizi, başqa bir insan olduq,
Haqqı zora yedirtmək mərəzinə tutulduq.

Hər yaxşıda bir yaman, hər yamanda yaxşı var.
Məskənimiz olunca uca, beton binalar,
Adamlar bir-birinə
Cismən yaxınlaşdılar, mənən uzaqlaşdılar,
Köhnə yolu itirib, təzəsində çaşdılar.
Sürətin qüdrətiylə
Birə min qat uzatdıq ömrünü də bir anın,
Bəla oldu başına öz biliyi insanın.
İndi göyə də sığmır bu «mənəmlik» ədamız
Allaha da əl atır allahlıq iddiamız.
Ucaldıqca göylərə insan mənən alçalıb,
Əməlinin əlində bu gün əlacsız qalıb.
Özü bulandırdığı sular daha durulmur,
Özünün yaratdığı şeytanlar, əcinnələr
Özünə təslim olmur.

Bəs hanı babalardan bizə bir miras qalan
İnsanlığın, ey insan?
Ömrün zirvəsindəyəm
O dünyaya getməyin növbəsində öndəyəm.
Özümü düşünmürəm, düşünürəm dünyanı,
Gələcək nəsilləri.
Bağçalarda açacaq bu dünyanın bəzəyi –
Çiçəkləri, gülləri.
Var səsimlə qışqırıb yalvarıram Allaha:

- Səndən başqa bir ayrı güman yerim yox daha.
Səndən  təmənnam budur:
Qarşıdakı əsrimiz vicdan əsri olaydı,
Ədalətə söykənən insan əsri olaydı!

*May 1998*

## ÖZÜMÜ İNKAR

Üzümü qırxmaqçün hamı tək mən də
Səhərlər aynaya baxıram hər gün.
Əksimi aynada seyr eləyəndə
Sirrə çevrilirəm özüm-özümçün.

Gözümün içinə zillənir gözüm
Bir gözdə nə qədər sual olarmış?
O qədər iztirab, bu qədər dözüm
Məndə fil ürəyi, fil səbri varmış.
Elə ki, soruram «kiməm, nəyəm mən?»
Qorxub çəkinirəm özüm-özümdən.

Sualın cavabı çətindən çətin!
Bir suala dönür mənimçün zaman.
Əgər oğluyamsa, mən bu millətin
Bəs məndə bilmirəm, bu dözüm hardan?

Aynanı tərlədir çəkdiyim hər ah
Deyirəm, ya daşam, ya dəmirəm mən.
Hər dəfə aynaya baxanda, vallah,
Görürəm, özümə bənzəmirəm mən.

Gözümdə könlümün əksi kölgəsi
Özümdən narazı, canımdan bezar.
Mən ki, həm özüməm, həm də özgəsi
Özümü təsdiqmiş, özümü inkar!

*Avqust 1998, Şəki*

## ÇOX İMİŞ

*Xudunun əziz xatirəsinə*

Usanıb şəhərin küy-kələyindən
Gəldim ziyarətə dost məzarını.
Gördüm, sıralanmış qəbirlərdə mən
Ölümün möhtəşəm addımlarını.

Gəzdim qəbristanı, gəzdim səbirlə
Rastlaşdım nə qədər tanış qəbirlə.
İnana bilmədim gördüklərimə
Şəhərə dönməkmiş, şəhərdən qaçış!
Burda yatanların çoxu, heç demə
Mənim öz dostlarım, tanışlarımmış.

Orda dən, burda un, arada daş var
Zamandır hərlədən bu dəyirmanı.
Bir-bir üyüdülür dostlar, tanışlar
Birdən ayılırıq: filankəs hanı?

Bəzən üzü durur üzsüz astarın
Neçə pilləsi var tək bircə ömrün.
Mən hardan biləydim, ölü dostlarım
Diri dostlarımdan çox imiş bu gün.

Usanıb şəhərin hay-həşirindən
Gəldim ziyarətə dost məzarını.
Gördüm, sıralanmış qəbirlərdə mən
Ölümün möhtəşəm addımlarını.

*May 1998*

## BAHAR HAVASIYLA

Qanadlı xəyallar göylərdən endi
Nə çırpıntı qaldı, nə istək, həvəs.
Qocaldım, könlümdən çox şey silindi
Sənin buraxdığın izlər silinməz.

Mənə qısqanardı bir vaxtlar hamı
Könlüm o günləri necə əzizlər.
Təzədən yaşadır mənə dünyamı
Ömrümün açdığı cığırı – izlər.

O izlər könlümə çəkilən dağım,
Həsrətim, kədərim, xeyrim, şərimdir.
O izlər – içimdə gizli sığnağım,
Könlümdən süzülən sətirlərimdir.

Ömür yollarımın bir qarışında
Ayrı düşməmişəm hisslərimdən.
Keçib bu izlərdən ömrün qışında
Bahar havasıyla yaşayıram mən.

Hələ bu dünyada nə qədər sağam,
Mən bu hava ilə yaşayacağam.
Ölərsəm, o izlər yaşanmış ömrün
Ayaq izlərinə dönəcək bir gün.

*Avqust 1998*

## YENİLDİM, YENİLƏŞDİM

Sənin dəlillərinə inanmadım, «yox» - dedim
Sənin həqiqətini anlamaq istəmədim.
Ancaq mənə gülürdü içimdə başqa bir səs
Şükr elədim Allaha, o səs gözə görünməz.
Bilmirdim heç özüm də nədir inadkarlığım
Uduzmaq qorxusundan bəlkə könül darlığım?
Yox, yox, bu, ondan deyil.
Mən bu söz güləşində uduzmağımdan deyil,
Uduzmuş olduğumu danmağımdan utandım.
Özümü qalib kimi sanmağımdan utandım.
Düzü, xəcalətimdən
Qıvrıldım yatağımda o gecə sübhə kimi
Didib tökdüm içimi.
Mən niyə haqqa qıydım?
Adicə etirafdan mən niyə qorxmalıydım?
Amma bir xeyrim oldu: Mən səninlə güləşdim,
Yenilib, yeniləşdim.

*İyul 1998, Şəki*

## ÖZÜMDƏN QAÇIŞ

Ömrüm öz-özümlə dava-dalaşdır,
Fikirlər üz-üzə, qəsdim axtarış.
Bu, nə haray-həşir, bu, nə təlaşdır?
Fikrimdən, duyğumdan, özümdən qaçış!

Nə gecəmi bildim, nə gündüzümü,
Dünya bir möcüzə, ömür – gileymiş.
Tanıya bilmədim özüm özümü
Özümdən qaçışın mənası nəyimiş?

Çölümdən içimə düz yol seçmədən
Özümü inkarda varmı bir məram?
Özümdən qaçışda, bilmirəm, nədən
Özümə daha çox yaxınlaşıram.

*1998*

## «QARABAĞ» KAFESİ

«Birdir sözümüzlə əməllərimiz»
«Candan da keçərik bu vətən üçün».
Keyf çəkib «Qarabağ» kafesində biz
«Qarabağ dərdini çəkirik» bu gün.

Bizim keyfimiz də keyf-damaq deyil,
«Yoğrulduq düşmənə qəzəbdən, kindən».
Toylarda oynamaq, oynamaq deyil,
Atılıb düşürük «dərdin» əlindən.
Gör necə rəqs edir o boynu yoğun
Qırılıb elə bil boynunun bağı.

Elə oynayır ki, elə bil onun
Düşmən pəncəsində deyil torpağı.
Üzündə ağıldan zərrə əsər yox
Bir tonluq bədəndə bir zərrə ar yox.

*Dekabr 1998*

## YOLSUZ

İlk insan yarandı, dağ-dərə gördü,
Min cürə al-əlvan mənzərə gördü,
Dağların başında duman, çən gördü,
Ot gördü, gül gördü, göy çəmən gördü
Təkcə yol görmədi
bir addım atdı.

Yolu bu addımla özü yaratdı.
Dünyanın qoynunda min-min yol salıb,
Özü yolsuz qalıb, imansız qalıb
Günahsız dünyada günaha batdı.

*İyun 1998*

## QƏRİBƏM

Sağamı çevrilim, solamı dönüm?
Dözmüşəm,
        dözürəm,
                dözərəm yenə.

Ağrılar, acılar…
        hər gələn günüm
Bir təzə işgəncə gətirir mənə.

Aradım, tapmadım bir güman yeri
Gün doğur, işığı bizdən yan keçir.
Ağıl qavramayan günün dərdləri
Ağrıya çevrilib qəlbimdən keçir.

Hardayam, nəçiyəm, mən kiməm, nəyəm?
Oxudum dünyanı mən varaq-varaq
Məkanca öz halal vətənimdəyəm,
Zamanca qəribəm, qəribəm, ancaq.

*İyul 1998*

## DƏYİŞMƏLƏR

Biri gedər, biri gələr
Bu dönmələr, dəyişmələr…
Təbiətin, cəmiyyətin
Öz yolu var, öz axarı, inadı var.
Çağa, uşaq, cavan, qoca!
Bircə ömrün dörd adı var.
Dəyişirik ölənəcən
Nə sən sənsən, nə də mən mən.

Qışdan yaza, yazdan qışa
Nə ad verək bu axışa?
Möcüzəli dairəmi?
Fəsil də dörd, bir ömrün dörd adı kimi.
Nədir, kimdir nizamlayan
        fəsillərin,
                nəsillərin get-gəlini?
Necə tapaq, hardan tapaq
Bu sehirli dairənin əvvəlini?

Bulud-yağış, dağ-düz olur,
Gecə dönüb gündüz olur.
Təbiətin iki üzü,
Cəmiyyətin min üzü var.
Bir mətləbin, bir məramın
min əyrisi, min düzü var.

Bu enmələr, bu düşmələr,
Bu dönmələr, dəyişmələr

Canavarı it eylədi.
Ağacları geyindirib
Sonra dönüb lüt eylədi.
Vaxtın hökmü bir alçağı
Birdən-birə büt eylədi.

Birdən-birə
Yalan dönür həqiqətə,
Həqiqətsə yalan olur.
Ölkələri talan edən xanimanlar
dönüb özü talan olur.

Yalan-zülmün qalxanıdır.
Hər şey kimi
Onun da var öz dövranı.
Qılınc deyil, süngü deyil
Gerçək deşər zülm adlanan o qalxanı.

Yalan – zülmün çopur, bomboz daşlarına
Boya çəkən hiyləsidir.
Zamanın gur yağışları
O boyanı siləsidir.

Yalan-zülmün süngüsüdür.
O süngüyə dəstəklənən
«Haqq da mənəm, mən» deyəcək.
Amma süngünün üstündə
O, otura bilməyəcək.
Onun hökmü bitməlidir,
Gələn, bir gün getməlidir.

Haldan-hala bu keçmələr,
Bu dönmələr, dəyişmələr
Görən, nədir?
Dəyişməmək -
            zaman ilə döyüşmədir.
Dəyişməyən bir şey varsa, bu dünyada
O da yalnız dəyişmədir.

*Avqust 1999, Şəki*

## ÜÇ ÖMÜR,
## ÜÇ TALE*

Qırx ilə yaxındır bir əqidənin,
Bir eşqin, bir yolun yolçusuyuq biz.
Fitrəti, məsləki dəyişmək çətin,
Əvvəl nə idiksə, yenə oyuq biz.

Üç ömür, üç tale, üç zövq, üç ovqat
Görən, bir məcraya necə sığışdı?
Tək bir əqidəyə olan məhəbbət
Xuduyla bir yerdə üçə sığışdı.

Hərənin ayrıca bir xasiyyəti,
Hərəmiz bir başqa aləm idik biz.
Hərənin ayrıca qədər-qisməti,
Üçümüz bir yerdə bir tam idik biz.

Dolaylar adladıq, təpələr aşdıq
Biri – birimizçün döndük körpüyə.
Əvvəl bir dost idik, indiysə artıq
Ortaq babalarıq iki körpəyə.

Yetmişi haqladın sən də mənim tək
Səksənə, doxsana, yüzə hazırlaş.
Nəvə toyunu da görmədən ölmək
Nə sənə yaraşar, nə mənə, qardaş!

---

*Professor Nurəddin Rzayevin anadan olmasının 70 illiyi münasibətilə.

Sığındıq həmişə bir-birimizə
Özünü sevənin halına vay-vay.
Ömür ağacının rüzgar önündə
Dəyməmiş tökülən kalına vay-vay.
Birimiz üç idik, üçümüz də bir
Meşədə ağaclar cərgə-cərgədir.
Biri digərinə arxa, kölgədir
Dağın tənha bitən koluna vay-vay!

Arxa əyilmədik biz heç vaxt nədən?
İçdik suyumuzu dağ çeşməsindən.
Şəhdi güldən deyil, şəkərdən əmən
Arının verdiyi balına vay-vay.

Bir amal eşqinə verdik səs-səsə
Yollar da bir olur əqidə birsə.
Məqsəd düz, fikir düz, yol əyridirsə,
Belə bir ömürün yoluna vay-vay!

Bu üçlük bir yerdə sacayağıydı
Tale hökm verdi, birinə qıydı.
Növbədə duranın yası da toydu
Axıra qalanın halına vay-vay!

*1999*

## BİZƏ DƏRS OLMADI

Yazın oğlan çağı nədir bu tufan?
Külək də, yağmur da fəsildən deyil.
Könlündə Qarabağ dərdi olmayan
Vallahi, bu xalqdan, bu eldən deyil.

Bizi neçə dəfə
Axır yüz ildə
Oyuna saldılar, daim uduzduq.
Qarabağ dərdinə bu səkkiz ildə
Biz necə yaşayıb, biz necə dözdük?

Boğub içimizdə müqəddəs kini
Dözdük, necə dözdük bir Allah bilir.
Dözən ürəklərin nə çəkdiyini
Yalnız çəkdiyimiz aman, ah bilir.

Ağacın kökü var, yarpaqdan əvvəl
Yalan libasını artıq soyunmuş.
Həqiqət budur ki, torpaqdan əvvəl
Andımız, qəsdimiz işğal olunmuş.

Bizə dərs olmadı hökmü zamanın
Tarix yaddaşımız korşalmış, demək.
Unutduq hökmünü Mete xaqanın:
«Namus itirməkdir torpaq itirmək».

Getdik sülh yolunu payi-piyada
Amma soruşmadıq son mənzil hanı?
Məgər sinəmizdə Qarabağ boyda
Açılan yaranın bumu dərmanı?

*İyul 1999*

## VİCDAN XƏSTƏSİ

*A vicdan əzabım, üsyan əzabım,*
*öldürmə məni.*
**Musa Yaqub**

Musa, vicdanından əlhəzardasan.
Bu ovqat necə də mənə tanışdır.
Bizim qəlbimizi ağrıdan vicdan
Umulan kəsləri ağrıtmamışdır.

Dünya – bir bilməcə, dünya – bir təzad,
Arifin dərdi çox, bir qəmxarı yox.
İxtiyar sahibi – vicdandan azad,
Vicdan sahibinin ixtiyarı yox.

Qənimi olsa da əyri, düzlərin
Doğruluq dərsini keçmə oğruya.
Xalqı çalıb-çapan qeyrətsizlərin
Vicdanı varmı ki, bir an ağrıya?

Bir vaxt yollarımız yoxuş oldusa,
Sarsıda bilmədi bizi dərd, ələm.
Mən də sənin kimi, əzizim Musa,
Vicdan əzabına könül vermişəm.

Vətən qarşısında bilək bu yerdə
Hamının danılmaz haqqı, borcu var.
Bəzən gördüyümüz əyintilərdə
Sən də günahkarsan, mən də günahkar.

Dünyanın qəhrini çəkəndən bəri
Bəzən tuş gəldiyim əziyyətləri
Görmək istəməyib gözümü yumdum,
Onun əlacını kənardan umdum.

Gah olur çəkdiyim əziyyətləri,
Şahidi olduğum bəd niyyətləri
Görmək istəməyib gözümü yumdum,
Onun əlacını özümdən umdum.
Mümkünmü?..
Deyincə, qaraldı qanım,
Məni ilan kimi çaldı vicdanım.

Vicdanın səsindən dəng oluram mən,
Ağrılar içində qovruluram mən.
«Əlimdən nə gələr?», deyincə,
ağrı
Azalır, ağlım da haqq verir mənə.
Gözümü yumduğum haqsızlıqları
Vicdansa, birəbir göstərir mənə.

Vicdan saldı məni, bax, belə dərdə
Mən ondan qaçanda qaçdım özümdən.
İçimdə başlanan çəkişmələrdə
Gizlənpaç oynadım vicdanımla mən.

Vicdan yaxşı seçir əyridən düzü,
Yaxşıdan yamanı, dostdan düşməni.
O qovdu, mən qaçdım, itidir gözü
Harda gizləndimsə, o tapdı məni.

Vicdanım zamana uymur ki, uymur,
Məni yaşamağa qoymur ki, qoymur.
Bizim içimizi belə göynədən,
Bizi əldən salıb, bizi qəhr edən,
Haqqın öz səsidir, haqqın öz səsi
Vicdan xəstəsiyik, vicdan xəstəsi.

Bəzən görürsən ki, haqq çiliklənir
Haqqın qəbri üstə nahaq diklənir.
Bağırdıq: - Dayanın, haqq divanı var
Gördük, eşitmədi kimsə bu səsi.
Hələ üstümüzə çirkab atdılar,
Olduq bu millətin «xain bəndəsi».

İllər gəlib keçdi, ömür gödəldi,
Baharı gözlədik, təqvimlə gəldi.
Təqvim baharını neyləyirik biz?
Könül bağçamızı basdı ot, alaq.
Ömrümüz boyunca gözlədiyimiz
Səadət gülləri açmadı ancaq.

Zülmün məhvərinə dolanır zaman
Göydəki buludlar insan ahıdır.
Göydə aramasın Allahı insan,
Hər kəsin vicdanı öz Allahıdır.

Ay Musa, özünü yorma boş yerə,
İş ki, belə gedir, nə gerçək, nə haqq?
Allahı qəlbində görməyənlərə
Vicdan kəlməsini necə anladaq?

*İyul 1999*

## QORXU - SEVGİ

Sözə baxmayanda uşaqkən hələ
Anam qorxudardı xortdanla məni.
Gözümü dünyaya açandan belə
Qorxular izləyib hər zaman məni.
Elə ki, həyatı duydum dərindən
Qorxdum bu dünyanın dəhşətlərindən.

Qorxdum iftiradan, qorxdum tələdən,
Qorxdum nagahani bir zəlzələdən.
Yaşayıb gördüm ki, ömrümün yolu
Tikanmış, kol-kosmuş, demə, hər addım.
Amma bunlardan da daha qorxulu
Bir hikmət var imiş sonra anladım:

Ömür yollarında büdrəyən zaman
Mənə dedilər ki, qorx Allahından.
Bilsəm də çöp düşər qorxan bir gözə,
Qorxdum, Allah xofu qəlbimə düşdü.
Qorxanla qorxmayan durdu üz-üzə,
Bilmədim dünyadan kimə nə düşdü.

Anladım, gərəkmiş Allah qorxusu
İnsanı pis yoldan çəkindirməyə.
Amma bilirəm ki, çox-çox azdı bu
Könül gözü ilə haqqı görməyə.

İndi düşünürəm, Qorxu! – Nədir bu?
İnsan fitrətinə bir yamaq deyil?

Cürəti, qüdrəti həbs edən qorxu
Məgər öz-özünü zorlamaq deyil?

Qorxuyla yaşamaq – ölümdən betər,
Sevgiylə yaşamaq – haqqa ucalmaq.
İndi düşünürəm: - qorxular yetər
Mən qadir Allahı sevirəm ancaq.

Sevgi könüllərdə əbədi şölə
Onun işığıyla yol gedir insan.
Sevən sevdiyindən qorxmadan belə
Gedər haqqa doğru, dönməz bu yoldan.

*Yanvar 1999*

## MAŞIN SİLƏN UŞAQLAR

Vətən üçün alışıb porşələnən kəslərin
Qat-qat könlünü dağlar –
İşiqforun önündə duran mersedeslərin
Silib şüşələrini pul qazanan uşaqlar,
Alışıb öz qınında bu gün yanan uşaqlar.

Küçələrdən ötüşür adamlar axın-axın
Qürurunu sındırıb onlar dilənmir, baxın.
Siz onlara deməyin mənlik, qürur satqını,
Onlar əməklərinə umur halal haqqını.
Versən o, «sağ ol» deyir, verməsən gülümsəyir,
Bir doyumluq çörəyi zəhmətindən istəyir.

Bəs biz kimik? Maşında sağ-sola şütüyənlər
Onlara göz bərəldib, «çəkil burdan» deyənlər.
Qovduğumuz körpələr kimdir? – Gələcəyimiz!
Bu günümüzdən deyil, məchul sabahımızdan
Qovuruq o günahsız körpələri bu gün biz.

Mənliyini qoruyan – ey zavallı uşaqlar,
Xəzinələr üstündə yatan qeyrətsizlərə
Bizim bənzərimiz var.
Körpə quzum, indi sən
Məktəbə getməliykən
Əl açmayıb heç kəsə
Özünə çörək pulu qazanan vaxtın deyil,
Səni bu günə salan taleyin, baxtin deyil.

Vətən yaratmalıydı o taleyi səninçün.
Günahkar bizik, onu
Vətən övladlarına yaratmadıq biz bu gün.
Bir şeyə məəttələm: Necə dözürük buna –
Gözümüzün önündə haqqın boğulduğuna?
Çünki adiləşibdir sinəmizə çəkilən
Bu sitəmlər, bu dağlar,
Dilənən ixtiyarlar, şüşə silən uşaqlar.

İnsanıq, insanlığı bizim gördüklərimiz
Bəs danmırmı, görəsən?
Mindiyimiz maşının təkərləri altında
Vicdan adlı o mələk tapdanmırmı, görəsən?

*İyul 1999*

## QAR YAĞIR

Qar yağır qarğalar qarıldaşırlar
Qar yağır, yaz varkən bəs bu qış nədir?
Görmək istədiyim yamyaşıl bahar
Yalnız evimdəki dibçəklərdədir.

Ağarır cığırlar, yollar büsbütün
Göydən ələndikcə qar asta-asta.
Dağlara, daşlara yağmır, mənimçün
Yağır elə bil ki, yaşımın üstə.

Mənim saçlarımmı qardan rəng alıb,
Yoxsa, qar rəng alıb mənim saçımdan?
Qar saçla, saç qarla həmahəng olub
Üzüm də rəng alıb ağrı-acımdan.

Qar yağır, uyuyur yaxın, uzaqlar
Görürəm qəlbimin pəncərəsindən.
Qar topu oynayır çöldə uşaqlar
Sobanın dibində büzüşmüşəm mən.

Qar yağır, nəvələr getmədi dərsə
Şaxtadır, məktəblər bağlıdır bu gün.
Nəvələr, qar sizə əyləncədirsə,
Göydən kəfən enir babanız üçün.

Evdə nə çovğun var, nə qar, nə rüzgar.
Niyə üşüyürəm, nə olmuş mənə?

Yağır indi məni üşüdən bu qar
Ata – anamın da qəbri üstünə.

Qalxıb pəncərədən baxıram çölə
Uşaqlar qaçışır belədən-belə.
İşıq tellərinə qonan sərçələr
Kağızda beş xətli notlara bənzər.

Onlar civildəşib salamlayırlar
Çovğunsuz, küləksiz yağan bu qarı.
Elə bil deyirlər: - hardaydın, ay qar?
Tellərdən süzülür səs salxımları.

Yağan qar dondurur çölü, çəməni
Ağaclar başına tutur ağ çətir.
Yağan qar otaqda üşüdür məni,
Zəmilər üstünə ağ yorğan çəkir.

Ağarır cığırlar, yollar büsbütün
Göydən ələndikcə qar asta-asta.
Dağlara, daşlara yağmır, mənimçün
Yağır elə bil ki, yaşımın üstə.

*Noyabr 1999*

## ADƏMDƏN ƏVVƏL

Gün yeni, il yeni, əsr də yeni,
Yeni minilliyə ad verən olduq.
Gedən əsrimizin min bir sirrini
Gələn əsrimizə yetirən olduq.

Seyr etmək mümkünmü dərədən diki?
Öz alın yazımı mən hardan bilim?
Əsrin ortasında bilərdimmi ki,
O biri əsrə də yetəcək əlim?

Uzaqdan baxarsan, dağ da kiçilər,
Nisbətdir hər şeyin ilki, əvvəli.
Rəqəmlər, çəkilər, ölçü-biçilər
Görünür insana bəzən gülməli.

Bülbülün cəhcəhi: çətindən-çətin
Notların dilinə çevirmək onu.
Hansı meyar ilə ölçək göylərin
Ölçüyə gəlməyən sonsuzluğunu?

Uydurub saatı, uydurub anı,
Bütünü doğrayıb min yerə böldük.
Hardansa başlanıb axan zamanı
Günlərə, aylara, illərə böldük.

Sayıb yaşımızı, aldanırıq biz,
Bizə bəllimidir məgər ilkimiz?

Atamın, babamın, ulu cəddimin
Cismi-cövhərində mən vardım yəqin.

Əgər var idimsə, doğumdan əvvəl
Ölümdən sonra da var olmalıyam.
Bəs toxum nə imiş, toxumdan əvvəl
Nə təhər yarandı bu sonsuz nizam?

Ömrün əvvəli nə, axırı nəymiş?
Hər iki tayını aşmaq istədim.
Anamın bətnindən əvvələ-keçmiş,
Qəbrimdən sonraya-gələcək-dedim.

Axı, kim nə bilir nə imiş təməl?
Ağacmı, meyvəmi, ya onun tumu?
Bu nə uydurmadır, İsadan əvvəl
Məgər axıb gedən zaman yoxdumu?

Adəmin adı da başladı «A»dan,
Hərf yox idimi bəs «A»dan əvvəl?
Məgər yox idimi axışan zaman
İlk insan – Adəmdən, Həvvadan əvvəl?

Çarmıxa çəkəndə təzadlar bizi
Eyni bir məxrəcə gələ bilmirik.
Fəhmlə, eşqlə bildiyimizi
Ağılla, idrakla bilə bilmirik.

*Dekabr 1999*

## BİZİM YERİMİZƏ

O köhnə kaftarı-köhnə dövranı
Millət yola saldı bu son illərdə.
İyirminci əsr bitir…Dünyanı
Görən nə gözləyir iyirmi birdə?

Biz öz-özümüzə hesabat verək:
Nələri almışdıq, nələri verdik.
Gerçəyi batırmaz haray, küy-kələk
İstiqlal qazanıb, torpaq itirdik.

Ey ötən nəsillər, siz baxıb önə
Gələn nəsillərə Vətən verdiniz.
Bizdən sonra gələn nəslin çiyninə
Yeyib paylarını, borc qoymuşuq biz.

Dünyaya özünün gətirdiyinə
Aldığı borcunu verər hər ata.
Bəs bizim adımız, əməlimiz nə?
-Övladın haqqını yeyən bir ata!

Çəkək tərəzidə haqq nə, borc nədir?
Yalnız tarazlıqla dünya dövr edir.
Borcunu övlada miras qoyan kəs
Haqqından söz açıb danışa bilməz.

Əlac susmaqdadır? Yox! Bəs neyləyək?
Bu gündən sabaha necə baxaq biz?

Bəlkə borcumuzu ödəsin deyək
Bizim yerimizə nəvələrimiz?

Yanmağı bacardıq, yanmağı yalnız
Suallar önündə nədir bu lallıq?
Biz öləndən sonra övladlarımız
Görən, verəcəkmi bizə halallıq?

*Dekabr 1999*

## QIFILLAR

*«Yerli camaat hətta gecələr belə qapısını bağlamaz. Mal-mülkünə gözətçi də qoymaz. Sonralar Rusiyadan Azərbaycana 17.710 ədəd qıfil gətirildi».*

**«Kavkazskiy kalendar», 1846, s.171**
**«İctimai əxlaq»**

Heç demə, lap çoxdan ruha da hopmuş
Göyün genişliyi, yerin iqlimi.
Hamının üzünə açıq olubmuş
Evimiz, qapımız qəlbimiz kimi.

Heç vaxt özümüzə qapanmadıq biz
Tək bir qibləyəydi hamının yönü.
Bizim dünya görmüş dədələrimiz
Bilmədi qıfılın nə olduğunu.
Qorxusuz, ürküsüz, azad yaşadıq
Bağımız çəpərsiz, qapımız açıq.

İç-içə, göz-gözə yaşadıq belə
Birinin dərd-səri hamının oldu.
Eşikdən eşiyə, eldən o elə
Nə çəpər qoyuldu, nə hədd qoyuldu.

Amal da bir idi, əməl də, dil də
Birlik qələbədir, birlik yenilməz.
Bağlar çəpərsizdi, heç vaxt könüldə
Haram çəpərini aşmazdı bir kəs.

Qəsbkar yurdumu qəsb edən kimi,
Mənim ənənəmi, törəmi dandı.
Saldı çərçivəyə azad dünyamı
Hüdudlar yarandı, hədlər yarandı.

Bilmədi, hər elin öz dünyası var
«Ağan mənəm» - deyə o, hökm verdi.
Açıq bağçamıza uca hasarlar,
Açıq qapımıza qıfıl gətirdi.
Bağlandı qapılar, bağlandı yollar
İlbəil çoxaldı dəmir qıfıllar.

Meyvələr dəyməmiş töküldü kal-kal
Bizə özümüzü unutdurublar.
Bir vaxt ayıldıq ki, qollara qandal,
Fikrə, düşüncəyə qıfıl vurublar.

Qovrulduq, gəlmədi arzumuz dilə
Təkcə canımızın hayına qaldıq.
Amma ölməmişdi ruhumuz hələ
Azadlıq eşqinə yandıq, yaxıldıq.

Bizə yol göstərən kəhkəşanların
Yaşadıq o gündən həsrətilə biz.
Başını kəsdilər Cavad xanların
Qaldı bədənimiz başsız, beyinsiz.

Qəsbkar o qədər bizi əzdi ki,
Ruhun kamanına biz gərilmədik.
Gerçəyi görsək də, dilimizdəki
Paslı qıfılları aça bilmədik.

Qara tül çəkdilər gözlərimizə,
Qolları zəncirsiz bir qula döndük.
Elə tələ qurdu qəsbkar bizə,
Biri-birimizçün qıfıla döndük.
O qızıl əsrlər qaldı geridə
Hünərcə kiçildik, boyca qısaldıq.
Bağçalar bir yana, qəbirləri də
Dəmir məhəccərə, hasara saldıq.

Babalar duyurmuş düşündük bəlkə,
Bədbəxt nəvələrin dərdi-sərini.
«Onlar məzarından qaçmasın» - deyə
Biz saldıq hasara qəbirlərini.

Qıfıllar, qandallar hələ bir yana,
Təzə güdükçülər çıxdı meydana.
O köhnə nizamlar tamam pozuldu
Baxdım, qula dönmüş pəhləvanlara.
Dönüb cangüdənə, güdükçü oldu
Canı bir quruşluq ölü canlara.

Qıfıl altındadır ürəklərimiz
Axı, qıfıl hara, azadlıq hara?
Nədir əlacımız, bəs neyləyək biz
Hardan açar tapaq bu qıfıllara?

Düşünən beyinlər, axı, qul təki
Bu zülmə, vəhşətə səbr etməzdilər.
Hər kəs öz qəlbində dilimizdəki
Dəmir qıfıllara açar gəzdilər.

Tarixə baş vurduq, qədim kitablar
Bizə göstərmədi hardadır o haqq?
Aradıq, axtardıq, qaldıq çar-naçar.
Biz bircə mətləbi bilmədik ancaq:
Bütün qıfıllara düşməz bir acar
Axı, hər qıfılın öz açarı var.

*Dekabr 1999*

## İÇƏRİŞƏHƏRƏ AĞI

İçərişəhərim, sənə nə oldu?
Bayır şəhər oldun, hüsnün pozuldu.
Gəlmə tacirlərə biz satdıq səni
Ənliyə-kirşana boyatdıq səni.
Keçən əsrlərdən bu əsrə keçdin
Abidə şəhərim, sən adiləşdin.
Tarımar etdilər tariximizi
Bizim özümüzdən aldılar bizi.

Qala qapısında Hüseynqulu xan
Gəlməni qanına qəltan eylədi.
Bugünkü xanlarsa, o xandan qalan
Şəhəri gəlməyə qurban eylədi.

*Oktyabr 1999*

## AY DƏDƏ

*"Dədə" adlandırdığımızNurəddinin xahişi ilə yazdığım bu şeiri* ***Xudunun*** *xatirəsinə ithaf edirəm.*

Doldur qəlyanını, doldur, ay dədə
Hər qüllab bir fikrə yoldur, ay dədə.
Hər qüllab əvvəldə bir közərtisə,
Sonda qəlyanında küldür, ay dədə.

Gəl, keçək üstünü qalın ot basan
Dumanlı xatirə cığırlarından.
Xəyal qanadlansın, fikir durulsun
Xudulu günlərə baş alıb gedək.
Şirin xatirələr gəmimiz olsun
Biz də arxasınca sürünən yedək
Xudulu günlərə baş alıb gedək.

Xəyal qanadında uçdum keçmişə,
Bu günüm dünənlə gəldi döş-döşə.
Gördüm boşaldıqca ürək dolurmuş
Xatirə həyatdan şirin olurmuş.

Durma, qəlyanını bir yandır, dədə
Bu xaraba dünya, bu köhnə dünya
Verdiyi qədər də alandır, dədə.
Gah sənin başına o, siğal çəkər,
Gah səni ilan tək çalandır, dədə.
Birinci addımda enli bir küçə,
Yolun  ortasında dalandır, dədə.

Dünən Xudu vardı, bəs bu gün hanı?
Bu dünya binədən yalandır, dədə.
Bir anlıq sığalla aldadır səni
Bu dünya Allahın öz yuxusuymuş.
İnsan həyat bilir bu məzhəkəni
Özgə yuxusuna, gör, necə uymuş,
Bu dünya Allahın öz yuxusuymuş.

Bilirsən biz nəyik? Quru bir adıq.
Nurəddin, Bəxtiyar! Yoxluq kölgəsi!
Tanrı yuxusunda bir az oyandıq,
Sonra bu yuxunun kütah nöqtəsi!
Matəm deyilmidir sonu hər toyun?
Bitdi bu məzhəkə, bitdi bu oyun!
Dünyaya bir anlıq baxdıq aynadan.
Əbədi nə imiş?
                    Bizi oynadan!
Oynadıb,
        oynadır,
                    oynadacaqdır.
Oynayan zavallı elə bilir ki,
Allah yuxudadır, özü oyaqdır.
Sən yalan,
        mən yalan,
                    bu dünya yalan.
Oyundur,
        oyundur,
                    oyundur qalan!

Bir ömrün çiskinli dolaylarını,
Sevinc laylarını, qəm laylarını
Ölçməyi bacarmaz dünya arşını…

Dirijor çubuğu görünmür  gözə…
Amma tilsimiylə matəm marşını
Oyun havası tək çaldırır bizə.
Dədə, qəlyanını bir yandır görək,
Bu gülünc oyunu duyan hər ürək
Yuxudan bir anlıq oyanmaq istər.
Əgər yalandırsa, düzünü göstər!
Bu gur fikirlərin qoynunda hərdən
Gülürəm fələyin «kəramətinə».
Ayrılaq bu qara düşüncələrdən
O şirin günlərə qayıdaq yenə:

Mənim beş qarışlıq dar mənzilimdən
Dünyanın dərdləri gəlib keçərdi.
Çox vaxt qoşulardı söhbətimizə
Puşkinlər, Hüqolar, Mirzə cəlilllər.
Bəzən oturardıq lap sübhə qədər
Vətən qibləsinə səcdə qılardıq.
İçib keflənməzdik, biz ayılardıq.

Anıb o günləri həsrətlə hərdən
Bəzən düşünürəm: - Ay Allah,görən
O gözəl günlərin təlatümləri
Bir kiçik otağa necə sığardı?:.
Xudunun qəribə xisləti vardı…
Çox vaxt danışmazdı, elə susardı:
Onun sükutunun öz dili vardı.
Sükutun dililə dinlərdik onu.
İndi də hər saat göstərir bizə
O öz yoxluğunda var olduğunu.
Məhkum taleyilə bu əsir Vətən
Bizim qəlbimizi dəlib keçərdi.

Vətən qibləsinə səcdə qılardıq,
İçib keflənməzdik, biz ayılardıq.

Kiçik bir otağa necə sığardı,
Üç qəlbin tükənməz sözü,söhbəti.
Düzü, hövsələdən bəzən çıxardım
Əbədi sananda qanımızdakı
Süstlüyü,ləngliyi və ətaləti.
Onda gülümsərdi Xudu astaca
Deyərdi: - Bu dərdə baxma qənim tək.
Deyərdim: - Ay Xudu, sən on, mən beşəm,
Sən baxan zirvədən baxa bilmərəm.
Çox vaxt gülümsəyib Xudu susardı,
Onun sükutunun öz dili vardı.
Çox vaxt qarışmazdı söhbətimizə
Sükutun dilində dinlərdik onu.
İndi də hər saat göstərir bizə
O, öz yoxluğunda var olduğunu.

Balaca otaqda böyük dahilər
Bizim yanımızda dövrə vurardı.
Onların sözləri qəlbə nur çilər,
Bizə dərdimizi unutdurardı.
Bu zaman muğamı inildədərdik,
Ruhani dünyaya qonaq gedərdik.
Sevdalı qəlbimin həsrət dililə
Mən də muğam kimi inildəyərdim.
Dədə, yadındamı, onda deyərdim:
-Məqamı çatıbdır, doldur qəlyanı.
Əgər bacarırsan, saxla bu anı.
Saxlaya bilmədik…
ötdü o dəmlər.

Gəldi başqa rəngli başqa ələmlər.
Daha qocalırıq…
o vaxt gümanı
Həqiqət bilirdik diləyimizdə
İndi yalan olub gerçəyimiz də.
Bizim üçlüyümüz sacayağıydı.
Birimiz üç idik, üçümüzsə bir.
Zaman bu birliyə gör necə qıydı.
İkicə ayaqlı sacımız indi
Bircə üfürtüyə əsir, yellənir.

Biz o vaxt zamanın sərt rüzgarını
Xəyalda bəslənən günə calardıq.
Çəksək də dünyanın əzablarını,
Dərdin özündən də ləzzət alardıq.

İynə gözü boyda bir sevinci də
İndi özümüzə halal bilmirik.
Söylə, bu nə dərddir, dədə, ay dədə,
Nəyin bahasıdır bu hal, bilmirik.
Eniş-yoxuşuyla dağ çəkib bizə
Keçdi
sinəmizdən, keçdi bu dünya.
Yanğıya su səpən qəhqəhəmizə
O vaxt oyanardı yuxulu dünya.

Durma, qəlyanını bir yandır, dədə,
Bu xaraba dünya, bu köhnə dünya
Verdiyi qədər də alandır, dədə.
Sıxıldıq zamanın çərçivəsində
Bir bax, ömrümüzün bu zirvəsində

Dad getdi ağızdan, güc getdi dizdən
İşıq getdi gözdən,
talandır, dədə.

Nə gözəl gələrdi o dərdli günlər,
Onda ümid idi yaşadan bizi.
Yalnız ümid idi gözəl göstərən
Bizə o ağrılı günlərimizi.
Yoxdu aramızda nə kin, nə qərəz
Millət vahid idi.
Hardan gəldi bəs
Bugünkü soyuqluq, bugünkü yadlıq?
Onda ümid vardı, indi azadlıq!
Arzular çin oldu: Azadıq indi.
Ümidlər doğruldu: Azadıq indi.
Biri-birimizə biz yadıq indi.
Azadıq millətdə kin yaratmağa,
Biri-birimizə böhtan atmağa.
Azadıq, mənsəbə yetişmək üçün
Bu ana torpağı müftə satmağa.

Azadıq, zillətdə zora haqq verib,
Göydəki günəşi, ayı danmağa.
Azadıq gələnə qulluq göstərib,
Gedənin dalınca xoruzlanmağa.

Azadıq imandan, azadıq dindən,
Azadıq, açıqca rüşvət verməyə.
Azadıq, düşmənin qaçıb önündən,
Biri-birimizi didişdirməyə.
Belə anlayırıq biz azadlığı…

İndi ki, belədir, nə lazım bizə
Fikir azadlığı, söz azadlığı?
Biz hələ tayfayıq, tayfa bir yığın!
Tayfa azad oldu…
Bu azadlığın
Qızına bilmədik istisinə biz,
Yamanca kor olduq tüstüsünə biz.
İllərlə yolunu gözlədiyimiz
Azadlıq haqqa yox, zora işlədi.
Onun bu üzünü nə biləydik biz?
Xeyrə işləmədi, şərə işlədi.
O, qanad vermədi düşüncəmizə,
Gərək deyil imiş azadlıq bizə.

Azadlıq gərəkmiş onun yerini,
Onun mənasını dərk edənlərə.
Gərək deyil imiş əməllərini
Millətin gözünə görk edənlərə.

Yaxşı ki, bu günü Xudu görmədi,
Gündə neçə dəfə köks ötürmədi.
Gündə neçə dəfə bizimtək o da
Ölüb-dirilmədi bu boş dünyada.
Öldü tək bir dəfə, o ölən zaman
Yaxşı ki, ümidlə köçdü dünyadan.
Düşmən pəncəsində əsirdir Vətən,
Alışdı ürəyim yandı bu dərddən.
Dədə, qəlyanını bir yandır görək,
Köhnə duyğuları oyandır görək.
Bəlkə qəlbimizin sönə yanğısı
Dədə, yaman olur sinə yanğısı.

De, durma qəlyanı bir yandır, dədə,
Sıxıldıq zamanın çərçivəsində.
Dad getdi ağızdan, güc getdi dizdən
İşıq getdi gözdən,
                    talandır, dədə.

Tənhalıq-müsibət, tənhalıq-zülüm!
Qorxusu indidən bağrımı yarmış.
Bir gün qapımızı döyəcək ölüm.
Mən əvvəl, sən əvvəl?
                    Nə fərqi varmış!
Beləcə, dünyayla halallaşarıq.
Amma qəlbimizdə bir təsəlli var:
Mahmudun* ömründə biz ki, yaşarıq…
Dədə, bu şərəfə badəni doldur.
Mahmud gələcəyə ən kəsə yoldur.

*Dekabr 1993*

*Şairin və professor Nurəddin Rzayevin nəvəsi.

## ŞÜKÜR

*Qardaşım Adəm Öcala*

Danışma qardaşım, danışma, kiri!
Mənə xatırlatma ötən günləri.
Hər yaşın öz dərdi, öz nisgili var,
Bir ömrün yüz qəmi, yüz nisgili var.
Uşaqlıq illərim yada düşəndə
Yaman kövrəlirəm sənin tək mən də.

Özümdən yüz dəfə ağırdı dərdim
Qanatma könlümdə yara yerini.
Öz çəkməm yox idi, o vaxt geyərdim
Atamın çox iri çəkmələrini.

Hələ uşaq ikən dözdüm hər şeyə,
Daddım acısını on yaşlı ömrün.
-Mənə də təzə bir çəkmə al, - deyə
Yamanca təpindim anama bir gün.

Belə məqamlarda o yazıq mənə
Təsəlli verərdi çəkmə yerinə.
Həsədlə baxardım, mənsə, dostların
Par-par parıldayan çəkmələrinə.
Bir gün qəzəbimi soyudum deyə,
Anamla savaşıb çıxdım küçəyə.

Beş addım getməmiş birdən dayandım,
Bayaqkı hirsimi anıb utandım.

Ayaqsız bir uşaq çıxdı qarşıma,
Özümü dünyanın xoşbəxti sandım.
Bir çəkmə dərdinə mənim tabım yox,
Dünyanın nə qədər yaxşı-pisi var.
Mənim ayağım var, ayaqqabım yox,
Onun nə ayağı, nə çəkməsi var.

İndi gileylənim mən kimdən kimə?
Mən də dərd çəkirəm, o da dərd çəkir.
İndi dərdmi deyim mən öz dərdimə?
O dərdin önündə mənə min şükür!

Sən ey ayaqqabı dərdi çəkən kəs,
Ayağı olmayan, de, neyləsin bəs?

*Oktyabr 1997*





# HƏSRƏT NƏĞMƏLƏRİ



*Yanıram, sinəsi cadar yer kimi*
*Bir içimlik suyu mən hardan alım?*
*Bir sığala həsrət yetimlər kimi*
*Onun yanındadır fikrim, xəyalım.*

## BU VƏHDƏTDƏ

Sən mənim özümsən, mən sənin özün,
Yox imiş arada bir sərhəddimiz.
Göstərən güzgünün, görünən üzün
Fərqini görmədik bu vəhdətdə biz.

*May 1991*

## MƏSAFƏDƏ MƏSAFƏSİZLİK

Səndən məsafəcə çox uzaqdayam,
Sən dəniz yanında, mənsə, dağdayam.
Bu uzaq məsafə aranı qırmır,
Gülüm, səni məndən, vallah, ayırmır.

Əksin gah solumda, gah sağımdadır,
Səsin səhər-axşam qulağımdadır.
Yarpaq pıçıltısı adını çəkir,
Baxışın yüz yerdən mənə göz dikir.

Belə istəyirəm, belə mən özüm,
Görmək istəmirəm sənsiz kimsəni.
Yatıram, elə ki, yumulur gözüm,
Şirin yuxumda da görürəm səni.

Arzumun başına dönüb – dolanmaq
Adi vərdişimdir…
Nə imiş anmaq?
İşıq sürətindən min dəfə tezlik!
Sevmək - məsafədə məsafəsizlik!

*İyul 1991*

* * *

Bu xislət, bu qaş-göz, bu üz, bu ünvan
Dedim, bir kimsədə heç ola bilməz.
Mənim ürəyimə bu qədər yatan
İkinci birisi doğula bilməz.

İztirab o qədər, dözüm bu qədər,
Bu boyda sevdaya könül də dardı.
Bu qədər əzaba dözən ürəklər,
Vallah, daş olsaydı çoxdan sınardı.

Bizi sındırmadı bunca əzablar,
Dərdin ağrısı var, amma səsi yox.
Biz dözdük, səbrimiz, iradəmiz var,
Sevginin səbri yox, iradəsi yox.
Bu necə oldu ki, o da sınmadı?
Yolundan bir zərrə o, yayınmadı?

Çünki can atmadıq biz heç sahilə,
Ümidi arzuya bir ada bildik.
Bu böyük sevgini mən vəfam ilə,
Sənsə dözümünlə… yaşada bildik.

*İyul 1991, Şəki*

## GÖZLƏMƏ SALONU

Sənə şirin-şəkər diləyimizdən
Səadət sarayı tikdirmişəm mən.

Sevib-sevilməyi bacarmayanlar
Gendən bu saraya baxıb qısqanır.
Gülüm, otaqlara baş vurmayanlar
Səni, həqiqətən, bəxtəvər sanır.

Sənə həsəd çəkən dostun, düşmənin
Bilmədi, intizar göz dağın oldu.
Gözləmə salonu sarayda sənin
Ən gözəl, ən böyük otağın oldu.

*Avqust 1991, Şəki*

## SƏN, SƏNSƏN ANCAQ

Gördüyüm yüzlərlə qadınlar kimi
Nəşəli, kədərli, adi qadınsan.
Sən də onlar kimi, lap onlar kimi
Şəkərli, zəhərli, adi qadınsan.
Könlümü gözümdən bilənsən, ancaq,
Sən, sənsən ancaq.

Hamı tək sənin də qışın, yazın var,
Enişin, yoxuşun, çoxun, azın var.
Hamı tək sənin də öz ömür yolun,
Ağrılı, ağrısız alın yazın var.
Ağrını kimsəyə deməyən gülüm,
Sevinci hamıyla bölənsən ancaq.
Sən, sənsən ancaq.

Bilirəm, sənin də başqaları tək
Min qayğın, min dərdin, min bir qəmin var.
Güllərdən şirələr çəkən arı tək
İdrak dünyasında öz aləmin var.
«Öl» - desəm, mənimlə ölənsən, ancaq.
Sən, sənsən ancaq.

Minlərdən birisən başqalarıyçün,
Mənimsə minlərdən seçilənimsən.
Bilirəm, dünəndən daha çox bu gün
Mənim hər dərdimi sən bölənimsən.

Axan göz yaşımı silənsən, gülüm.
Sən, sənsən, gülüm.
Dayaqsan, mayaksan dərdli qəlbimə,
Bənzədə bilmirəm səni heç kimə.

*Avqust 1991, Şəki*

## HARAY

Muğam, qurban olum sənin yanğına
Bu odu, yanğını hardan almısan?
Sən nəsən?
Bilmirəm nə deyim sənə?
Yuxumu, gerçəkmi, ya xəyalmısan?

Səsin könlümüzə dolur gizlincə
Bağlayır bu günə dünənimizi.
Gözə görünməyən bu səslər necə,
Necə göz görəsi yandırır bizi.

Bilmirik ürəyə nə zaman keçib,
Bir də görürük ki, öz hökmündədir.
Gözə görünməzin, qulaqdan keçib
Canda oyatdığı bu tufan, nədir?

Bu tufan söz açır könlümə Ondan.
Durur göz önümdə boyu, qaməti.
Səslərin ən zərif boyalarından
Boylanır üzümə onun surəti.

Muğam, qurban olum sənin yanğına
Yandır ürəyimi, qandır ağlımı.
Min cığır görünür könüldən ona
Ürəyi sındırma, sındır ağlımı.

Öz könlüm mərd olsa namərdim olmaz,
Dərd məni öldürsə bir dərdim olmaz.

Bu gün xəzan vuran bağ kimiyəm mən,
Bir yetim sövdanın sitəmiyəm mən.

Yanıram, sinəsi cadar yer kimi
Bir içimlik suyu mən hardan alım?
Bir sığala həsrət yetimlər kimi
Onun yanındadır fikrim, xəyalım.

Burdakı səliqə dərdim, qəmimdir,
Ordakı toz-torpaq ziynətdir mənə.
Burdakı sərinlik cəhənnəmimdir,
Ordakı istilik cənnətdir mənə.

Kədərdən damğalı, möhürlü səslər
Təpədən dırnağa qəm şəlaləsi!
Bu sehirli səslər, bu sirli səslər
Onun naləsidir, onun naləsi!

Haray çək dərdimə, Muğam, haray çək,
Bu sınıq könlümə bir az sığal çək.
Bulanıq fikrimi səsin duruldur,
Sən onun ruhunu ruhuma doldur.

Mən də onun kimi düşünüm, haray!
Haray, qibləm haray, öz yönüm haray!
Ürəkdən dönəli döndüm özümdən,
Ağıldan ürəyə bir dönüm, haray!

*Avqust 1992, Şəki*

# ƏVƏZİM

İllərlə arxanca gəzdim, dolandım.
Qaçarın mənəmsə, uçarım sənsən.
Səndədir «Sim-simim», sirrim, tilsimim,
Mən bir kilidəmsə, açarım sənsən.

Saxsıyam, gövhərəm, bilmirəm nəyəm,
Məni çox bahaya alanım sənsən.
Taram, kamançayam, kamanam, neyəm
Məni dilləndirib çalanım sənsən.

Səndə ərimişdim, səndə doğuldum,
Diləm, əvvəl sözüm, son sözüm sənsən.
O qədər səninlə həmahəng oldum,
Harda mən yoxamsa, əvəzim sənsən.

*İyul 1992, Şəki*

## FİKİRLƏRİN TÜNLÜYÜNDƏ

Fikirlərin tünlüyündə
Gedə-gedə yol azmışam.
Mən qazanmaq həvəsində
Mayamı da uduzmuşam.

Niyə çaşdım, nədə çaşdım?
Can evimdən uzaqlaşdım.
Gümanım yox sabahıma,
Uduzmuşam günahıma.

Düşmən olub indi məni
Hədələyir xatirələr.
Öz əlimlə öz başıma
Od ələyir xatirələr.

Səbr elədim, kömək umdum,
Bu təmkindən, bu dözümdən.
Fikirlərin haçasında
Axır küsdüm öz –özümdən.

Ən ağrılı günlərimdə
Güman yeri mənə sənsən.
Bu gün məni öz-özümlə
Barışdıran yenə sənsən.

*Avqust 1991, Şəki*

## SEVGİ QOCALMAZ

Ömrün qış fəslidir, rüzgar qan ağlar,
Viranə bağlara bənzərimiz var.
Aləm döndərsə də üzünü bizdən,
Biz üz döndərmədik bir-birimizdən.
Torpaq buludlardan yağış uman tək
Sən mənə gərəksən, mən sənə gərək.
Sən də qocalmısan, mən də… Bu haqdır,
Hər kəs aldığını qaytaracaqdır.
Gerçək olan yerdə bir də «bəlkə» var,
İşıq olan yerdə mütləq kölgə var.
Amma nur üstünə nur kölgə salmaz,
Sevgili qocalar, sevgi qocalmaz.

*Mart 1995*

## XOŞUNA GƏLDİMİ?

Qılınc tək sıyrıldı ayrılıq yenə,
Məndən uzaqdasan, məndən gendəsən.
Əslində, daha çox yaxınsan mənə,
Çünki sən arzumun ölkəsindəsən.
Xoşuna gəldimi sənin o yerlər –
Yamyaşıl qübbələr, göy minarələr?

Xoşuna gəldimi əsmər bənizlər,
Sarışın qadınlar, yaşılı gözlər?
Öz ana dilində şirin ləhcələr,
Nəzakət, xoş rəftar, nələr, ah nələr.
Kim deyir bu ulus bizə özgədir?
Bizim qanımız da, canımız da bir!

Sənə bir zamanlar o məmləkətdən
Nağıllar danışar, istərdim ki, sən
Ancaq mənim kimi sevəsən onu,
Nəhayət, biləsən kim olduğunu.
Onda bülbül kimi ötərdim dil-dil,
Sənin ürəyinə yollar açardım.
Əslində, mən sənə o yurddan deyil,
O yurda sevgimdən söhbət açardım.
Bəzən düşünərdim baxıb çöhrənə
Bəlkə ürəyində gülürsən mənə?
Dilin təsdiq edir, qəlbin susurdu
İndi öz gözünlə gördün o yurdu…

Xoşuna gəldimi?
                    Yox! Danışma, dur!
Onunku deyildir gördüyün qüsur.
Əgər görmüsənsə, sən aldanmısan.
Yəqin ki, yaxşını yaman sanmısan.
Qüsur özündədir, gülüm, sən ancaq
Leyliyə Məcnunun gözləriylə bax.

*Yanvar 1996*

## SƏS

Eyni cümlələri, rəngsiz sözləri
O qədər eşitdik söz, səsə döndü.
Səs-küy çamurunda çiməndən bəri,
Dünya mənim üçün qəfəsə döndü.

Səs var, mismar çaxır sanki beyninə
Səs var, ürəyində işıq yandırır.
Səs var, ha bağırsın, gəlmir eyninə
Səs də var, ruhunu qanadlandırır.

Bir səs tanıyıram, yox, o, səs deyil
Ömrümcə uzansa, yenə bəs deyil.
Eşitmək istərəm o dünyada da…
Əvvəli bir sual, sonu üç nida!

O səsin sualı nidadan ötkəm,
Ricası – əmrdir, əmri– yalvarış.
Əmrini ricadan seçə bilmirəm,
İki qütb arası, vallah, bir qarış!

İstədim o səsdə çözəm rəngləri
Bilmədim qara nə, boz nə, ağ nədir.
Səsin tilsiminə düşəndən bəri
Bir şeyi anladım: yaşamaq nədir.

Açır ürəyimdə o çiçək-çiçək
O səsin oduna dağlanmışam mən.

O səsin telilə Allah əmri tək
Bu vecsiz dünyaya bağlanmışam mən.

Sən ey səs sahibi, de, bu səs nədir?
Elə bil ayrıdır sözün, səsindən.
Fitrətin – səsinin ahəngindədir,
Bəlkə yaranmısan özün, səsindən?!

Səsindən süzülən nur, gilə-gilə
Acı sözlərinə başqa rəng verir.
Səsinin şəkəri, şirinliyilə
Sözünün zəhrini şəkərləndirir.

Səsin haçalanır, səsin tellənir,
Biri bəmə enir, biri zillənir.
Ürəyə sancılır o zillənən səs,
Ruha sığal çəkir bəmə enən səs.

Hər yerin gövhəri, sədəfi başqa,
Sarı sim «sus» - deyir bəzən ağ simə.
Sözünlə səsinin hədəfi başqa,
Sözün ağlımadır, səsin qəlbimə.

*Avqust 1995, Şəki*

* * *

Dostsan mənə, yalnız özünə sanki qənimsən.
Mən heç də sənin olmamışam, sənsə mənimsən.
İlkim nə idi, mən kim idim, indi kim oldum?
Sən kimsən, əzizim? Məni sən «mən» edənimsən.

*İyun 1995*

* * *

Eşqin odu, keçmişdə deyirdin ki, vüsaldır.
Bitmiş o vüsal, eşq uzanır, bəs bu nə haldır?
Sönmüş o həvəs, köhnə diləklər unudulmuş,
Hicran niyə bəs indi vüsaldan şirin olmuş?

*İyul 1995*

* * *

Hissin öyrətdi mənə nəşədə nə, qəmdə nə var
Mənə sən vermisən ilk öncə könül ləzzətini.
Səni görməzsə gözüm, bilmərəm aləmdə nə var
Mən ki qoynunda sənin gördüm həyat cənnətini.

*İyul 1995*

## UZAQDAN

Sən getdin, boşaldı dünya mənimçün.
Nə qədər çox imiş bir nəfər, Allah.
Yaman gec batırmış, demə, qışda gün.
Ömürdən uzunmuş gecələr, Allah.

Sən getdin, könlümə yağdı qar, sazaq.
Məni mən elədi bu sitəm, gülüm.
Mən sənin yanında özümdən uzaq,
Səndən uzaqdasa özüməm, gülüm.
Həsrət hökm edəndə özümlə birgə
Özümə qayıdır şairliyim də…

Min qatı, min layı varmış fitrətin
Ürək öz-özünün durur qəsdinə.
Təkcə eşqin deyil. Sənin həsrətin
Mənim özümü də tanıdır mənə.

Mənimçün daha çox var olur nədən
Yoxluqda varlığın…Məhəbbət bumu?
Yanımda yoxsansa, bu yoxluqda mən
Bildim özümün də var olduğumu.

Özüm də bilmirəm hara yozum mən
İnsanın çözümsüz bu adətini.
Ovcunun içində görə bilməyən,
Uzaqdan görərmiş səadətini.

*Yanvar 1996*

## DOQQUZ GÜN

Həsrətin sonuna doqquz gün qalıb,
Nə zaman bitəcək bu müddət, görən?
İndi mənim üçün zaman qocalıb,
Həsrətə borc verib öz sürətindən.

Həsrət məqamında vaxtın, zamanın
Düzgün axdığına inanmıram mən.
Zaman qocaldıqca taqətdən düşür,
Taqətdən düşdükcə sürətdən düşür.

Ayrılıq qəmindən səndəmi bezdin?
Vallah, inanmıram…qəm daşdan keçər.
Sən orda beşcə gün qala bilməzdin
Mənim çəkdiyimi çəksəydin  əgər.

Həsrət bir ürəyə iz salıbdısa,
Vaxt da onun üçün çıxar yolundan.
Səninçün nə qədər qısalıbdısa,
Mənimçün o qədər uzanıb zaman.

Bu çətin duyumu çözdüm qatbaqat,
Gördüm axarında su durulurmuş.
Özündən qaçana gördüm ki, övlad
Sevdiyi adamdan yaxın olurmuş.

Ayın on ikisi… o bayram günü
Nə zaman gələcək, nə zaman, Allah?
Vaxt öz axarında… Vaxtın ömrünü
Mənim həsrətimdir uzadan, Allah.

*Fevral 1996*

## SƏS-SÖZ

Səsini eşitdim, bu səs, səs deyil.
Demə, səs çiçəklər, səs güllənərmiş.
Səsin dediyinə söz əvəz deyil,
Səs də şəkillənər, heykəllənərmiş.

Bu səs cilvələndi, bu səs nur oldu,
Yatan duyğuları oyatdı birdən.
İçimdə bulanan sular duruldu,
Üfüqdə elə bil dan atdı birdən.

Sözün sərhəddi var, səsin həddi yox,
Kütləsi, həcmi yox, boyu, qəddi yox.
Sözlər qəlibdədir…Bu dağ, bu aran,
Bir «könül» sözünün bir mənası var.
Səsinsə bu sözə heç uyuşmayan
Bir başqa çaları, təmənnası var.

Səsin boyasını çəksən dağlara,
Səsin ahəngində dağ, aran olar.
Çalarda, boyada bəzən ağ – qara,
Bəzən də qaranlıq çıraqban olar.

Söz-aydın, səs – sirli, gah sevinc, gah qəm,
Səsin nüvəsinə nəsə bükülmüş.
Sözlə deyilməyən ən gizli, məhrəm, -
Ən dərin duyğular səsə bükülmüş.

Könlüm təzələndi yenə bu səsdən,
Bu səs mənim üçün faş olan deyil.
Neyləyim, bu səsin sehrindəyəm mən,
Bu səsin tilsimi açılan deyil.
Bu səs izlər məni gecəbəgündüz,
O, gah çağrış olur, gah ən şirin söz.

*İyun 1994*

## BARIŞDIRAN

Sən olmayan yer də məkansızlaşır
Mənimçün məkana sığmayan zaman.
Sən olduğun məkan zamansızlaşır
Zamanla məkanı barışdıransan.

Sən varsan, xaraba dönər gülşənə,
Başımın üstündən çəkilər duman.
Sən varsan, yaman da yaxşıdır mənə,
Yaxşıyla yamanı barışdıransan.

Dönür bir cəhətə sənlə dörd cəhət,
Zülmətin bağrını, vallah, yaransan.
Eşqdən göyərir vicdan, mərhəmət
Mələklə şeytanı barışdıransan.

Cəhətlər, qütblər arzuna təndir,
Hicranda vüsalsan, vüsalda hicran.
Səninlə qürbət də mənə vətəndir,
Qürbətlə vətəni barışdıransan.

Həsrətin atəşi od salar cana,
Eşqinin naminə dünyanı dansan.
Səninlə arzular dönər imkana,
Arzuyla imkanı barışdıransan.

Sənin öz qəlbində dönüb bir anda
Mənimçün həmişə doğrulur yalan.
Sən görüb haqqını lap haqsızın da
Gerçəklə yalanı barışdıransan.

*Avqust 1996*

* * *

Hər kəsin qədəri, qisməti min-min,
Sən hələ yox idin mən doğulanda.
Sən də mənim üçün dünyaya gəldin,
Mən varam, dünya var, belədir qayda.

Sən öz tilsiminlə keçirdin məni
Dünyanın dolama keşməkeşindən.
Necə yaşamışam ömrün ilkini
Sənin olmadığın bir dünyada mən?!

Mənə məramımı, mənə qayəmi,
Mənə kimliyimi bildirənimsən.
Salsam da üstünə mən öz sayəmi,
Mən sənin deyiləm, sənsə mənimsən.

*Avqust 1996*

* * *

Dedin, kitab yazmışam.
Çox mübarək!
Nədir bu?
Bir yaralı sevgiyə, yoxsa, abidədir bu?
Sənin
yetim sevginin fəryad çəkib qışqıran
Öz səsimi bu kitab?
Yoxsa, mənim könlümün aynasımı bu kitab?
İstərəm, o kitabda
mən nəyəmsə, kiməmsə,
görünüm olduğum tək.
Sevgi mücahidinə boya, riya nə gərək?
Orda görmək istərəm mən nəyəm, həm sən nəsən?
Mənmi sənə qibləyəm, sənmi mənə qiblısən?

*Avqust 1996*

* * *

Ayrıldıq, surətin itdi gözümdən,
Sandım, sifətini unutmuşam mən.
Bilmirəm bu nə sirr, yaxın-uzaqdan
Səsin qulağıma anbaan gəlir.
Fikrimə gəlmirsə surətin bir an,
Səsin qulağıma bəs hardan gəlir?
Yığıram bir yerə bəzən fikrimi,
Sifətin yadıma çox çətin gəlir.
Səsin qulağımda cınlayan kimi,
Gözümün önünə surətin gəlir.
Səsə bu qüdrəti tanrımı vermiş?
Səs də rəssam olub rəsm çəkərmiş.

*İyul 1996*

* * *

Mən öz işığımı səndən almışam,
Ayam, ayparayam, sən günsən, gülüm.
Ömrün hər pilləsi sənə bağlıdır,
Dünənsən, sabahsan, bu günsən, gülüm.

Sıxıldıq dünyanın məngənəsində,
Qovruldu sevgimiz el tənəsində.
Bilmədilər ömrün hər döngəsində
Mənə yol göstərən bir yönsən, gülüm.

Sən eşqin dəlisi, mən eşqə qurban,
Biz ondan asılı, o, bizə sultan.
Eşqin – öz Leylindir, Leylisiz bir an
Yaşaya bilməyən Məcnunsan, gülüm.

Qəlbinə baş vurar, axı, kim sənin?
Açarı kimdədir bu xəzinənin?
Hər gün bir yönünü kəşf etdim sənin,
Təpədən dırnağa məzmunsan, gülüm.

*Avqust 1996*

* * *

Gəldik İlisuya, mən nahaq yerə
Düşündüm, dünənim silinib yaddan.
Mən hardan biləydim, cansız xatirə
Min dəfə güclüymüş canlı həyatdan.

Nə oldu? Üstümə sumu ələndi?
Gözümə tor gəldi naqəfil mənim.
Səninlə olduğum İlisu kəndi
Başıma dolandı elə bil mənim.

Bu yaşda itirdim, yoxsa, qibləni?
Mən bura məqsədsiz, yönsüz gəlmişəm.
A dağlar, a daşlar, əfv edin məni,
Sizin yanınıza Onsuz gəlmişəm.

Bu dağlar andırıb mənə çox şeyi,
Batdı tikan kimi gözümə, vallah.
Axı, bu yerlərə Onsuz gəlməyi
Necə rəva bildim özümə, Allah?

Bağışla sən məni, günahkaram mən
Sənsiz dinləyirəm dağlardan enən
Kürmüyün yanıqlı qıjıltısını,
Otların ahəstə pıçıltısını.

Haraya baxdımsa gördüm çöhrəni,
Çıxdı bulud kimi tüstü təpəmdən.

Mən dəmə gəlmişdim, asdılar məni
Sənsizlik ipiylə o gizli qəmdən.

*Avqust 1996*

## NİYƏ ƏSİRGƏDİN?

Məktub gözləyirəm səndən mən hər gün,
Susursan…Qulağım, axı, səsdədir.
Onsuz da qaradır dünya mənimçün,
Bəs, onu bir daha qaraltmaq nədir?
Sevincim bir şirin sözə bənd ikən,
Niyə əsirgədin sən onu məndən?

İndi mənim üçün dayanıb zaman,
Tütün tək bükülüb siqara dünya.
Siqar tüstüsündən, könül ahımdan
Qaralıb onsuz da bu qara dünya.

Vallah, indi mənim Bakıdan əsən
Yeldən də bir xəbər uman çağımdır.
Sənin rahatlığın, sənin dincliyin
Tanrıdan yeganə umacağımdır.

Qırx illik günahı əfv etmək üçün
Bir günün savabı bəs olur bəzən.
Mənim ürəyimi dincəltmək üçün
Yazmaq çətindirmi öz dincliyindən?

Özün bilirsən ki, bu qara torpaq
Dözəmmir istidə su qıtlığına.
Mənim rahatlığım möhtacdır ancaq
Sənin dincliyinə, rahatlığına.
Sevincim bir şirin sözə bənd ikən
Niyə əsirgədin sən onu məndən?

*Avqust 1994, Şəki*

## RÖYA - HƏYAT

Biz hardan cücərdik, nədən göyərdik?
Həyat bir toxumdan, bir tumdan keçir.
Biz nəyi əkdiksə, onu da dərdik,
Mənim röyalarım arzumdan keçir.
Arzunu yuxuda gerçəkləşdirən
Xəyal dünyasının yolçusuyam mən.

Röyamda həmişə gördüm dərini,
Bu sirrin dizinə baş qoyan mənəm.
Yüz illik bir ömrün nəşələrini
Tək bircə röyada yaşayan mənəm.

Özü öz içinə sığışmır insan,
Arzunun bir üzü, qəsdin min üzü.
Min dəfə şirinsə röya həyatdan,
Bəlkə bir röyadır həyatın özü?

Arzular hüdudsuz, duyğular çılğın,
Dondura biləydim vaxtda zamanı.
Nağıla bənzəyən röyalarımın
Odur, yalnız odur baş qəhrəmanı.

Yanılıb kiçiltdim o Laməkanı,
Hər yerdə görünən bir gerçək odur.
Nağıl röyaların həm qəhrəmanı,
Həm də yaradanı Odur, tək Odur.

*Avqust 1996*

## HƏR YENİ ŞERİM

Təqvimdən üzümə baxan günlərin,
Hər biri könlümdə bir qara xaldır.
Sənə həsr etdiyim hər yeni şerim,
Hicranın ömrünü bir gün qısaldır.

Vüsal orucuyam dərdi-sərimlə
İftarı gözlərəm… ləngiyir zaman.
Orucum pozulur, şerlərimlə,
Həsrətin ömrünü qısaldanda mən.

*İyun 1996*

## BİR NƏĞMƏ DİNLƏDİM

Bir nəğmə dinlədim, pərişan oldum
Bu necə nəğməydi, bu nə atəşdi?
Əriyib nəğmədə mən şan-şan oldum,
İlk bəxtim, ilk eşqim yadıma düşdü.

Hardasan, hardasan ilk eşqim mənim?
Əlimdən kim aldı səni, kim, mənim?
Nə gözəl səslənir nəğmədə sevgim,
Sevgi də nəğmədir, nəğmə də sevgi.

Məhəbbət oxuna dolanır aləm,
Başqa hər nə varsa, yalan, ağ yalan.
İndi nə sən sənsən, nə də mən mənəm,
Təkcə sevgimizdir dəyişməz qalan.

Saçımız ağarmış, ömür gödəlmiş,
Bir sevgi yüz illik ömrə bədəlmiş.
Ömür sona çatır, o, sona çatmır,
Sevgi həm axırmış, həm də əzəlmiş.

Könlümdə bir həzin nəğmə bəstələr
Məni haraylayan bir çağrış səsi.
Məni keçmişimə qaytarmaq istər
Uzaqda oxunan sevgi nəğməsi.
Qar yağıb üstünə ötən illərin,
O yolla geriyə qayıtmaq çətin.

*Avqust 1997*

## ZİRVƏYƏ ÇATDIQ

Həyatın qatbaqat pillələri var
Hər təzə pillədə dəyişir insan.
Bitdi aramızda giley-güzarlar,
İndi mən də başqa, sən də başqasan.

Mən sənə yol oldum, sən mənə qurban,
Biri-birimizə əvəzsiz olduq.
Soyunub dünyanın qayğılarından
Yamana, yaxşıya qərəzsiz olduq.

Zaman törpülədi bizi ilbəil,
Sən özün-özünçün tam unuduldun.
İndi öz nəfini, haqqını deyil,
Tək mənim haqqımı düşünən oldun.

Mən də başqa yöndə, başqa sindəyəm,
Şıltaq tələblərdən ötüb, yan olduq.
Mən sənin ömrünün keşiyindəyəm,
Sən məni, mən səni qoruyan olduq.

Eşqin yollarında mövlalar keçən
Kolları adlayıb, yolları keçdik.
Çiydik, fitrətdəki birliyimizdən,
Eşqin atəşində yandıq və bişdik.

Dünyanı öyrətdi əzablar bizə,
Nə idik, kim idik, indi kim olduq.

Həyat məktəbində bir-birimizə-
Sən mənə, mən sənə müəllim olduq.

Xamdıq… Biz əvvəllər belə deyildik.
Sanırdıq hər şeyi ancaq özündə.
Keçib əzablardan biz tapa bildik
Mən səni özümdə, sən məni səndə…

Artıq çox uzağıq qərəzdən, kindən,
Biz öz dünyamızda dünya yaratdıq.
Ağılla hisslərin birləşməsindən
Sevgi dünyasında zirvəyə çatdıq.

*Avqust 1997*

## İŞIQ SÜRƏTİ

Xəyalım yenə də öz səfərində,
Onun söykək yeri dərdim, məlalım.
Anın yüzdə biri, mində birində
Ərzin o başına uçur xəyalım.

Məsafə yox olur göz qırpımında,
Uçan xəyalımın kəramətindən…
Bir də baxıram ki, Onun yanında
Diz-dizə, üz-üzə oturmuşam mən.

Xəyal məsafəni yox edib keçir,
Bəs Ona hardandır işıq sürəti?
Bir anın içində əridib keçir
O, həm məsafəni, həm də həsrəti…

İşıqla doludur sevən könüllər,
Tutuşar, alışar o, axşam-səhər.
Sevgiyə mərhaba, sevgiyə alqış!
Çıraq da nurunu gur seldən alır.
Xəyal bu sürəti sevib alışmış
İşıqla süslənmiş könüldən alır.

*İyul 1997*

## ÜZ BAŞQA,
## ÖZ BAŞQA

Elə ki, ayrıldıq, sən yanımdasan
Görürəm başımın üstdə kölgəni.
Səninlə göz-gözə olduğum zaman
Üzünü görürəm, görmürəm səni.

Üz başqa, öz başqa, üzün sən deyil,
Özlüyün üzündən görünən deyil.
Bu da bir arzudur, bu da bir həvəs,
Mənə qəlbindəki sonu görünməz
Buludsuz, o dərin öz göyün gərək,
Mənə üzün deyil, özlüyün gərək.

Özüm də bilmirəm niyə tərs kimi,
Ömür məktəbində həyat dərsimi
Fəhmdən götürdüm, hissdən götürdüm,
Qismət paylananda mən seçdim qəmi.
Üz-üzə baxanda üzünü gördüm
Özünü görürəm  ayrılıq dəmi.

*Avqust 1998*

## SEÇƏK TÜKDƏN TÜKÜ

Həyatın amansız təlatümləri
Səni silkələdi, yıxa bilmədi.
Uşaqkən tapdığın o iman yeri
Səninçün heç zaman dəyişilmədi.
Bir oldu əqidən, bir oldu andın,
Bütün ömrün boyu ona inandın.

Ölçüsü, həddi var dəyanətin də
Sürü qayıdanda arxa ön olmuş.
Sənin cilalanmış məhəbbətində
Min üzün olmamış, bir üzün olmuş.
Gəl, gəl ömrümüzün bu axşam çağı
Seçək tükdən tükü, qaradan ağı.

Biri-birimizə haqq-hesab verək
Boyasız, riyasız könül səsiylə.
Bu gün mənim sevgim ölçülsün gərək
Sənin dözümünün dərəcəsiylə.

*İyul 1998*

## NAĞILIM GƏLSİN

Nə oldu bilmirəm, mənə nə oldu?
Özüm özüm ilə hər gün güləşdim.
Könül gah bulandı, gah da duruldu,
Axırda özümə biganələşdim.

Ən şirin arzular düşdü gözümdən
Dünya o dünyadır, mənmi qocaldım?
Yarışdı ruhumla cismim… özümdən
İrəlimi keçdim, gerimi qaldım?

Qocalıq qapımı vaxtsız döyüncə,
Zamandan dərsimi götürdüm, haray!
Ağlım ürəyimi üstələyincə,
Bu dolu dünyanı boş gördüm, haray!

Sevgidən savayı hər şey ağ yalan!
Onu itirdinsə, dünyan dağıldı.
Məhəbbət – həmişə təptəzə qalan
Köhnə rəvayətdi, köhnə nağıldı.

Həyat cəhənnəmə dönər ürəksiz
Yaşayıb sevməsə, insan insanı.
Hamımız olmuşuq, oluruq şəksiz
Bu şirin nağılın baş qəhrəmanı!

Elə ki, ağlımın quluna döndüm,
Getdi şücaətim, qəhrəmanlığım.

Üzülüb göylərdən yerdə süründüm
Ürək lağım-lağım, can dağım-dağım.

Ağlımın önündə başımı əydim
İçimdə boğuldü könlümün səsi.
Mən hardan biləydim, mən nə biləydim,
Eşqin getməsidir ağlın gəlməsi!

Eşqim, geri qayıt, könlümü yandır
Taqətdən salsa da, bu həyat məni.
Ey köhnə nağılım, getmə amandır,
Yenə əvvəlki tək, gəl, aldat məni.

Məni yaşadanım, ucaldanım, gəl,
Nağılım, geri dön, gəl, aldanım, gəl.

Açılmır ürəyim, açılmır eynim
Gəl, gəl, əzabımın ömrü gödəlsin.
Ruhumu öldürən bu ağlı neynim?
Qoy, məni yaşadan nağılım gəlsin.

*İyul 1999*





# QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR

*Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,*
*O, ürək sirrini insana varaqlar gecənin.*



* * *

Cənnət ola qürbət, yenə, vallah, Vətən olmaz
Qürbətdə şah olsan da, bir arzun bitən olmaz.

Əcdadımızın türbəsi torpaq – kökümüzdür,
Torpaqsız açan buğda dənindən də dən olmaz.

Kökdən aralandınsa, işin düşdü qəzaya,
İmdadına, fəryadına bir dəm yetən olmaz.

Elçin çəkilən hər bir əzab min çiçək açmış,
Yurdunda elin çəkdiyi zəhmət itən olmaz.

Yurd eşqi bütün sevgilərin tacıdır, əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

*Mart 1992*

* * *

Çağırır indi bütün milləti imdada Vətən
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.

Bizə meydan oxuyan bilməlidir birdəfəlik
Nə satılmaz, nə verilməz binədən yada Vətən.

Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən.

Vətən eşqindən ucalsın bütün istəklərimiz
Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.

Ulular uymadı var-dövlətə, yalnız dedilər:
-Ən böyük bəxşişimiz bizdən hər övlada: Vətən.

*Mart 1992*

* * *

Alqış vətən yolunda vuran güclü qollara,
Alqış bu yurd üçün döyüşən mərd oğullara.

Düşmən də yalmanar, gücə təslim olar, yəqin,
Millət bir olsa, bayrağı altında qeyrətin.

Biz haqqın oğluyuq, gücümüz haqdadır bizim,
Yollar əzablı olsa da, fitrətdədir dözüm.

Vurduq sitəmli illəri mərdliklə biz başa,
Amal yaşa, iman yaşa, millət yaşa, yaşa!

* * *

Ömrüm boyu mən qul kimi oldum sənə möhtac,
Allahını idrak üçün insan, dinə möhtac.

Hər şey dəyişib başqa şəkil alsa da, amma,
Cövhər ki, dəyişmir, dəyişən, əslinə möhtac.

Eşqim – mənim öz zatım idi, burdan ucaldım,
Səndin baharım, mən də bahar fəslinə möhtac.

İdrak üçün hərdən dala boylansa da insan,
Yüksəlmək üçün daima idrak önə möhtac.

Bəzən inamın üstdə düşür kölgə mühitdən,
Günsən, o qaçan kölgədə iman, günə möhtac.

Dinim, imanım haqqa yetirsin məni, yarəb,
Allahını idrak üçün hər kəs dinə möhtac.

*İyul 1993, Şəki*

* * *

Bu çökən zülmətə bax, sirrini saxlar gecənin,
Səhərim doğsa əgər, köksünü dağlar gecənin.

Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,
O, ürək sirrini insana varaqlar gecənin.

Səhərin rüzgarı əsdikcə güneydən quzeyə,
Ağaran saçlarını asta daraqlar gecənin.

İşıq istər bu könül, mən işığın möhtacıyam,
Sözüdür, söhbətidir göydə çıraqlar gecənin.

Bəxtiyarlıq nə imiş? Zil qara zülmətdə işıq!
İşıq olmazsa, müdam gözləri ağlar gecənin.

*İyun 1996*

* * *

Fərqlər yox olub düz ilə nöqsan arasında –
Çınqıl daş ilə ləl-bədəxşan arasında.

Tarix boyu insan can atıb məchula doğru,
İdrak durub aşkar ilə pünhan arasında.

Yerdən tor atır sonsuz olan göylərə idrak,
Çarpışmaya bax, sirr ilə insan arasında.

İnsan bu qədər güclü ikən yerdə rəzalət!
Sən sülhə bax, arif ilə nadan arasında.

Tərif ilə, təhrif ilə təhqir olunur haqq,
Guya yox imiş fərq, su ilə qan arasında.

Bu əsrdə saziş yaranıb əxlaqa qarşı,
İsmətli mələklə dəli şeytan arasında.

Əppək yerinə satma bizə sünbülü, nadan,
Buğda dayanıb unla dəyirman arasında.

Səhv harda imiş? Keçdi ömür, anladım artıq
Çarpışma bitib nəfs ilə vicdan arasında.

Ey Bəxtiyar, İsa kimi çarmıxda üzüldün,
Qaldıqca sən ağlın ilə iman arasında.

*İyun 1997, Şəki*

* * *

Dili lal, gözləri kordur, qulağı kar qapılar
Özü gen olsa da, istəklər üçün dar, qapılar.

Çözülür müşkülümüz rəsmi otaqlarda, fəqət
Üzünü haqlı təmənnalara bağlar, qapılar.

Sahibin vaxtı əgər yox isə bədbəxtlər üçün
Elə kandarda onun köksünü dağlar, qapılar.

Qapıdan incə təbəssümlə və arzuyla girib
Çölə ağlar çıxanın halına ağlar, qapılar.

Nə bilək gizli otaqlardakı həngamələri,
Bizə naməlum olan sirləri saxlar, qapılar.

Qapılardan qovulan boynu bükük bəndələrin
Ahı dəhşətli olur, ah ilə laxlar, qapılar.

*İyun 1998*

* * *

Zülmün sonu yox, haqq unudulmuşmu, ilahi?
Dünyada ədalət yasaq olmuşmu, ilahi?

Dillərdə yalan, amma könüllərdə həqiqət
Haqq zalimə, düz əyriyə qulmuşmu, ilahi?

Meydan sulayan ağ yalanın al şərabından
Millət təpədən dırnağa sərxoşmu, ilahi?

Əzdikcə vətən oğlu vətən oğlunu qəsdən
Bilməm, əzənin qəlbi məgər daşmı, ilahi?

Vicdan kimi, insaf kimi hisslər içimizdən
Bir yolluq atılmışmı, qovulmuşmu, ilahi?

Hər möcüzü idrak eləyərkən, bu bəlanı
Qanmaqda beyinlər bu qədər boşmu, ilahi?

*Mart 1998*

* * *

Rəhm eylə özün sən mənim övladıma, yarəb,
Rəhm eylə mənim nalәmə, fəryadıma, yarəb.

Məhrum eləmə sən onu dünya işığından,
Sənsən pənahım, sən yetiş imdadıma, yarəb.

Səndən umuram, ummuşam hər dərdimə çarə,
Bu xisləti mən borcluyam öz zatıma, yarəb.

Şükr eyləmişəm mən ki, qədər-qismətə daim,
Döndərmə qədər-qisməti cəlladıma, yarəb.

Xoşbəxt qulunun Bəxtiyar adlanması səndən,
Uyğun elə sən taleyimi adıma, yarəb.

Rəhm eylə, özün sən mənim övladıma, yarəb
Rəhm eylə mənim nalәmə, fəryadıma, yarəb.

*Noyabr 1998*

* * *

İnsan dediyin, heç demə, buymuş, nə biləydim?
Haqdan dönərək, nəfsinə uymuş, nə biləydim?

Vicdan nə demək? Bilmir, öz həmcinsinə qarşı
İnsan bu qədər kinlə doluymuş, nə biləydim?

Habil o zaman ilk qanı tökməklə həyata
Bədxahlığın imzasını qoymuş, nə biləydim?

Elliklə gələn matəmə el toy adı vermiş
Elliklə rəzalət dəxi toymuş, nə biləydim?

Yüksəlmək üçün alçalan alçaqlara baxdım
Ömrün yolu alçalma yoluymuş, nə biləydim?

Dünyanı aşan, eşq ilə kamilləşən insan
Dünya malının adi quluymuş, nə biləydim?

Alçaqsa da insan bu qədər qəsd-qərəzində,
Eşqində böyükmüş və uluymuş, nə biləydim?

*İyul 1998*

* * *

Uzaq olduqca nədən hissimiz aydın görünür?
Aralandıqca könüllər daha bayğın görünür.

Nə qədər «ovqatım əla», - deyə yazsan da, fəqət,
Sözünün rəngi siyah, dalğası dalğın görünür.

Barışıb tale ilə qiblədən haqq ummamağın,
Belə dözməkdə də, susmaqda da haqqın görünür.

Dağ eşən, körpü aşan selləri heç görməyənə,
Gur axan bir bulağın arxı da daşqın görünür.

Belə təslimçiliyə çoxları heyrətdə qalıb,
Onu bilməz ki, nəciblikdə də eşqin görünür.

*Avqust 1998*

* * *

Mənim ey dərd adaşım, oldumu bir şad günü¬müz?
Çəkilən hər cür əzabdan bizim azad günümüz?

Baxıram təqvimə, ulduzlarımız tərs dolanır,
Bizim hər ad günümüz, oldu bizim yad günümüz.

Nə qədər tənəyə, böhtanlara dözdük, dözürük,
Usanıb ummadı bir kimsədən imdad, günümüz.

Ahımızdan bu zaman eylə ki, viranə qalıb,
Baxıram, olmadı heç bir dənə abad günümüz.

Bu həqir sevgi əlindən o qədər dad elədik,
Döndü öz ömrümüzə dad günü, fəryad günümüz.

*Avqust 1998*

* * *

*Ağlaram xatirə gəldikcə gülüşdüklərimiz*
**Türk şairindən**

Gəlmir heç xatirə bir dəfə gülüşdüklərimiz,
Bu nə cür sevgi imiş qəhqəhələrmiş əzəli?

Axı, göz yaşları yol yoldaşıdır hər sevənin,
Dəli sevdada gülüşmək nə demək? Çox məzəli!

Sevənin ömrü qəhərsiz ötə bilməz, bilirəm,
Sevgimin keçdiyi zülmətləri bir-bir çözəli.

Ahımın, fəryadımın şahidi qəlbimdi mənim,
Neçə müşküllərə, nisgillərə daim dözəli.

Aşiqin düşməni hər ləhzədə yalnız özüdür,
Gözə barmaq uzadır, Bəxtiyar, eşqin öz əli.

*Avqust 1998*

* * *

*(C.Quliyev bəstələmişdir).*

*Gül qoxlamaq üsulunu illərcə məşq edib,*
*Min bir çeşid dikanlara qatlanmışız, gülüm.*
**M.Çinarlı**

Dünyanı bir zamanlar oyun sanmışıq, gülüm,
Dəm ötdü, indi qayğıya paylanmışıq, gülüm.

Yaş fərqi yox işıqla alovlanmış atəşin,
Biz eyni odda yanmaq ilə həmyaşıq, gülüm.

Sevda dənizlərində üzərkən qayıq kimi,
Dünyaya hər üzüylə biz heyranmışıq, gülüm.

Qış gəldi, getdi gül çağı, daddıqca zilləti,
Gördük, könüldə mövsümə aldanmışıq, gülüm.

Görsək də eybəcər üzünü dünyanın o vaxt,
Amma deyən olarmı ki, nadanmışıq, gülüm?

Eşqin qanadlarında uçardıq səmalara,
İndiysə ağlımızla cilovlanmışıq, gülüm.

Bilməm, qazancımız nə imiş? Sordu Bəxtiyar,
Oddan keçib, həyatda cilalanmışıq, gülüm.

*1999*

## TAC OLUR

Riyakarlıq at çapanda dörd yana,
Həqiqətin qələbəsi güc olur.
Ürəyini gizlədənlər ağıllı,
Öz sözünü üzə deyən «gic» olur.

Həqiqətə qəsd eləyən hər rəzil
Tamahının nökəridir müttəsil.
Gözü toxlar yoxsulsa da ac deyil,
Nəfsi iti var sahibi ac olur.

İnsan oğlu dəm tutanda hər dəmə
Söz rəngini dəyişərmiş, heç demə.
Hər nikahsız doğulana bic demə,
Öz kökündən xəbərsizlər bic olur.

Həqiqətdir – zülmə, zora tuş olan,
Ağ yalandır – hər məqamda baş alan.
Unuduruq, su dibində daş olan
Üzə çıxsa, başa qonan tac olur.

*İyun 1990, Şəki*

## HAQQI YOX

*Cavanşir Quliyev bəstələmişdir*

Yad əlində tapdanırkən şərəf, şan,
Türkün türklə ədavətə haqqı yox.
Hər işimiz başlanırkən sıfırdan
Türkün türklə ədavətə haqqı yox.

Dayaq olsun bu gün gərək sol sağa,
Bu vəhdətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa
Türkün türklə ədavətə haqqı yox.

Tarix bizi imtahana çəkirkən
İmdad umur hamımızdan bu Vətən.
Dünya da haqq səsimizə kar ikən
Türkün türklə ədavətə haqqı yox.

Sındırıldı dəyirmanda pərimiz,
Əsir oldu divə bizim Pərimiz.
Dağılırkən ocağımız, pirimiz
Türkün türklə ədavətə haqqı yox.

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən
Türkün türklə ədavətə haqqı yox.

Sinəsini yarmalıyıq zülmətin,
Bu məqsədə getdiyimiz yol çətin.
Hər gün neçə şəhid verən millətin
Bir-birilə ədavətə haqqı yox.

*İyun 1992, Şəki*

## YUXARI

Pislik var ki, yaxşılıqdan, yaxşıdır,
Bədbəxtlik var, səadətdən yuxarı.
Sevginin də hədəfini seçməli,
Nifrət də var məhəbbətdən yuxarı.

Zorakılıq baş aparsa ölkədə,
«Mənəm» - deyə at çaparsa ölkədə,
Buna qarşı qulaq karsa ölkədə
Əsarət də hürriyyətdən yuxarı.

Söz oxunun öz hədəfi, ünvanı
Öz vaxtında susdurmasan nadanı
Quduz kimi o dalayar dörd yanı
Kobudluq var, nəzakətdən yuxarı.

Ömür yolu – bir cıdırmış, yarışmış
Yarışanlar son mənzildə barışmış.
Xeyirlə şər bir-birinə qarışmış
Xəyanət var, dəyanətdən yuxarı.

Bəzən geri çəkilsə də şər, ölməz
Əsl gerçək sınar, amma əyilməz.
Hər həqiqət hər məqamda deyilməz
Yalan da var, həqiqətdən yuxarı.

Rəhm eləsən əgər zalım düşmənə,
Zülm elədin həm özünə, həm mənə.
Bu mərhəmət xəyanətdir Vətənə
Zülm var ki, mərhəmətdən yuxarı.

*Aprel 1992, Şəki*

## NİSBİLİK

Günəşə baxanda qaralır göz də
İşığın içində zülmət olurmuş.
İki sevən qəlbin qovuşduğu yer
Kol dibi olsa da, cənnət olurmuş.

Əzəldən nisbidir qara da, ağ da,
Yaxın da uzaq da, təpə də, dağ da.
Dünən bayraq olan söz bəd ayaqda
Dönüb birdən-birə qələt olurmuş.

Hökmü daşdan keçir yalanın, şərin,
Ruhu unuduldu müqəddəslərin.
Amalı cibindən yüngül kəslərin
Ən böyük tələbi minnət olurmuş.

Xeyirində, şərində vəhdətdir aləm,
Bir ucu sevincdir, bir ucu ələm.
Qurulan tələdə mənim büdrəməm
Mənim rəqibimə fürsət olurmuş.

Enişin qədrini bildik yoxuşda
Ağıl nə bilikdə, nə də ki yaşda!
Dünyanın ahəngi baharla qışda,
Kədərlə sevincdə vəhdət olurmuş.

Amalsız, fikirsiz bir eşq, bir həvəs
Özü öz başına  cücərə bilməz.
Millət sevgisiylə silahlanan kəs
Özü təkbaşına millət olurmuş.

*May 1992*

## SÖZ OLUB
### *(«Düşdüyümüz oyuna bax»)*

Kürsü qalır, oturanlar dəyişir,
Gələn deyir, gəlişimlə yaz olub.
Bircə ili başa vurub qışqırır:
«Dəyişdirdim, əyri dönüb düz olub».

Sən yalanın boyuna bax, ay allah,
Divanına, toyuna bax, ay allah.
Düşdüyümüz oyuna bax, ay allah,
Otuz ilin fahişəsi qız olub.

İpək imiş açılmamış barama?
Hər çiçəkdən məlhəm olmaz yarama.
Hər dənizdən sən mirvari arama,
Yaxşı pisdən, qızıl misdən az olub.

Alqışlara, təriflərə uyma çox,
Nüfuzunu dağ başına qoyma çox,
«Mən, mən» deyə öz döşünə döymə çox
Hansı sərçə ləpirindən iz olub?

Gördüm vaxtın fitnəsini, felini,
Ey Bəxtiyar, saxla görək dilini.
Sındırıblar həqiqətin belini,
İndi dönüb ağızlarda söz olub.

*1988-1995*

## DİDƏRGİN

Başına haranın külünü töksün
Sinəsi əzabdan dağ-dağ didərgin.
Təzə Vətənində qərib, çəkingən
Köhnə Vətənindən qaçaq didərgin.

Başının üstündə öz tavanı yox,
Yavanlıq bir yana, heç yavanı yox.
Bu günə, sabaha bir gümanı yox,
Ay özü özündən uzaq didərgin.

Əsdi, hardan əsdi bu səmum yeli?
Əl başı kəsmədi, kəsdi baş əli.
İsti yuvasından perik düşəli
Gah orda, gah burda qonaq didərgin.

Hamının arzusu onunla birkən
Xeyirə dolanmır yenə bu örkən.
Özü bu dünyadan haqq istəyirkən
Adını qoydular nahaq didərgin.

Könlündə köz tutub Vətən həsrəti
Qurtarıb gileyi, sözü-söhbəti.
Öz acı taleyi, öz müsibəti
Özünün başına qınaq didərgin.

Soyuq baxışlardan xoş xəbər umar
Ağlamaz, göz yaşı ahından damar.
Ümidsiz sabaha o, ümid yamar
Ümidi ömrünə yamaq didərgin.

*İyul 1993, Şəki*

## BU SEVGİ

İlk görüşdən qəlbimizdə özünə
Dərin-dərin yer elədi bu sevgi.
Gətirmədi ömrümüzə bir fərəh,
Xeyrimizi şər elədi bu sevgi.

Xaliqimiz bizi belə yaradıb,
Həyat bizə kəmənd atıb, tor atıb.
Hissimizi günü-gündən parladıb,
Ağlımızı kor elədi bu sevgi.

Neştərlədik ağlımızın gözünü,
Deyəmmədik arzumuzun sözünü.
Hakim olub qəlbimizə, özünü,
Ömrümüzə pir elədi bu sevgi.

Pay ummadıq nə qaradan, nə ağdan,
Çəkinmədik hədələrdən, qınaqdan.
Biz bu yolda çox çıxmışıq sınaqdan
Axır bizi ər elədi bu sevgi.

Qəlbimizdə hey sızıldar qəm neyi,
Axarına buraxmışıq taleyi.
Hər kəs üçün aydın olan hər şeyi
Bizim üçün sirr elədi bu sevgi.

Eyni yükü biz həvəslə daşıdıq,
Bu gün artıq dərdimizlə yaşıdıq.
Biz o qədər eyni hissi yaşadıq,
İkimizi bir elədi bu sevgi.

*İyul 1993*

## ÇAYI KEÇƏNDƏ

*Fikir qardaşım Hacı Əbdülqadir Sezginə*

Yaxşı yadımdadır, meşədə azdıq
Uşaqkən, arandan dağa köçəndə.
Aydınlıq havada yolçuluq asan,
Oğulsan, gəl azma dumanda, çəndə.

Qoşadır dünyanın gecə-gündüzü,
Qaradır bu üzü, ağdır o üzü.
Özün düz olmasan tapmazsan düzü,
Əyrilər içindən düzü seçəndə.

Hakim ki, yalana uyub inandı,
Zavallı gerçəyin sinəsi yandı.
Başının üstündə allahı dandı,
Haqqı yıxmaq üçün zülm, and içəndə.

İmanın kamilsə dərdə döz, dayan!
Qorxma axirətin imtahanından.
Dünyanın əzabı çıxar canından
Burda əkdiyini orda biçəndə.

İnam kəhərini minib sonadək,
Arxaya baxmadan çapasan gərək.
İnama sığınsan iman gələcək,
Atı dəyişməzlər çayı keçəndə.

*Avqust 1993, Şəki*

## YOXUŞDAN ÇUXURA

Ayrıldım, hər yerdən üzülür əlim,
Ağac öz kökündən üzülən kimi.
Görüşdüm, könlümdə uçur duyğular,
Durnalar qatara düzülən kimi.

Vermişəm mən sənə nəzir könlümü,
Geri qaytarmağın üzür könlümü.
Sənin sərt cavabın əzir könlümü,
Yarpaq ayaq altda əzilən kimi.

İncidin, ya küsdün, nə deyim sənə?
Qoymaram könlümdə bu atəş sönə.
Gələrəm qapına, gələrəm yenə,
Yoxuşdan çuxura su gələn kimi.

*İyul 1993*

## BU KÖHNƏ BAZARIN

Çəkilən ağrılar qədərdən gəlir,
Fələyin fırlanan köhnə çarxı var.
Bu təzə dərdlərə döz, yazıq ürək,
O çarxı hərlədən təzə arxı var.

Çəkmə bu bazara köhnə neməti
Satdıq nəfsimizə, satdıq qeyrəti.
Matah o matahdır, enib qiyməti
Bu köhnə bazarın təzə nırxı var.

Cavabsız suala döndü diləklər,
Saxlaya bilmədi damı dirəklər.
Vaxtın ağrısını çəkir ürəklər
Harda ürək varsa, orda ağrı var.

Dərinə baş vurduq, üzmədik üzdə,
Könül çiçəklənir diləyimizdə.
Arzular solsa da, ürəyimizdə,
Ümidi səsləyən gizli çağrı var.

*Avqust 1995*

## OZAN OLDUM

Mən özüm-özümlə qumar oynayıb,
Yada yox, özümə uduzan oldum.
Heç kəsə yuxumu danışmadım mən,
Qorxulu yuxumu tərs yozan oldum.

Sandım ki, başıma yağan daşları,
Geriyə qaytarar o ulu Tanrı.
Sandım ki, alnıma yazılmışları,
Pozub, təzəsini mən yazan oldum.

Sandım ki, yönünü dəyişdim şərin,
Hamisi Allahdır yanan kəslərin.
Amma əqidəsiz qeyrətsizlərin,
Qara dəftərində yol azan oldum.

Dilə gətirməyib nağıl sim-simi,
Könül açarıyla açdım tilsimi.
Kimsədən almadım idrak dərsimi
Dərdimdən öyrənib mən ozan oldum.

*Avqust 1996*

* * *

Hara getsəm, dərd də mənim yanımda,
Eşitdiyim aman səsi, ah səsi.
Zaman keçdi, ürəyimdə qalmadı
Nə bir ümid, nə yaşamaq həvəsi.

Bir vaxt mənə dünya toydu, mağardı
Onda mənim başıma nur yağardı.
Yaşadığım qara gündə ağardı
Saçlarımın qaralığı, şəvəsi.

Şəfa umur bizdən xəstə bu Vətən,
Millət qırır bir-birini bəs nədən?
Ədavətlə yoğrulubdur binədən
Bəlkə elə bu torpağın nüvəsi?

Təzə deyil bu səhvlər, qələtlər,
Belə getsə, sabahı da bələdlər.
Babamızdır bu vərdişlər, bu dərdlər,
Biz də onun törəməsi, nəvəsi.

Sadədillik Nuh nəbidən qalmadı
Daş atdılar, elə bildik almadı.
Bir tərəfi, bir cəhəti qalmadı
Özümüzü bəyənəsi, sevəsi.

Məəttələm bu adətə, bu işə,
Lənət olsun bu amansız vərdişə.

Başımıza qapaz vurur həmişə
Özümüzün əli ilə özgəsi.

Könül safsa, əməlindən gül dərər,
Özü kimi xeyirxaha göndərər.
Bir ölkəni xarabaya döndərər
Ürəklərin həsəd adlı güvəsi.

*İyul 1996*

## XATALI DÜNYA

Zahirdən baxanda gözə xoş gəlir, -
Çəmənli, çiçəkli, butalı dünya.
Yaxına gələndə ilantək çalır, -
İlki də, sonu da xatalı dünya.

Dərdi könlümüzdə yuvalanıbdır,
Cəzbi ağlımızı başdan alıbdır.
Bizi də özü tək çaş-baş salıbdır,
Müftəsi ucuzdan bahalı dünya.

Neçə sifətlidir, neçə dillidir,
Yaxşısı, yamanı kimə bəllidir?
Qanana qaynağı başdan lillidir,
Qanmaza hər dəmi səfalı dünya.

Adamlar qəlbini gizlədər, deməz,
Ağaclar calaqdır, heyvanlar mələz.
İçini görməyə gözün işləməz,
İnsanın əlilə boyalı dünya.

Bir ləzzət almadıq gəlişimizdən,
Verdiyi hər şeyi o, alır bizdən.
İndi də qorxuruq gedişimizdən,
Ziyanı xeyirdən şəfalı dünya.

Özü öz felindən düşüb çəmbərə, -
Mələyi şeytana, xeyiri şərə,
Haqqı, həqiqəti yalan sözlərə,
Bizi nəfsimizə satalı dünya, -
Təpədən-dırnağa xatalı dünya.

*1996*

## BU ALƏM MƏNİ

*«Utanıram» şeiriniz bizi ağlatdı.*
*Şeirləriniz ziyadə bədbindir. İstəyirik*
*biz sizi şad-xürrəm görək.*
**Ərdəbildən oxucu**
**Qulam Rza Fərdayi**

Usanıb kədərli şerlərimdən
Görmək istədiniz şad-xürrəm məni.
Mən, axı, dərdimlə bütövəm, qardaş,
Əgər dərdsizəmsə, bilin kəm məni.

Açdım əllərimi «Ya Allah», - deyə, -
Bir dəm ürəyimdən dərd əskilməyə.
Sevincə, şadlığa, deyib-gülməyə
Yaradıb Allahım naməhrəm məni.

Dövrəmdə dərd uçur belədən-belə,
Qəm-qüssə – batmandır, şadlıq – bir gilə.
Özüm də bilmirəm, bilmirəm hələ
Mən qəmi sevirəm, yoxsa, qəm məni.

Açılmır qapısı nağıl «sim-simin»,
Qaçıram əlindən bəzən dərdimin.
Görürəm, yanımda əyləşib…yəqin
Qəm bilir özünə bir həmdəm məni.

Dərdə «gəl-gəl», - deyir qəlbimin səsi,
Duyanın, qananın dərddir qibləsi.

Qəmdə elə yandım, sözün məxləsi
Bir zərrə qorxutmur cəhənnəm məni.

Harda kədər varsa, orda varam mən,
Sevinci bilmişəm qəlbə haram mən.
Sonsuz kədərimlə Bəxtiyaram mən,
Qəmimlə tanıyır bu aləm məni.

*May 1996*

## ELƏ, YERİMDƏCƏ...

Bu yerlər necə də tanışdır mənə,
Amma biləmmirəm haçan olmuşam.
Mənim gizlədəsi sirrim olmayıb,
Qəlbimi hamıya açan olmuşam.

Ən təmiz hissləri O, dönə-dönə,
Qoymadı bir anlıq zirvədən enə.
Onun o qüsursuz eşqi naminə
Başqa qüsurlardan keçən olmuşam.

Qoruyub adəti, namus, arı mən,
Özüm yaratmışam Bəxtiyarı mən.
Bir addım atmadım Ona sarı mən,
Elə, yerimdəcə «qaçan» olmuşam.

*Fevral 1996*

## GERÇƏK GÜNAHKARDIR

*Yazıçı dostum H.Abbaszadəyə*

Qəribə əyyamdır, üz, astar olmuş,
Bazarda satan çox, amma alan yox.
Mənim ürəyimdə indi yel vurub,
Yengələr oynayır, çəpik çalan yox.

Azadlıq qollarda bir kəmənd olub,
İndi qarğalar da gülə bənd olub,
Fələyin gərdişi tərs-avand olub,
Gerçək günahkardır, amma yalan yox.

Maşallah, çıxmışıq göyün seyrinə,
Bilən yox bu işin şəri, xeyri nə.
Qılan səcdə qılır tək öz xeyrinə,
Haqqa səcdə ilə namaz qılan yox.

Bir ovuc torpaqdır hamının sonu,
Sağ ikən bir kimsə düşünmür bunu.
Hamımız acgözük, Allah xofunu
Qəlbinə, ruhuna niyə salan yox.

Ölülər diridir, dirilər ölü,
İstidir dünyanın odundan külü.
Doğru danışanın kəsilir dili,
Öldürən haqlıdır, amma ölən yox.

*1996*

## BU GÜN

Guya dəyişibmiş bu köhnə dünya,
Yenə cövlan edir öküzlər bu gün.
Oturub «Həqiqət səltənəti»ndə
Yalanlar, riyalar, boş sözlər, bu gün.

Köhnə zəmanənin başıboşları
Tökmür ətəyindən köhnə daşları.
Olub yurdun əsl vətəndaşları,
Vətən vətənsizdən nə gözlər bu gün?

Böyük kəlamları deyir əzbərə,
Murdar gövdəsini dürtür hər yerə.
Ən böyük dərd budur: göz görə-görə
Bizə yol göstərir yolsuzlar, bu gün.

«Həqiqət» kəlməsi lağa dönübdür,
İndi soldakılar sağa dönübdür.
Vallah, saçımızda ağa dönübdür
Çəkmələr yalayan o tozlar bu gün.

Gördüm, bu dünyanın işi oyunmuş,
Köhnə libasını üzdə soyunmuş.
Amma başımızda yumruğa dönmüş
Köhnə zamandakı toppuzlar bu gün.

*İyul 1997*

## KÜSÜBDÜR

Çəmən soxdu gözümüzə qanqalı
Çəmən güldən, gül çəməndən küsübdür.
Bir-birinə millət yağı kəsilib
Yalan deyən, düz deyəndən küsübdür.

Önümüzdə nə cığır var, nə işıq
Göyə deyil, yerə səcdə qılmışıq.
Mədəmizin həşirinə qalmışıq
Bədən ruhdan, ruh bədəndən küsübdür.

Bir-birindən ağır gəlir günümüz
Vallah, yaman qalınlaşıb gönümüz.
Cahillərə tapşırıldı dinimiz
Din bu xalqdan, xalq da dindən küsübdür.

Göy üzündə baxtımızın bürcü var,
Tale ilə zəmanənin mərci var,
Bu günlərin gələcəyə borcu var
Ön arxadan, arxa öndən küsübdür.

Bir-birini anlamayır nəsillər,
Öz yerini dəyişibdir fəsillər.
El torpaqdan ayrı düşüb o qədər
Əkən yerdən, yer əkəndən küsübdür.

Avaralar əl çəkmədi nəfindən,
Beş-on yerdə saray tikdi kefindən.
Bircə loxma çörək üçün evindən
Perik düşən el, vətəndən küsübdür.

*May 1998*

## HAQQI

Dedim, çatdığına şükran  ol, bala
Axı, alçalmadır minnətin haqqı.
Məni eşitmədin, yaman tələsdin
Yollarda qəzadır sürətin haqqı.

İndi göylərdəsən, zirvə çağındır
Özünə bənzərlər solun, sağındır.
Sənin kimlərəsə yalmanmağındır
Bu gün qazandığın «hörmətin» haqqı.

Bu xalqı talayan baxtı yeyinlər
Bu xalqın adından nitq deyirlər.
Onlar tulanı da əzizləyirlər
İnsana verilmir bir itin haqqı.

Kimki, öz haqqını zordan istəmiş –
Qapıdan qovulub, şapalaq yemiş.
Heç demə, ən böyük haqsızlıq imiş
Haqqını istəyən millətin haqqı.

Ruhani ata da bizi qəhr edir
Dözümə çağırır, tükənib səbir.
Məgər bu dünyada əzilməkmidir
O biri dünyada cənnətin haqqı?

Millətin qanını ey soran alçaq,
Bu günə öyünmə, bir sabaha bax.

Qorxudur, hürküdür, şübhədir ancaq
Rüşvətlə yığdığın sərvətin haqqı.

İstiqlal qazandıq, üzlər gülmədi,
Qaynaqdan bulanan su durulmadı.
Bir günlük, bir aylıq sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

*Aprel 1998*

## NÖQSANDAN DA BETƏRMİŞ

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim, hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə vəkilin
Gecə-gündüz çəkişməsi hədərmiş.

Çox düşündüm: nədir qəsdim, niyyətim?
Hara çəkir, görən, məni fitrətim?
Bu dünyadan mənim payım, qismətim
Sevincimdən oğurlanan kədərmiş.

Mən baxmadım nə yada, nə həmdəmə,
Nöqsanımı faş elədim aləmə.
Hey danladım öz-özümü… heç demə,
Mərdliyim də etirafa qədərmiş…

Vicdanımdan sordum: nədir etiraf?
Cavab verdi: bir tövbədir etiraf.
İndi bildim, əməlsiz bir etiraf
Günah kimi nöqsandan da betərmiş.

*Dekabr 1998*

## MƏNDƏN XƏBƏRSİZ

Ömrün fəsilləri tez başa gəldi
Yayı bəhərlidir, qışı bəhərsiz.
Bir vaxt ayıldım ki, heydən düşmüşəm
İllər öz atını çapdı yəhərsiz.

Amal olan yerə baş qoyan illər,
Toran gözlərimə yaş qoyan illər,
Ey yaşım üstünə yaş qoyan illər,
Hara qaçırsınız məndən xəbərsiz?

Ey ömür! Görünür artıq sahilin
Əlin qısaldıqca uzanır dilin.
Ömürdən verdiyim yetmiş üç ilin
Zəhəri yetərli, balı yetərsiz.

Öz çiyin yüküdür hər kəsin yaşı
Dərdi-sirdaşıdır, fikri-yoldaşı.
Dönüb xislətimə qəhər, göz yaşı
Sevinc də, kədər də ötmür qəhərsiz.

Fikirlər selində axandan bəri
Ayıra bildimmi xeyirdən şəri?
Tökülmüş ömrümün yarpaq illəri
Bağçası viranə, bağı çəpərsiz.

Könül o könüldür qoca yaşımda
Fikirlər qaynaşır yenə başımda.
Yenə hücumdayam söz savaşında
Sözüm təpərlidir, özüm təpərsiz.

*Avqust 1998, Şəki*

## QORXURAM
*("Vicdan")*

İki yolun ayrıcında dayanıb,
Gah o yandan, gah bu yandan qorxuram.
Divdən deyil, milçək qədər gücüylə
Mən özünü div sayandan qorxuram.

Haqq evində haqq divanı qurulmuş,
Hər qazancın öz bahası sorulmuş.
Təmənnasız boynumuza yük olmuş
Bağışlanan şərəf-şandan qorxuram.

Bu dünyadan umacağım mizandır,
Qorxduğum kəs bu mizanı pozandır.
Tox gədanın qudurması yamandır
Acandan yox, mən doyandan qorxuram.

Uyuruqsa nəfs adlanan elçiyə,
Tüpürürük vicdan kəsən ölçüyə.
Odur verən düz qiyməti hər şeyə
Vicdanından qorxmayandan qorxuram.

*Dekabr 1998*

## NƏ QAZANMIŞAM?

Qələmə, kağıza başımı əyib,
Kitablar yazmışam, ün qazanmışam.
Tanrının verdiyi ömrü xərcləyib,
Qara saçlarıma dən qazanmışam.

Biri öz kefində, cah-cəlalında,
Başqası öz dərdi, öz məlalında.
Bir ildə neçə gün masa dalında
Bir günü itirib on qazanmışam.

Vətən həm mənimdir, vətən həm sənin,
Budur vəsiyyəti babam Bilgəniņ*.
Tutub ətəyindən bir əqidənin
Özümə əbədi yön qazanmışam.

İlkim çal-çağırlı, sonum müztərib,
Yurdumun içində qəribəm, qərib.
Hissimi, duyğumu sözə döndərib,
Ömrümə, günümə son qazanmışam.

*İyul 1998*

*Məşhur Göytürk xaqanı.

## GÖR MƏNİ

Azadlığı dəyişmərəm heç nəyə
Anam doğub azad məni, hürr məni.
Sən məndəki bu cövhəri görmədin
Ha çək gözə irasığı, sürməni.

Yetər mənim öz dərdimə öz ahım
Ədalətdir, həqiqətdir pənahım.
Bir kimsəyə həsədim yox, Allahım
Sevindirsin iki səni, bir məni.

Heç kəsə yox, tək özümə bənzərəm
Hardayamsa, o məqamdan enmərəm.
Bu xislətdən dönməmişəm, dönmərəm
İstəyirsən cəhənnəmə sür məni.

Kül üstündə təzə ocaq qalama,
Sifarişlə yad bağını sulama,
Təmizləri çirkabına bulama
Tuta bilməz o atdığın şər məni.

Qarışdırma sən astarı üzüylə,
Dolaşdırma əyriliyi düzüylə,
Baxma mənə öz qəlbinin gözüylə
Sən bəsirət gözləriylə gör məni.

*Mart 1998*

## AXTARIRSAN

Öz gözündə tiri görməyən gəda,
Özgənin gözündə qıl axtarırsan.
Köhnə şakərindir, bulandırmağa
Hər gün, hər ay təzə göl axtarırsan.

Qələmin korşalıb düşmüsən dərdə,
Hörmətin qalmayıb sənin heç yerdə.
Dölsüz olduğunu bildin nəsrdə,
İndi də «şerdə» döl axtarırsan?

Bir zaman vətəni Aşota satdın,
Ürək bulandırdın, könül qanatdın.
Palıda, çinara sən çirkab atdın
İndi gizlənməyə kol axtarırsan!

Qəlbin daş, ağlın da bir ovuc peyin,
Döş-döşə gəlməyə qalmayıb heyin.
Baxıb ayağına ölmüş eşşəyin
Kündənə vurmağa nal axtarırsan.

İçində zülmətdir, səhər bilirsən,
Qatırsan, özünü kəhər bilirsən,
Köhnə palanını yəhər bilirsən,
Belinə salmağa çul axtarırsan.

Özgənin uğuru səni yandırır,
Həsədin kinini qıcıqlandırır.

Özünün yalını bal adlandırır
Özgənin balında yal axtarırsan.

Bir üzü gəlinsən, bir üzü arvad,
Kommunist, AXC, sonra Müsavat.
Ordan da çıxmısan, ay evi bərbad
İndi də Daşnaka yol axtarırsan!

*1998*

## DƏRD QOVUR MƏNİ

Mən ki, qurd oğluyam, içimdən çıxıb,
Ardımca yüyürür, qurd qovur məni.
O məni ilkimə səslədiyindən
«Ötükən»* adlanan yurd qovur məni.

O şanlı günlərim qayıdan deyil,
Mən yaxşı bilirəm, bu, asan deyil.
Namərdin əlindən qaçmaq man deyil
Dərd budur: namərd yox, mərd qovur məni.

Unudub göz ilə o görülməzi,
Özümüz öldürdük, vallah, ölməzi.
Yaxşı bildiyimdən gedər-gəlməzi
Hara qaçıramsa, dərd qovur məni.

*İyul 1998*

---

*Qədim Göytürklərin yurd yeri.

## YOX

*("Atamın kitabı" pyesindən nəğmə)*

Göy üzündə qara bulud,
Göz yaşını sıxması yox.
Qıvrılıb döş-döşə gəldi,
Şimşək olub çaxması yox.

Qarısı açıldı sərin,
Dibi yoxmuş bu dərənin.
Bizə çörək yetirənin
Evində bir loxması yox.

Dağ zirvəsi dizə çıxır,
Ucuz taxıl toza çıxar,
Çöp dənizdə üzə çıxar,
Dürrün üzə çıxması yox.

Göy dərvişin, yer əkənin,
Dərdi bitməz dərd çəkənin.
Sabahlara göz tikənin
Dönüb geri baxması yox.

Üyünür ömür adlı dənin,
Bəs hardadır üyüdənin?
Göydə ulduz kəşf edənin
Yerdə kiçik daxması yox.

*Mart 1999*

## XALQA

Bu xalqı sökənlər müdam «xalq» dedi,
Nə özü ucaldı, nə endi xalqa.
Ömründə bir dəfə «xalq» deməyənlər
Kürsü məramilə söykəndi xalqa.

Özgənin fikrini bəyənməyənlər,
Özünü öyməkçün xalqı öyənlər,
Gah ona, gah buna «düşmən» deyənlər
Əslində, özləri düşməndi xalqa.

Yüz yollu yüz nəfər kütlədir, ancaq
Bir yollu beş nəfər qüvvədir, ancaq.
Yüz sözlü məmləkət ölkədir, ancaq
Bir sözlü məmləkət vətəndi xalqa.

*May 1999*

## VƏTƏN DƏRDİ

Bir milləti neçə yerə böldülər
Qoşulmadım bir cəbhəyə, dəstəyə.
Vətən birdir, arzum budur: bu millət
Bir-birinə qardaş deyə, dost deyə.

Çağrışların, şüarların nə xeyri?
Anlamadıq kim düz deyir, kim əyri.
Yığışdırın bu harayı, həşiri
Birlik gərək Vətən adlı xəstəyə.

Sındırılsa kökdən gələn dayaqlar,
Millət dönüb bir-birini ayaqlar.
Sınacaqdır bar gətirən budaqlar
Söykənməsə bir dayağa, dəstəyə.

Xilasına yol axtarır Vətənim
Bundan ayrı başqa qəmim yox mənim.
Bu arzumu görəmmədi düşmənim
Pul deyiləm, hamı məni istəyə.

*İyul 1999*

## HƏM NƏVƏ,
## HƏM BABA DÜNYA

Hər gün neçə-neçə üz göstərərmiş
Həm həlim, həm zalim, həm qaba dünya.
Bac alır bir qətrə sevincimizdən,
Almır dərdimizi hesaba dünya.

Beş verib, on verib bizdən yüz aldı,
Bir sığal çəkəndə on zərbə çaldı.
Anamız olsa da, biganə qaldı
Bizib çəkdiyimiz əzaba dünya.

Sualı, sorğusu imtahan kimi,
Sığalı, tumarı ötür an kimi.
Gülür üzümüzə gülüstan kimi,
Əslində, nüvəsi xaraba dünya.

Bəzən əyrisindən seçilmir düzü,
İpək qiymətinə sırıyır bezi.
Məlumdan məchula aparır bizi
Yolu daş-kəsəkli araba dünya.

Həyat qəm dəryası, biz başsız qayıq,
Xilaskar çağıran hayıq, harayıq.
Ayıqkən kefliyik, kefliykən ayıq,
Dəyməz bir qədəhlik şəraba dünya.

Bəzən oyun olur, bəzən oyuncaq,
Axırı kəfəndir, əvvəli qundaq.
Qoca tək qayğılı, çocuq tək oynaq,
Bizə həm nəvədir, həm baba dünya.

*Aprel 1995*

## YUNUS DƏDƏ*

Yunus dədə şəkər çəkdi
Bu dünyanın zəhərindən.
Nəfsinə meydan oxuyub
Arındı dünya kirindən.

Allahından qəm dilədi,
Öz-özünə qəsd elədi.
O, dərdi də üstələdi,
Nəşələndi kədərindən.

Səs verdi el harayına,
Od vurdu qəm sarayına.
Keçdi ağlın o tayına
İdrakının çəpərindən.

Yad zülmünü dada-dada,
Fərq qoymadı dosta, yada.
O durdu bir boy ucada
Allah yazan qədərindən.

*İyul 1991, Şəki*

---

*YUNESKO 1991-ci ili "Yunus ili elan etmişdir.

## BUQƏLƏMUN

*Jurnalist qələm dostum Teymur*
*Xəlilbəylinin xatirəsinə**

Hər havaya oynayanın
Yuxusu da ayıq olur.
Oda düşsə bir parça daş,
Suya düşsə qayıq olur.

Üsul elmi üstələrsə,
Hayıf elmə, hayıf dərsə.
Yalan düzə güc gələrsə,
İnsan oğlu yazıq olur.

Doğru acı, yalan şirin,
Qışı-isti, yayı – sərin.
Düz danışan kimsələrin
Papağı da yırtıq olur.

Bu sürtüyün min bir üzü,
Daşdan keçər amma sözü.
Ot görəndə qoyun, quzu –
Su görəndə balıq olur.

*Fevral 1992, Şəki*

---

*Mərhum Teymur müəllim ikiüzlü adamlardan iyrənər və eləlәri haqqında deyərdiki, “Bu adam ot görəndə qoyun, su görəndə balıq olur”.

## BORCLUDUR

*El ağsaqqalı D.İlyas kişiyə*

Nizam itib, yaz qışa yox,
İndi qış yaza borcludur.
Təzə mizan – tərəzidə
Vallah, çox, aza borcludur.

Höyüş haqqı dana-dana
Yanıq verdi alışana.
Biz bilmədik, yana-yana
Yanan yanmaza borcludur.

Bu dünyadan dəm umanlar
Məni danlar, səni danlar.
Öz-özündən utananlar
Bir utanmaza borcludur.

Nadan atın belindədir,
Haqq haqsızın əlindədir.
Gör dünyamız nə gündədir,
Qanan qanmaza borcludur.

*İyul 1991*

## AMALI YOX

Adam var ki, bu dünyaya
Cavabı var, sualı yox.
Öz ağlından çox razıdır,
İmkanı var, kamalı yox.

Xalqı yüz yerə parçalar,
Yüz arxı bir arxa calar.
Cənubu yox, şimalı var,
Cənubu var, şimalı yox.

Dili uzun, ağlı gödək,
Sərvəti var ətək-ətək.
İri eşşək arısı tək
Neştəri çoxdur, balı yox.

Arxası var, köməyi var,
Öz həkimi, dəlləyi var.
Bu həpəndin hər şeyi var,
Amma təkcə amalı yox.

*Avqust 1991*

## NƏ FƏRQİ VAR?

Hər əvvəlin bir sonu var
Doğulmusan, ölməlisən.
Gəlməyini kimsə bilməz,
Getməyini bilməlisən.

Dünyanın ağ, qarasında,
Bütövündə, parasında,
Yoxla varın arasında
Fərqi bəzən silməlisən.

Öz yoluyla çarx fırlanar,
Səni danar, məni danar.
Dünya üçün nə fərqi var
Ya ağıllı, ya dəlisən.

Sonda birdir qəlbin halı –
Həm sevinci həm məlalı.
Məzhəkə var, ağlamalı,
Faciə var, gülməlisən.

*İyul 1992, Şəki*

## KÖRPÜ ÇAYDAN UZAQ DÜŞÜB

*Köhnə dostum H.Şirməmmədə*
*müəllimə*

Hələ toxum cücərməmiş,
Tarlamıza alaq düşüb.
Başımız da daz olalı,
Əlimizə daraq düşüb.

Xəyallarım – qanad-qanad,
Ətəyimdən dartdı həyat.
Dünənimə Dürat, Qırat,
Bu günümə ulaq düşüb.

Əlim üzüldü diləkdən,
Dilim yandı «gəl» deməkdən.
Öz haqqını gözləməkdən
Haqqın gözünə ağ düşüb.

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömr əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

*Dekabr 1992*

## DƏDƏSİNİN MALI KİMİ

Sinəmizdə at çapdılar
Quldarlığın qulu kimi.
Haqqımızı unutdular
İtən qəbrin yolu kimi.

Su qatdılar aşımıza,
Qıydılar göz yaşımıza.
Yağdırdılar başımıza
Böhtanları dolu kimi.

Qanımızı hey sordular,
Kəbəmizi uçurdular.
Bizi yamanca qırdılar
Qaratikan kolu kimi.

Köksümüzdə sinə dağı,
Biz yaşadıq qul sayağı.
Bizi satdı bu torpağı
Dədəsinin malı kimi.

*İyul 1991, Şəki*

# İNSAN KİMİ SAXLA MƏNİ

Ulu tanrı, köməyim ol,
Arzuma adaxla məni.
Məni insan yaratmısan,
İnsan kimi saxla məni.

Göl olmuşam dama-dama,
Məlhəm qoyma sən yarama.
Bu sevdaya bu mərama
Daha betər bağla məni.

Fikirlərim qatar-qatar,
Biri atar, biri tutar.
Yaxınlara əlim çatar,
Qovuşdur uzaqla məni.

Ey ümidim, ey gümanım,
Sözüm haqsa, necə danım?
Qurban olsun haqqa canım,
Nahaq işdən saxla məni.

Soruşdular: Kimdir mənim
Yaxşıma yaman deyənim?
Həm dostum, həm də düşmənim
Göstərdi barmaqla məni.

*İyul 1991, Şəki*

## MƏN ALDANMAQ İSTƏYİRƏM

Ümidimin çırağına
Bir qətrə yağ istəyirəm.
Ağlar qalan diləyimə
Adaxlanmaq istəyirəm.

Zaman çoxu az elədi,
Bizi dayaqsız elədi.
Haqq – məni haqsız elədi
Haqqı danmaq istəyirəm.

Açar gəzdim düyünümə
Qıfıllar çıxdı önümə.
Sabah üçün bu günümə
Dayaqlanmaq istəyirəm.

Gül kol imiş, sol sağ imiş
Haqq – gerçəyi danmaq imiş.
Xoşbəxtlik aldanmaq imiş
Mən aldanmaq istəyirəm.

*Avqust 1994*

## SÖZ

Şirin olur, gözəl olur
Ürəklərdə bişəndə söz.
Amma necə qışqırmayım,
Ürəyimi deşəndə söz.

Haqsız haqlını döyəndə,
Əyrilər düzü əyəndə,
Necə dözüm, ürəyimdə
Qaynayıban daşanda söz?

Qiymətlər ki, quduzlaşır,
Hər şey bazarla uzlaşır.
Həyatımız ucuzlaşır,
Dəyərindən düşəndə söz.

Sakit gölə gah daş atır,
Gah zəhərə şəkər qatır.
Xəncər olub köksə batır
Öz həddini aşanda söz.

Bəzən ürək tüstüləyir,
Sönmək üçün su diləyir.
Haqq haqsızı üstələyir
Öz yerinə düşəndə söz.

*İyul 1993*

## BİLƏ BİLDİYİN QƏDƏR

*Əzizim Nurəddin üçün*

Çal dünyadan xoş günü
Çala bildiyin qədər.
Verəcəksən, unutma
Ala bildiyin qədər.

Quzu kimi mələrsən,
Min-min arzu dilərsən.
Sən boşala bilərsən
Dola bildiyin qədər.

İdrak yolu qorxulu
Gülündən çoxdur kolu.
Gedəcəksən bu yolu
Gələ bildiyin qədər.

Nəyə gərək gileylər
Bu çabalar, bu səylər
Bildiklərin bəs eylər
Elə bildiyin qədər.

Bu dünyanın min donu
Min rəngi, min oyunu.
Dərk edərsən sən onu
Bilə bildiyin qədər.

Sevinc dağına çıxsan
Sanma dərddən uzaqsan.
Bir gün ağlayacaqsan
Gülə bildiyin qədər.

*İyul 1992*

## DƏDƏM OĞLU

Çətinliklə üzüm gülür,
Könlüm gülmür, dədəm oğlu.
Dostu sevincində deyil,
Qəmində gör, dədəm oğlu.

-Kimdir bilən? – Nə sən, nə mən.
Sinəsinə dağ çəkilən!
Eşitdiyi qədər bilən
Heç nə bilmir, dədəm oğlu.

Biləmmədim bu dünyada
Nə üçünmüş bu qan-qada.
Dərdə dözən sirdaşla da
Dərdi bölmür, dədəm oğlu.

Ümid – işığa bir yoldu
Biz gözlədik, o yoruldu.
Gecə yaman uzun oldu,
Dan sökülmür, dədəm oğlu.

*Fevral 1994*

## BU TORPAQ ÜÇÜN

Ömrüm boyu aranda
Qəribsədim dağ üçün.
Yayın cırhacırında
Darıxdım qışlaq üçün.

Sağım sevinc, solum qəm
Qəmə könül vermişəm.
Özümü itirmişəm
Özümü bulmaq üçün.

Çox arayıb ilkimi
Bulanmışam sel kimi.
Cilovladım qəlbimi
Bir az durulmaq üçün.

Nə deyək dilbilməzə,
Bir eşqə can verməzə?
Şərəfdir hər bir kəsə
Ölmək, bu torpaq üçün.

*1994*

## İÇİM ÇÖLÜMƏ SIĞMIR

Bu gün elə dolmuşam,
İçim çölümə sığmır.
Nə danışım, nə deyim,
Dərdim dilimə sığmır.

Bir ömür addım-addım
Qəm yükünü daşıdım.
Elə günlər yaşadım,
Biri ilimə sığmır.

Bu baş-ayaq dünyada
Yoxdur çatan imdada.
Arzumu tutanda da
Gördüm, əlimə sığmır.

Məgər həyat zülümmü?
Qəm içində gülümmü?
Odummu çox, küllümü?
Odum külümə sığmır.

Narahatam, narahat,
Bəlkə ölüm son nicat?
Bəzən olur, bir həyat
Min bir ölümə sığmır.

*İyun 1994*

## «MƏNİMİZİ»
## «BİZLƏŞDİRƏK»

Əlbəyaxa savaşdadır,
Bir bədəndə ağıl-ürək!
Dedim, bu zidd qütbləri
Birləşdirən bir əl gərək.

Vuruşdurduq biz «mən»ləri,
Calaq etdik xeyrə şəri.
Bu barışmaz düşmənləri
Biz nə qədər üzləşdirək?

Gah ona dön, gah buna dön!
Bəs deyilmi özsüzlüyün?
Bu bəladan xilas üçün
Özümüzü özləşdirək.

Pusur bizi şər məqamda,
«Mən», «mən» dedik hər məqamda.
Heç olmasa dar məqamda
«Mənimizi» «bizləşdirək».

*İyul 1993, Şəki*

## GİZLİDİR

Qışda bahar, baharda qış,
Seldə, suda od gizlidir.
Ağ buludda yamyaşıl ot,
Yaşıl otda süd gizlidir.

Nədir bu dərd, nədir bu qəm?
Gah bilirəm, gah bilmirəm.
Hər sevincdə bir dərd, ələm,
Hər dərddə umud gizlidir.

Vardan-yoxa bu dövrədə,
Küllü gördüm bir zərrədə.
Bir damcıda, bir qətrədə
Bu boyda vücud gizlidir.

Hər görüşdən bir intizar,
Hər sevincdən bir qəm doğar.
Hər sükutda bir haray var,
Harayda sükut gizlidir.

Hər hakimin məhkumu var,
Hər çökənin hücumu var.
Hər cütdə təkin tumu var,
Hər təkdə bir cüt gizlidir.

Gerçəyi var hər yalanın,
Gen yolu var hər dalanın.
Min bütə səcdə qılanın
Qəlbində bir büt gizlidir.

*İyun 1993*

## MƏNİM ŞİRİN XƏYALIM

Sükutun harayıdır,
Qəlbin cənnət payıdır,
Ümidin sarayıdır
Mənim şirin xəyalım.

Könül ki var, hər anda
Arzular sorağında…
Qışın oğlan çağında
Yaz ayı, may ayıdır
Mənim şirin xəyalım.

İlin ana dönməsi,
Göydən nur ələnməsi,
Ömrün təzələnməsi –
Mənim şirin xəyalım.

Dünənki xoş niyyətin,
Bugünkü cəsarətin,
Sabahkı həqiqətin
Yatdığı  çarpayıdır
Mənim şirin xəyalım.

*İyun 1995*

## BAXMIR

Həqiqət düz yolunda
Şəkkə-şübhəyə baxmır.
Yalan da öz yolunda
Dönüb gerçəyə baxmır.

Zorun ağzı bülöydə
Haqq həmişə gileydə.
İnsafın üzü göydə
Zülüm heç nəyə baxmır.

Bu gün xoşdur, bəs dünən –
Unutdunmu bunu sən?
Ucaldığı zirvədən
Heç kəs geriyə baxmır.

Dünya bir qumarxana,
Gör kim uda, kim yana.
Hər şey baxır zamana
Zaman heç nəyə baxmır.

*İyul 1993*

## DAŞ YERİNDƏ AĞIR OLUR

Yalan sözü eşitməkdən
Qulaqlar da yağır olur.
Məqamını keçirdinsə
Qora suyu çaxır olur.

Söz də gərək yana-yana
Qəlb oduyla cilalana.
Qalay çəkməsən qazana
Qala-qala paxır olur.

Tapmısansa amalını,
Çox bellәmə sağ-solunu.
Tutub getsən öz yolunu
Çəmən üstü cığır olur.

Divar hörmə cavan oğlan
Təməlsiz daş qalağından.
İki cinsin calağından
Kəhər olmur, qatır olur.

Gördüm gülü tumurcuqda
Yoxu-varda, varı-yoxda.
Ən zülmkar bir alçaq da
Yeniləndə fağır olur.

Hər otun öz zamanı var,
Yaxşısı var, yamanı var.
Hər kəsin öz meydanı var
Daş yerində ağır olur.

*Avqust 1994, Şəki*

# OYANIRIQ
# ÖLƏNDƏ BİZ

Pis günümüz yada düşmür,
Yaxşı gündə güləndə biz.
Tamlaşırıq, kiminləsə
Dərdimizi böləndə biz.

Ömür ki, çatdı gecəyə,
Könül düşür vicvicəyə.
Boylanırıq gələcəyə
Belimiz büküləndə biz.

Qəm yükümüz yordu bizi
İtirildi haqqın izi.
Bildik, bilmədiyimizi
Bir azacıq biləndə biz.

Bilinmədi aydın-açıq,
Kimdir yatan, kimdir ayıq.
Yaşayırkən yuxudayıq,
Oyanırıq öləndə biz.

*Mart 1994*

## BULANIR

Aranda içdiyin suyun
Gözləri dağdan  bulanır.
Bağ-bağça–çayır otundan,
Bostan – alaqdan bulanır.

Vicdan – haram bir tikədən,
Namus – kiçik bir ləkədən,
Sevgi – qurulan tələdən,
Könül – qulaqdan bulanır.

Məhəl qoymayıb sazağa,
Endim düzə, qalxdım dağa.
Daş dəyər gəzən ayağa,
Şalvar – balaqdan bulanır.

Bir eyhamdan, işarədən
Oldu könül pərən-pərən.
Söz deyilmiş qəlbə dəyən –
Bulanan haqdan bulanır.

*1996*

## UCUZ

Bu gün bizim bazarda
İpək, sətindən ucuz.
Balımızı satmışıq
Alça mətindən ucuz.

Ağ – qara, uzaq – yaxın,
Hara gedir bu axın?
Dəyanət bir alçağın
Xəyanətindən ucuz.

Dərdlərimiz artalı
Dəymiş bildik hər kalı.
İndi göyün qartalı
Yerin bitindən ucuz.

Qəhr edilsə imanın,
Nə günahı zamanın?
İndi nə var, insanın
Ləyaqətindən ucuz?

Üzə gülmür qədər də
Necə dözək bu dərdə?
Təzə məzənnələrdə
Atın itindən ucuz.

*1996*

## GÜNƏBAXAN OLMUŞAM

Qılınc kimi kəsərdim,
Dönüb qalxan olmuşam.
Ömrümün zirvəsindən,
Düzə baxan olmuşam.

Əridim gilə-gilə,
Ağladım gülə-gülə.
Dünənin həsrətilə,
Ürəyi qan olmuşam.

Əsərəm külək kimi,
Açaram ləçək kimi.
Mən qışda şimşək kimi,
Birdən çaxan olmuşam.

Çox əymə bu dəhnəni,
O üyütməz bu dəni.
Öz oduma özgəni
İndi yaxan olmuşam.

Xəbərsizəm özümdən,
Öz əyrimdən, düzümdən.
Gün batandan sonra mən
Günəbaxan olmuşam.

*Fevral 1996*

## ZAMAN MƏNİM İÇİMDƏDİR

*Mən qürbətdə deyiləm,*
*Qürbət mənim içimdə.*
**K.Kamu**

Gah qabarıb, gah çəkilən
Tufan mənim içimdədir.
Çox qınama o çərxi sən
Dövran mənim içimdədir.

Hardan əsdi dəli rüzgar?
Bu gün dərd də məndən bezar.
Könlüm oldu xarabazar
Talan mənim içimdədir.

Tapmaq üçün doğru yolu,
Çox bəllədim sağı, solu.
Həm dost, həm də ən qorxulu,
Düşmən mənim içimdədir.

Mən aranda dağ istədim,
Zil qaranı ağ istədim.
Zamandan qaçmaq istədim
Zaman mənim içimdədir.

Dərədəki çən çən deyil,
O dağdakı duman deyil,
O inləyən kaman deyil.

O çən mənim içimdədir,
Duman mənim içimdədir,
O inləyib nalə çəkən
Kaman mənim içimdədir.

*Avqust 1996*

## DƏRD OLUB

Bu dünyanın şilləsi
İndi yaman sərt olub.
Qaçqın dağ övladına
İsti aran yurd olub.

Nə çox imiş darğalar,
Hər döngədə biri var.
Yalvarışlar, dualar
Dodaqlarda vird olub.

Cahil qazıya dönmüş
Tülkü tazıya dönmüş.
Qurdlar quzuya dönmüş,
Quzularsa qurd olub.

Zaman haqqı ovladı,
Dilləri buxovladı.
İndi insan övladı
Özü boyda dərd olub.

*İyul 1997*

## ÖMRÜN AXŞAM ÇAĞINDA

Zaman yaman amansız,
Vaxt keçir, zaman keçir.
Bütün itirdiklərim
Yada düşür birbəbir
Ömrün axşam çağında.

Taleyimi görürəm
Vaxtın qaşqabağında.
Öz yaşına sadiq ol
Ömrün axşam çağında.

Bir könül-iki sirdaş
Danışır öz-özüylə.
Baxıram bu dünyaya
Öz ağlımın gözüylə
Ömrün axşam çağında.

Çəkilir xeyrim şərim,
Artır qəmim, kədərim.
Yada düşür səhərim
Ömrün axşam çağında.

Vaxtla əl-ələ versən,
Öz haqqını bularsan.

Səhərin sevdasına
Düşsən, gülünc olarsan
Ömrün axşam çağında.

*1998*

## MİLLƏTİM

Sən dahilər yurdusan
Ay mənim məmləkətim?
Özümə düşmən olub
Aşıb-daşan sərvətim.

Bir vaxt sən də xan idin,
Vaxta hökmüran idin.
Dövlətlər quran idin
İndi sənə nə oldu,
A qullaşan millətim?

Daşından da zər bitər,
Yeddi arxana yetər.
Dilənçidən beşbetər
Yoxsullaşan millətim.

Namusuyla, arıyla,
Keçdiyi yollarıyla,
Böyük oğullarıyla
Oğullaşan millətim.

Savaş hünərləriylə,
Qəhrəman ərləriylə,
Böyük zəfərləriylə
Nağıllaşan millətim.

Dəmir qıran dişiylə,
İgidlik vərdişiylə,

Öz şanlı keçmişiylə
«Sağollaşan» millətim.

Bu xalqın öz övladı
Öz-özünü ovladı.
Səbrini buxovladı
Səbri daşan millətim.

Necə dözdün bir belə
Müsibətə, müşkülə?
Çəkdiyi sitəm ilə,
A yollaşan millətim?

Nə gündəsən, nə gündə?
Qor qalmayıb külündə.
Qeyrətsizlər əlində
Bu gün caşan millətim.

İstəyirəm çaşmaya,
Dərdiylə yollaşmaya,
Bir daha qullaşmaya
Xan oğlu, xan millətim.

*May 1998*

## AĞILA SƏRHƏD

*Ağıl həddindən artıq inkişaf edərsə,*
*xarakteri pozar*

**Ribot**

Dəyişmirsən fikrini
Lap bu dünya dağıla.
Öz hikkəndə qalmısan
Sən boğula-boğula.

Tərgit bu fironluğu,
Minlik bilmə onluğu.
Aldanmısan sonluğu
Toyla bitən nağıla.

Əhsən dedim, min əhsən
Ayrılmayıb kökündən,
Gələcəyi bu gündən
Görə bilən oğula.

Ömür hədər, gün hədər,
Kim özünə qəsd edər?
Əsl ağıl bir qədər
Sərhəd qoyar ağıla.

*Noyabr 1998*

# İLAN - QARTAL

Hər kəsin öz məramı,
Öz məqsədi, öz yolu.
İlan ki var, həmişə
Əyri keçər düz yolu.

Düzlük – haqqı bulanın,
Ona səcdə qılanın.
Əyri keçmək-ilanın
Məramsız, yolsuz yolu.

Ən vacibi qartala
Uçmağa meydan ola.
İnsan düşür bir yola
Seçə-seçə yüz yolu.

Üz tutsan yüz tərəfə,
Oxun dəyməz hədəfə.
Uzanacaq yüz dəfə
Keçsən könülsüz yolu.

*Avqust 1998*

## BİZİ

Bu nə zülmət, bu nə zillət?
Xırpaladı həyat bizi.
Habil, götür kamanını
Ağlat bizi, ağlat bizi.

Min bəlaya, dərdə tuşuq,
Amma vaxta züy tutmuşuq.
Ağlamağı unutmuşuq
Ağlamaqla aldat bizi.

Taleyimiz yana döndü,
İçdiyimiz qana döndü.
Dünya bir zindana döndü
Əzib tökdü qat-qat bizi.

Günəş doğdu, dan atmadı,
Bir diləyə əl çatmadı.
Bu zülmətdən çıxartmadı
Mindiyimiz ağ at bizi.

*İyul 1998*

## ÖYRƏTDİKCƏ ÖYRƏNMİŞƏM

Nöqsanımı gördüyüm an
Öz-özümdən heymənmişəm.
İçimdəki savaşlarda
Gah yenilmiş, gah yenmişəm.

Addımbaşı «mənəm"» deyən,
Səhvindən dərs götürməyən,
Özündə qüsur görməyən
Müştəbehdən iyrənmişəm.

Ömrü çox azdır riyanın,
Daşa çəkilən boyanın.
Özünü beş min sayanın
Qarşısında mən də beşəm.

Göz önümdən çivil-çivil
Gəlib keçdi neçə nəsil.
Dərs öyrətdim düz qırxca il
Öyrətdikcə öyrənmişəm.

Bəzən haqqım nahaq olub,
Gül-çiçəyim alaq olub,
Özümü danlamaq olub
Ömrüm boyu işim, peşəm.

*Dekabr 1998*

## BAX

Tamlığı dərk etmək üçün
Bir yerə bax, bir göyə bax.
Haqq danışır lap astadan,
Yalandakı səs-küyə bax.

Haqqı yenirkən nahaqlar,
Haqq sabaha ümid bağlar.
Biri gülər, onu ağlar
Sən ağlayan bəndəyə bax.

İnsanıqsa, insaf hanı?
Tapdayır insan insanı.
Kələ-kötür bu dövranı
Hamarlayan rəndəyə bax.

Yalan elə gəliş gəldi,
Həqiqət geri çəkildi.
Atam ancaq saya bildi
Anam kəsən kündəyə bax.

Zülmü gördük neçə donda,
Məzlumların sırasında.
Haqla nahaq arasında
Sözlə dolan xəndəyə bax.

*Dekabr 1998*

## AĞIL BAŞQA,
## ÜRƏK BAŞQA

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.
Ətri də xoş, rəngi də xoş
Gül başqadır, çiçək başqa.

Hər diki yoxuş bilmə, gəl,
Hər meyi meyxoş bilmə, gəl.
Hər uçanı quş bilmə, gəl
Quş başqadır, böcək başqa.

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm,
Sən çəkənsən, mən gələnəm
Gəmi başqa, yedək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur,
Xeyirlə şər sağ – solumdur
Şeytan başqa, mələk başqa.

Bir diləyə mən calandım,
Gah qazandım, gah talandım.
Ömrüm boyu haçalandım
Ağıl başqa, ürək başqa.

Dilək oldu mənim adım,
Pərvazlandı qol-qanadım.
Çatmadı səbrim, inadım
Əməl başqa, dilək başqa.

*Noyabr 1998*

## BELƏ GETSƏ...

Bir sirdaş istəyirik
Qəlbimizi duyacaq.
Təmizsə, qəlbimizi
Gəlin, özümüz açaq.

Acgöz yedikcə acar,
Dilənçiyə əl açar.
Zənn etmə ki, tamahkar
Axır bir gün doyacaq.

Ucaldıqca, biz endik,
Düz yoldan geri döndük.
Özümüzü düşündük,
Özümüzü biz ancaq.

Qana həris zəlilər
Sorduğunu az bilər.
Belə getsə, ölülər
Mürdəşiri yuyacaq.

*Oktyabr 1999*

## GERÇƏK ÖLDÜ, YALAN YOX

Allah, bu nə dünyadır,
Ağlayan çox, gülən yox?
Bu qəribə işlərin
Axırını bilən yox.

Dərdimi çox bəslədim,
Göz yaşımla süslədim.
Sonra satmaq istədim
Bir quruşa alan yox.

Yalanla çox vuruşduq,
Haqqın ardınca qoşduq.
İstiqlala qovuşduq
Gerçək öldü, yalan yox.

*Oktyabr 1999*

# OLUR

Davanı yatırdanın
Özü sonra xar olur.
Murdarı pak eyləyən
Pak özü murdar olur.

Hər şey yaranışından
Dəyişir zaman-zaman.
Ən rəhmdil bir insan
Kürsüdə qəddar olur.

Gözü acdır doyanın,
Bu xalqı lüt qoyanın.
El üçün ağlayanın
İşi ahu-zar olur.

Ürəkdəki arzular
Gah açılar, gah solar.
Dağlarda itən sular
Dərələrdə car olar.

Öz hökmü var hər anın
Gücünə bax şeytanın.
Günahkarı tapanın
Özü günahkar olur.

*Oktyabr 1999*

## MƏNDƏ BİZ

Axtarırıq Günəşi
Dumanda biz, çəndə biz.
Anlayırıq həyatı
Ölümü görəndə biz.

Arxada – iz salanlar,
Qarşıda – dar dalanlar,
Ayılırıq, yalanlar
Gerçəyə hürəndə biz.

Bir ahəng üstündə xor
Dönür bircə səs olur.
Çoxumuz naqis olur
Təki itirəndə biz.

Bir bütövdür bu Vətən
Bunu bilmir hər yetən.
Yaşanmasa səndə mən,
Yaşayammaz məndə biz.

*May 1999*

# BALIM YOXDUR

Öz içimdən keçənləri
Dinləməyə halım yoxdur.
Sanıram kilim toxudum,
Bircə fərli xalım yoxdur.

Oda girdim, suya girdim
Mən də sevib sevilirdim.
O vaxtlar elə bilirdim
Bu dünyada ölüm yoxdur.

Alışdığım çox ilim var,
Əllərimdə boz külüm var,
Ağım, qaram, yaşılım var,
Qırmızım yox, alım yoxdur.

Bəzən çiçək, bəzən yonca
Becərdim ömrüm boyunca.
Bu dünyaya bir doyunca
Baxmağa macalım yoxdur.

Qamçı vurub sola, sağa,
At çapırdım dağdan-dağa.
İndi ayağa durmağa
Taqətim yox, halım yoxdur.

Əzabımmış mənə qalan,
Mənciyəzi məndən alan.
Cır arıyam, qulaq dələn
Vızıltım  var, balım yoxdur.

*Oktyabr 1999*

## GƏTİRƏR

Həddən artıq isti keçən
Yay da qışı sərt gətirər.
Qışın sərti əlacsıza,
Kimsəsizə dərd gətirər.

Əsl tacir dingiş deyil,
Öz malını peşkəş deyil,
Biri verib on beş deyil,
Üçü verib, dörd gətirər.

Quşbeyin zəngin gədalar
Evində təbərrük olar.
Yad ölkədə təhsil alar
Qayıdanda mırt gətirər.

Mən özgəyəm başqasına
Sən məni özümdə sına.
Naşı özgə yuvasına
Yad toyuğu kürt gətirər.

Qismət kimi sən bax buna –
Hər kəsin öz ruzusuna.
Çoban xəstə quzusuna
Öz əlində ot gətirər.

Vay o günə, yaxşı pisə
El malını qurban desə.
Hürməyini bilmədisə,
İt obaya qurd gətirər.

*Yanvar 1999*

## ÇİYDİM

*«Çiydim, bişdim və yandım»*
**Cəlaləddin Rumi**

Qılınc kimi kəsərdim
Paslanmışam qında mən.
Vurnuxuram həyatla
Ölüm arasında mən.

Ömürdə iki məqam:
Bir səhər var, bir axşam.
İndi bilməm: Durmuşam
Ömrün harasında mən?

Sinə gərib axına
Düşdüm yolun ağına.
Baxıb hünər dağına,
Qaldım dərəsində mən.

Öz rəngimə boyandım,
Hər əzaba dayandım,
«Çiydim, bişdim və yandım»
Həyat kürəsində mən.

*May 1999*

## GEDƏR OLMAZ

Cəsarətdə çəkingənlik,
Ehtiyatda hünər olmaz.
Cürət basar qorxaqlığı,
Cəsarətsiz zəfər olmaz.

Bir anaya oğuluq biz,
Ona borclu bir quluq biz.
Varsa Vətən qeyrətimiz,
Bu Vətənə xətər olmaz.

Həm böyütdü Vətən bizi,
Həm ucaltdı şənimizi.
Yolunda öz sinəmizi
Çəpər etsək yetər olmaz.

Nə eybi var unudulsam,
Dərdə, qəmə sipər olsam.
Mən Vətəndən gedər olsam,
Vətən məndən gedər olmaz.

*İyul 1999*

## ƏMANƏT KİMİ

Sona çatır ömür, gün
Tükənən sərvət kimi.
Biz qovuşa bilmədik
İki qoşa xətt kimi.

Bəxtini yamanlama,
Öz-özünü danlama,
Bu taleyi anlama
Eşqə xəyanət kimi.

Yoxuşam, enişəm mən,
Dolanan gərdişəm mən,
Könlümü vermişəm mən
Sənə əmanət kimi.

Su gəldi, göl dolmadı,
Bulandı, durulmadı.
Heç kəs üçün olmadı
Bu dünya cənnət kimi.

*Fevral 1996*


NƏĞMƏLƏR

*Bir ananın alqışı*
*Min övlada bəs edər.*
*Bir ananın qarğışı*
*Bu dünyanı tərpədər.*

B. Vahabzadə



## ÖMÜR UZUN,
## ÖMÜR QISA

Uzun ömür qısa gəlir,
Hər insan yaşa dolanda.
Qısa ömür uzun gəlir
Ötən günlərə dalanda.
Ömür uzun, həm də qısa
Qəmdə uzun, dəmdə qısa.

Həm uzundur, həm qısadır,
Yüz il yaşasan da ömür.
Milyon illər yanan ulduz
Sönəndə bir anda sönür.
Ömür uzun, həm də qısa,
Qəmdə uzun, dəmdə qısa.

Həyat gülür üzümüzə,
Həm də bizdən qisas alır.
Daşlı yolda yol uzanır,
Hamar yolda yol qısalır.
Ömür uzun, həm də qısa,
Qəmdə uzun, dəmdə qısa.

*Yanvar 1990*

## ANA

Hər ölkədə anadır
Ana deyilən ana.
Anamız yer dolanır
Anaların başına.

Bir ananın alqışı
Min övlada bəs edər.
Bir ananın qarğışı
Bu dünyanı tərpədər.

Milyon ana ah çəkər
Bir övlad günahından.
Dünya qara geyinər
Bir ananın ahından.

Hara gedir içindən
Yana-yana dünyamız.
Analar istəyincə
Kaş, dolana dünyamız.

*1992*

## BİZ VƏTƏNÇÜN DOĞULDUQ

Vətənin arxasında
Biz həmişə dağ olduq.
Vətən bizimçin deyil,
Biz Vətənçün doğulduq.

Toxunmasın bu yurda
Bir an düşmən nəfəsi.
Gəlsin minarələrdən
Allahü-Əkbər səsi.

Başımızın üstündə
Məmmədəmin bayrağı.
Güllə qorxar igiddən,
Güllə tutar qorxağı.

Vətən adlı ocağa
Hər gün isinmək şərəf.
Bu torpağın yolunda
Torpağa dönmək şərəf!

*1992*

## ANA YURDUM

Anaların laylasından,
Babaların tarlasından,
El toyundan, el yasından
Səni içdim udum-udum,
Ana yurdum, ana yurdum.

Bağ gülündə, dağ qarında,
Sel-suların axarında,
Palıdların vüqarında
Səni gördüm, ana yurdum,
Ana yurdum, ana yurdum.

Yay mehində, yaz şehində,
Quşlarının cəhcəhində,
El qəmində, fərəhində
Səni duydum, ana yurdum,
Ana yurdum, ana yurdum.

Füzulinin «ah» səsində,
Üzeyirin nəğməsində,
Ələsgərin ləhcəsində
Səni andım, ana yurdum,
Mənim andım, ana yurdum.

*1992*

# İLAHİ

*R.Mirişli bəstələmişdir*

Adını zikr edir gecəbəgündüz
Ağaclar, yarpaqlar, dallar, ilahi.
Könlümü, ruhumu aparır sənə
Keçdiyim dolama yollar, ilahi.

Bir cana borcluyuq, al canımızı,
Alma əlimizdən imanımızı.
Arındır, barındır zamanımızı
Açılıb qarşında əllər, ilahi.

Endirib zirvədən dağı, yol etmə,
Acgöz nəfsimizə bizi qul etmə.
Namərdi millətə sən oğul etmə,
Yoxsa, yazıq olar ellər, ilahi.

Ən böyük arzumuz: yol göstər bizə,
Fövqünə ucalaq, bu, yetər bizə.
Səni dərk etməyə ağıl ver bizə,
Duasız qalmasın dillər, ilahi.

Uymayaq dolanan çərxi-dövrana,
İnamla, ümidlə əl açdıq sana.
Gözünü göylərə dikən insana
Dərd yükü olmasın illər, ilahi.

Sən işıqla doldur ürəyimizi
Biz səndən umuruq diləyimizi.

Bir daha qul edə bilməsin bizi
Quzeydən baş alan yellər, ilahi.
Qaldır pərdələri sən gözümüzdən,
Millət seçə bilsin əməli sözdən.
Çox ayrı düşmüşük öz-özümüzdən
Bizi özümüzə qaytar, ilahi.

*Dekabr 1992*

## SƏNSİZ

*A.Bədirov bəstələmişdir*

Sənsiz bir cəllad kimi
Dünya durur üzümə.
Sənsiz mənim öz evim
Qürbət olur özümə.

Yalnız sənin yanında
Mən harayam, həşirəm.
Sənsiz mənim özüm də
Dönüb mənsizləşirəm.

Sənsiz mənim özümə
Özüm belə sirr olur.
Min-min fikrim, xəyalım
Sənsiz dönüb bir olur.

Sən də mənsiz bu dərdi
Mənim qədər çəkənsən.
Mənim ilkim də sənsən,
Mənim sonum da sənsən.

*Avqust 1991*

## SƏNSİZLİYİN İÇİNDƏ

İtdi, tamam yox oldu
Ağıl beyin içində.
Mən özümü itirdim
Sənsizliyin içində.

Haqqın yaman bağladı
Haqqa gedən yolumu.
Ürəyim qan ağladı,
Sarıdılar qolumu.

Danır, durub üzümə
Bu günümü ürək də.
Bir gözüm keçmişdədir,
Bir gözüm gələcəkdə.

İndi mənim özlüyüm
Özümə namərd olub.
Özümsüzlük dərd deyil,
Sənsizliyim dərd olub.

*Avqust 1992*

## YAŞIMA KÖKS ÖTÜRDÜM

Könül gah sakit dəniz,
Gah çovğun, gah boranmış.
Bir qaydaya uyuşmaz
Çünki oddan yaranmış.

Könül üçün dörd deyil,
Neçə-neçə cəhət var.
Eşqdən yoğrulmuşa
Nə hüdud var, nə hədd var.

İllərdən dərs götürdüm,
Yaşıma köks ötürdüm.
Gerçək deyir, qocayam,
İstək deyir, nə gördüm?

Gah aşıb daşar könül,
Gah zildən düşər könül.
Dörd fəsli, dörd mövsümü
Bir gündə yaşar könül.

*İyul 1994*

## QİSAS BÖYÜTSÜN SƏNİ

*V. Adıgözəlov bəstələmişdir*

Əsən çovğun bu gecə
Qar üstünə qar qalar.
Düzəngahda qurulmuş
Çadırımı yırğalar.
Görən, bizə nə deyir
Qarıldaşan qarğalar
Layla balam, a layla.

Qulağımız hamıdan
Bir xoş xəbər soraqlar.
Sızıldayan külək də
Dərdimizə qan ağlar
Layla balam, a layla.

Rəva bildi tanrımı
Bizə bu işgəncəni?
Mən böyüdə bilmədim,
Qisas böyütsün səni
Layla balam, a layla.

Göy bizə qənim olsun
Bu zülmü yerdə qoysaq.
Qoy bizə qənim olsun
Qaçdığımız o torpaq!
Layla balam, a layla.

*Yanvar 1994*

## AMİN, İLAHİ, AMİN

*Tahir Əkbər bəstələmişdir.*

Ulu tanrım, adına
Açılıb əllərimiz.
Sevərək könlümüzü
Sənə verdik, sənə biz.
Sənə hey şükr eləsin
Açılan dillərimiz.
Bizə rəhm et, ərisin
Acı müşküllərimiz
Amin, ilahi, amin!

Yetiş imdadımıza
Bizə yol göstər özün.
Səni dərk etmək üçün
Bizə idrak ver özün.
Bir-birindən xoş ola
Ötən hər bir çağımız.
Günü-gündən ucala
Bu Vətən torpağımız
Amin, ilahi, amin!

Olalım yurda dayaq
Bəd əməllərdən uzaq.
Bizə örnəkdi bu gün
Yolu əcdadımızın.

Çəkəlim namusunu
Ulu türk adımızın.
Ulu tanrım, bizi sən
Qoru şərdən, çilədən.

*1990*

## AZƏRBAYCAN - TÜRKİYƏ

*Cavanşir Quliyev bəstələmişdir*

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan-Türkiyə.

Bir ananın iki oğlu
Bir ağacın iki qolu
O da ulu, bu da ulu
Azərbaycan-Türkiyə.

Ana yurdda yuva qurdum
Ata yurda könül verdim
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə.

Birdir bizim hər halımız
Diləyimiz, amalımız
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə.

*1991*

## BÖYLƏ İMİŞ FİTRƏTİMİZ

Nəfsimi aşmaq istədim,
Haqqa qovuşmaq istədim.
Yerdə süründüyüm yetər,
Mən göyə uçmaq istədim.

Neyləyim ki, bacarmadım,
O yüksəkliyə varmadım.
İstəyimin bayrağını
Mən sonadək aparmadım.

Nəfsini aşan oldumu –
Haqqa ulaşan oldumu?
İnanmıram, inanmıram,
Gördüyümü danammıram.

Böylə imiş fitrətimiz,
Ağlımızı gör necə biz
Nəfsimizə qul elədik,
Yanlışı bol-bol elədik.

Qəsdimizi, şəstimizi
Şeytan üçün yol elədik.
Nəfsi fərasətli gəda,
Vicdanı yoxsul elədik.

*1996*

## MƏN GEDİRƏM, YOXSA, AY?

Ay işığı… yol uzun,
Göydə bulud laybalay.
Açılıb göy üzünün
Qapıları taybatay.

Bir qübbədir göy tağı,
Bulud Ayın yaşmağı.
Bu gözəlin sol-sağı
Ulduzlar alay-alay.

Yolum düşüb çəməndən,
Nur gölündə çiməndən.
Kəsdirə bilmirəm mən,
Mən gedirəm, yoxsa, Ay?..

*İyul 1997*

## İŞIQLA

İnsaf, vicdan, mərhəmət
Qəlbə dolar işıqla.
Ən dəhşətli, ən qatı
Şər boğular işıqla.

Yordusa dünya səni,
Boğ qəlbində qüssəni.
Kölgəylə yox, kölgəni
Qovmaq olar işıqla.

Nədir bu qeylü-qallar?
Bu haramlar, halallar?
Xəyallar, xoş xəyallar
Qəlbə dolar işıqla.

Sən zora bax, nura bax,
Biri zülüm, biri haqq.
Zülüm, zülmətlə, ancaq
Haqq doğrular işıqla.

*İyul 1997, Şəki*

## FALÇI

*Cavanşir Quliyev bəstələmişdir*

Tabım yoxdur bu dərdlərə
Falçı, mənim falıma bax.
Bu günümdəm xəbərdaram,
Sən sabahkı halıma bax.

Dünya özü bir təlxədi
Gah bağırdı, gah mələdi.
Yaman bizə zülm elədi
Dünya adlı zalıma bax.

Dərd gəlib məndə qışladı
Həm daşladı, həm xışladı.
Üz-gözümü naxışladı
Gəl, mənim cəlalıma bax.

Biləmmədim, axı, nədən
Bu dərdləri mənəm çəkən.
Dəymişim  budaqda ikən
Sən tökülən kalıma bax.

Sanırdım ki, gün gələcək,
Müşkülümüz çözüləcək.
Üz güləcək, göz güləcək
Puç olan xəyalıma bax.

*Oktyabr 1997*

## YUXULUYAM, YUXULU

Boşalıram, dolmuram
Çaşdırmışam sağ-solu.
Axtarıram bulmuram
Allaha gedən yolu.

Necə çatım mən ona?
Şeytan girir min dona.
Daş atır haqq yoluna
Azır Allahın qulu.

Özüm-özümə qənim
İçimdədir düşmənim.
Yolumu kəsmiş mənim
Bağ çəpəri, dağ kolu.

Hər bütə ram olmuram,
Dönüb səcdə qılmıram.
Daş dəyir, ayılmıram
Yuxuluyam, yuxulu.

*Avqust 1998*

## DƏRSƏ GEDƏN DİLARƏM

*E.Mansurov bəstələmişdir.*

Sənə can-can dedikcə
Ay  nazlanan Dilarəm,
Qayğımızla quş kimi
Pərvazlanan Dilarəm.

N ə q ə r a t:

Babasının güvənci,
Nənəsinin sevinci.

Tez böyümək istəyir
Gül qızım, çiçək qızım.
Hər gün boyunu ölçən,
Ay mənim göyçək qızım.

Daha nə gərək sənə?
Oyun-oyuncaq, qızım.
Sən daha məktəblisən,
Ay mənim şıltaq qızım.

Gecələr gec yatmağı
A tərgidən Dilarəm,
Qardaşıyla əl-ələ
Dərsə gedən Dilarəm.

*1999*

## SAVABIMIN YAŞDAŞIYAM

Bir məbəddə dua etdim,
Təzələndi gün, ahımdan.
Çiynim yükdən azad oldu,
Təmizləndim günahımdan.

Xəyalımdan bulud ötdü,
Ürəyimdə çıraq yandı.
Elə sandım, bu məqamda
Günahlarım bağışlandı.

Günahları dəfn elədim
Məzarına baş daşıyam.
Günahlarım ölən andan,
Savabımın yaşdaşıyam.

*1999*

## OXU GÖZÜMDƏN MƏNİM

Gözlərimin nurunda
Bərq vurur dərd-sərim.
Sükutumun dilidir
Mənim düşüncələrim.

Nədir bu düşüncələr?
Dilə gətirmək – çətin!
Varmı bilən dilini
Zülmətdəki zillətin?

Gör necə dəyişmişəm
Soldu gülüm, gülşənim.
Çəkdiyim əzabları
Oxu gözümdən mənim.

Könlümün ağrısını
Kimə deyim mən, kimə?
Həkimlər də dərdimi
Dərman bildi dərdimə.

*İyul 1999, Şəki*

## PEŞİMAN

Atdığım hər addımım
Xətalarla doluymuş.
Ömür yolum, heç demə,
Peşimanlıq yoluymuş.

Ümidlərim puç oldu,
Arzularım heç oldu.
Hara getdi bəs iman?
Sevincimə peşiman,
Kədərimə peşiman.

Yaşanan illərimə,
Günlərimə peşiman.
Xeyrimə də peşiman,
Şərimə də peşiman.

Xoşbəxtliyin taxtına
Nə ümid var, nə güman.
Dünyanın bu vaxtına
Düşməyimə peşiman.

Qazandığım şöhrətə,
Mən bu ada peşiman.
Hissimə də peşiman,
Ağlıma da peşiman.

Mən dünyaya gələndə
Sevindilər bir zaman.
Mən indi bu dünyaya
Gəlməyimə peşiman.

*Sentyabr 1999*

## HAQQA TAPINMAQ

Mən əl açıb Tanrıya
Bəxtimizi aç dedim.
Neyləyim, insan bu gün
Haqqına möhtac dedim.

Borcumu dərk eylədim,
Haqqımı tapdım, demək.
Haqqımı dərk eylədim,
Haqqa tapındım, demək.

Haqqa gedən düz yolum
Ağlım ilə doğrulur.
Ağlına təslim olan
Tanrıya təslim olur.

*May 1999*

## DƏNİM ÜYÜDÜLMƏDİ

Bir uzunca səfərə
Çıxdı ömür karvanı.
Uzun yolda itirdim
Bələdçini-sarvanı.

Pay bölənlər görüşdü
Görün, kimə nə düşdü.
Çərdəyi mənə düşdü
Rəqib yedi xurmanı.

Fələk bir qınaq üstdə
Dağı çəkdi dağ üstə.
Yağı tökdü yağ üstə
Yavan qoydu yarmanı.

Arxıma su gəlmədi,
Bəxt üzümə gülmədi,
Dənim üyüdülmədi,
Qınadım dəyirmanı.

*İyul 1999*

## HƏYAT YAŞASIN DEYƏ

Çox qorxardım ölümdən
O, məndən uzaq ikən.
İndi yaxınımdadır
Bəs niyə qorxmuram mən?

Qorxdum, ya da qorxmadım
«Gedər gəlməzdir» yolum.
Gerçək budur: Ölümə
Davasız təslim olum.

Aldanıb nağıllara
Uyma ölümsüzlüyə.
Ölüm yaşamalıdır,
Həyat yaşasın deyə.

*İyun 1999*

## HARA GEDİR BU DÜNYA?

***(Eyni adlı pyesdən)***

Başa keçdi gerçəyi
Əlimizdən çalanlar.
Bu dünyanın rəngini
Dəyişdirdi yalanlar
Hara gedir bu dünya?

Bu gözəl dünyamızdan
Gözəllik qovuldu, hey.
Könüllərin açarı –
Dillər qıfıl oldu, hey.
Hara gedir bu dünya?

Hər şey döndü tərsinə
Xeyir şərə qul oldu.
Haqqın çiyninə minmək
Yüksəlişə yol oldu
Hara gedir bu dünya?

Yalan evin içində
Gerçək qapı dalında.
Doğru çörəyə möhtac
Əyri cah-cəlalında
Hara gedir bu dünya?

Yolumuz duman olmuş,
Yaxşılar yaman olmuş.
Haqq bu gün öz haqqını
Haqsızdan uman olmuş
Hara gedir bu dünya?

*1996*

## ÖMÜR QATARI

### *("Sonuncu döngə")*

*E.Mansurov bəstələmişdir*

Bu yollardan qatar ötdü,
Qulağımda səsi qaldı.
Tükənsə də canda taqət,
Yaşamaq həvəsi qaldı.

Dayazda gördüm dərini,
Xeyirdə gördüm şərini.
Ömrün yaxşı günlərini
Yola saldım, pisi qaldı.

Ömür ki, var bircə qarış,
İlki savaş sonu barış.
Qatar ötdü qırış-qırış
Üz-gözümdə hissi qaldı.

Unudulub çoxdan bəri,
Dünyanın toy-düyünləri.
Ötüb keçdi şən günləri,
Dərdi, qəm-qüssəsi qaldı.

Qatar gedir özbaşına,
Yetdim ixtiyar yaşına.

Çatıram mənzil başına,
Sonuncu döngəsi qaldı.

*İyun 1996*


POEMALAR

İnsan olmaq üçün uşaq dil açar
Yasaqlar önündə biz dilsiz olduq.
Dil varsa, xalq da var, şan-şöhrət də var
Dil yoxsa, millət yox, heç varlıq da yox.





# İSTİQLAL

***(«Gülüstan» poemasının II hissəsi)***

*M.Cöhrəqanlıya*

**1**

Zərurət görmədim təsadüf qədər
Məqsədə yönəlir bu başsız axın.
Məndən rica etdi bir vətənsevər*.
Yazım davamını mən «Gülüstan»ın.

Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı.
Arazın suyunda enib qalxaraq
Ürəkdə bəslənən arzular axdı.

Torpağa düşmədi apardı yellər
Arzu toxumları sulara düşdü.
Yandı, pörşələndi həsrət könüllər
Yenə bu minvalla illər ötüşdü…

«Gülüstan» adicə haraydı, haydı
Qulaqlar kar olur biz qışqıranda.

*İshaq Ozan oğlu.

Mən onu yazanda şah zamanıydı,
Başqa bir zamandır indi İranda.

Millət qarşılaşdı başqa yasaqla
Çəkdi imtahana böcək, quşları.
Üsullar dəyişdi, gedən  bıçaqla,
Gələn pambıq ilə kəsdi başları.

Dünya çalxalandı, sular duruldu
Tərsinə dolandı əsrin məhvəri.
Zaman hökm elədi, vaxt hakim oldu
Ayağa qaldırdı qul millətləri.

Qullar silahlandı qəzəbdən, kindən
Ayıra bildilər dumandan sisi.
Qovdu ağasını məmləkətindən
Kölə Afrikanın kölə zəncisi.

Göyə dirək oldu amanım, ahım,
Halalca haqqımız bizdən yan qaçar.
Zəncinin baxtını açan Allahım
Bəs mənim bəxtimi nə zaman açar?

Yaman uzun çəkdi hökmü bu qəsdin,
Ayrılıb ikiyə döndü bir Vətən.
«Gülüstan» adlanan o ifritənin
Kağızı, qələmi nədənmiş, görən?

O kağız, o yazı yumdu gözləri
Yanan ürəklərdə od külə döndü.

Bizim aramızda o gündən bəri
«Gülüstan» tikanlı məftilə döndü.

Baş idik, ayağa indi yol olmaq
Bizi dərdimizə bu gün yad eylər.
Bir vaxt hakim ikən dönüb qul olmaq
Bizim bəxtimizə yazılmış məgər?

Bir vahid millətə, iki hakimin
Dili doğmalaşdı…Bu lap ağ oldu.
Doğma anamızın şəkərdən şirin
Bizə öyrətdiyi dil yasaq oldu.

Hakimlər özü də bilirdi aşkar
Mənim öz dilim var, öz tarixim var.
Siz haqqın üzünü boyalayırkən
Həqiqət də aydın, yalan da aydın.
Yüz min erməninin məktəbi varkən,
Yirmi milyon türkə onu qıymadın.

Dinində, təröndə bizimlə birkən
Yasandan sən mənim haqqımı sildin.
Dininə düşməni əzizləyirkən,
Sən öz dindaşına düşmən kəsildin.

Özündən, sözündən qaçaq dilimiz
İslanıb üşüdü qarda, çisəkdə.
Yüksək məqamlarda yasaq dilimiz
Qovulub yaşadı kənddə, kəsəkdə.

İnsan olmaq üçün uşaq dil açar
Yasaqlar önündə biz dilsiz olduq.

Dil varsa, xalq da var, şan-şöhrət də var
Dil yoxsa, millət yox, heç varlıq da yox.
Soruşduq: – Dilimiz yoxsa, biz kimik?
-Farsdan dönməsiniz – dedilər bizə.
Baxıb gözümüzün içinə dimdik,
Onlar qəsd elədi mənliyimizə.

Belə «tarixçilər», belə nadanlar
Sizdə də, bizdə də dürəkdir ancaq.
Düşmən olsalar da millətə onlar,
Hakimi-mütləqə dirəkdir ancaq.

Firdovsin söz açdı türk oğlu kimi
Əfrasiyab adlı Alp Ər-Tunqadan.
Məgər fars idimi sizin Rüstəmi
Döyüşə çağıran o böyük xaqan?

Rüstəm Zal – İransa,
Əfrasiyab – Turan,
Beləysə, fars olub
Türk nə zamandan?

Məgər türk deyildi mənim şahlarım
Əsrlər boyunca mülki-İranda?
Bəs səni tutmazmı naləm, ahlarım
Məni «farsdan dönmə» adlandıranda?

Türkün zatındadır kişilik, mərdlik
O, öz düşmənini vurmaz arxadan.
Türkə, Türk dilinə bu düşmənçilik
Sizdə bir adətdir qalü-bəladan.

Tarixə baş vuraq: Bu ağ, bu qara
Mərdlik mayasıyla yoğrulmuş babam.
Haqqını tanıdıb çox haqsızlara
Amma haqsıza da mərd olmuş babam.

Bəzən özümüzü bəyənmədik biz
Dedik, filankəsə gərək oxşayaq.
Yandı öz bağımız… fikir çeşməmiz
Özgə bağlarını suladı ancaq.

Heç kəs inciməsin, dedik, qoy bizdən
Yandıq yad evində bir çıraq kimi.
«Buyur» deyə-deyə hörmətimizdən
Qonağı elədik evin sahibi.

Bizim böyük-böyük ustadlarımız
«Xəmsə»lər bağladı özgə dilində.
Dönüb yadın oldu bizim varımız
Babam talan oldu öz mənzilində.

Yada abidələr ucaldıb dedik:
Fəhləlik bizimdir, ustalıq sənin.
Çox zaman özgəyə qulluq elədik
Beyin bizim oldu, əsər özgənin.

Nadir də, Qaçar da ölkələr aldı
Vətən ucalmadı, taxtı ucaldı.
Öz doğma elini ayağa saldı
Şahlar bizim oldu, zəfər özgənin.

Saldıq özümüzü özümüz gözdən
Kül ilə oynadıq, əl çəkib közdən.

Ölkələr nur aldı şəfəqimizdən
Günəş bizim oldu, səhər özgənin.

Mənim sərvətimə cahan göz dikdi
Sərvətim, dövlətim ona gərəkdi.
Babam yer şumladı, babam yer əkdi
Zəhmət bizim oldu, bəhər özgənin.

Açdı sinəsini bizə bu torpaq
Aləmi bəzəyib lüt olduq ancaq.
Cıdırda çapsaqda hamıdan qabaq
Hünər bizim oldu, nəmər özgənin,
Qızıl bizim oldu, kəmər özgənin.

Meydan oxusaq da çərxi-dövrana,
Bəzən özümüzlə üzbəüz olduq.
Düşməni əzsək də mərdü-mərdana,
Bəzən düşmənimiz özümüz olduq.

Zamanın küləyi, de, əsdi hardan?
Uduza-uduza axır udulduq.
Vaxtın axarında gəldi bir zaman
Biz iki hakimə dönüb qul olduq.
Ayılın hakimlər, dönür bu dövran
Qorxun haqqı görən Allahınızdan.
Tarixi gerçəyi danmayın barı
Sizin çörəyiniz diziniz üstdə.
Tarixi əzmiylə yaradanları
Niyə çökdürdünüz bu gün diz üstə?

Sədi dərs də verdi sizə ədəbdən

Sizsə başqasını bəyənmədiniz.
Möhtəşəm bir dini alıb ərəbdən
Ərəbə «çəyirtkə yeyən» dediniz.

**2**

Quzeydə ayağa qalxdı məmləkət
Bir təpə bir dağla üz-üzə gəldi*.
Millətin qəlbində boy atan nifrət
Köksün həmləsiylə o dağı dəldi.

Yaman acıq gəldi bu nifrət ona
Tankların altında əzdi milləti.
Sığdıra bilmədi dağ qüruruna
Təpə önündəki məğlubiyyəti.
Millət millət olur, arzu, niyyəti,
İnamı, inadı,
öz imanıyla.
Dərk edib bu haqqı, bu həqiqəti,
Suvardıq torpağı şəhid qanıyla.

Eşidib qəlbimin üsyan  səsini,
Yazdım «Şəhidlər»in faciəsini:
«Dilək bir çiçək də bitirə bilməz
Bu gündən sabaha körpü olmasa.

Azadlıq ağacı bar verə bilməz
Şəhidlər qanıyla suvarılmasa.
…O şənbə gecəsi gecikdi səhər
Zaman itirmişdi o gün sağ-solu.

*1990-cı il 20 yanvar qırğınına işarədir.

Ömürdən keçərək, keçdi şəhidlər
Bir qanlı gecədə min illik yolu

O şənbə gecəsi ölüb-dirildik
Şərəf papaq oldu, başlara qondu.
O qətl gecəsi xalqın min illik
Şücaət tarixi təkrar olundu.

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər».

**3**

«Gülüstan» yarandı düz qırx il əvvəl
«Şəhidlər» nəticə, «Gülüstan» təməl.
Azadlıq verilməz bilək bir kərə
Azadlıq alınar, budur doğru yol.
Axı «Gülüstan»dan ta «Şəhidlər»ə
Gedən uzun yoldu keçilən bu yol*.
Daş körpü – vəhdətim daş Xudafərin!
Gərəksiz daşların qalağı oldu.
Üstündən bir kimsə keçmədi… min-min

*Bu misralardakı fikir dostum H.Həsənovun "İstiqlal" adlı kitabıma yazdığı ön sözdəndir.

Könül həsrətinin göz dağı oldu.
Gəldi başımıza nələr, ay nələr,
Goramı aparaq bu dərdi, qardaş?
Bütün bu bəlalar, bu faciələr
Həmən «Gülüstan»dan göyərdi, qardaş.

Quzeydə  yerini göstərdik yada,
Zorun təməlini haqq deşə bildi.
Gördük, bizdən başqa bu gen dünyada
Bütün ayrılanlar birləşə bildi.

Biriykən ikiyik, bu halımızla
Biri-birimizə həsrət qalmışıq.
Biz hələ bu gün də xəyalımızla
Həsrətin üstündən körpü salmışıq.

Buna da şükr edib, «təvəkkül» - dedik,
İmdadçün həmişə üz tutduq göyə.
Elə zaman gəldi, keçmək istədik
Xəyali körpüdən biz, daş körpüyə.

Daş körpü – vəhdətim, daş Xudafərin!
Gərəksiz daşların qalağı oldu.
Üstündən bir kimsə keçə bilmədi
Bölünən bir xalqın göz dağı oldu.

Biri-birimizə gendən «gəl» - dedik
Tanrı üz çevirdi elə bil bizdən.
O qədər üstündən keçə bilmədik
Körpünü ot basdı qəhərimizdən.
İki əsrdir ki, o daş körpünün

Bu tayında mənəm, o tayında sən.
Sökülüb-dağılır daşlar günbəgün
Sərhəd dirəkləri xəbərsiz oldu
Bizim qəlbimizdən keçən körpüdən.

Qəsbkar qəsdini əbədi sanmış
İki başda duran tağlara bir bax.
Çoxu dağılsa da, dimdik dayanmış
Birinci tağ ilə axırıncı tağ.

O tağın biri mən, o biri sənsən
Onlar əsrlərlə dözüb sellərə.
Selin zərbəsinə tağlar dözübsə,
Nə gəlib arzusu bir könüllərə?

Bu gün qismətimiz qəm-kədərdisə,
Dünənki birliyim heç unudulmaz.
Çayın altındakı torpaq birdisə,
O tayı bu taydan ayırmaq olmaz.

Neçə il əvvələ qayıdaq yenə
Diləklər dikəldi, «mən varam» - dedi.
Bu böyük diləyin zərbələrinə
Sərhəd dirəkləri tab gətirmədi*.

Bu taydan o taya haray qaldırıb,
Özünə güvəndi bu millət yenə.
Dəmir məftilləri dişiylə qırıb
Oğullar doladı biləklərinə.

---

*1989-cu ilin dekabr ayında quzey Azərbaycan türklərinin tikanlı sərhəd məftillərini yarıb o taya keçmələrinə işarədir.

Araz öz yoluyla yenə axırdı
Həsrət divarını o gün aşdılar.
Qardaşlar qollardan zənciri qırdı
Çayın ortasında qucaqlaşdılar.

Dərdi boğazlayıb o gün sevincdən
Onlar hönkür-hönkür hey ağlaşdılar.
Qardaşlar ağladı o gün doyunca
Soldatlar, sərbazlar dəhşətə gəldi.
O günün ertəsi Araz boyunca
Tikanlı dirəklər yenə dikəldi.

Qovuşdu bir günlük bu tay o tayla
Bir günlük sevincdən çaş-baş oldular.
Qardaşı qardaşdan ayırmasıyla
Soldatla sərbaz da qardaş oldular.

Ölmədi, o günü gördü Bəxtiyar
Dedi: - Haqq önündə zor bərbad olsun.
Dedi: - Mən o günü gördüm, Şəhriyar,
Qabaqda işıq var, ruhun şad olsun.

Bu yerdə ustadla neçə il əvvəl
Telefon söhbəti yadıma düşdü:*
Mən ona «gəl» - dedim, o mənə «gəl-gəl»
Əllər görüşmədi, səslər görüşdü.

«Məndən xəbər aldı: - Neçə yaşın var?
Yaşımı söylədim, dedi: - Min alqış!

*1981-ci il yanvarın 23-də Şəhriyarla olan telefon söhbətim.

Dedim: - Nəyə alqış, ustad Şəhriyar?
Dedi ki, cavansan, sən mənə baxmış.
Arzum göyərmədi, keçibdir yaşım,
O vüsal gününü sən gör, qardaşım».
Getməz ağzımızdan o günün dadı
Mən gördüm o günü bircə gün ancaq.
Başımız üstündə yenə oynadı
Bu tayda «dubinka»*, o tayda şallaq.
Biz bunu bacardıq… Ancaq nə fayda?
Verdik əlimizdən yelə fürsəti.
Allah bir də nə vaxt, hansı dolayda
Bizə verəcəkdir elə fürsəti?

Tarixdə neçə yol uduzduq, nədən?
Zirvəyə qalxmışdıq, biz niyə endik?
Səbrlə, tədbirlə ölçüb-biçmədən
Ağla güvənmədik, hissə güvəndik.

Səttarxan, Bağırxan və Pişəvəri
Bizimçün hər biri diridən diri.
Onlar qəhrəmandı, qəhrəman, fəqət
Təkcə igidliklə kar aşmır indi.
Uzağı görmədən, təkcə cəsarət
Arzuya, istəyə yol açmır indi.

Onlar ölçmədilər uzunu, eni
Tədbir tökmədilər, əzab çəkdilər.
Tuta bilsəydilər günün nəbzini
Arzu güllərini dərəcəkdilər.

---

*Dubimka - Dəyənək (rus sözüdür).

Qırx il həsrət qaldı almana alman
Dövrana baxdılar, vaxta baxdılar.
Onlar qanadlanan arzularından
Zamanın çiyninə qanad taxdılar.

Düşündük, dərdimiz artdı ilbəil
Vaxtın damarını tuta bilmədik.
Siz: «zaman başqadır, vaxt o vaxt deyil»,
Bizsə o arzuyla şeirlər dedik.

İstiqlal qazandı quzeydə ölkə
Bunu gözləmişdi milət yetmiş il.
Bu gün aldığımız azadlıq bəlkə
Bizi biz edəcək istiqlal deyil?

Gözəl dəyərləri güdaza verdik,
Yaman günə saldı möhtaclıq bizi.
Yırtıq çadırlarda yaman itirdik,
Abır-həyamızı, ismətimizi.

İstiqlal qazandıq, kim «oxay» dedi?
Təzə balalara biz sinə gərdik.
İstiqlal milləti sevindirmədi
İstiqlal qazanıb, torpaq itirdik.

Çəkdi bu milləti hərə bir yerə
Məqsəd – kürsü eşqi, amal- mənfəət.
O qədər çəkişdik, həm firqələrə
Həm də bölgələrə bölündü millət.

Umdu, nəsə umdu Vətəndən hamı
Amma unuduldu məmləkət dərdi.
Kürsüyə çatmaqçün biri Ağdamı
Biri də Şuşanı güdaza verdi.

Bunlar həqiqətdir, ay bədbəxt, sənin
Hansı amal ilə qəlbin döyündü?
Unudub dərdini bütöv Vətənin
Kürsü hərisliyi amala döndü.

**4**

İslam bayrağıyla başqası gəldi
Hamı düşündü ki, dünya düzəldi.
Solub-saralırdı sahibsiz təki
Bizim viran olmuş könlümüzdəki
Arzu çiçəkləri…
o gün suladıq.
Biri-birimizi muştuluqladıq.
Bizim Söhrab Tahir, Balaş, Mədinə
Bayram libasları geydi əyninə.
Ertəsi eşitdik möhtərəm imam
Yaratdı ölkədə «cümhuri-islam».
Çox gözəl, cümhura nə irad, nə söz?
Məgər bu deyilmi istədiyimiz?

Şahlıq diyarında, şah ölkəsində
«Döndü həqiqətə» yüz illik xəyal.
Türkün öz dilində, öz ləhcəsində
Qəzetlər, dərgilər çıxdı dalbadal.

Nə oldu sonrası? Keçdi bir qədər
Boyalar silindi, bozardı üzlər.
Gördük vədlərdən təkcə söz qalıb
Zülm qah-qah çəkir, haqsa hönkürür.
Şahlıq devrilsə də, başqa rəng alıb
Yaşayır əvvəlki zülm başqa cür.

Adını dəyişib, əhdini danıb
Yenə həmən zülm, həmən əsarət.
Qarmağa taxılan ətə aldanıb,
Tələni görmədi zavallı millət.

Zülm nə din bildi, nə dil, nə Vətən,
Cəhalət uydurdu İslam adına.
Açıq fikirlilər qaçdı ölkədən,
Dözməyib cahilin xurafatına.
Düşünən başları qovdu ölkədən
Farsı da, kürdü də, türkü də qəsdən.
Deyən tapılmadı, otur yerində
Mən qafil deyiləm sözə aldanam.
De, hanı bəs sənin əməllərində
Şəri boğazlayan müqəddəs İslam?

Məgər yuvasından didərgin düşən
O bədbəxt kimsələr müsəlman deyil?
İslamda insanlıq ləyaqətindən
Nitqlər söylədin minbərlərdə sən,
Yurddan qovduqların bəs insan deyil?

Minbərdən bağırdı söz gövşəyənlər:
«İslama hər yerdə dayağıq» -deyə.

Bizi darda qoyub «İslam» deyənlər
Niyə dayaq oldu bəs ermənіyə?

Dandın həqiqəti sən bilə-bilə
Sübutun uydurma, dəlilin əbəs.
Erməni qəsbinə kiriməyinlə
Xoruzun quyruğu görünmürmü bəs?
Qorxuram bu yerdə belimiz sına
Adını qoymusan «İslam dövləti».
Özün de, budurmu din qardaşına
İslam  dövlətinin xətri, hörməti?

Bunun da kökünü bilirik nədir?
Səninçin «arilik» dindən öndədir.
İslama «vay» dedi, dinə «vay» dedi
Arxaya çəkildi din qohumluğu.
Sizi erməniyə dayaq eylədi
Əcdadda birləşən qan qohumluğu.
Tapıldı bizdə də cəhalətindən
Dinin cövhərini anlamayanlar.
Atıldı meydana, yapışıb dindən
Onu ciblərinə qazanc sayanlar.

Kəbəyə getdilər hər il dalbadal
Ziyarət deyildi, ticarətdi bu.
Bəs hanı haqq yolu? Bu səfər, bu yol
Hacılıq adıyla tacirlik oldu.

Dedilər: Dərdlərə son qoymaq üçün
«İslam partiyası» gərəkmiş bu gün.

Bir deyən olmadı amma onlara
«A qardaş, din hara, siyasət hara?»

Nədir bu partiya? Mən anlamıram
Firqə, dar çərçivə, firqə bir qəfəs!
O boyda ucalıq, o boyda İslam
Firqə qəfəsinə sığışarmı bəs?

Din ilə ucalır ruhumuz göyə
Göylər bir qiyasa, ölçüyə gəlməz.
O böyük din ilə bircə firqəyə
Bəşərin yarısı sığışa bilməz.

**5**

Sökülür dan yeri, görmürsənmi sən
Zamanın özündən, vaxtın özündən?
Bu nə boş xəyaldır, nə şirin röya?
Közərir çınqa od külün içində.
Dünyanı titrədən qoca Rusiya
Bölünüb söküldü bir gün içində.
Köksünə dağ üstdən dağ çəkilən xalq
Bir gün dağ çəkəcək dağın köksünə.
Məftil çəpərləri qıra bilən xalq
Bir il gec, bir il tez – qıracaq yenə.

Torpağı yoğurur vaxt özü qanla
Vaxt gəldi, bircə söz min dünya açar.
Artıq anlamışıq ahla, amanla
Nə məftil əriyər, nə sərhəd uçar.

Zülm öz-özünə kəsilir qənim
Baxın öz yönünü dəyişən çarxa.
Suyun gəlməsinə şübhəm yox mənim
Bir vaxt şırıl-şırıl su gələn arxa.

Salaq yadımıza bu gün, cahanın
Rəngləri dəyişən beş qitəsini.
Biz də görəcəyik Azərbaycanın
Güneyli-quzeyli xəritəsini.

*Noyabr 1999*

# ŞƏHİDLƏR

## P R O L O Q

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə  günahkar sayıldılar,
Vətəni sevmək niyə günah olmuş, ay allah?

Özüm qaldım çıraqsız, min çırağa yağ ikən,
Təpələrə əl açdım, özüm uca dağ ikən.
Əlacım öz-özümdən köməyi ummaq ikən,
Neçin bizə özgəsi "pənah" olmuş, ay allah?

Ona ümid, mənə zor, amma demir kimə haqq?
Əl- ayaq zəncirdədir, baş qapazlı, sinə dağ.
Yüz yetmiş il bu saziş, bu birlik, bu ittifaq
Bir tərəfli, talağsız nikah olmuş, ay allah.

Çəliyə möhtac ikən, mən özgəyə çəliyəm,
Min gülləyə tuş olan bir ceyranam, əliyəm.
Özgə nə əmr eyləsə mən boyun əyməliyəm,
Neçin mənə özgəsi «allah» olmuş, ay allah?

Bu gün qula dönmüşəm, dünən mən bir şah ikən,
Yoxmuş məni bir doğan, yoxmuş məni bir əkən.
Bu torpağa düşmüşəm haradansa mən dünən,
Min-min illik tarixim unudulmuş, ay allah!

Özgənin əlindədir xeyirimiz, şərimiz,
Sərvətimiz daşındı, hey soyuldu dərimiz.
Gözümüz üfüqdədir, açılmır səhərimiz,
Bizə düşən səmada gün tutulmuş, ay allah!
İllərlə məhkumluğun keşiyində dayandıq,
Özümüzə biz bunu, yoxsa, şərəfmi sandıq?
Xoşbəxt olduğumuza inandıq, çox inandıq,
Düz yalana, haqq zora, demə, qulmuş, ay allah!

Gözümüzdə qalsa da muradımız, kamımız,
Görünənə deyil, yox, bir nəfər tək hamımız
Deyilənə inandıq... Bizim bu inamımız,
Demə, qul olmamıza kəsə yolmuş, ay allah!

Bir qırıq işıq görüb zülməti yamanladıq,
Sübhün açıldığını zənn edib gümanladıq.
Biz də dönüb Sabirə bircə ağız banladıq,
Bizim banlamağımız günah olmuş, ay allah!
Neçin mənə özgəsi «allah» olmuş, ay allah?

## NƏ İSTƏYİR BU MİLLƏT?

İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət
Alışıb öz oduna, yandı, yandı bu millət.
Dilsiz, sağır göylərə dirək oldu haqq səsi,
Başlandı bu ölkənin meydan mübarizəsi.
Nə istəyir camaat? Bəlkə bezib canından?
Şikayətə çıxıbdır bəlkə güzəranından?

Bəlkə boş dükanları dolu görmək istəyir?
Bəlkə qazandığından çox götürmək istəyir?
Bəlkə maaş davası?
Bəlkə mənzil davası?
Nədir bu xalq davası, nədir bu el davası –
Bir soruşan oldumu?
Amma yeri istilər
Bu xalq burulğanının qabağını kəsdilər.
Ekranlara çıxdılar.
«Ekstremist» - deyə ona qara yaxdılar.
Xalqa öyüd verdilər.
Yenə də məhkumluğu
Yeganə bir yol kimi bu xalqa göstərdilər.
Bir soruşan olmadı nədir sənin bu davan?
Bəlkə çatışmır suyun, bəlkə çatışmır havan?
Yaşasa da bu millət lap dilənçi kökündə,
Yoxsul güzəranından danışmadı bu gün də.
Daxmalarda yaşadı, özünü sındırmadı,
Meydanda «mənzil» - deyə bir dəfə qışqırmadı.
Qara qızıl çıxartdı yerin yeddi qatından.
«Nədir bunun qiyməti?» sormadılar heç ondan.
Onun qızıl neftini qızıla da satdılar,
Qızılın sahibini söz ilə aldatdılar.
Bu millətin sərvəti özünə düşmən oldu,
Becərdiyi pambığı əyninə kəfən oldu.
O, yenə də dinmədi,
Dözdü, heç deyinmədi.
Nə istəyir bəs bu xalq?
O istəyir sərvəti manat olub özgənin
Xəznəsinə dolsa da,
Dərisi soyulsa da,

Onun ləyaqətinə,
Namus və qeyrətinə
Bir daha qıymasınlar,
Min illik torpağını hərraca qoymasınlar.
Qəzet sütünlarından millətə öyüd verən,
Söz ilə yol göstərən,
İndi özün de görək,
Qəbahətmi bu istək?

* * *

O zaman ki, özümüz olduq öz dustağımız,
Qəlbimizə sığındı üç rəngli bayrağımız.
O vaxt ki, azadlığın işartısı göründü,
Qəlbimizi bir anda dəlib keçdi o bayraq,
Qəlbimizdən boylanıb ələ keçdi o bayraq.
Bir məqsədə calandı,
Əllərdə dalğalandı.
Qatil bunu görüncə pozdu cəlalımızı,
Qanımıza boyadı bizim hilalımızı.

## TƏZADLAR İÇİNDƏ

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq,
Ona ad da verdik: «Xilaskar ordu».
Adını "doğrultdu": El "xilas oldu"
Yenicə tapdığı azadlığından,
«Ölüyə azadlıq, diriyə zindan».

Yaxşı tanıyırıq çoxdan biz onu
Adı bir olsa da, min bir üzü var.

Kasıb gizlətməkçün yoxsulluğunu,
İtinin adını «Gümüş» çağırar.

Həmin abidənin həndəvərində,
Həmin qızıl ordu günün birində
Bizim qanımızı tökdü...
                                ya xuda!
Ölənlər kim idi?
                                həmin orduda
Dünən əsgər olan bizim cavanlar.
Ağıl dərk etməyən bu bədxahlığın,
Əsl mənasını xalq indi anlar...

Yetmiş il «irəli!» - deyib yüyürdük,
Hamıdan geridə qalan bizmişik.
Döydük döşümüzə...
                                ayılıb gördük
Dünya aslan imiş, amma biz pişik!

Xalqa neçə dəfə tələ qurdular
Başımız tilova keçəndən bəri.
Qəsdən, bilə-bilə adlandırdılar
Xalqın dostlarını, «xalq düşmənləri».
«Bizdədir dünyanın dövləti, varı», -
Dedik...
        Səs-küyümüz göyə dirəndi.
«Dünyanın ən xoşbəxt, şən adamları»,
Talonla qaxsımış ət alır indi.

Qəribə təzadlar içindəyik biz,
İndi anlamışıq; kimik, nəyik biz.

Bəlkə kor taleyin hökmüdür bu da?
...Dünən bizimkilər həmən orduda
Ruslara bir arxa, bir qardaş kimi,
Onun düşməniylə döyüşmədimi?
Aradan nə keçdi?
                                        Nə oldu ona?
Dünənki yaxşılıq unuduldumu?
Dünən arxasında dağ olduğuna,
Bu gün birdən-birə düşmən oldumu?

Gerçəyin önünə keçdi o dəmdə,
Yalanlar, böhtanlar...
                                        nə deyək buna?
Qatil bizimlə bir o gecə həm də,
Haqqı, həqiqəti tutdu qurşuna.

Hansı göstərişlə gəlibmiş, görən,
Silahsız kütləni bu qıran ordu?
Vallah, bu vəhşəti törədə bilməz
Ən qəddar, qudurğan, çıldıran ordu.
Bəs hanı savaşın qədimdən bəri,
Hər kəsin bildiyi mərdlik şərtləri?

Şər üçün nə qayda,
                              nə şərt, nə qanun?
Bu imiş «haq işi» Qızıl Ordunun...
Kimdi bəs ölənlər?
                                        İnanmaq çətin!
Dünən Rusiya üçün can verənlərin,
Şəhid düşənlərin şəhid övladı!
Əfsus! Eyni olur şəhidin adı!

O, şəhid, bu, şəhid!
Sən bir işə bax!
O, nəyin uğrunda, bu, nəyin, ancaq!
O şənbə gecəsi, o məlun gecə
Birdən üzə çıxdı bu fərq gör necə?!
Bir soldat bağırdı: - Belədir qayda
Əvəz ödəməkdə ər oğlu ərəm.
Atan şəhid oldu mənim yolumda,
Mən sənin özünü şəhid eylərəm!

Ədalət də, gerçək də,
Vallah, yoxdu o gecə.
Zülm, zalim əlilə
Haqqı boğdu o gecə.
Tunc zirehli ilanlar,
Haqqımızı nə anlar!
Həqiqəti yalanlar
Küncə sıxdı o gecə!

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.

Analar amanından
Sinələr oldu şan-şan.
Şəhidlərin qanından,
Şimşək çaxdı o gecə.
Qara geydi bu Vətən,
Yox hayına bir yetən.
Həyata hamiləykən,
Ölüm doğdu o gecə.

Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə.
Allah bu müsibətə
Necə baxdı o gecə?

Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını?

Gecənin yarısı... hər yan qan-qada,
Qırmızı güllələr uçur havada.
Özünü itirmir adamlar yenə,
Yetirir özünü haya-haraya.
Maşınlar bir yana,
                    çiyinlərdə də
Yaralı daşınır xəstəxanaya.
Güllə vıyıltısı... Bu acı səsdən
Titrəyir,
                    lərzəyə gəlir bina da.
Amansız soldatlar söndürür qəsdən,
Bütün çıraqları xəstəxanada.

Gör necə böyükmüş bizə qəzəb, kin,
Burda da göründü, qalmadı qında.
Çarəsiz həkimlər indi neyləsin? –
Əməliyyat gedir şam işığında.
Səhər açılınca adamlar bir-bir
Yığılıb gəlir.
Qan verməks istəyir yaralılara.

Amma insaf hara, qan tökən hara?
Soldatlar töküldü hey axın-axın,
Döyükə-döyükə baxdı dörd yana.
Tutuldu bir anda xəstəxananın
Həyəti, bağçası gülləbarana.

Heç kəs bu sifətdə görməyib şəri,
Hələ bəs deyilmiş tökülən qanlar?
Xəstəyə qan vermək istəyənləri
Bir anın içində dağıtdı onlar.

Yazovun əmriymiş... Qızğın başlara,
Zalimlik adicə bir adət imiş.
Bizim bu günahsız yaralılara,
Heç demə, yardım da cinayət imiş.
Ertəsi... Bakının küçələrindən,
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən
Qanla ləkələnmiş öz vicdanını?

* * *

Üzümü tuturam sizə mən bu gün,
Əsilli, nəsilli rus ziyalısı,
Ulu Tolstoyun, böyük Puşkinin,
Fikir davamçısı, məslək varisi.
Onların irsini yaşatmaq bu gün,
Hünərdir, şərəfdir yeni nəsilçün.

Bu gün ululların o haqq səsini,
Təkrar edirsiniz qəzetdə, sözdə.
Onların eşqini, əqidəsini,

Amma heç görmürük əməlinizdə.
Yüksək kürsülərdə qol-qanad açmış,
Sizin dilinizdə «həqiqət» sözü.
Deyin, qəlbinizdən bəs hara qaçmış
Ədalət, fəzilət, həqiqət özü?

Təpədən-dırnağa silahlı ordu
Sizdən haqq istəyən bir xalqı qırdı.
Bunu görmədiniz?
                                        Yaxşı gördünüz!
Amma həqiqətə siz tüpürdünüz.

Bir xalqın bağrına çəkilən bu dağ,
Ləkə gətirmədi şərəfinizə?
Dünyanın önündə bunu ağartmaq,
Sərfəli deyildi, deyəsən, sizə.

Zorun qarşısında susdunuz... Deyin,
Varislik borcunuz unuduldumu?
Ulu Tolstoyun, böyük Puşkinin
Sizə irs qoyduğu həqiqət bumu?
Nədir bizə qarşı bu qəzəb, bu kin?
...Qəlbim həqiqəti gör kimdən umdu?
Dağ-daşın dərdinə qalan Rasputin
Bir xalqın dərdinə niyə göz yumdu?

Heç zaman ziyalı sayıla bilməz
Özgənin dərdini yaşamayan kəs.
Sizdən soruşuram: bu rəzalətə
Siz necə baxdınız bir insan kimi?
Tolstoy bu zülmə, bu müsibətə
Etiraz səsini yüksəltməzdimi?

## EŞQ OLSUN SİZƏ

Bəzən öz-özümə düşünürəm mən:
Nahaq şəhid oldu bizim cavanlar.
Ömrü ucuz verdi...
                                        bir iş görmədən
Boş yerə ölməyin nə mənası var?!

Ağıla söykənsin dedim qüvvəmiz,
Anlayan olmadı bu sözdən məni.
Ağıla güvənək bu məqamda biz,
Qüvvə daşı əzər, ağıl qüvvəni.

Sonra düşünürəm: Onlar qorxmadan,
Cumdular ölümün üstünə belə.
Bir iş görmədilər yaşayan zaman,
Qəhrəman oldular ölümləriylə.

Bizim əlimizdən çoxdan alınmış
Haqqı bu dünyaya bildirdi onlar.
Millətin qəlbinə qəsdən salınmış
Qorxu iblisini öldürdü onlar.

O gecə dağlardan enən sel təki,
Qəzəbdən köpürüb daşdı millətim.
O şənbə gecəsi ürəyindəki
Qorxu hasarını aşdı millətim.

Bizim qazancımız bu oldu ancaq,
Qorxu xəndəyindən biz körpü atdıq.

Bu da bir imtahan, bu da bir sınaq,
Şübhədən qurtarıb, imana çatdıq.

Bu ölüm, bu qırğın dərs olsun bizə,
Deməyək boş yerə candan keçdilər.
Onlar şəhid olub millətimizə,
Cəsarət dərsini təlim keçdilər.

Gəlin, ölçə bilək xeyri, ziyanı,
Bəzən əvəzidir on qış, bir yazın.
Bizim şəhidlərin müqəddəs qanı,
Bəlkə də behidir sabahımızın.

Yaman dözümlüdür, oda kül atır,
Hər zülmə, cəfaya dayanır millət.
Soyula-soyula o susur, yatır,
Qurban verə-verə oyanır millət.

Xəyal bir çiçək də bitirə bilməz,
Bu gündən sabaha körpü salmasa.
Azadlıq ağacı bar verə bilməz,
Şəhidlər qanıyla suvarılmasa.

Onlar sübut etdi hər qara zülmün
Əli uzunsa da, ömrü gödəkdir.
Xalqın azadlığı sabah, birigün,
Şəhid yarasından göyərəcəkdir.

Şənbə gecəsində gecikdi səhər,
Zaman itirmişdi o gün sağ-solu.
Ömürdən keçərək, keçdi şəhidlər
Bir qanlı gecədə min illik yolu.

Şan-şərəf tac oldu, başlara qondu,
O qətl gecəsi xalqın min illik
Şücaət tarixi təkrar olundu:
...İki əsrə yaxın Babək, Cavad xan,
Hərdən təəssüflə qalxdı məzardan.
Bəsirət gözüylə seyr etdi bizi,
Tanıya bilmədi millətimizi.
Gördülər dağ düzə, göy yerə enmiş,
Onlardan kölələr, qullar törənmiş.
Onlar inanmadı, biz də bir ərik,
O qoç igidlərdən törənənlərik.
«– Bizim zəmanədə xan idi millət,
Niyə qula dönüb, - dedilər – indi?
Nədir bu itaət, nədir bu zillət?» –
Deyə qəzəb ilə onlar deyindi.

O şənbə gecəsi yel qalxdı birdən,
Közün üstündəki külü üfürdü.
Babək fərəh ilə qalxdı qəbirdən,
Hər igid gözündə özünü gördü.

O şənbə gecəsi bir şimşək təki,
Gözlər parıldadı...
                                        sinələrdəki
Gözlə görünməyən dağlar göründü.
Hünər məqamında bir qoça döndü
Ələ öyrədilən hər körpə quzu.
Babəkin varisi olduğumuzu
Göstərdi dünyaya...
                                        Eşq olsun sizə!
Siz layiq oldunuz öz irsinizə.

Gəldi ürəkdəki arzular dilə,
Silahı məhəbbət, son sözü Vətən.
Şəhidlər göstərdi ölümləriylə
Ölüm aşağıdır Vətən eşqindən.

Dünya o dünyadır, bir həqiqəti
Çarmıxa çəksə də min böhtan, riya!
O gecə basanda zülm ədaləti,
Haqqın naləsindən diksindi dünya.

Adımız dolaşdı bütün dünyanı,
Çox da ki, ağımız qara yozuldu.
Bizim şəhidlərin tökülən qanı,
Haqqın kitabında imzamız oldu.

Baxıb sinələrdən axan al qana,
Buludlar kişnədi, göy qan ağladı.
O şənbə gecəsi Vətən başına
Elə Vətən boyda qara bağladı.

Dözdü böhtana da, dözdü şərə də,
Yedi şəkər kimi hər dərdi xalqım.
Azadlıq yolunda ölümlərə də,
Hazır olduğunu göstərdi xalqım.

Azadlıq verilmir, alınır,
dayan!
Onun elçisidir, ölüm, qan-qada.
Ölümə, cəfaya hazır olmayan,
Millət hazır deyil azadlığa da.

Yalın əllər ilə tanklar üstünə,
Atılan cavanlar, eşq olsun sizə!
Siz təsdiq etdiniz azadlığın da
Halal olduğunu millətimizə!

Şəhid rütbəsinə qalxan cavanlar,
Sinəsi hər zülmə qalxan cavanlar,
Böyük Nəsiminin, ulu Babəkin,
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb yəqin,
Tarixdə tarix tək qaldı o gecə.

* * *

Qəlbimi boşaltmır çəkdiyim ah da,
Nəğmədə hər xalın kökü var yəqin.
Şəhid fəryadından ulu segahda
Təzə bir guşə də açılar yəqin.

Həmin o güşədə ana naləsi,
Analar hönkürər, gəlinlər ağlar.
Həmin o güşədə qəm şəlaləsi,
Axıb qəlbimizdən haqqı soraqlar.

Həmin o güşədə güllə səsləri,
Tarın pərdəsində qəm nəfəsləri,
Həmin o güşədə zülmün tüğyanı,
Haqqın, həqiqətin zülmə üsyanı.

Ramiz, bas bağrına sən qoca tarı,
Bu təzə guşədə çal, sənə qurban.
Şəhidlər qanına boyanan səsi,
Zabul segahına sal, sənə qurban!

Pərdələr qoy təzə güllər bitirsin,
Şəhid anasına təsəlli versin.
Haqqın fəryadını dilə gətirsin,
Təzə yaratdığın xal, sənə qurban!

Xəzər pəncələşdi öz sahiliylə,
Danış dərdimizi səsin ziliylə.
O təzə guşənin atəş diliylə,
Zülümdən qisası al, sənə qurban!

Təzə guşədəki ah-amanların,
Qorxuram, hər xalı yoğrula qandan.
Qorxuram çanağı partlaya tarın,
Bu təzə guşənin hay-harayından.

Asta çal, qardaşım, asta çal tarı,
Pərdələr bu aha, amana dözməz.
Təzə guşədəki səs burumları,
Günahsız tökülən bu qana dözməz.
Həm də uydurulan böhtana dözməz,
Partladar tarı!

## MATƏM MƏRASİMİ

Qəzəb şimşəyindən hər baxış nida!
Hər üzdə, hər gözdə bir sual ağlar.
İnsan dənizinin dalğalarında,
Üzür asta-asta tabut-qayıqlar.

Xalq dözə bilsə də zülmün şərinə,
Yanır gözlərində kini, nifrəti.

Alıb tabutları çiyinlərinə,
Allaha göstərir bu cinayəti.

Deyir, nələr gördük, ey adil allah,
Budurmu göylərin haqq-ədaləti?
Deyir, biz götürdük, ey adil allah,
Sən necə götürdün bu xəyanəti?
Millətin ahıdır ərşə dayanan,
Dilsiz baxışlarda üsyandır – yanan!

Gəmilər fit verir... qara buluddan
Göylər bu matəmə bayraq endirir.
Bu səs qəlbimizdə alışan oddan,
Qəzəb vulkanını ləpələndirir.

Fit səsi... bu fəryad külə bükülmüş
İçin-için yanan köz səsidirmi?
Bu fəryad, bu nalə balası ölmüş,
Yetim anaların naləsidirmi?
Fit səsi... həyəcan, təlaş nəğməsi,
Bilirik, nə deyir bu gizli üsyan.
Anlaya bilmirəm, bu möcüz səsi,
Necə yoğurdular göz yaşlarından?
Gəmilər fit verir... bu sirli səsdən
Küçələr, binalar zür-zükə gəlir.
Qərib iniltidən elə bil, qəsdən
Təhlükə dalınca təhlükə gəlir.

Qarşıda şeyximiz, arxada millət,
Axır insan seli başlar aşağı.
Bərqərər olsa da sabah ədalət,
Getməz qəlbimizdən bu şəhid dağı.

Axır yanaqlara göz yaşı dən-dən,
Bəs necə? Millətin bağrı sökülmüş.
Bu el matəmindən, el kədərindən,
Cavan şeyximizin beli bükülmüş.

Yaşaya bilmədik bir insan təki,
Qarışdı haqqımız, borcumuz bizim.
Bu gün tabut deyil, çiyinlərdəki
Dərd adlı yüküdür millətimizin.

Boğaq içimizdə kədərimizi,
Amandır, əyməsin qoy bu yük bizi.

Yeriyir izdiham hey ağır-ağır,
Yeriyir meydandan Dağüstü parka.
Qəlbimiz sabaha indidən baxır,
Enişdən yoxuşa biz qalxa-qalxa.

Bura park idimi bir zaman? Xeyr!
İndi də yaşayır xatirələrdə;
On səkkizinci il!
Şəhid düşənlər
Haqqa tapşırıldı bir vaxt bu yerdə.

O zaman qonşular bizdən kam alıb,
Bizi arxamızdan yaman vurdular.
Erməni əliylə burda park salıb,
Bizə şəhidləri unutdurdular.

Qızıl qərənfillər əllərdə min-min,
Şəhidlər önündə bir an dondular.

Fədakar oğullar Rəsulzadənin,
Bayrağı altında dəfn olundular.

Durun, ağlamayın! Vallah, qəm-kədər,
Heç vaxt sığışmamış qeyrətimizə.
Bu bayraq altında yaşamaq qədər,
Torpağa getmək də şərəfdir bizə.

Daldı bir anlığa sükuta göy, yer,
Millət ürəyini sükutdan asdı.
On səkkizdə ölən köhnə şəhidlər,
Təzə şəhidləri bağrına basdı.

Şəhər aşağıda... Bir baxın, onlar,
Bizdən yuxarıda dəfn olundular.

## AXI, BİZ NEYLƏMİŞDİK?

Şəhidlər xiyabanı...
Dilə gəlir məzarlar:
– Axı, biz neyləmişdik?
Dilə gəlir
Məzarları seyr edən solğun üzlər, nəzərlər:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Şəhidlərin birləşən hər yasında səslənir.
Fərizənin, İlhamın
Çırağı söndürülmüş komasında səslənir:
– Axı, biz neyləmişdik?
Ağsaqqal babaların, ağbirçək nənələrin

Duasında səslənir:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Məktəbli Larisanın qara lentə tutulmuş
Partasında səslənir:
– Axı, biz neyləmişdik?
Günahsız qurbanların başdaşında səslənir.
Onların yetim qalan körpə balalarının
Dünyadan haqq istəyən göz yaşında səslənir:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Bağrına dağ çəkilən qocaman bir millətin
Dodağında səslənir.
Sərvəti talan olmuş,
Düz sözü yalan olmuş
Böyük bir məmləkətin Göygölündə səslənir,
Şahdağında səslənir:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual gəzdi bütün dünyanı,
Qəzetlərə yazdılar,
Min bir yerə yozdular.
Qaynaqdan bulandıran elə bulandırdı ki,
Suyumuz durulmadı.
Cavab verən olmadı:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
«Qırın!» əmri verənin qulağında dinmədi.
Bizə «vaxtı bildirən» o qocaman Kremlin
Zəngində səslənmədi.
Boğdular bir millətin «Axı, biz neyləmişdik?» -
Deyən o haqq səsini.

Şəhidlərin qanyıla yazdılar bir qatilə
Marşal vəsiqəsini.

Biri əmr elədi, o biri qırdı,
Qansızlar bu nahaq qanı batırdı.
Silahsız adamlar günahsız yerə
Yerdə ulduz kimi yanıb söndülər.
Cəza istəyirdik biz qatillərə,
Amma ikisi də rütbələndilər.

Batdı, həqiqətin batdı haqq səsi,
Haqqı tapılmadı onlardan soran.
Qırana verdilər marşal rütbəsi,
Prezident taxtına çıxdı qırdıran.

## MƏNİM GÜNAHLARIM

– Mən sənə həmişə «Buyur» - demişdim,
Mən səndən haqqımı istəməmişdim.
Bir işıq görüncə üfüqdə birdən,
Səndən iynə gözü haqq istədim mən.
Sən dedin: – De görək haqq nə deməkdir?
Mənə bol pambığın, neftin gərəkdir.

Dedin: – Tələbinlə buz kimi donmuş
Köhnə yaraları gizildədirsən.
«Gülüstan» paktında məhkum olunmuş
Haqqını sən indi tələb edirsən?
Sormuşam, qanını çəkmişəm sənin,
Minnətdar olmusan sorulduğuna.

İndi də qanını tökmüşəm sənin,
Haray qoparırsan de neçin buna?

Dedim: – Günahımı başa sal mənə,
Dedin: – Anlamadın məni sən yenə.
Bilmədin, günahın bir deyil, mindir,
Amma ən böyüyü gözəlliyindir.

İstədin daşınan bol sərvətindən,
Bir ovuc, bir qırıq sənə pay düşə.
Sən bezib, usanıb əsarətindən,
İstədin bu dünya bir az dəyişə.
Budur günahın!
Məndən icazəsiz, axı, çox şeyi,
Sən qanmaq istədin, duymaq istədin.
Sən öz ayağını mənim çəkdiyim
Cızıqdan kənara qoymaq istədin.
Budur günahın!
Sən öz torpağında qul olduğunu,
Bağırmaq istədin, budur günahın.
Zülm girdabında boğulduğunu,
Çığırmaq istədin, budur günahın.

O, torpaq istədi səndən bir qarış.
Niyə tələbkarın xətrinə dəydin?
Onun istəyilə dedim, sən barış,
Sənsə tərəzinin gözünü əydin.
Budur günahın!

Bu qanlı çəkişmə düşəndən bəri,
Bir dəm ayağını qoymadın geri.

Erməni qıranda sizinkiləri
Sən də neçəsinin qanını tökdün.
Budur günahın!
Mən sənin qanını tökdüyüm zaman,
Baxdın nifrət ilə... Budur günahın!
Sən mənim tankıma çırtma vurmusan,
Hansı cürət ilə? – Budur günahın!

...Belə tale düşüb qismətimizə,
İlahi, sən yenə dözüm ver bizə.
Haqqın dərgahında unudulmuşuq,
Biz necə götürək bu töhmətləri?
Min dəfə haqlıykən haqsız olmuşuq,
Biz bu müsibətə düşəndən bəri.

Qulaqlar batırır böhtan harayı,
Buğdadan qiymətli olub darı da.
Necə bulandırıb keçi bu çayı?
Keçi aşağıda, qurd yuxarıda!
Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini,
Amma erməninin topunu görmür.

Dilimizdə olub düşündüyümüz,
Əməldən öndədir bizim küyümüz.
Qəlbimiz o qədər təmiz olub ki,
Göz görə düşməni dost sanmışıq biz.
Gözümüz o qədər qorxudulub ki,
«Hələ çay gəlməmiş çırmanmışıq biz»
Biz nə hiylə bildik, nə qərəz, nə kin,

Quyuya düşənin əlindən tutduq.
Bizə tələ quran, kələk gələnin,
Dünənki qəsdini bu gün unutduq.

Özgə torpağından qovulanlara,
Biz torpaq da verdik torpağımızdan.
Bunun əvəzində indi onlara,
Borclu da çıxmışıq öz bağımızdan.

Qonaq dünənini salmayıb yada,
Yerliyə «qaç» - dedi, şər yolu tutdu.
Dünən dədəsinin mənim qapımda,
Boyun bükdüyünü bu gün unutdu.

Evimdə başımı kəsir erməni,
Qışqırıram...
                    Mərkəz danlayır məni.
Deyir: – Nə çabala, nə danış, nə din,
Qoy sənin başını rahatca kəssin,
Kişinin gül kimi işinə qəsdən
Niyə pəl qatırsan?
                    İnciyərəm mən!
Demək, o haqlıdır məni qıranda,
Haqsızam, dözməyib, mən qışqıranda.
Məəttəl qalmayım necə mən buna –
Yenidənqurmanın haqq olduğuna?

Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini,
Amma erməninin topunu görmür.

Anladıq xalqların bərabərliyi,
Kağız üzərində bir quru sözmüş.
Bu qətldən sonra bildik çox şeyi,
Bizim günahımız türklüyümüzmüş!

Millətlər dostluğu! Astar üz imiş,
Bunun nəyi varmış sözündən özgə?*
Atatürk düz demiş, vallah, düz demiş:
«Yoxdur türkün dostu özündən özgə».

Türkdilli xalqların doğma yerindən
Didərgin düşməsi kimə gərəkmiş?
İyirminci yüz ilin əvvəllərindən,
«Türkəm» - deyənlərin başı nə çəkmiş?!

Türk öz mənliyini biləndən bəri,
İblis də gələcək qəsdini bildi.
Qaraçay, Axalsiq, Krım türkləri,
Malkarlar, mesxetlər sürgün edildi.

İki yanağı var, amma bir üzü,
Türk öz anasından belə doğulmuş.
Anlaya bilmirəm, niyə «türk» sözü
Kiminsə başına düşən daş olmuş.

Türkəsaya olduq... hər şey apaydın,
İçimiz göründü gözlərimizdən.
Qərəzkar oxudu axşamımızın
Uzaq məqsədini dan yerimizdən.

---

*1941-45-ci illərdə türkdilli Şimali Qafqaz xalqlarının Sibirə sürgün olunmasına işarədir.

Belədir... biz hələ addım atmamış,
Bildilər düşəcək mənzilimizi.
Hələ bir məqsədə gedib çatmamış,
Yolun əvvəlində tutdular bizi.

* * *

Çadırlar quruldu kənddə, şəhərdə,
Bəlkə məlhəm idi matəm, bu dərdə?
Döndü yas evinə bütün məmləkət,
Kasıb ocaqda da qazan asıldı.
Yası, matəmilə çarəsiz millət
Elə bil qatildən intiqam aldı.

Gücsüzün aldığı intiqama bax!
Zorun qarşısında susduq hamımız.
Qırx gün yas saxlamaq, işə çıxmamaq,
Oldu üsyanımız, intiqamımız!

Bizim ən fərəhli, şad günümüzdə –
Hər bir toyumuzda, düyünümüzdə
Qərənfil əllərdə çıraq olardı,
Sevincə, şadlığa ortaq olardı.

Biz hardan biləydik doxsanıncı il,
Şadlıq yaraşığı qızıl qərənfil,
Şəhidlər qəbrini qucaqlayacaq,
Bizim dərdimizə yas saxlayacaq.

Canlı da, cansız da ağlayır bu gün,
Matəm içindədir ölkə büsbütün.

Qızıl qərənfillə qara bayraqlar
Xalqın kədərinə birgə qan ağlar.

* * *

Qorxar ilan vuran ala çatıdan,
Bizim gözümüzü püləyib fələk.
Qorxuruq...
Qorxudub bizi bu dövran.
Stalin ölməyib, yaşayır, demək!
Bizdən üz döndərib sanki fələk də,
Yalan çövlan edir, bəs hanı gerçək?
Susuruq...
Sözümüz qalır ürəkdə,
Stalin ölməyib, yaşayır, demək.

Xeyrimiz, şərimiz bilmirik nədir?
Onları kimdənsə soruşmaq gərək.
Hələ də haqqımız yad əllərdədir,
Stalin ölməyib, yaşayır, demək.

Bizə qürbət olub öz diyarımız,
Bu boyda dünyada tək qalmışıq, tək!
Zindana salındı Etibarımız*,
Stalin ölməyib, yaşayır, demək.

Diləyimiz harda, özümüz harda?
Doğranıb töküldük biz çilik-çilik.
Stalin ölsə də,
                    yuxarılarda
Hələ də yaşayır stalinçilik.

*Etibar Məmmədov.

İndi də zindanda yaradır Xəlil*,
Sözünü deməkdən usanan deyil.
«Moabit dəftəri» yaranır belə
Faşizm ölməyib, yaşayır hələ.

## XƏCALƏT

Şəhidlərin məzarı islandı göz yaşından,
Qurudu leysan tökən qərənfil yağışından.
Yaman nalə təpərdik gülçülərin əlindən,
Deyərdik, bu gülçülər bazarlarda pul qırır,
«Qərənfil gözəlindən».
Rusiya bazarında,
Yaman rusvay edirlər, - deyərdik onlar bizi.
«Alverçi» damğasıyla, vallah, ləkələyirlər
Bizim şərəfimizi.
Həmin o alverçilər, bu gün isə əvəzsiz,
Təmənnasız qərəzsiz
Şəhid məzarlarını gül topuna tutdular,
Uzaq bazarlardakı qazancı unutdular.

Güllə yaralarını gül ilə soyutdular.
Vətənsevər kim imiş bu məqamda de görək?
Mənim tək, ya sənin tək
Bol qonorar eşqinə
Xalqa dərs vermək üçün ekranlara cumanlar,
Yoxsa, şəhid eşqinə xeyrinə göz yumanlar?
Şəhidlərin hamısı bənzəyir bir-birinə.
Bir bax, qəbirlərinə!
Hamısı qıpqırmızı qərənfilə bələnmiş,

*Xəlil Rza

Hamısı bir biçimdə, bir boyda cərgələnmiş.
Səbəb birdir, əməl bir,
hədəf birdir,
hədə bir,
Onları bu dünyadan aparan güllə də bir.

Tüstüsü təpəsindən çıxa-çıxa hönkürən,
Bu məhzun qəbirlərə baxa-baxa hönkürən
Adamlar da bir olmuş...
Ağlar budaqlarından qara bayraq sallanan
Göy şamlar da bir olmuş.
Hamınındır bu matəm,
Millətindir bu dərd, qəm.
Hamı qoyub özünü o birinin yerinə,
Hamı birinə deyil, hamı biri-birinə
«Başın sağ olsun» - deyir,
«Bulanıq axan sular bir gün durulsun» deyir.
Bir amala bağladı bu gün dərdi milləti,
Dərdin, qəmin birliyi birləşdirdi milləti.

Bu el faciəsinə dözmək çətin, çox çətin!
Beli yaman büküldü qocaman bir millətin.
Fitrətindən, soyundan ər doğulan bu xalqı
Tarix boyu mərd olan, məğrur olan bu xalqı
Necə təhqir etdilər, gör necə alçaltdılar.
Mənliyini, əzmini bir «sağ ol» a satdılar.
Sənin adın haqq ikən
Ey allahım, niyə sən
Bizə qıydın bu dərdi?
Onsuz da bu millətə min-bir dərdi yetərdi.
Bu təhqirə, bu qəsdə dözmək çətin, çox çətin!
Ürəyinə dərd hopub balası ölənlərin.

İçdikləri zəhərdir, yedikləri dərd, aman!
Bütün millət keyləşib dərdin ağırlığından.

Hamı ayaq üstündə yuxuludur elə bil.
Bu dərd dərdli dünyada çəkiləsi dərd deyil!
Ömründə qonşusunun damına daş atmayan,
Kimsənin bostanına əlini uzatmayan,
Qərəzinin, kininin dalınca sürünməyən,
Dünən verdiyi sözdən bu gün geri dönməyən,
Heç vaxt döyüb döşünə «mənəm-mənəm» –
demәyәn.
Heç kəsin bəd gününü, şərini istəməyən,
Mənim ali millətim, haqlıykən birdən-birə,
Layiqmiydi, ey allah, bu qəsdə, bu təhqirə?
Hansı günahımızın əvəziydi bu təhqir?
Haqsız oldu günahsız, haqlı oldu müqəssir!
Bu dərd bütün millətin ürəyində göyərdi,
Heç kəs bilmir nə təhər, necə udsun bu dərdi.
Bu gün xəcalət çəkir, hamı gücsüzlüyündən,
Heç kəs boylana bilmir gələcəyə bu gündən.
Çəkilməzdir, çəkilməz bu ağrının siqləti –
Əlacsız gücsüzlüyün töhmətsiz xəcaləti!
Həm dünən, həm bu gün də
Biz günahkar olmuşuq günahkarın önündə.
Hanı o qüdrətimiz –
Günahsız qurbanların töhmətinə dözək biz?
Qahmarımız olmadı nə arxada, nə öndə,
Hamı xəcalət çəkir
Qanları batırılmış şəhidlərin önündə.
Ah, necə də ağırdır
Zaman axa su kimi, amma qabın dolmaya,

Günahkarın, qatilin cəzasını verməyə,
Sənin gücün olmaya...
Çünki bu məhkəmədə biz haqlı olsaq belə,
Qısaldılıb dilimiz
Çünki hakimimizlə eynidir qatilimiz!

## İLHAM – FƏRİZƏ

Dözməyib qatilin kəshakəsinə,
İlham çölə çıxdı güllə səsinə.
Gördü qırhaqırdı, gördü vurhavur,
Tanklar adamların üstünə cumur.
Bağırdı: – Soldatlar, neyləyirsiniz,
Axı, bunlar ilə siz də birsiniz.
Axı, bu adamlar silahsızdılar.
Soldatlar daha da coşub qızdılar.
... Bu sözlər İlhamın son sözü oldu,
Ona da bir güllə... o da vuruldu.
O gecə yatmadı bir an Fərizə,
İlhamı gözlədi,
İlham gəlmədi.
Dönük taleyilə durdu üz-üzə.
Qalıb küçə ilə ev arasında,
Gecəni sübhədək o dincəlmədi...
Ertəsi... qapqara xəbəri gəldi,
Ölümün həyata zəfəri gəldi.

Çatmadı əvvəlcə bu xəbər ona,
İnana bilmədi qulaqlarına.
Elə ki, inandı... o, lal kəsildi.
Heykələ döndü.

Anladı, bildi:
Qapısı bağlandı, ocağı söndü.

## İKİ GÜN SONRA...

Qalınca evində dərdlə təkbətək,
Özünə qəsd etdi bu təzə gəlin.
Hansı tərəzilə, daş ilə ölçək
Eşqini, qəsdini biz bu gözəlin?
Nə deyim, Fərizə, nə deyim sənə,
Axı, nə ad verim bu faciənə?

Hələ səadətdən soraq gəlməmiş,
Yoxsul komanı da sevdin, bəyəndin.
Gəlinlik paltarın heç köhnəlməmiş,
Sən nə tez əyninə kəfən geyindin?

Sənin ləyaqətin lal etmiş bizi,
Zaman aşağıdır dəyanətindən.
Ey vəfa timsalı, sədaqət rəmzi,
Sənin bu qəsdinə nə ad verim mən?
Səsin ərimədi əsrin səsində,
Nəcabət kökündə həmişə varsan!
Türk qızı, xəyanət zəmanəsində
Bu eşqi, vəfanı sən bacararsan.

Belə yaşamışdır dünən və bu gün
Bizim keçmişimiz – oğuzlar, hunlar.
Ərin namusunu qorumaq üçün
Keçər balasından Burla xatunlar.

Belə ömür sürmüş nənələr, belə
Sən də bu çeşmədən su içdin, qızım,
Ərinin yolunda
sədaqət ilə
Cavanca canından sən keçdin, qızım.

Qurban getdi o, Vətənə, sən ona,
Bu necə görüşdü, necə yarışdı?
Anlaya bilmirəm, bu dar komana,
O boyda ürəyin necə sığışdı?

Sizin evinizin həndəvərində,
Bir «Leyla» ünvanlı mağar quruldu.
Həmən «Leyla» adlı Şadlıq evində,
Birinci toy – sizin toyunuz oldu.

«Leyla»da Leylinin qəm macərası,
Sən onu öncədən duymadın yəqin.
Sən hardan biləydin, Leyli vəfası,
Ünvanın olacaq bir zaman sənin.

Sevgi kitabında iri bir nida
Sənin məhəbbətin, sənin qiymətin!
Məcnunun Leylisi haqq dünyasında,
Sənin pişvazına çıxacaq yəqin!

Nə tez qışa döndü sənin baharın,
Bakı bu matəmə qara bağlamış.
Sənin damarında nənən Nigarın,
Həcərin, Leylinin qanı çağlamış.

* * *

Od tutub alışdı sözlər dilimdə
Bu qəsd, nə qəsd idi, ey məğrur qadın?
Sən təkcə özünə qıymadın, həm də
Bətnində göyərən körpənə qıydın.

O anda sarmaşıb məhəbbətinlə
Allahdan sən nəyi dilədin, qızım?
Sən, axı, ərinə sədaqətinlə
Körpənə xəyanət elədin, qızım.

Sınayar bəndəni allah, çətində
Batdın bir günahda iki günaha.
Xəyanət işlədin sədaqətində
Körpəyə qıymaqla qıydın sabaha.
Bəlkə... açılmamış solan o gözlər
Ulu zirvələrə yol açacaqdı.
Bəlkə o gözlərdən doğacaq səhər,
Zülmət dünyamıza yol açacaqdı.

Ey mənim yurdumun vəfadar qızı,
Vəfan cəfa oldu... gör sən neylədin?
Sən öz bətnindəki o günahsızı
Hələ doğulmamış şəhid eylədin.
Oğul istəyirəm bu dərdə dözə.
Təzə şəhidliklə zaman üz-üzə
Əridə bilmədi bu faciəni...
Həm də çox çətindir danlamaq səni.
Sən həm fədakarsan, həm də günahkar
Bu cür şəhidliyin başqa rəngi var.
Zaman hər hökmündə «hakiməm» - deyib

Belə şəhidliyi amma görməyib.
Bilmirəm, nə deyək bunun adına?
Bütün hüdudları aşan şəhidlik
İki qat, ya üç qat?
                                        Ərdən qadına,
Anadan balaya düşən şəhidlik.

## LARİSA

On üç yaşlı körpə bala
Yazıq anan necə dözsün
Bu kədərə, bu məlala?
Məzarının baş ucunda kukla da var.
Bu gün layla çalmalıykən sən kuklana
Kuklan sənə layla çalar.
Sən özün də kukla idin.
Bu dünyanın əvvəlini, axırını
Heç bilmədin.
Kim kuklaya güllə atar?
Atan oldu.
İnsanlığı, mərhəməti,
Ədaləti, həqiqəti
Bir qərəzə satan oldu.

Anan asmış dərs çantanı,
Məzarının başdaşına.
Axı, niyə hay vermirsən,
Səni dərsə haraylayan yoldaşına?
Sənin adın dostlarının dil əzbəri.
Qızım, axı, səni gözlər çoxdan bəri
Açmadığın kitabların dəftərlərin,

Səni gözlər partadakı o boş yerin.
Nə bərk oldu yuxun sənin?
Ataların ah-naləsi,
Anaların şivən səsi
Sığmır göyə, sığmır yerə.
Söylə, niyə oyanmadın
Bu haraya, bu həşirə?
Övladıydın iki xalqın,
Bu dostluğa mən də uydum, sən də uydun.
Sən dostluğun simvoluydun.
Bunudamı bu gün bizə çox gördülər?
Elə bil ki, səninlə bir
Bu dostluğu öldürdülər.

## SÜRƏYYA LƏTİF QIZI

Tanklar keçir küçədən, tanklar, zirehli tanklar.
Tankların üstündəki soldatların gözündə
Bizə nifrət odu var.
Onlar vicdanı atıb, insafı da danıblar.
Təkcə silahla deyil, onlar bizə qəzəblə,
Kinlə silahlanıblar.
Bu şəhərdə hər şeyə onlar sahibdir bu gün
İstədiyi eyvana, pəncərəyə, qapıya
atır, ölən qoy ölsün!
Mətbəxdə çay süzürdü, Təranənin nənəsi,
Birdən bir güllə səsi!
Yetmiş yeddi yaşında Sürəyya nənəmizi
Pəncərədən atdılar.
Bir günahsız qarını
Qanına boyatdılar.

## BABA MÜƏLLİM

Pəncərənin önündə kimsə inildəyirdi,
– Kömək edin, ölürəm, kömək edin, - deyirdi.
Açdı Baba müəllim pəncərəni bir anda,
Gördü biri yıxılıb qapının kandarında.
Dərhal atdı özünü telefonun üstünə,
O, təcili yardıma zəng çalıb
dönə-dönə
Ünvanı başa saldı,
Evdən sarıq götürdü.
Yaralının yanına yetişincə nə gördü?
Qan aparıb yazığı... yara dərin yaradı,
O, yaranı sarıdı.
Gördü ki, qonşular da yığılıb ətrafına.
O, gah ona, gah buna,
Baxıb dedi: - Neyləyək?
Axı, bu əldən gedir,
Biz təcili yardımı yenədəmi gözləyək?
Tez yığışdı cavanlar... köməkləşib birtəhər,
Yaxın xəstəxanaya xəstəni yetirdilər.
Dönür Baba müəllim yorğun-arğın evinə,
Şütüsə də güllələr onun dörd dövrəsindən.
Fikir vermir o, yenə.
Diksinmir taraq-taraq güllələrin səsindən.
Birdən ona nə oldu evin həndəvərində?
O, dayandı, döyükdü,
Səndələdi yerində.
Yıxıldı... döşündə qan.
Elə bu vaxt, bu zaman

Bir aypara maşını tin başında göründü.
Maşının işığında ətraf nura büründü.
Bu təcili yardımın axtardığı kim idi?
Bu maşın, ah bu maşın,
Bayaq onun özünün zəng vurub çağırdığı
Təcili yardım idi.
Başqasına çağırdı, qismət oldu özünə,
Belə bir təsadüfün qərəzi nə, özü nə?
Təcili yardım üçün zəng çalanda o bayaq,
Nə biləydi,
ay allah,
Bu təcili yardıma özü qismət olacaq!
Həkimlərin yardımı amma faydasız oldu.
Səhər yası tutuldu.

## ALEKSANDR MARXEVKA

Yaralılar bələnib üzü üstə torpağa,
Necə dözsün analar bu sitəmə, bu dağa?
Leş-leş üstə qalanıb,
Təkərlərin altında gör necə xırpalanıb.
Həkim Aleksandrın gendən səsi yüksəlir:
-Yol verin, hey yol verin,
təcili yardım gəlir.
Soldat bunu görüncə avtomatı tuşladı
Ayparalı maşina.
O, istəmir, istəmir
Can verən yaralılar xilas üçün daşına.
Həkim öz işindədir.
Yaralının nəbzini yoxlayırkən...

döşündən
Həkimi də vurdular.
Yardıma gəldiyini ona unutdurdular.
Allah, sən bizi saxla Əhrimənin şərindən.
Allah, dünya çıxıbdır bəlkə öz məhvərindən?
Ay allah, insan oğlu iblisəmi qul oldu?
Yoxsa, insan binədən elə iblis doğuldu?
Adamlar niyə satdı namusunu, arını?
Allah, hansı ölkədə gülləbaran ediblər
Yardım maşınlarını?
Axı, vuruşların da,
Qanlı savaşların da
Müqəddəs qanunu var:
Düşmənsə də, dostsa da, yaralıya hər zaman,
şəfqət əli uzanar.
Ey insan haqlarını kürsüdən alqışlayan,
Başqa məmləkətləri ədalət yoxluğundan
Gecə-gündüz daşlayan,
Budurmu haqq dediyin?
Bəs verdiyin vəd hanı?
Vallah, ələ salmısan sən bu boyda dünyanı.
«Təcili yardım»ların üstünə dörd tərəfdən
Od ələmək haqmıdır?
Yara sarıyanları güllələmək haqmıdır?

## HİDAYƏT

Gücsüzlükdən özünü hamı günahkar bilir,
Bu təhqirə dözməyi xalq özünə ar bilir:
Uzaq Qardabanidə

Bakı müsibətini eşidincə Hidayət,
Hönkür-hönkür ağladı.
Eşikdəki ağaca qara bayraq bağladı.
Gürcüstanda yaşayan bizim ellər, obalar,
Neçə gün yas saxladı.
«Yardım» - deyə dalbadal uzaq, yaxın kəndlərə
Zəng elədi Hidayət.
Qardabani, Borçalı
Bütün eli, mahalı
silkələdi Hidayət.

O, özünü yetirdi şəhidlərin qırxına.
Xiyabanda əl açıb «lənət» - dedi min kərə
Kor fələyin çarxına.
Şəhidlərin adını o, oxudu birbəbir.
Elə bildi hər qəbir,
Onu ittiham edir:
«Həramilər Bakıya bulud kimi dolanda,
Biz köməksiz qalanda
Sən hardaydın, de harda, ey Vətənin övladı?
Öz doğma göyümüzdə qanad açan quşuyduq,
Ovçu bizi ovladı»
Ürəyindən ucalan,
Öz-özündən öc alan
Töhmət dolu bu səsdən o diksindi,
başına
elə bil od ələndi,
içindən pörşələndi.
Şəkillərdən düz onun gözlərinə zillənən,
Ürəyində millənən
Baxışlara dözmədi,

«Onlar haqlıdır» - dedi.
Əgər mən də bu yurdun, bu xalqın oğluyamsa,
Onlar kimi əhdimə, andıma doğruyamsa,
Mən niyə əvvəlcədən
Xəbər tuta bilmədim o dəhşətli gecədən?
Ağac olub, o anda onların cərkəsində
Niyə göyərmədim mən?
O qızıl güllələrə köksümü gərmədim mən?
Xəcaləti alışdı ürəyinin səsində.
Gücsüzlük əzabının boğuldu pəncəsində.

Qulağında ittiham, qəlbində danlaq səsi,
Bir baş Qardabaniyə o, qayıtdı ertəsi.
Hidayətin önünə çıxdı oğlu – Vüqarı,
Amma Vüqar bilmədi,
Bilmədi, atasının sındırılıb vüqarı.
Vüqarın fərəhiylə Hidayətin kədəri
Durdu qarşı-qarşıya...
Oğul gəldi qabağa, ata çəkildi geri,
Ata baxa bilmədi övladının üzünə.
O utandı, bilmədi anlaşılmaz bu halın
Məramı nə, sözü nə?
O yenə də eşitdi qəlbinin fəryadını:
«Kişi bilib özümü mən də Vüqar qoymuşam
Övladımın adını».
Hanı bizdə kişilik, hanı bizdə o vüqar,
Bizim mənliyimizi gör necə tapdadılar.
Tapdandı qeyrətimiz,
Milli heysiyyətimiz.
Ah! Bu boyda təhqirə indi necə dözək biz?
Yatammadı Hidayət sübhə qədər gecəni,

Ağlı qoydu çəkiyə zamanın hökmü ilə
ürəyindən keçəni.
Zaman ilə ürəyi heç uzlaşa bilmədi.
Tərəzinin gözləri tarazlaşa bilmədi.
Zaman ilə diləyin,
Ağıl ilə ürəyin
Qədim ədavətinə ürək tab gətirmədi.
Ona aman vermədi
Seyr edə dan yerini.
Hələ sübh açılmamış bu nankor dünyamıza
Qapadı gözlərini.
Qoymadı Hidayəti
Yaşamağa qeyrəti.
Onu şəhid eylədi
Millətinin önündə gücsüzlük xəcaləti.
Ölümlərin içində
Ən şərəfli, ən uca mərtəbədir şəhidlik.
Başqa-başqa şəkildə davam edir şəhidlik.

## AĞABƏY

*Bağışlayın, əzizlərim, Azərbaycanın azadlığı uğurnda mübarizə aparmağa gücüm və iradəm çatmadı. Yaşasın azad Azərbaycan!*

**Ağabəy**

Şənbə gecəsinin qətlamına,
Ağabəy dözmədi, hey qan ağladı.
Şəhid cavanların batan qanına,

Qəlbində yas tutub matəm saxladı.
O yandı, göstərmək istədi hər gün,
Yaralı Vətənə sədaqətini.
Amma bacarmadı,
gücsüzlüyünün
Çəkdi ağrısını, xəcalətini.

Düşündü, sonu var, axı, şərin də
Boğdu ürəyinin üsyan səsini.
O, beş ay gözlədi
zülm üzərində
Haqqın, ədalətin qələbəsini.
Onun gözlədiyi o gün gəlmədi,
Qəlbini çarmıxa çəkdi xəcalət.
Bircə an usanıb o, dincəlmədi,
Özünə qəsd etdi bir gün, nəhayət.

Çatdı onun gücü ancaq özünə,
O bildi dərdinə son əlac bunu.
Verdi ölümüylə sanki Vətənə,
Vətən qarşısında o, öz borcunu.

Ağabəy bu yurda bir qurban kimi,
Qəlbində neçə yol «mücahid» oldu.
Nəhayət, bu qətlə bir üsyan kimi,
Şəhidlər naminə o, şəhid oldu.

Görünür, şəhidlik bitməyib hələ,
Gözümüz önündə o, davam edir.
Ağabəy, beləcə, öz ölümüylə
Ölü diriləri ittiham edir.

...Dözməyib Vətənin ağır gününə,
Sən Vətən naminə özünə qıydın.
Oğul, arxaya yox, sən baxıb önə
Elə Vətən üçün yaşamalıydın!

Vətən qeyrətini sənin tək çəkən,
Oğullar gərəkdir indi Vətənə.
Sənsə həyatına qəsd edib nədən,
Ömrü müftə verdin!..
Nə deyim sənə?

Çoxları gözünü zülmə yumurkən,
Sənin ürəyində dindi qeyrətin.
Xalqın qatilinə cəza umurkən,
Sənin qatilinə döndü qeyrətin.
Bu fitrət, bu tiynət, de, sənə hardan?
Qəlbində qaynayan hansı diləkdir?
Xəcil yaşamağa səni qoymayan,
Qeyrətin önündə səcdə gərəkdir!
Sənin qeyrətinin bircə zərrəsi,
Min bir qeyrətsizə bəs eləyərdi.
Sənin ürəyinin bir üsyan səsi,
Ərzi təməlindən silkələyərdi.
Qeyrətin əlilə bu Vətən üçün
Özünü qurbanmı kəsdin sən özün?
Ay oğul, budurmu dərdin əlacı?
Hər dərdin başqa cür min əlacı var.
Vətənin qurbana nə ehtiyacı?
Vətənin əsgərə ehtiyacı var.
...Görünür, şəhidlik bitməyib hələ,
Gözümüz önündə o, davam edir.

Ağabəy, beləcə, öz ölümüylə,
Ölü diriləri ittiham edir.

## GEORGİ RANTİKOVİÇ*

...Erməni Georgi – «Həqiqət» - dedi.
Ayırdı həmişə yaxşıdan pisi.
Zorun tüğyanına dözə bilmədi,
O gerçək carçısı, haqq fədaisi!

– Həqiqət önündə təslimən, – dedi.
Qoydu öz yerinə xeyiri, şəri.
Xalqının xətrinə haqdan keçmədi,
Aşdı, vurub keçdi milli hədləri.

Araya ədavət düşdüyü gündən
Güldü Yerevanın boş niyyətinə.
Sıyrılıb öz milli təəssübündən
Ucaldı insanlıq səltənətinə...
O, solun haqqını vermədi sağa,
Düzlüyə çağırdı bütün dünyanı.
Georgi dözmədi bu haqsızlığa,
Özünə qəsd oldu onun üsyanı.

Bir yerdə otlayar quzu qurd ilə
İnsan həqiqəti haqq bilən zaman –
Ən böyük məqsədlər, istəklər belə
Ədalət önündə əyilən zaman.

*Təqaüddə olan köhnə təyyarəçi, milliyyətcə erməni... O, erməni millətçilərinin haqsız tələblərinə dözməyib özünü öldürmüşdür.

Sıyrılıb nifrətdən, qərəzdən, kindən
Alqış həqiqəti haqq bilənlərə –
Ədalət naminə milliliyindən
İnsanlıq qatına yüksələnlərə!

* * *

Yenə sayımmı Yox-yox!
Çəkmək olmaz bu dərdi?
Bunların faciəsi bir-birindən betərdi.
Bu saydığım kəslərin nə günahı var idi?
Bunlar şəhidlər deyil,
Günahını bilməyən bədbəxt qurbanlar idi.
Bəs şəhidlər kim idi?
Silahlıyla silahsız! Kim kimə təslim idi?
Bu silahsız bəndələr bircə güllə atdımı
Bir günaha batdımı?
Qırıb tökdü kim kimi?
Silahlıyla silahsız döyüşə bilərdimi?
Tankların qabağına onlar belə çıxdılar.
Polad sinələrini lülələrin ağzına,
Sərhəd kimi sıxdılar.
Onlar güman etmədi zalim belə çıldıra,
Silahsızın üstünə silahlı əl qaldıra.
Bizim bu şəhidlərin sadəlövh gümanlığı
Oldu qəhrəmanlığı!

* * *

Qan tökən öz tökdüyü qana cavab vermədi,
Cavab vermək bir yana, «Yox, mən haqlıyam», - dedi.

Adamların başına od ələmək haqq imiş?
Səksən yaşlı qarını, on üç yaşlı uşağı
güllələmək haqq imiş?
Olmayan bir günahı qan ilə yumaq üçün,
Bizim hüququmuzu bizdən qorumaq üçün
Qanımızın günahsız tökülməsi haqq imiş?
Zorlunun əllərilə haqlının qollarının
Bükülməsi haqq imiş?
Məntiqə bax, ay Allah!
Qanımızı tökənə bundan sonra yenə də
Biz inanaq, ay Allah?
Budurmu yaratdığı təzə hüquqi dövlət?
Budurmu vəd etdiyi müstəqillik, səadət?
Bəs bu qanunsuzluğun harası qanun oldu?
Qatıq dönüb süd oldu, əvvəl dönüb son oldu?
Bu, hüquqi dövlətin bizə bəxş elədiyi,
hüququymuş, bilmədik.
Hüquqi dövlətdəki hüquq buymuş, bilmədik.
Əcnəbi ölkələrdə birini öldürürlər,
ya ölkədən sürürlər –
küy-kələk qaldırırsan.
Öz ölkəndə sən özün günahsız insanları
məhkəməsiz qırırsan.
Hamısına bir adla «ekstremist» - deyə,
hələ damğa vurusan.
Bu boyda məmləkətdə
Bütün xalqlar, heç demə, «ekstremist» imiş.
Hamı xoşbəxtliyindən, nəşəsindən məst imiş.

## ŞƏHIDLƏR

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üç rəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

Zalim öyünməsin zülümləriylə,
Min-bir böhtanıyla, min-bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü, -
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi şəhidlər.
Dözdü hər zillətə, dözdü hər şeyə,
«Dünyada mənim də haqqım var», - deyə.
Kütləni xalq edən müqaviləyə
Qanıyla qolunu çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

## S O N

İyirmi yanvarda doğum evləri
Ölümdən, qırğından xəbərsiz idi.
O gün Bakımızda gecədən bəri,
Ölüm ilə həyat üzbəüz idi.

Güllə səslərini çağa səsləri,
Batırdı o gecə, şükür allaha!
Doldu şəhidlərin boşalan yeri,
Naşükür olmayaq, vallah, bir daha!

Gedən oğulların, axan qanların,
Əvəzi su səpdi yanan qəlbimə.
O şənbə gecəsi doğulanların,
Onundan doqquzu oğlanmış, demə.
Zalimin zəfəri başdan qələtdir,
Zamanın səsini biz də dinlərik.
Dünya gücümüzə yaxşı bələddir,
Biçilə-biçilə əkilənlərik!

*Mart iyun 1990, Bakı-Şəki*



# KİTABIN İÇİNDƏKİLƏR

Bəxtiyar zirvəsi *(Ramazan Qafarlı)* 3
Tərtibatçı – redaktordan 12

## ƏLVAN ÇIÇƏKLƏR

M.Ə.Rəsulzadənin xatirəsinə 15
"Yaradanım – sahibim" 17
Siz böyüyün, ey böyüklər 18
İman təməli 21
Şər – şeytana, xeyir Allaha 24
Həm oğul, həm ata 27
"Yel əsdi, tərpəndi, dindi məmləkət" 30
Cəllad Yazov 31
Yeniləşmiş ittifaq 32
Vətən məcnunluğu 33
Hələ günahkarıq 35
Qardaşdan giley 37
Öz-özünü tanımaq 39
Əgər qorunmazsa istiqlalımız 40
Alver 44
Köləliyə sədaqət 46
Təzədən yaratsın yaradan bizi 48
"Parçalandıq" 51
Azərbaycan əsgəri 52
Cəmilə 53
Ümidə heykəl qoyun 54
İşıq axtarırsan 56

Yunus karvanı ____ 57
Su – hava ____ 59
Vətən marşı ____ 60
Azərbaycan ____ 61
Qeybdən səs ____ 62
Dördlüklər ____ 64
Söz alağı ____ 72
Zülmət əriyərsə ____ 75
Bu uzun gecəm ____ 77
İçimdən keçən yol ____ 78
Söz – əməl ____ 79
O, özü gəlməz ____ 80
Müxalif ____ 81
Dayan, qaçma, dayan! ____ 83
Qalx ayağa ____ 85
İki qəbahət ____ 87
İçim – çölüm ____ 89
Sürünməkmi, uçmaqmı? ____ 91
Əzan səsləri ____ 92
Peyğəmbərimiz ____ 93
Ölüm – müəllim ____ 94
Yalandan özgə ____ 95
Buna min şükür ____ 96
Sultanlıq – başqanlıq ____ 98
Çiyinlər ____ 99
Gözəl əsarət ____ 101
Nə uzun, gödək? ____ 102
Sən kim üçünsən? ____ 104
"Güldən-gülə qonub..." ____ 105
Oxuma, bülbül ____ 106
Qeyrət aşısı ____ 109

Köhnə mərəz 110
Yurd yad əlində 112
Utanıram 114
Yevtuşenkoya məktub 119
İki bayraq 122
İkibaşlı qartal 124
Özümdən özümə şikayət 126
Yol azmışam mən 130
İçdim, ağladım 133
Haqq – zülm 136
Fərqi yox 137
Biri-birimizə atdığımız daş 138
Rəhmət sənə, a Sabir 140
Ürəyimi cilovla 142
Tanrının təbəssümü 143
Qədirin səsi 144
Günlər bir-birinə bənzər 146
Günahdan günahdır 147
Ad günün mübarək! 149
Şəhid anası 152
Mən türkəm 154
Ayna tut 155
Dünyamız dəyişsin 156
Aprelin biri 157
Səngər – masa 158
Özüm olmalıyam 159
Rəqibsiz 160
Fəxriyyə 161
Ya rəbbim 165
Elə bir gün ki 167
Bilirəm 1687

Sual varsa, cavab var 169
Taykeş 173
Şeytanla mələyin dialoqu 174
Bilməməyin eşqinə 176
"Balta zərbəsindən..." 178
"Mən nə qədər dolsam belə..." 179
Türkiyə havası 180
Vaydır əkdiyiniz 183
Səbr haqqında iki şeir 185
Məddah 189
Bazarda 191
Bir ömür yuxu 193
Hamıya borcluyam 195
Səfər 198
Kimdir yaradan? 199
Bəzən 200
Dua 201
Üzünə durmazmı? 203
Yuxuda ölüm 205
Könüllə söhbət 206
Hara gedir sabahımız? 207
Məzarçı ilə söhbət 211
Necə çəkim? 215
"Ömür yolumuzda..." 216
Şimşək 217
Arzusuz yaşamaq arzusu 218
Zülmət hürür 220
Günah – savab 221
Hanı o duyğu, hanı o istək? 222
Necə düz keçim? 223
Bayraq 224

Yalan bazarı 225
Mənim fərqim varmı heç? 227
Yazıq vətən 229
Qürbət-vətən 232
Vətən tarixi 233
Sizif zəhməti 235
Qəribə deyilmi? 237
Qaranlıq 239
Bu qan, bu qada 240
Unut ki, susasan 242
Bahar gəlir 243
Taxıl növləri 244
Tənha məzar 246
Ağıl-fəhm 248
Yaş ağrısı 249
Müəllim 250
Gülməliyəm bəlkə mən 252
Qədər 253
Xəyalla yaşamaq 254
İztirabın dili 255
Necə tapım mən? 256
Dialoq 257
Neçin? 258
Bayatılar 259
Yağmasa 260
Görmür, görür 261
Əl qaldırmışam 262
Atatürk 264
Kaş ki 265
Cəlaləddin Mövlanaya bənzətmələr 266
İbrət 267

Nəfsimiz 268
Yuxum perik düşüb 269
Özümdən qisas 271
Sualın cavabı 273
Günah-tövbə 275
Körpülər 277
Mən özümün düşməni 278
Təsəvvüf 280
Təkamüldə tənəzzül 281
Utanmaq, qızarmaq 282
Anlaya bilmədin 285
Fikrin, düşüncənin göy qurşağı 286
Fərd 287
Ziyası içindən doğan ziya 289
Zəhərli ağac 290
Bir macal ver 291
Xəyalpərəst 292
Bağışlamaq 293
Ana birsə 294
Günah 295
Bir məram, bir qayə 296
Havaya sovrulan toz 298
Deprem 299
Mənəmlik – vicdan 301
Yamaq ömür 303
Düz yol, əyri yol 305
Körpü dünya 306
Özgə 307
Gecələr - pənah yerim 310
Hər gün bir addımdır 312

## İNSAN VƏ ZAMAN


Unutqanlıq 315
Anan ölsün, ay vətən 318
"Medallı dilənçi" 321
Dağılan heykəllər 323
Unudulsun unutqanlıq 325
Qəm – şadlıq 327
Ölülər yaşayır yaddaşımızda 328
Talemi, qəzamı? 330
Oyun 331
Bilmək – inanmamaq 333
Bir duyğuda beş duyğu 335
Yazla qışa bir ağıl 336
Dünən, bu gün, sabah 337
Etiqad – inam 338
Dünən - bu gün 340
Bu mənəmmi? 343
Zamandan kənar 345
"Gəldi bic əyyamı…" 346
Əgər gücün varsa... 348
Su gəldi köhnə arxa 350
İşığı işıqda 355
Nəvəm – istiqlalım 358
Danışmaq yasaqkən... 359
Qürub düşüncələri 363
Azadlıq 365
Mənim keçmişim var, gələcəyim yox 368
Hansı bir ürəklə 371
Ey insan övladı 372
Bir tanrım bilir 376

Bəzəkli saatlar 377
Əsarət – azadlıq 378
Ömür – cəza müddəti 379
Ucalıqda tənhalıq 380
İnanan qoca 381
Qorxum ondandır ki... 383
İlk günah 385
Haqqa heykəl qoyuldu 388
Zindanda təqvim 390
Otaq dustağı 392
Anladım ki... 394
Nə yaman dönükmüş... 395
Yenidən yaşamaq 398
Ruh – bədən 399
Ruh da qocalarmış... 401
Allahdan qanad istədim 402
Vaxt aldanmadı 403
Söz güləşməsi 404
Güman qalıb allaha 407
İntihar 409
Qul bazarı 410
Yol ki, belə gedir 413
Dükandar – müəllim 414
Qayıdıb dükandan bir axşam çağı 415
İbadət 416
Nə vaxt üzün güləcək? 421
Bəs niyə təklənirəm? 423
Neçə-neçə sualım var 424
Sona çatır əsrimiz 425
Özümü inkar 428
Çox imiş 429

Bahar havasıyla 430
Yenildim, yeniləşdim 431
Özümdən qaçış 432
Qarabağ” kafesi 433
Yolsuz 434
Qəribəm 435
Dəyişmələr 436
Üç ömür, üç tale 439
Bizə dərs olmadı 441
Vicdan xəstəsiyik 443
Qorxu – sevgi 446
Maşın silən uşaqlar 448
Qar yağır 450
Adəmdən əvvəl 452
Bizim yerimizə 454
Qıfıllar 456
İçərişəhərə ağı 460
Ay dədə 461
Şükür 469

## HƏSRƏT NƏĞMƏLƏRI

Bu vəhdətdə 473
Məsafədə məsafəsizlik 474
“Bu xislət...” 475
Gözləmə salonu 476
Sən, sənsən ancaq 477
Haray 479
Əvəzim 481
Fikirlərin tünlüyündə 482
Sevgi qocalmaz 483

Xoşuna gəldimi? 484
Səs 486
"Dostsan mənə..." 488
"Eşqin odu..." 488
"Hissin öyrətdi mənə..." 488
Uzaqdan 489
Doqquz gün 490
Səs-söz 492
Barışdıran 494
"Hər kəsin qədəri..." 496
"Dedin kitab yazmışam" 497
"Ayrıldıq..." 498
"Mən öz işığımı..." 499
"Gəldik İlisuya..." 500
Niyə əsirgədin? 502
Röya – həyat 503
Hər yeni şeirim 504
Bir nəğmə dinlədim 505
Zirvəyə çatdıq 506
İşıq sürəti 508
Üz başqa, öz başqa 509
Seçək tükdən tükü 510
Nağılım gəlsin 511

## QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR

"Cənnət ola qürbət..." 515
"Çağırır indi bütün milləti..." 516
"Alqış Vətən yolunda..." 517
"Ömrüm boyu..." 518
"Bu çökən zülmətə bax..." 519

“Fərqlər yox olub...” 520
“Dili lal, gözləri kordur...” 521
“Zülmün sonu yox...” 522
“Rəhm eylə özün...” 523
“İnsan dediyin...” 524
“Uzaq olduqca nədən...” 525
“Mənim ey dərd adaşım...” 526
“Gəlmir heç xatirə...” 527
“Dünyanı bir zamanlar...” 528
Tac olur 529
Haqqı yox 530
Yuxarı 532
Nisbilik 534
Söz olub 536
Didərgin 537
Bu sevgi 539
Çayı keçəndə 541
Yoxuşdan çuxura 542
Bu köhnə bazarın 543
Ozan oldum 544
“Hara getsəm...” 545
Xatalı dünya 547
Bu aləm məni 549
Elə, yerimdəcə 551
Gerçək günahkardır 552
Bu gün 553
Küsübdür 554
Haqqı 556
Nöqsandan da betərmiş 558
Məndən xəbərsiz 559
Qorxuram 561

Nə qazanmışam?____________________562
Gör məni____________________563
Axtarırsan____________________564
Dərd qovur məni____________________566
Yox____________________567
Xalqa____________________568
Vətən dərdi ____________________569
Həm nəvə, həm baba dünya____________________570
Yunus dədə ____________________572
Buqələmun____________________573
Borcludur____________________574
Amalı yox____________________575
Nə fərqi var?____________________576
Körpü çaydan uzaq düşüb____________________577
Dədəsinin malı kimi____________________578
İnsan kimi saxla məni____________________579
Mən aldanmaq istəyirəm____________________580
Söz ____________________581
Bilə bildiyin qədər____________________582
Dədəm oğlu____________________584
Bu torpaq üçün____________________585
İçim çölümə sığmır____________________586
“Mənimizi” “bizləşdirək”____________________587
Gizlidir____________________588
Mənim şirin xəyalım____________________590
Baxmır____________________591
Daş yerində ağır olur____________________592
Oyanırıq öləndə biz____________________594
Bulanır____________________595
Ucuz____________________596
Günəbaxan olmuşam____________________597

Zaman mənim içimdədir 598
Dərd olub 600
Ömrün axşam çağında 601
Millətim 602
Ağıla sərhəd 605
İlan – qartal 606
Bizi 607
Öyrətdikcə öyrənmişəm 608
Bax 609
Ağıl başqa, ürək başqa 610
Belə getsə 612
Gerçək öldü, yalan yox 613
Olur 614
Məndə biz 615
Balım yoxdur 616
Gətirər 618
Çiydim 620
Gedər olmaz 621
Əmanət kimi 622

## NƏĞMƏLƏR

Ömür uzun, ömür qısa 625
Ana 626
Biz vətənçün doğulduq 627
Ana yurdum 628
İlahi 629
Sənsiz 631
Sənsizliyin içində 632
Yaşıma köks ötürdüm 633
Qisas böyütsün səni 634

Amin, ilahi, amin 635
Azərbaycan – Türkiyə 637
Böylə imiş fitrətimiz 638
Mən gedirəm, yoxsa, Ay? 639
İşıqla 640
Falçı 641
Yuxuluyam, yuxulu 642
Dərsə gedən Dilarəm 643
Savabımın yaşıdıyam 644
Oxu gözümdən mənim 645
Peşiman 646
Haqqa tapınmaq 648
Dənim üyüdülmədi 649
Həyat yaşasın deyə 650
Hara gedir bu dünya 651
Ömür qatarı 653

## POEMALAR

İstiqlal 667
Şəhidlər 675

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

**On iki cilddə**

**VI cild**

**(1990 - 1999)**

«Qafqaz Plus» MMC-də hazırlanmışdır.

*Bədii dizayneri*
**Xəyyam Əliyev**

*Texniki redaktorları*
**Adilə Osmanova,**
**Ləman Qafarova**

Çapa imzalanmış 12.08.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 46,125. Tirajı 500. Sifariş 016.
Qiymәti müqavilə ilə.

**Direktor: prof. N.B.Məmmədli**
**Nəşrə məsul: Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yaho.com
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.